Успешное развитие всех разделов медицины, в том числе стоматологии способствовало достижению определенных успехов в плане диагностики и лечения патологических проявлений в полости рта и в целом челюстно-лицевой области, взаимосвязанных с местными и общими факторами их возникновения. Значительно меньше данных, обосновывающих значение и актуальность проблемы врожденных и наследственных заболеваний и их изучения в стоматологическом аспекте, совокупированных в виде дисплазий, являющихся нарушением развития органов и тканей в ходе эмбриогенеза.

Следует отметить, что проблема дисплазий, в том числе и соединительной ткани, объединенных в синдромы и фенотипы, в основном является предметом изучения генетиков, констатирующих высокую частоту выраженного полиморфизма проявлений, сложности диагностики и лечения [4,9]. Вместе с тем, анализируя сообщения о дисплазиях, обращает внимание и тот факт, что в большинстве случаев отмечается их сопряженность с многообразием пороков развития зубов, челюстно-лицевой области, лицевого скелета. Недоразвитие этих органов сопровождается эстетическими недостатками и нарушениями функций - жевания, глотания.

Прослежено также, что на протяжении периодов развития учения о наследственных и врожденных заболеваниях сложился многовариантный комплекс обозначений, отражающих пороки развития, касающиеся как челюстно-лицевой области, так и других органов [1].

К таковым следует отнести дисплазии-синдромы, воплощающие в себе стоматологическое многообразие нарушений врожденного и наследственного характера, прежде всего на фоне поражения соединительной ткани.

Так, у детей с генетически обусловленной «дисплазией соединительной ткани» в твердых тканях зубов обнаружены характерные изменения в виде системной гипоплазии и множественного кариозного поражения зубов. Далее установлено, что «дисплазия соединительной ткани» может влиять на течение хронического гингивита.

«Соединительнотканная дисплазия» у молодых пациентов проявляется комплексом характерных однотипных изменений: неправильной формой черепа - дохицефалией, миопией, изменением ушных раковин, нарушением развития зубов и высокого свода неба, аномалией прикуса, скошенностью подбородка, а «фиброзная дисплазия», протекающая симптоматично характерна замещением костной ткани фиброзной соединительной тканью, медленным увеличением пораженной кости нижней челюсти и верхней челюсти, также крыловидной и скуловой костей [2,3,5].

При сочетанной «отодентальной» дисплазии прослеживается позднее прорезывание зубов, отсутствие малых коренных зубов, булавовидная деформация коронок моляров, как постоянных, так и молочных, глободентия. «Краниоэктодермальная дисплазия» отличается черепно-лицевыми отклонениями от нормы, а именно уменьшением количества и размеров зубов, длины верхней и нижней челюсти, врожденной адентией боковых резцов. При «носоверхнечелюстной» дисплазии (синдром Биндера) доминирует патология ретрузии среднего отдела лица и недоразвитие фронтального синуса [7,8,10].

Акцентировано внимание и на «краниометафизарной» дисплазии с комплексом аномалий: выраженной деформацией черепа и лица, взаимосвязанных с гиперостозом костей и увеличением объема черепа, задержкой прорезывания зубов, широкой переносицей с толстым костным выступом под ней, узкими носовыми ходами, выступающим вперед подбородком и нижней губой [6].

Следует отметить, что в проблеме стоматологических дисплазий к числу особо редких и сложных, относится также «эктодермальная дисплазия»= (ЭД) врожденное заболевание, включающее различные клинические комбинации симптомов, представляя большой интерес и в стоматологическом аспекте.

Материалы и методы исследования. Под нашим наблюдением находилось 20 пациентов с диагнозом эктодермальной дисплазии (из них 6 мальчиков и 14 девочек в возрасте 3-23 лет), направленных на консультацию.

Стоматологическое обследование этих пациентов позволило выявить характерный симптомокомплекс патологических проявлений в челюстно-лицевой области: выступающий лоб, седловидный нос с запавшей переносицей, плоские щеки, увеличенные, выбухающие, как бы вывернутые наружу губы с размытыми границами красной каймы губ, деформированные ушные раковины, истонченные волосы и короткие почти отсутствующие брови и ресницы с фоном сухой морщинистой кожи, создающие своеобразный характерный облик в виде «старческого лица» (рис.1).



Рис. 1. Характерное «старческое лицо» при эктодермальной дисплазии (пациентке 8 лет).

Что касается непосредственных изменений в полости рта, то также прослежены значительные нарушения: задержка прорезывания зубов, расстояния между зубами (диастемы), гиподонтия, частичная или полная адентия, нарушение окклюзии, изменение формы зубов и др.

Таким образом, приведенный выше комплекс проявлений синдромных дисплазий и их генетически обусловленная сопряженность с нарушениями мягких и костных тканей челюстно-лицевой области обосновывает и нацеливает на дальнейшие более углубленные исследования. В этой связи большое значение придается медико-генетическому консультированию основной задачей, которой является раннее распознавание диагноза, объяснение медико-генетического прогноза, предотвращение риска возникновения наследственной врожденной стоматогенетической патологии.

Для осуществления раннего выявления наследственной патологии важное значение придается пренатальной диагностике, которая позволяет установить наличие врожденных пороков у плода с начальных этапов его развития. С этим мнением солидарны авторы, которые также отмечают важность генетической информации, способствующей ранней диагностике, предупреждению и стоматологических нарушений [11].

Итак, опыт наблюдений по изучению и познанию сопряженных с челюстно-лицевой областью патологических признаков стоматогенетических дисплазий позволяет отметить важность участия и стоматологов при медико-генетических консультациях, комплексном обследовании пациентов с врожденными пороками развития и оказании патогенетической стоматологической помощи.

ЛИТЕРАТУРА

1. Беляков Ю.А. Наследственные болезни и синдромы в стоматологической практике. М., 2008, с.3-9.
2. Григолия Л.Ш., Гвамичава Т.А. Влияние дисплазии соединительной ткани на клиническое течение хронического катарального гингивита // Georg. Med. News, 2005, №11, с.28-30.
3. Кадурена Т.Н. Анализ заболеваний в семьях с врожденной дисплазией соединительной ткани // Генетика человека и патология, 1992, №1, с.63-64.
4. Козлова С.И., Демикова Н.С. Наследственные синдромы и медико-генетическое консультирование. М., 1996, 416 с.
5. Конев В.И., Шестель И.Л. и др. Взаимоотношение органического матрикса и минерального компонента в костях и эмали зубов при дисплазии соединительной ткани. // Сибирск. мед. ж-л, Томск, 2014, 26, №3-2, с.77-80.
6. Конисмарк Б.В., Горлин Р.Д. Генетические и метаболические нарушения. М., 1980, 220с.
7. Панахиан В.М. Краниоэктодермальная дисплазия / Симптомы и синдромы в оторинолорингологии. Баку, 2002, с.5-18.
8. Levin, Jorgenson, Горин Р.Д. Отонтодентальная дисплазия / Генетические и метаболические нарушения слуха. 1980, с.180.
9. Hart T.C., Ferrell R. Genetic testinq consederation for oral medicine // J. Dent. Educt., 2002, vol. 66, N10, p.1185.
10. Horswell B., Holmees A. и др.. Носоверхнечелюстная дисплазия // J.Oral maxilla-fac. Surg., 1987, 45, №2, с.114-122.
11. Zonana J. et al Prenatal diagnosis of K hypohidrotic ectodermal dysplasia by linkage analysis. // Am. J. Med. Genet., 1990, N35, p.132-135.

Xülasə

Stomatogenetik displaziyalar

R.V.Şadlinskaya

Tədqiqat işinin əsas məqsədi stomatogenetik maraq göstərən displaziyaların öyrənilməsi olmuşdur. Kliniki tədqiqatlar ektodermal displaziya sindromu diagnozu ilə müşahidə olunan 15 xəstədə aparılmlşdır. Bu xəstələrın üz-çənə nahiyəsində xarakterik olan kompleks simptomlar müəyyən edilmişdi, o cümlədən: önə yönələn alın, çökmüş burun körpüsü, yastı yanaqlar, dodaqların qırmızı haşiyəsinin solğunluğu və çevrilməsi, qulaqların deformasiyası, nazikləşmiş tüklər, qaşların və kipriklərin olmaması, guru və gırışlı dəri, alt cənənin önə çıxması, dişlərin gec çıxması, diastema, çənələrin inkişafdan geri qalması, oklüziyanın pozulması və c. hansılar ki, xəstələrdə "qoca simasının"

görünüşünü yaradır. Təcrübələrimiz göstərir ki, ektodermal displaziyalı xəstələrin diaqnostikası və müalicə kompleksində stomatololoqun da iştrakı vacibdir.

Summary

About genetic dental dysplasia

R.V.Shadlinskaya

The aim of the present study was to clinically describe individuals with ectodermal dysplasia. Clinical studies of 15 patients with ectodermal dysplasia revealed characteristic symptoms in maxillofacial area- a prominent forehead, collapsed nose bridge, flat cheeks, reverted lips, deformed ears, sparse hair, smooth skin, absence eyebrows and eyelashes, oligodontia, anodontia, delayed tooth eruption and ex. The researches demonstrates the important role of dentists in diagnosis and treatment of patients with ED.

Daxil olub: 25.09.2014

AĞCİYƏRDƏN KƏNAR ÜZVLƏRİN VƏRƏMİ HADİSƏLƏRİNİN AŞKAR EDİLMƏSİ, ONLAR ARASINDA MENİNGİT, ENSEFALİT, MİELİTLƏRİN SƏVİYYƏSİVƏ XÜSUSİYYƏTLƏRİ

C.Q.Əliyev

Bakı şəhəri, 4 №-li vərəm əleyhinə dispanser

Açar sözlər: meninqoensefalomielit, risk amili, sümük iliyi

Ключевые слова: менингоэнцефаломиелит, фактор риска, костный мозг

Key words: meningoensephalomielt, risk factor, fluid of spinal cord

Son illər dünyada ilkin qeydiyyata alınan fəal vərəm hadisələri içərisində ağciyərdən kənar üzvlərin vərəminin xüsusi çəkisi yüksəlməkdədir [7]. Bunun əsas səbəblərindən biri vərəmin aşkar edilməsində yeni müayinə üsullarının tətbiqi sayılır [1]. Belə ki, tətbiq olunan ultrasəs müayinəsi (USM), kompyuter tomoqrafiya (KT), maqnit rezonans tomoqrafiya (MRT), rəqəmsal rentgen-diaqnostik müayinələr əvvəllər aşkar edilməsi mümkün olmayan və ya aşkar edilməsində müəyyən çətinliklər olan qarın boşluğu, periferik limfa düyünləri, sümük-oynaq sistemi, baş beyin və s. üzvlərin vərəminin aşkar edilməsinə imkan yaratmışdır [4,8]. Sözsüz, əhali arasında vərəmin erkən aşkar edilməsi istiqamətində aparılan kütləvi müayinələrin səviyyəsi birbaşa vərəmin, o cümlədən ağciyərdən kənar formaların aşkarlanmasına müsbət təsir edir. Statistikadan aydın olur ki, Azərbaycanda 1965-ci ildə ilkin aşkar edilmiş xəstələr arasında ağciyər vərəmi 85,9%, ağciyərdən kənar üzvlərin vərəmi 14,1% təşkil etdiyi halda, müvafiq göstəricilər 1972-ci ildə 92,1% və 7,9% olmuşdur. Göstərilən müddətdə vərəmin aşkarlanmasında əsasən flüoroq-rafiyadan istifadə olunduğu üçün ağciyərdən kənar vərəmin aşkarlanması səviyyəsi tədricən aşağı düşmüşdür. Lakin, ağciyərdən kənar üzvlərin vərəmi arasında daha kəskin gedişə malik və əsasən letallıqla nəticələnən vərəm meningiti, ensefalit və mielitlərinin (MEM) xüsusi çəkisi xeyli yüksəlmişdir. Təbii ki, MEM-in 1965-1972-ci illərdə ilkin fəal vərəm xəstələri arasında rastgəlmə tezliyi uyğun olaraq 2,7% və 6,3% təşkil etmişdir. Sonralar müasir diaqnostik metodların tədricən vərəmin erkən aşkar edilməsinə tətbiqi MEM-in xüsusi çəkisinin kəskin artmasına səbəb olmuşdur. Belə ki, MEM-in ilkin xəstələr arasında xüsusi çəkisi 1982-ci ildə 4,2%, 1992-ci ildə 2,8% olmuşdur [2]. Sonralar ölkədə yeni iqtisadi inkişaf formasiyasına keçid baş vermişdir. Səhiyyəni bütün sahələrində olduğu kimi vərəm sahəsində

də tənəzzül baş vermişdir. Xəstəliyin erkən aşkar edilməsi istiqamətində kütləvi müayinələr aparılmamışdır. Bu isə sözsüz, xəstəliyin klinik strukturunda ağırlaşmaların baş verməsinin əsas səbəbi olmuşdur. Belə ki, 1990-1995-ci illərdə ilkin aşkar edilmiş fəal vərəm xəstələri arasında fibroz-kavernoz vərəm, səpələnmiş vərəm və vərəm MEM-nin xüsusi çəkisi 2,7%, 5,9% və 1,8% olmuşdur. İlkin ağciyər vərəmi xəstələri arasında dağılma mərhələsi 54,2% təşkil etdiyi halda, ətraf üçün təhlükəli yoluxucu xəstələrin aşkar edilməsi 21,2% (optimal səviyyə ≥70%) təşkil etmişdir. Ölkə iqtisadiyyatının bərpası müşahidə olunan 2002-ci ildə bütün sahələrdə olduğu kimi səhiyyədə də yeni inkişaf mərhələsi müşahidə olunmuşdur. Aparılan məqsədli müayinələr sayəsində vərəmin aşkar edilməsi 1,6

dəfə yüksəlmiş, əhali arasında xəstələnmə 60,4 olmuşdur. İlkin xəstələr arasında tənəffüs sisteminin vərəmi 96%, ağciyərdən kənar üzvlərin vərəmi isə 4% səviyyəsində olmuşdur [3]. İlkin xəstələr arasında fibroz-kavernoz, səpələnmiş və MEM hadisələri uyğun olaraq 0,6%, 3,4% və 1,2% təşkil etmişdir. On il sonra 2012-ci ildə ağciyərdən kənar üzvlərin vərəminin aşkar edilməsi bir qədər yüksələrək 6,6% səviyyəsinə çatmışdır [2]. Bu müddətdə Sankt-Peterburq şəhərində ilkin ağciyərdən kənar üzvlərin vərəmi xəstələri arasında MEM-lər 5,2%, qarın boşluğu üzvlərinin vərəmi 2,5%, sümük-oynaq sisteminin vərəmi 9,9%, tənəffüs üzvlərinin vərəmi 10,1%, dəri vərəmi 3,4%, periferik limfa düyünlərinin vərəmi 25%, göz vərəmi 20,2% təşkil etmişdir [5]. Azərbaycanda 2012-ci ildə ilkin fəal vərəm xəstələri arasında ağciyərdən kənar üzvlərin vərəmi 6,6% təşkil etmişdir. Bu xəstələr arasında MEM-lər 4,3%, sümük-oynaq sisteminin vərəmi 13%, tənasül sisteminin vərəmi 4,2%, periferik limfa düyünlərinin vərəmi 7,2%, bağırsaq vərəmi 3,6%, digər üzvlərin vərəmi 2,6% təşkil etmişdir. Göründüyü kimi müasir diaqnostik metodların tətbiqi (USM, KT, MRT, rəqəmsal şüa diaqnostika) ağciyərdən kənar üzvlərin vərəminin aşkar edilmə səviyyəsinin yüksəlməsinə imkan yaradır. Son illər müasir diaqnostikanın geniş tətbiqi sayəsində inkişaf etmiş ölkələrdə, xüsusən Kanadada, Avstraliyada ağciyərdən kənar üzvlərin vərəminin ilkin xəstələr arasında aşkarlanma səviyyəsi 50-75% təşkil edir [6]. Bu baxımdan ağciyərdən kənar üzvlərin vərəminin aşkarlanması istiqamətində diaqnostik imkanların genişləndirilməsi və təkmilləşdirilməsi aktual problem sayılır.

Elmi işin **məqsədi** son üç ildə (2011-2013-cü illər) baş vermiş MEM hadisələrinin ağciyərdən kənar üzvlərin vərəmi arasında rastgəlmə tezliyi və xüsusiyyətlərinin araşdırılması diaqnostikanın səviyyəsinin təhlilidir.


Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

-Azərbaycanda 2011-2013-cü illərdə aşkar edilmiş ilkin fəal vərəm xəstələri arasında ağciyərdən kənar üzvlərin vərəminin, o cümlədən MEM-in rastgəlmə tezliyinin təyini

-MEM hadisələrinin xüsusiyyətlərinin təhlili

Tədqiqatın material və metodları. Azərbaycanda son üç ildə (2011-2013-cü illər) ilkin aşkar edilmiş xəstələr Dövlət Statistika Komitəsinin 30.01.2012-ci il tarixli 6/09 saylı qərarı ilə təsdiq olunmuş forması əsasında təhlil edilmişdir. İlkin xəstələr arasında ağciyərdən kənar üzvlərin vərəminin xüsusi çəkisi ayrı-ayrı klinik formalar üzrə təhlil edilmişdir. Vərəm MEM-nin xüsusiyyətləri yaş, cins, rastgəlmə tezliyi, başvermə mənbələri, MEM-lə fəsadlaşmada digər klinik formaların rolu, təmas amili, spesifik peyvəndin və kimyəvi profilaktikanın səviyyəsi, klinik əlamətlərin rastgəlmə tezliyi, OBM-də törədicinin tapılma səviyyəsindən asılı olaraq MEM-in rastgəlmə tezliyi təhlil edilmişdir. Elmi araşdırmada müqayisə olunan qruplar arasında dürüstlük səviyyəsi K.Pirsonun x^2 üsulu ilə müəyyənləşdirilmişdir.


Tədqiqatın nəticələri və onların müzakirəsi. Azərbaycanda son üç ildə 13303 ilkin fəal vərəm xəstəsi aşkar edilmişdir. Onlar arasında ağciyər vərəmi 77,64±0,36% (10329 xəstə), ağciyərdən kənar üzvlərin vərəmi isə 22,36±0,36% (2974 xəstə) təşkil etmişdir. Ayrı-ayrı illər üzrə ilkin xəstələrin aşkar edilməsinin səviyyəsi şəkil 1-də göstərilmişdir. Şəkil 1-dən görünür ki, 2011-2013-cü illərdə ağciyərdən kənar üzvlərin vərəminin ilkin fəal xəstələr arasında xüsusi çəkisi uyğun olaraq 23,06±0,61%, 23,63±0,65% və 20,25±0,62% təşkil etmişdir. Ağciyərdən kənar üzvlərin vərəmi arasında ilkin qeydiyyata götürülmüş MEM hadisələri (izolyasiya olunmuş və keçirilmiş vərəmin qalığı fonunda baş vermiş hadisələr) 2011-ci ildə 5,92±0,7% (66 xəstə), 2012-ci ildə 4,36±0,6% (44 xəstə), 2013-cü ildə isə 3,77±0,65% (92 xəstə) təşkil etmişdir ($p<0,05$).



Şək.1. 2011-2013-cü illərdə ilkin aşkar edilmiş fəal vərəm xəstələrinin səviyyəsi

Vərəmin digər fəal klinik formalarının ağırlaşması şəklində baş vermiş MEM-lər son üç ildə 3,63±0,34% (108 xəstə) təşkil etmişdir. Beləliklə, təhlildən aydın olur ki, MEM hadisələri son üç ildə əsasən üç mənbədən formalaşır ki, bunlara: izolyasiya olunmuş MEM-lər 39,6±3,1% (99 xəstə), keçirilmiş vərəmin qalığı fonunda baş vermiş MEM-lər 17,2±2,4% (43 xəstə) və vərəmin digər fəal klinik formalarının fəsadlaşması şəklində baş vermiş MEM-lər 43,2±3,1% (108 xəstə) aiddir. Lakin, göstərilən müddətdə meningit mərkəzinə 420 xəstə daxil olmuşdur. Göstərilən bu xəstələrin yalnız 59,5% hissəsində MEM-lər vərəm mənşəli olmuşlar. Meningit şöbəsinə daxil olmuş və spesifik MEM təsdiq olunmuş 170 hadisə içərisində bakterial MEM 10,0±2,3% (17 xəstə), seroz MEM 19,4±3,0 (33 xəstə), baş beynin həcmli dəyişikliyi 5,3±1,9% (9 xəstə), baş beyin absesi 1,2±0,8% (2 xəstə), etiologiyası bəlli olmayan MEM 17,1±2,9% (29 xəstə), hemorragik insult 5,9±1,8% (10 xəstə), psixonevroloji simptomlarla müraciət 5,9±1,8% (10 xəstə), vərəm meningizmi 27,6±3,4% (47 xəstə), qida zəhərlənməsi 7,6±1,2% (13 xəstə) təşkil etmişdir. Bu isə MEM-in erkən diaqnostikasında olan ciddi çatmamazlıqları göstərir. MEM hadisələri arasında kişilər 56,8±3,1% (142 xəstə) təşkil edərək qadınlardan 1,3 dəfə çox müşahidə olunur.

MEM-in başvermə mənbəyindən asılı olaraq yaş xüsusiyyətləri şəkil 2-də verilmişdir.



Şək.2. MEM-in başvermə mənbəyindən asılı olaraq yaş xüsusiyyətləri

Şəkil 2-dən görünür ki, MEM-in başvermə mənbəyindən asılı olmayaraq erkən uşaq yaşlarında hadisələrin rastgəlmə tezliyi yüksəkdir. Belə ki, izolyasiya şəklində qeyd

olunan 99 MEM hadisəsi içərisində uşaqlar və yeniyetmələr 48,5% (48 xəstə) təşkil edir və 20-29 yaş qrupundan 5,3 dəfə, 30-39 yaş qrupundan 8,6 dəfə yüksəkdir. Uşaq və yeniyetmələr arasında müqayisə aparıldıqda 0-6 yaş qrupunda 50,0% (24 xəstə) təşkil edir ki, 7-14 yaş qrupundan 4,6 dəfə, yeniyetmələrdən isə 9,2 dəfə yüksək xüsusi çəkiyə malikdir. Analoji təhlil keçirilmiş vərəmin qalığı fonunda baş vermiş MEM hadisələrinə (43 hadisə) görə aparıldıqda uşaq və yeniyetmələr arasında xəstələnənlər 32,6% (14xəstə) təşkil edərək digər yaş qruplarını üstələyir. Erkən uşaq yaşlarında (0-6 yaş) MEM hadisələri uşaq və yeniyetmələrin 57,1% hissəsini təşkil edir. Analoji vəziyyət vərəmin ayrı-ayrı fəal klinik formalarının ağırlaşmaları zamanı baş vermiş MEM hadisələrində də təkrarlanır, uşaq və yeniyetmələrə görə müqayisədə erkən uşaq yaşları 58% (29 xəstə) olmaqla üstünlük təşkil edir. Başqa sözlə, erkən uşaq yaşlarında MEM hadisələri digər yaş qruplarını üstələyərək yüksək risk amili kimi dəyərləndirilir. Fəal vərəmin ayrı-ayrı klink formalarının MEM-lə fəsadlaşmasının rastgəlmə tezliyi təhlil edilmişdir. Aydın olmuşdur ki, 108 MEM (ümumi hadisələrin 43,2±3,1% hissəsi) hadisəsi ilkin vərəm kompleksindən sonra 4,8±1,4% (12 xəstə) halda, miliar vərəmdən sonra 11,2±2,0 (28 xəstə) halda, səpələnmiş vərəmdən sonra 12,0±2,1% (30 xəstə) halda, ocaqlı vərəmdən sonra 0,8±0,6% (2 xəstə) halda, fibroz-kavernoz vərəmdən sonra 8,0±1,7% (20 xəstə) halda, döşdaxili limfa vəzilərinin vərəmindən sonra 4,8±1,4% (12 xəstə) halda, mezenterial limfa vəzilərinin vərəmindən sonra 0,8±0,6% (2 xəstə) halda, sümük-oynaq sisteminin vərəmindən sonra isə 0,8±0,6% (2 xəstə) halda müşahidə olunmuşdur. Keçirilmiş vərəmin qalığı fonunda baş vermiş MEM hadisələri də əsasən fəal vərəmdə müşahidə olunan klinik formalarla eynidir. Belə ki, keçirilmiş vərəmin qalığı fonunda baş vermiş 43 (17,2±2,4%) MEM hadisəsinin 2,4±1,0% (6 xəstə) hissəsi ilkin vərəm kompleksinin, 1,6±0,8% (4 xəstə) miliar vərəmin, 2,4±1,0% (6 xəstə) səpələnmiş vərəmin, 1,6±0,8% (4 xəstə) ocaqı vərəmin, 2,4±1,0% (6 xəstə) sirrotik vərəmin, 6,0±1,5% (15 xəstə) döşdaxili limfa vəzilərinin, 0,8±0,6% (2 xəstə) sümük-oynaq siseminin vərəmindən sonrakı qalıqlarından baş vermişdir. Təhlildən görünür ki, MEM fəsadlaşmaları əsasən birincili vərəmin fonunda baş verir. Belə ki, ağırlaşmalarda səpələnmiş, miliar, döşdaxili limfa sisteminin və sümük-oynaq sisteminin vərəmi üstünlük təşkil edir. İkincili vərəmin xroniki forması sayılan fibroz-kavernoz vərəm və onun son nəticəsi sayılan sirrotik vərəm ikinci yeri tutur və 151 (108 fəal vərəm və 43 keçirilmiş vərəmin qalığı) MEM hadisəsi arasında 20,5% (31 hadisə) təşkil edir. MEM hadisələri arasında (250 xəstə) uşaq və yeniyetmələr 44,8% (112 xəstə) təşkil edir. Onlar arasında həyatın ilk günlərində aparılan vərəm əleyhinə peyvəndin nəticələri peyvənddən sonra bazunun arxa səthində baş vermiş çapığın ölçüsünə görə dəyərləndirildikdə aydın olur ki, bu xəstələr 24,1±7,1% (27 xəstə) halda peyvənd almamışlar. Onlar arasında 0-2 yaş 18,5±4,9% (5 xəstə), 3-6 yaş 17,6±4,9% (6 xəstə), 7-4 yaş 28,6±9,9% (6 xəstə), 15-18 yaş 33,3±8,6% (10 xəstə) təşkil edir. Peyvəndlə əhatə səviyyəsi isə 75,9±4,0%-dir (85 xəstə). Ən yüksək əhatə səviyyəsi 0-2 və 3-6 yaş arasında qeyd olunur və uyğun olaraq 81,5±7,5% (22 xəstə) və 82,4±6,5% (28 xəstə) təşkil edir. Yeniyetmələrin əhatə səviyyəsi nisbətən aşağı – 66,7±8,6% (20 xəstə) olmuşdur ($p<0,001$). Peyvənd alanlar arasında çapıq qeyd olunmayanlar və ya çapığın ölçüsü zəif (1-3 mm) olanlar uyğun olaraq 32,9±5,1% və 38,8±5,3% təşkil etmişdir. Beləliklə, peyvənd almayanlar, peyvənddən sonra çapıq olmayanlar və ya çapığın ölçüsü zəif olanlar ümumi MEM hadisələrinin 78,6%-ni (85 xəstə) təşkil edir. Sözsüz, bu da öz növbəsində vərəm MEM-nin superinfeksiya fonunda baş verməsində mühüm əhəmiyyət kəsb edir. Belə ki, MEM hadisələri içərisində yüksək xüsusi çəkiyə malik olan 0-2 və 3-6 yaş qruplarında müvafiq göstərici 74,1% və 70,6% təşkil edir. Analoji təhlil vərəm əleyhinə aparılan kimyəvi profilaktikaya görə də aparılmışdır. Məlum olmuşdur ki, xəstəlikdən əvvəl müşahidə olunan uşaq və yeniyetmələr arasında Mantu 2 TV PPD-L tuberkulin sınağının "Viraj"-ı 28,3±5,8% (17 xəstə), hiperergiya reaksiyası 20,0±5,2% (12 xəstə), ötən ilə nisbətən tuberkulin sınağının müsbət nəticəsinin artması isə 50,0%±1,1% halda qeyd olunur ($p\leq0,05$). Beləliklə, kimyəvi profilaktikaya ehtiyacı olanlar 95,0±2,8 (57 nəfər) xəstə təşkil etmişdir. Lakin, metodik təlimata uyğun kimyəvi profilaktika alanların xüsusi çəkisi 10,5±4,1% (6 xəstə) təşkil etmişdir ($p\leq0,01$). İnfeksion allergiyanın ayrı-ayrı yaş qruplarına görə kimyəvi profilaktika alanlar 0-2 yaşda 10%, 3-6 yaşda 11,8%, 7-14 yaşda 16,7%, 15-18 yaşda isə 5,5% təşkil etmişdir. Beləliklə, təhlil göstərir ki, vərəm MEM-nin baş verməsində infeksion allergiyaya görə metodik təlimata uyğun kimyəvi profiaktika aparılmaması mühüm rol oynayır. MEM-in diaqnostikasında xəstəiyin başlamasının yarım-kəskin gedişi və mərhələlərlə klinik-nevroloji

əlamətlərin təzahürü prosesin spesifikliyi üçün xarakterik əlamət sayılır. Lakin, bu əlamətlər MEM-in başvermə mənbəyindən asılı olaraq müxtəlif səviyyəli intensivliyə malik olur. Təhlil göstərir ki, fəal vərəmin ağırlaşması şəklində baş vermiş MEM-də klinik-nevroloji əlamətlər izolyasiya olunmuş MEM-dən və keçirilmiş vərəmin qalığı fonunda baş vermiş MEM-dən zəif olur. Üstünlük bütün hallarda izolyasiya olunmuş MEM-in payına düşür. Bu isə müalicə zamanı qəbul edilən spesifik dərmanların immunostimulyativ təsiri ilə əlaqələndirilə bilər. Son üç ildə müşahidə olunan xəstələrin simptomlarının MEM-in başvermə mənbəyindən asılılığı aşağıdakı cədvəldə verilmişdir. Cədvəldən görünür ki, başlanğıc və əsas klinik əlamət olan baş ağrısı, qusma və yüksək hərarət fəal vərəmə görə müalicə alan MEM-lə fəsadlaşan xəstələrdə uyğun olaraq 93,5±2,4%, 95,4±2,0% və 94,4±2,2% təşkil etdiyi halda müvafiq göstərici izolyasiya olunuş MEM-də uyğun olaraq 99,0±1,0%, 100%, 97,0±1,7%, keçirilmiş vərəmin qalığı fonunda baş vermiş MEM-də 97,7±2,3%, 97,7±2,3%, 95,3±3,2% təşkil edir ($p \leq 0,001$).

Analoji vəziyyət nevroloji əlamətlərdə də özünü göstərir. Belə ki, Brudzinski simptomunda dəyişiklik çox fərqlənməsə də, aşağı Brudzinski simptomu izolyasiya olunmuş MEM-də 82,8±3,8% təşkil edərək digər MEM-dən çox yüksək səviyyədə durur. Analoji tendensiya baş beyin əlamətlərində də özünü göstərir. Çox ciddi fərq parez və ifliclərdə müşahidə olunur. Belə ki, izolyasiya olunmuş MEM-də uyğun olaraq 40,4±4,9% və 46,5±5,0% təşkil etdiyi halda fəal vərəmin ağırlaşması şəklində olan MEM-də 26,9±4,3% və 25,0±4,2% ($p \leq 0,05$), keçirilmiş vərəmin qalığı fonunda baş vermiş MEM-də isə 46,5±7,6% və 39,5±7,5% ($p \leq 0,01$) təşkil edir.

Onurğa beyni mayesinin (OBM) klinik, laborator təhlilində müvafiq dəyişiklklər də özünü büruzə verir. OBM-in təhlilində spesifik MEM-lər üçün xarakterik əlamətlərə sitoz, zülalın yüksək səviyyəsi, şəkər və xloridlərin aşağı səviyyəyə enməsi, Pandi reaksiyasının intensivliyi, fibrin pərdəni düşməsi və OBM-də sadə mikroskopiya metodu ilə mikobakteriyanın tapılması aid edilir. Təhlil göstərir ki, OBM-də vərəm törədicisinin tapılması istisna olmaqla digər laborator göstəricilər virus və bakterial MEM-də də optimal həddən kənara çıxır. Fibrin pərdənin düşməsi, Pandi reaksiyası isə müayinə edənin fərdi qiymətləndirməsindən asılıdır.

Cədvəl

MEM-in başvermə mənbəyindən asılı olaraq klinik-nevroloji əlamətlərin səviyyəsi

Simptomlar	İzolyasiya olunmuş MEM		Fəal klinik formaların ağırlaşmasından olan MEM		Keçirilmiş vərəmin qalığı fonunda baş vermiş MEM	
	müt.r	% (99xəstə)	müt.r	% (108 xəstə)	müt.r	% (43 xəstə)
Baş ağrısı	99	100,0	101	93,5±2,4	42	97,7±2,3
Qusma	98	99,0±1,0	103	95,4±2,0	42	97,7±2,3
Yüksək hərarət	99	100	102	94,4±2,2	41	95,3±3,2
Boyun əzələlərinin gərginliyi	96	97,0±1,7	103	95,4±2,0	42	97,7±2,3
Brudzinski simptomu	90	90,9±2,9	99	91,7±2,7	39	90,7±4,4
Aşağı Brudzinski simptomu	82	82,8±3,8	81	75,0±4,2	35	81,4±5,8
Baş beyin sinir əlamətləri	84	84,8±3,6	80	74,1±4,2	36	83,7±5,6
Davamlı patoloji reflekslər	43	43,4±6,0	44	40,7±4,7	20	46,5±7,6
Göz dibində durğunluq	44	44,4±5,0	42	38,9±4,7	18	41,9±7,5
Diplopiya	16	16,2±3,7	15	13,9±3,3	7	16,3±5,6
Eşitmə sinirinin nevriti	2	2,0±1,4	-	-	1	2,3±2,3
Üz sinirinin pozğunluğu	16	16,2±3,7	9	8,3±2,7	9^	20,9±6,2
Psixi pozğunluq	28	28,3±4,5	28	25,9±4,2	16	37,2±7,4
Parezlər	40	40,4±4,9	29*	26,9±4,3	20^	46,5±7,6

İfliclər		46	46,5±5,0	27**	25,0±4,2	17	39,5±7,5
Amneziya, afaziya		44	44,4±5,0	22***	20,4±3,8	14	32,6±7,1
Sidik ifrazının pozulması		18	18,2±3,9	16	14,8±3,4	7	16,3±5,6
Ağciyərlərdə auskultasiyaya aid dəyişikliklər		2	2,0±1,4	108***	100,0	22^^^	51,2±7,6
Arit miya	Taxikardiya	63	63,6±4,8	63	58,3±4,7	26	60,5±7,5
	Bradikardiya	8	8,1±2,7	5	4,6±2,0	3	7,0±3,9
Qan təzyi qində	Hipertoniya	16	16,2±3,7	9	8,3±2,7	5	11,6±4,9
	Hipotoniya	22	22,2±4,2	12*	11,1±3,0	8	18,6±5,9
İştahasızlıq		38	38,4±4,9	39	36,1±4,6	16	37,2±7,4
Qəbizlik		37	37,4±4,9	37	34,3±4,6	15	34,9±7,3
İshal		4	4,0±2,0	2	1,9±1,3	1	2,3±2,3
Qarın divarının içəri dartılması		45	45,5±5,0	40	37,0±4,6	18	41,9±7,5

Qeyd: göstəricilər arasındakı fərqin statistik dürüstlüyü: 1.İzolyasiya olunmuş forma ilə: * - $p_1<0,05$; ** - $p_1<0,01$; *** - $p_1<0,001$; 2.Fəal klinik formaların ağırlaşmasından olan qrup ilə: ^ - $p_2<0,05$; ^^ - $p_2<0,01$; ^^^ - $p_2<0,001$

Bütün bunlara baxmayaraq izolyasiya olunmuş MEM-də əldə olunan nəticələrin xüsusi çəkisi fəal vərəmin ağırlaşması şəklində baş vermiş MEM-lər və keçirilmiş vərəmin qalığı fonunda baş vermiş MEM-i üstələyir. Belə ki, OBM-də zülalın (qlobulinlərin) izolyasiya olunmuş MEM-də >1,5 q/l-dən yüksək səviyyəsi 20,2±4,0%, fəal vərəmin ağırlaşması şəklində baş vermiş MEM-də 13,0±3,2%, keçirilmiş vərəmin qalığı fonunda baş vermiş MEM-də 20,9±6,2% təşkil edir ($p\leq0,001$). Analoji vəziyyət Pandi reaksiyasının kəskin bulanıq (++++) səviyyəsində də özünü göstərir və uyğun olaraq 7,1±2,6%, 1,9±1,3%, 7,0±3,9% təşkl edir ($p\leq0,001$). Müvafiq göstərici OBM-in sitozun $>0,3x10^6$/litr səviyyəsində 71,1±4,5%, 27,8±4,3%, 74,4±6,7% təşkil edir ($p\leq0,001$).

Təhlil göstərir ki, OBM-də şəkərin ≤10mkmol/litr səviyyəsi uyğun olaraq 42,4±5,0%, 37,0±4,6% ($p\geq0,05$) və 79,1±6,2% ($p\leq0,001$). Xloridlərin ≤50mkmol/l səviyyəsi uyğun olaraq 5,1±2,2%, 5,6±2,2% ($p\geq0,05$) və 7,0±3,9% ($p\leq0,01$) təşkil edir. Bütün hallarda fibrin pərdənin düşməsi qeyd olunur. Yuxarıda qeyd etdiyimiz kimi bu əlamətlərin qismən az və ya çox səviyyəsi bakterial və virus MEM-də də mövcuddur. Ona görə də OBM-də mikobakteriyanın sadə mikroskopiya yolu ilə tapılması əsasən patoqnomonik əlamət sayılır və diaqnostikanın əsasını təşkil edir. Təhlil göstərir ki, OBM-də sadə mikroskopiya ilə mikobakteriyanın tapılması izolyasiya olunmuş MEM-də 23,2±4,2%, fəal vərəmin fəsadlaşmasından baş verən MEM-də 16,7±3,6% ($x^2=1,4$ $p_1>0,05$), keçirilmiş vərəmn qalığı fonunda baş vermiş MEM-də 20,9±6,2% ($x^2=0,09$, $p_1>0,05$) şəklində mümkün olmuşdur. Beləliklə, təhlil göstərir ki, bu günkü epidemioloji vəziyyətdə OBM-də mikobakteriyanın sadə mikroskopiya üsulu ilə tapılması orta hesabla 20,0% halda mümkündür və bu əsil diaqnostik kriteriya sayılır. Təhlil göstərir ki, yüksək tibbi xidmət və diaqnostik imkanlara malik olan yaşayış məntəqələrindən uzaqlaşdıqca, xüsusən dağlıq, dağətəyi yaşayış məntəqələrində MEM-in erkən diaqnostikası məsələləri aktual olaraq qalır və bu da letallıq nəticələrini yüksəldir.

Beləliklə, son üç ildə (2011-2013) Azərbaycanda baş vermiş MEM hadisələrinin xüsusiyyətlərinin təhlili gösərir ki, MEM-in baş verməsində erkən uşaq yaşları, ətrafda, xüsusən ailədən kənar vərəmli xəstə ilə təmas, vərəm əleyhinə effektsiz vaksin və kimyəvi profilaktika yüksək risk qrupları sayılır. Klinik-nevroloji və laborator əlamətlər izolyasiya olunmuş MEM-də daha kəskin, vərəm əleyhinə spesifik müalicə alanlar arasında isə nisbətən zəif şəkildə özünü göstərir. Diaqnostikada OBM-də sadə mikroskopiya yolu ilə mikobakteriyanın tapılması əsas rol oynayır ki, bu da müasir epidemioloji vəziyyətdə 20,0% halda mümkündür. Ona görə də OBM-də spesifik

müayinələrin immunogenetik, molekulyar-genetik, molekulyar-fenotipik istiqamətdə aparılması məqsədəuyğundur. Beləliklə, təhlil göstərir ki, son üç ildə (2011-2013-cü illər) ölkədə ilkin aşkar edilmiş fəal vərəm xəstələri arasında ağciyərdən kənar üzvlərin vərəmi ağciyər vərəminə nisbətən 3,5 dəfə az aşkarlanmışdır. Aşkar edilmiş ağciyərdən kənar üzvlərin vərəmi arasında vərəm meningitləri, ensefalitləri və mieliləri 8,4% (250 xəstə) təşkil edir ki, bu da həddən artıq yüksək səviyyədir (optimal halda müşahidə olunmamalıdır).

ƏDƏBİYYAT

1. Məmmədbəyov E.N., Əliyev K.Ə., Axundova İ.M. və b.Vərəm xəstəliyinin molekulyar-genetik diaqnostikası. Metodik tövsiyyə. Bakı, 2010, 24 s.
2. Şıxəliyev Y.Ş. Vərəm xəstəliyinin epidemiologiyası gərgin olan regionlarda vərəm əleyhinə tədbirlərin intensiv şəkildə aparılma metodlrı. Bakı: Elm, 2003, 146 s.
3. Курбанова М.Б. Факторы риска и заболеваемость туберкулезом среди детей и подростков, проживающих в г. Баку // Пробл.туб, 2014, №11, с. 30-36.
4. Лазарева О.Л. Особенности диагностики, течения и лечения туберкулезного менингита у взрослых: Автоеф. дис….канд. мед. Наук. М., 2002.
5. Шилова М.В. Распространенность туберкулеза в Российской Федерации // Эпидемиол. и санитария, 2009, №15,с.5-11.
6. Шилова М.В. Эпидемическая обстановка по туберкулезу в Российской Федерации к началу 2009 г. // Пробл. Туб., 2010, №5, с. 14-21.
7. Danzon M. План «Остановить ТБ» для 18 наиболее приоритетных стран Европейского региона. ВОЗ, 2007, с. 7-11.
8. Henry M., Holzman R. Tuberculosis of the Brain, meninges and spinal cord. İn Room W a Garay S (ed) Tuberculosis. Philadelphia, 2004, p. 445-464

Резюме

Выявление случаев внелегочного туберкулеза, в частности менингита, энцефалита, миелита, их уровень и особенности

Дж.К.Алиев

Анализ данных исследований по выявлению случаев МЭМ, проведенных в Азербайджане за последние три года (2011-2013 года) показывают, что к повышенной группе риска возникновения МЭМ относятся ранний детский возраст, особенно контакт с туберкулезными больными вне семьи, не эффективная противотуберкулезная вакцинация и химиопрофилактика. Клинико-неврологические и лабораторные показатели более остро проявляются у изолированных больных с МЭМ, а у больных получающих специфическое лечение проявляется относительно слабо. Основную роль в диагностике играет метод определения микобактерий простой микроскопии СМЖ, а это при возможностях современной эпидемиологии составляет 20% случаев. Поэтому целесообразно проводить специфические исследования СМЖ иммуногенетическими, молекулярно- генетическими, молекулярно-фенотипическими методами. Таким образом, анализируя данные за последние три года (2011-2013) среди впервые выявленных активных туберкулезных больных количество внелегочных форм туберкулеза в 3,5 раза меньше легочных форм. Было выявлено, что менингиты, энцефалиты и миелиты составляют 8,4% (250 больных) от общего количества внелегочных форм туберкулеза, а это очень высокий показатель (в оптимальном случае не должно обнаруживаться).

Summary

The determination of tubercular cases of the organs except lungs; meningitis, encephalitis, myelitis levels and characteristics among them

J.G.Aliyev

The analysis of the features of the MEM cases happened in Azerbaijan in the last three years (2011-2013) displays that early child ages; contact with a tubercular patient in around, especially with one apart from a family; ineffective anti-tuberculosis vaccine; and chemical prophylaxis are taken into account like high risk factors in the occurence of the MEM. Clinic-neurological and laboratory signs show themselves sharply in isolated MEM, do themselves relatively in a weak manner among patients getting specific treatment against tuberculosis. Finding microbaterium with a simple microscopic method in diagnosis in the FSC plays a necessary role, it is possible in 20 per cent cases in modern epidemiological condition. Consequently, specific examinations in the FSC in immunogenetic,

molecular-genetic, molecular-phenotypic directions are purposeful. So, the analysis depicts that tuberculosis of the organs except lungs has been relatively found 3.5 times less than pulmonary tuberculosis (lung tuberculosis) among active tubercular patients of the year determined in the last three (2011-2013). Tubercular meningitis, encephalitis, myelitis among found tuberculosis of the organs except lungs comprise 8.4 per cent (250 patients), this is extremely a high level in turn (it must not be observed optimallity).

Daxil olub: 23.10.2014

AĞIZ BOŞLUĞUNDA ƏMƏLIYYATDAN SONRAKI YARALARIN SAĞALMASINA KLINIKI VƏ INSTRUMENTAL NƏZARƏT

Ç.R. Rəhimov, T.R.Quliyev
Azərbaycan Tibb Universiteti, ağız və üz-çənə cərrahiyyəsi kafedrası, Bakı

Açar sözlər: cərrahi yaralar, sağalma prosesi, kliniki və instrumental üsullar, elektron mikroskop
Ключевые слова: хирургические раны, процесс восстановления, клинические и инструментыльные способ, электронный микроскоп
Key words: surgical wounds, the recovery process, clinical and instrumental methods, electron microscope

Agız boşluğunun patoloji prosesləri xəstəlikləri əhali arasında ən yayılmış xəstəliklərdən hesab edilir. Belə ki, böyük əhalinin 99%-i ,uşaqlar arasında isə 80 %-ə qədər ağız boşluğu orqan və toxumalarının müxtəlif növ patologiyalarına rast gəlinir [1,2,3,4,5,6]. Son illər bu patoloji proseslərin cərrahi üsulla müalicəsinin sayı artıb, cərrahi müdaxilələrin həcmi genişlənib və eyni zamanda bununla əlaqədar cərrahların qarşısında qoyulan məsələlər mürəkkəbləşib.

Yerinə yetirilən əməliyyatlara qoyulan əsas tələblər əməliyyatdan sonrakı yaraların fizioloji sağalmasına nail olmaq, tez bir zamanda zədədlənmiş toxumalrın funksional və estetik göstəricilərini bərpa etməkdir. Sağalma prosesinin fizioloji gedişatının pozulması müxtəlif növ ağırlaşmalara gətirib çıxarır, bu da aparılan cərrahi əməliyyatlarda uğursuz nəticə kimi qəbul edilir.

Üz-çənə, eləcə də plastik cərrahiyyəyə aid ədəbiyyatlarda üz dərisində əməliyatdan sonrakı yaraların sağalma prosesi xüsusiyyətlərinə, bu prosesə təsiredici vasitələrin axtarışına kifayət qədər yer ayırlır. Ağız boşluğunda cərrahi yaraların sağalması prosesin öyrənilməsinə, səmərəli diaqnostika və müalicə usulların axtarışına isə ədəbiyatlarda nadir hallarda rast gəlinir [7,8]. Aparılan tədqiqatların təhlili göstərir ki, burada hələ ki, dəqiq diaqnostika və müalicə alqoritmi formalaşmayıb.

Ağız boşluğunda cərrahi yaraların sağalması prosesin öyrənilməsində yararlı olan metodların axtarışı üçün ilk növbədə dəridə tədbiq olunan usullarının səməriliyinin təhlilinin aparılmasını, eləcə də dəri ilə ağız boşluğu selikli qişasında

yaralarda sağalma prosesinin fərqinin öyrənilməsi məsələsini vacib hesab edirik.

Ümumiyyətlə, cərrahi əməliyyatdan sonrakı yaraların sağalam prosesinə nəzarət müxtəlif kliniki və instrumental metodlarla aparıla bilər [9].

Digər xəstəliklərin diaqnostikasında olduğu kimi burada kliniki göstəricilər əsas hesab edilir. Bədən hərarəti, qan göstəriciləri, yarada qranulyasiyanın əmələ gəlməsi, epitelizasiyanın başlanması kimi kliniki göstəricilər öyrənilir. Bunalar hələ Qalen vaxtlarından cərrahi yaraların kliniki simptomları kimi göstərilir.

Bədənin hərarəti (color) yara prosesinin qiymətləndirilməsində vacib amil hesab edilir. Hərarətin yüksək və ya subfebril hərarətin davamlı olması yaralarda yerli və ya ümumi ağırlaşmaların inkişafını göstərir.

Ağrı (dolor) göstəricisi yaranın iltihablaşmasının əsas simptomlarından biridir. Ağrının əmələ gəlməsinin səbəbi yerli qan təchizatının pozulması, toxuma daxili təzyiq və güclənən asidozdur.

Yaraətrafı toxumaların rənginin dəyişilməsi (rubor) yerli hemodinamikanın pozulması nəticəsində yara sahəsində ocaqlı hiperemiyanın əmələ gəlməsidir.

Yaraətrafı yumşaq toxumaların şişkinliyi də iltihablaşmanın vacib əlamətlərindəndir. Şiş-kinliyin artma sürəti və sahəsinə görə yarada baş verən prosesləri proqnozlaşdırmaq olur.

Bunlarla yanaşı cərrahi əməliyyat nəticəsində zədədlənmiş toxumaların funksiyasının pozul-ması (functio laesa) faktı qeyd edilir [10,11].

Bu metodlar yaranın sağalma prosesinə nəzarətinin sübyektiv usulları kimi qəbul olunur. Obyektiv uslullar kimi isə periferik qanın göstəriciləri, planimetriya metodu, yaralardan alınan yaxmaların sitoloji müayinəsi, yara ifrazatında- Ph müayinəsi, tərkibində zülalın müayinəsi, bakteroloji müayinənin kəmiyyət və keyfiyyət göstəriciləri və s. qəbul olunur.

Laborator metodlar. Laborator müayinə üsulu olaraq, qanın ümumi göstəricilərinin qiymətləndirilməsi heç də hər zaman ağız boşluğunda əməliyyatdan sonrakı yaraların vəziyyətini əks etdirmir.

Erkən dövrlərdə yaralarda gedən sağalma prosesisini izləmək və qiymətləndirmək üçün **rentgenolji müayinə metodları** da (ORT, KT, MRT və s.) kifayət qədər aşağı səmərəliliyə malikdir (12).

Yaraların sağalmasının kliniki və laborator müşahidəsi ilə yanaşı sağalmanın ayrı-ayrı dövrlərində toxumalarda baş verən dəyişiklikləri qiymətləndirmək üçün əlavə olaraq instrumental metodlarla müayinə zəruri hesab edilir.

Lazer dopler fluorometriyası. Lazer dopler fluorometriyası (LDF) yeni diaqnostika metodu hesab edilir [13,14). Bu metodla kapilyar səviyəsində qan dövranın vəziyyəti öyrənilir hansı ki, orqan və toxumaların metabloik proseslərinə, ilthabı və reparativ proseslərin gedişatına təsir edir. LDF- lazer dopler fluorometerlərlə aparılır.

Bu qeyri-invaziv dolayı qrafik metodla Dopler təsiri ilə kiçik damarların morfofunksional vəziyyətini və damarxarici dəyişiklikləri təsvir etmək imkanı yaranır. Bu üsulun üstünlüyü davamlı olaraq dərinin və selikli qişanın üst qatlarında mikrosirkulyasiyanın dəyişməsinin öyrənilməsidir. Burada monoxrom lazer şüaları fibroskop vasitəsilə yara səthinə ötürülür və toxuma, eləcə də qan elementlərindən geri qayıdan dalğa spektoru öyrənilir.

Dopler fluorometriyası vasitəsilə qan axının öyrənilməsi yerli toxumalarda iltihabi prosesin inkişafını və obyektiv olaraq onun sərhədlərini müəyyənləşdirməyə imkan verir.

İnfraqırmızı termoqrafiya. İnfraqırmızı termoqrafiya yarada sağalmanın müxtəlif mərhələlərində metobalik dəyişiklikləri öyrənməyə imkan verir. Sağalmanın erkən mərhələsinin termoqrafik görüntüsü yara sahəsində parlaqlığın artması ilə xarakterizə olunur. Yara iltihablaşdığı zaman toxumaların bütün zədələnmiş sahələri parlaqlığın kəskin artması kimi, nekroz sahələri isə bunun ardından qaranlıq görüntü sahələri kimi müəyyəm edilir (15,16). Yaralarda infraqırmızı süalanmanın öyrənilməsi televiziya prinsiplərinə əsaslanan xüsusi vizual sistemi olan termoqraflarla aparılır.

Üsul yaraların sağalmasının birincili öyrənilməsi zamanı informativdir.

Elektrotermometriya. Yaraların sağalması zədədlənmiş toxumalarda temperatur dəyişikliklə müşaidə olunur. Bu yara prosesində gedən ekzo və endotermik biokimyəvi reaksiyalarla, zədədlənmiş sahədə mərkəzi termoidarəetmənin və qan dövranın pozulması ilə və s. amillərlə əlaqəlidir. Yara prosesində bu ölçülərin dinamik aparılmasının diaqnostik və proqnostik əhəmiyyəti var [9].

Elektrotermiya prinsipi sirkulyator pozulma dərəcəsinə və iltihabi prosesin intensivliyinə uyğun normal və zədələnmiş toxumaların temperatur fərqinə əsaslanır.Tədqiqat elektrotermometr vasitəsilə və ya temperaturu 0.05 C dəqiqliklə ölçən sensor cihazlarla aparılır. İltihablaşmış və ona simmetrik olan sağlam sahələr arasında temperatur fərqi 2-3 C

dərəcəyə, yaranın birincili sağalması zamanı isə 0,3-0,8 C dərərcəyə çatır. Beləliklə , iltihabi sahədə temperatur sağlam toxuma ilə müqayisədə 1.0-1.5 C dərəcə yüksək olur.

Yara tenziometriyası. Yaraların sağalma prosesinin qiymətləndirilməsində obyektiv meyar yaranın mexaniki möhkəmliyi hesab edilir. Bu metodun mahiyyəti təkcə yara prosesinin öyrənilməsi deyil, həmçinin ona müxtəlif amillərin təsirinin öyrənilməsidir.

Sağalma prosesində yara kənarının bitişməsi zamanı möhkəmliyin ölçülməsi məqsədi ilə yara tenziometri PTM-2 cihazından istifadəni təklif edilir(17). Cihaz yara kənarından 2 mm məsafədə fiksator vasitəsilə dəriyə bərkidilir. Rezin balon vasitəsilə vurulan hava tədricən yara kənarlarına yayılır, hansi ki, sistemə qoşulmuş manometr vasitəsilə ölçülür. Kiçik qopmalar yara kənarının bitişmə möhkəmliyini əks etdirir. Bu üsul eksperimental tədqiqatlarda yalnız bir göstəricinin- toxumalarda möhkəmlik həddinin öyrənilməsində geniş şəkildə istifadə edilir.Yaranın digər biomexaniki xüsusiyyətlərini - elastikliyini, sərtliyini müəyyənləşdirmək üçün УМИВ-3 universal cihazından istifadəsi təklif olunub [18].

Planimetriya. Planimetrik üsulla yaranın epitelizasiya surətinin öyrənilməsi, həmin sahənin ölçülərinin zaman vahidində dəyişilməsinə əsalanir. Bu məqsədlə kliniki təcrübədə L.N. Popovun testindən daha çox istifadə olunur [9].Yaraya steril plastik salafan çəkilir və onun üzərinə yaranın konturu tətbiq edilir. Şəkil qrafik kağız üzərinə köçürülərək, yara sahəsi ölçülür. Ölçülmə bir neçə gündən sonra təkrarən aparılır və yara səthinin sahəsinin azalması faizi əvvəlki nəticə ilə nisbətdə aşağıdakı düsturla hesablanır:

$$x = \frac{(C - Cn)100\%}{t}$$

Düstürda-

C - əvvəlki ölçülmədə yara sahəsi;

Cn - mövcud vəziyyətdə yara sahəsinin ölçüsü;

t - ölçülmələr arasındakı günlərin sayıdır.

Sağalmanın normal gedişatında gün ərzində yara sahəsinin kiçilməsi 4% təşkil edir.

Kapilyarometriya

Yara sahəsində mikrosirkulyasiya - kapilyar assimetriya indeksinə əsasən qiymətləndirilir (19). Kapilyarların hesablanması M-70A kapilyarskopla həyata keçirilir. Yara sahəsində və bədənin simmetrik hissələrində kapilyarların nisbətinin hesablanması aparılır.

$$KAİ = \frac{B}{C}$$

Düsturda: B - bədənin simmetrik sahələrində kapilyarların sayı; C-yara sahəsində onların sayını göstərir. Normada KAİ=1,0±0,1 göstərir. Iltihablaşama zamanı bu indeks 0,45±0,05 həddinə kimi aşağı düşür, regenerasiya mərhələsində isə 0,7±0,05 kimi yuxarı qalxır.

Qazların gərginliyinin öyrənilməsi. Yara sahəsində qazların gərginliyinin öyrənilməsi o faktlara əsaslanır ki, yerli hipoksiya şəraitində sağalma prosesi kəskin ləngiyir [9,20,21]. Bu zaman toxumada $p0_2$ 1,3-2,7 kPa qədərə düşür və nəticədə toxuma tənəffüsünun pozulmasına gətirir [9]. Müəyyən olmüşdur ki, zədələnmədən ilk 5 gün sonra iltihablaşmış toxumalarda $pC0_2$ kifayət qədər çoxdur. Yaranın sağalma prosesinin reparativ mərhələsində bu göstəricilər bərabərləşir, p02 isə 3.9 kPa qədər artır. Bu günə kimi dəridə istifadə olunan istrumental metodlardan çox az sayda öz tətbiqini ağız boşluğu selikli qişasında müxtəlif cərrahi əməliyyatlardan sonra toxumalarda gedən dəyişiklikləri öyrənmək üçün istifadə olunmuşdur. Belə ki, Sardini, Carini və digər tədqiqatçılar ağız boşluğu selikli qişasında sağalma prosesində əhəmiyyəli rolu olan mikrosirkulyasiyanı qimətləndirməkdən məqsədilə videokapilyaroskopdan istifadə etmişdilər [22].

Digər tədqiqatçıların apardıqları tədqiqat işlərində isə infraqırmızı lazer terapiyasının ağız boşluğu selikli qişasının sağalma prosesinə müsbət təsiri öyrənilmişdir [23]. Bunula belə yuxarıda sadalanan laborator instrumental metodlar öz geniş kliniki tətbiqini tapmamışdır. Bu həm avadanlıqların mürəkkəbliliyi, həm də alınan məlumatların təsvirinin çətin olması ilə əlaqədar ola bilər.

Histoloji və histokimyəvi metod. Cərrahi yaralarda sağalma prosesinin diaqnostikasında zədədlənmiş toxumaların histoloji və histokimyəvi metodlarla öyrənilməsi daha dəqiq obyektiv metod kimi qəbul olunur. Histoloji metodlarla yara prosesinə qatılan toxuma və hüceyrələrin strukturu və funksiyası öyrənilir. Bu metod histoloji avdanlıq vasitəsi ilə həyata keçirildiyindən onun imkanları texnoloji tərəqqi ilə bilavasitə əlaqədar olub. Belə ki, elektron mikroskopiyanın tədbiqi yara prosesini hüceyrə və subhüceyrə səviyyəsində, yarada ilthablaşmanın, reparativ regenerasiyanın, çapıqlaşmanın və yara sağalmasının digər mərhələlərinin molekulyar dəyişiliklər səviyyəsində öyrənilməsi imkanları yaradır [24,25,26,27].

Bu baxımdan elektron mikroskop vasitəsilə dəridə və ağız boşluğu selikli qişasında cərrahi

yaralarda sağalma prosesinin fərqliliyinin öyrənilməsi, dəridə aparılan cərrahi yaralarda istifadə olunan diaqnostika və müalicə prinsiplərini ağız boşluğu selikli qişasında tədbiqinin səmərəliyini təsdiq edə bilər. Göstərilənlər yalnız eksperiment şəraitində ağız boşluğunun müxtəlif sahələrində yaradılan biomodellərdə yaraların kliniki monitorinqini, yara prosesinin müxtəlif mərhələlərində götürülən bioptatların submikroskopik səviyyədə öyrənilməsini və sağalma prosesində daha effektiv müalicə alqoritmlərinin işlənilməsi istiqamətində tədqiqatların aparılması zəruridir.

ƏDƏBİYYAT

1. Cadugo M.A., Chua M.G et al. A preliminary clinical study on the oral lesions among the Dumagats // J. Philipp. Dent. Assoc. 1998, v.50, p.36-42

2. Campisi G., Margiotta V.// Oral mucosal lesions and risk habits among men in an Italian study population // J. Oral Pathol. Med., 2001, v.30, p.22-28

3.Jainkittivong A., Aneksuk V., Langlais R.P Oral mucosal conditions in elderly dental patients // Oral Dis., 2002, v.8, p.218-223

4. Pentenero M., Broccoletti R. et.al The prevalence of oral mucosal lesions in adults from the Turin are // Oral Dis., 2008, v.14, p.356-366

5. Jahanbani J., Sandvik L. Evaluation of oral mucosal lesions in 598 referred Iranian patients // Open Dent. J., 2009, v.3, p.42-47

6.Mohammad A., Bobby J. et al. // Prevalence of oral mucosal lesions in patients of the Kuwait University Dental Center // Saudi Dent J., 2013, v25(3), p.111-118

7.Wong J.W., Gallant-Behm C. et al. Wound healing in oral mucosa results in reduced scar formation as compared with skin: evidence from the red Duroc pig model and humans // Wound Repair Regen., 2009, v.17(5), p.717-2

8.Germscheid N.M., Thornton G.M., Hart D.A. et al Wound healing differences between Yorkshire and red Duroc porcine medial collateral ligaments identified by biomechanical assessment of scars // Clinical Biomechanics , 2012, v.27, Issue 1, p.91-99

9. Абаев Ю.К. Справочник хирурга. Раны и раневая инфекция.Ростов н/Д:Феникс,2006,427 с.

10.Branski L.K., Gauglitz G.G., Herndon D.N., Jeschke M.G. A review of gene and stem cell therapy in cutaneous wound healing // Burns, 2009, v.35(2), p.171-80

11.Eric S., Alberto R. Inflammation, wound repair, and fibrosis: reassessing the spectrum of tissue injury and resolution // Journal of Pathology, 2013, v.229, p.141-144

12.Liudmila Y.O., Anna A.B. Doppler flowmetry as a tool of predictive, preventive and personalised dentistry // EPMA J., 2013, v.4(1), p.21.

14.Сабанцева Е.Г. Роль микроциркуляции в патологии слизистой оболочки полости рта (аспекты диагностики, патогенеза и терапии): Автореф. дис. … док. мед. наук. М., 2005, 39 с.

15. Maria Helena Chaves de Vasconcelos Catão Effects of red laser, infrared, photodynamic therapy, and green LED on the healing process of third-degree burns: clinical and histological study in rats // Lasers in Medical Science, 2015, v.30, Issue 1, p.421-428

16.Rezende S.B., Ribeiro M.S. et.al Effects of a single near-infrared laser treatment on cutaneous wound healing: biometrical and histological study in rats //J Phot. Photob., 2007, v.87(3), p.145-153

17.Фенчин К.М. Заживление ран. Киев: Здоров-я, 1979, 168 с

18. Мишарев О.С., Абаев Ю.К., Прокопчук Н.Р. Об оценке прочности сращения краев раны // Вестн. хирургии, 1984, № 11, с. 82-83

19.Шапошников Ю.Г., Рудаков Б.Я., Чернецов А.А. Оценка течения репаративных процессов в ранах // Хирургия, 1984, № 4, с.11-13

20.Ерюхин И.А., Гельфанд Б.Р., Шляпников С.А. Хирургические инфекции: Практическое руководство. Изд. 2-е, пер. и доп. М: Литтера, 2006,736с.

21.Аксёнов К.А., Ломакин М.В Особенности заживлении хирургических ран в полости рта // Российская стоматология, 2008, №1, с.69-72

22. Scardina G.A., Carini F. et. al Microcirculation in the healing of surgical wounds in the oral cavity// Int J Oral Maxillofac Surg., 2013, v.42(1), p.31-35

23. Parichehr G., Gholamreza J. et.al Assessment of the effect of diode laser therapy on incisional wound healing and expression of iNOS and eNOS on rat oral tissue // Dent Res., 2013, v.10,p.348-352

24. Eming *S.A.*, Krieg T., Davidson J.M. Inflammation in Wound Repair: Molecular and Cellular Mechanisms // Journal of Investigative Dermatology, 2007, v.127, p.514-525

Xəstələrdə konkret ultrasəs göstəricisi ilə törəmənin morfoloji tipi (zob, adenoma, xərçəng), morfoloji damarlanma variantları, dərəcələri, angiogenez intensivliyi arasında ikifaktorlu xətti qeyri-parametrik statistik təhlil icra edilmiş, müxtəlif parametrlərin bir-biri ilə korrelyasiya xarakteri və intensivliyi p=0,95 ($p \leq 0,05$) etibarlılıq səviyyəsində korrelyasiya əmsalı (p) və Pirson kriterisi χ^2) ilə öyrənilmişdir [16].

Nəticələr və onların müzakirəsi. Göstərildiyi kimi, 66 xəstənin hamısında cərrahi əməliyyat icra olunmuşdur. Əməliyyat həcmi və taktikası seçilərkən diaqnostika mərhələsində alınmış ümumi-klinik, ümumi- laborator, cərrahi müdaxiləyə mütləq və nisbi göstərişlər nəzərə alınmışdır. Əməliyyatlar əksərən (59 xəstə; 89,4%) "parsial" xarakter daşımışdır ki, bu da düyünün təkliyi, mikrodüyünlərin kompakt, qovuşmuş kompleks halında yerləşməsi, ölçüləri və preoperasion dövrdə bədləşmə barədə hər hansı bir rəyin verilməməsi ilə bağlı olmuşdur.

Orqanda əməliyyatlar aşağıdakı şəkildə qruplaşdırılmışdır: sadə strumektomiya- 40; bir payın mikrodüyünlə birlikdə parsial rezeksiyası (genişləndirilmiş strumektomiya)- 12; payın irisahəli rezeksiyası-7; orqanın istmus hissəsinin və bir payını əhatə etmiş hemitireoidektomiya-3; subtotal tireoidektomiya- 4 xəstə (cədvəl 3)

Cədvəl 3

Qalxanabənzər vəzi mikrodüyünləri olan xəstələrdə cərrahi əməliyyatlar (xəstələrin sayı)

S№	Əməliyyatlar	Klinik qruplar			Cəmi
		Tireoid zod	Tireoid adenoma	Latent (klinik gizli gedişli)	
1	Sadə strumektomiya	13	10	17	40 (60,6%)
2	pay parsial rezeksiyası (genişləndirilmiş strumektomiya)	3	1	8	12 (18,2%)
3	Pay irisahəli rezeksiyası	2	2	3	7 (10,6%)
4	Hemitireoidektomiya	1	1	1	3 (4,5%)
5	Subtotal tireoidektomiya	1	-	3	4 (6,1%)
Yekun		20	14	32	66 (100,0%)

Son 7 xəstədə əməliyyat həcminin əhəmiyyətli dərəcədə artıqdığı heç də mikrodüyünlərin ölçüləri ilə yox, onların sayı (multinodulyar proses) və müxtəlif zonalarda (pay+istmus; paylar+istmus) yerləşməsi ilə əlaqəli olmuşdur. Yeri gəlmişkən, xəstələrdə orqanın mikrodüyünləri isə çoxocaqlı (multifokal) zədələnmələri zamanı, qalxanabənzər vəzidə cərrahi əməliyyatın mümkün qədər geniş həcminin, radikallığının tərəfdarları son illər artmaqdadır [1, 2, 17]. Biz isə hesab edirik ki, multifokal mikrodüyünlər şəraitində qalxanabənzər vəzidə əməliyyat planlaşdırılarkən "orqansaxlığıcı" ilə "radikallıq" arasında optimal bir nöqtə tapılmalı, xəstələrdə laborator, ultrasəs, preoperasion morfoloji analizlərin göstəriciləri, prosesin klinik xüsusiyyətləri nəzərə alınmalıdır.

Xüsusi qeyd edirik ki, kontingentə daxil edilmiş "latent (klinik gizli gedişli) tireoid karsinoma" diaqnozlu 32 xəstədə də əməliyyata qədərki laborator, ultrasəs və aspirasion punksiyanın ümumi-sitoloji analizləri xərçəngi aşkarlamaq üçün yetərli olmamışdır. Fikrimizcə, bu cəhət tireoid mikrokarsinomaların preoperasion diaqnostikasında daha dəqiq meyarların tərtibini labüd edur. Bu nöqteyi- nəzərdən hesab edirik ki, subsantimetrlik düyünün ultrasəs vizualizasiyasında, incə iynə aspirasion və toxuma biopsiyası prosedurunda yeni texniki yanaşma, sitoloji və ya histoloji təhlildə isə yeni, daha informativ üsulların tətbiqi zəruridir; bu qənaətimiz problemlə sistemli məşğul olan digər tədqiqatçıların fikirləri ilə də üst-üstə düşür [5,7,9,11].

Ultrasəs-doppleroqrafik olaraq xəstələrdə orqanın və düyünün damarlanmasının 4 tipi sistemləşdirilmişdir. Xüsusi qeyd edilməlidir ki, bunlardan "qarışıq tip" 32 xərçəng xəstəsindən 24-də (75,0%) müəyyən olunmuşdur ki, bu rəqəm də ədəbiyyat məlumatlarına (60,0-95,0%), ümumilikdə, uyğun gəlir [5,10]. Beləliklə, retrospektiv analizə əsasən hesab edirik ki, preoperasion ultrasonoqrafik analizdə təyin edilmiş "düyünün qarışıq tip (peri-, intranodulyar, xaotik) damarlanması" ilə "latent tireoid karsinoma" arasında orta dərəcəli statistik etibarlı düz-mütənasib korrelyasiya vardır ($r=0,56$; $p<0,05$; $\chi^2=29,0$).

Ultrasəs müayinəsində mikrodüyün damar şəklinin güclənməsi 20 "zob" xəstəsindən 4-də (20,0%), 14 "tireoid adenoma" xəstəsindən 4-də (28,6%), "latent (gizli gedişli klinik gedişli) tireoid karsinoma" diaqnozlu 32 xəstədən isə 25-də (78,1%) qeyd edilmişdir. Beləliklə, "damar şəkli güclənməsi" parametri "zob" və "tireoid adenoma"nın verifikasiyasında diaqnostik əhəmiyyətli deyildir. Ancaq xəstələrdə ultrasonoqrafik təyin edilmiş hipervaskulyarizasiya və "xərçəng" diaqnozu arasında orta dərəcəli statistik dürüst düz-mütənasib korrelyasion əlaqə mövcuddur ($r=0,53$; $p<0,05$; $\chi^2=28,0$). Başqa sözlə, QV mikrodüyünün həmin ultrasəs parametri "latent tireoid mikrokarsinoma"nın preoperasion diaqnostikasında yönəldici əhəmiyyətli ola bilər; bu barədə bir sıra digər müəlliflər də yazırlar[5, 9].

Ultrasəs-doppleroqrafik olaraq düyünlü sahədə "maksimal sistolik sürət (MSS)", "rezistentlik indeksi (Rİ)" və "yuxarı qalxanabənzər arteriyada qan cərəyanı sürəti" parametlərinin düyünlərin postoperasion müəyyənləşdirilmiş morfoloji tipi, variantları və bədlik (maliqnizasiya) dərəcəsi ilə ciddi əlaqəsi tapılmamışdır. Bununla belə, "latent tireoid karsinoma" diaqnozlu 32 xəstədən 10-da (31,2%) MSS və yuxarı qalxanabənzər arteriyada qan cərəyanı sürətinin artması, Rİ- in isə, əksinə, azalması müşahidə edilmişdir.


Beləliklə, qalxanabənzər vəzi mikrodüyünlərinin differensial diaqnostikasında ultrasəs-doppleroqrafik müayinələrin nəticələri hələ də qənaətbəxş deyildir və bəzi tədqiqatçılar göstərdikləri kimi [9], bu istiqamətdə tədqiqatlar aktuallığını saxlamaqdadır.

Postoperasion morfoloji analizlərin nəticələrinin QVMD verifikasiyasında, diaqnoz üçün "qızıl standart" ki götürmüşük, baxmayaraq ki, ayrı-ayrı tədqiqatçılar morfoloji təhlilin vacibliyini qeyd etsələr də, onun mütləq diaqnostik əhəmiyyətinə tənqidi yanaşırlar [11, 18].

Qalxanabənzər vəzin müxtəlif morfoloji tipli mikrodüyünlərində qan mikrodamarlarının ümumi sıxlığının aşağıdakı səviyyələrini müəyyən etmişik: "aşağı" - 1,0 mm^2-də 30-dan az; "orta" - 1,0 mm^2-də 31-40; "yüksək" - 1,0 mm^2-də 41-dən çox mikrodamar.

Qalxanabənzər vəzin müxtəlif morfoloji tipli mikrodüyünlərində qan mikrodamarların ümumi sıxlığının aşağıdakı səviyyələrini müəyyən etmişik.

Mikrodamarların sıxlığına görə isə QVMD olan xəstələr aşağıdakı kimi qruplaşdırılmışdır (Şək.1).



Şək.1. Qlaxanabənzər vəzi mikrodüyünləri toxumasında mikrodamarlar şəbəkəsinin sıxlığına görə paylanması

Göründüyü kimi, mikrodamar şəbəkəsinin "aşağı" sıxlıq göstəricisi ilə qalxanabənzər vəzidəki mikrodüyünün klinik mahiyyəti (zob, adenoma, karsinoma) arasında sistemli, statistik etibarlı əlaqəsi yoxdur. Bununla belə, mikrodamarların yüksək sıxlığı (>41,0/mm^2) daha çox "latent tireoid karsinoma" xəstələrində təsadüf etmişdir. Belə ki, "yüksək" sıxlıq göstəricisinə malik 24 xəstədən 15-də postoperasion olaraq "karsinoma" aşkarlanmışdır. Beləliklə, qalxanabənzər vəzidə mikrodüyün toxumasında mikrodamarların şəbəkəsinin yüksək sıxlığı ilə "latent (gizli klinik gedişli) tireoid karsinoma" arasında statistik etibarlı, orta intensivlikli, düz mütənasib korrelyasion əlaqə mövcuddur (r=0,58; p<0,05; χ^2=26,8).

Nəticələrimizə əsasən, qalxanabənzər vəzinin müxtəlif mikrodüyünlərində yeni (de novo) formalaşan damarların sıxlığı ilə həmin düyünün klinik təbiəti arasındakı əlaqələr daha sistemli xarakterdədir. Belə ki, postoperasion immunhistokimyəvi-morfometrik təhlildə istər zob, istər tireoid adenoma, istərsə də latent tireoid karsinoma xəstələrində angiogenezin daha çox mozaik-ocaqlı, xaotik xarakterdə getdiyi aydınlaşdırılmışdır. Bununla belə, maliqnizasiyalı düyünlərdə həm daxili hissələrdə, həm də düyünün həqiq və ya psevdo kapsulu boyunca nizamsız angiogenez ilə bərabər, funksional-fəal mikrodamarların sayının kəskin azalması, orta və iri diametrli arteriyalarda və venalarda isə fibroz, mənfəz qapanması təzahürləri də qeyd edilmişdir. Funksional-fəal kapillyarların sıxlığının bu cür kəskin azalması nə "zob", nə "adenoma" xəstələri üçün səciyyəvi deyildir. Buna əsasən güman edirik ki, xaotik angiogenez ilə bərabər, perikapsulyar və interstisial angio-fibroz, angio-obturasiya mikrodüyün bədləşmə dərəcəsinin təyinində yönəldici-diaqnostik əhəmiyyətli ola bilər.

QV mikrodüyündə və onun bilavasitə ətrafındakı orqan zolağında angiogenez intensivliyi aşağıdakı qaydada qiymətləndirilmişdir: "aşağı; 1,0+"- yeni yaranan mikrodamarlar kəsik sahəsinin ¼-də (25,0%-ə qədərlik sahədə); "orta; 2,0+"- kəsik sahəsinin təxminən ½-də 26,0-50,0%), "yüksək 3,0+"- kəsik sahəsinin ¾-də (51,0-75,0%) və "çox yüksək; 4,0+"- kəsik sahəsinin 5/4- hissəsindən çoxunda (>76,0%) tapılır. Qeyd edilməlidir ki, bu təsnifat praktik işdə daha səmərəlidir və bəzi müəlliflərin [3,8,12] təklif etdikləri mütləq rəqəmlər əsasındakı bölgülərdən daha asan tətbiq oluna bilər.

Toxuma kəsiklərində angiogenez intensivliyi ilə mikrodüyünün morfoloji tipi (zob, adenoma, karsinoma), morfoloji variantı (zob, adenoma, karsinomanın müxtəlid histoloji variantları), bədlik dərəcəsi (histodifferensiasiya E0-E3) arasında əlaqələrin mahiyyətinin araşdırılması hazırda davam etdirilir. İlkin nəticələrimizə görə, müxtəlif mikrodüyünlərdə yeni yaranan mikrodamarların həm yerləşmə, həm də sıxlıq xüsusiyyətləri mürəkkəb qarşılıqlı əlaqələr ilə səciyyələnir. Belə ki, bədləşmiş mikrodüyündə (latent tireoid karsinomada) bir tərəfdən xaotik, yüksək və ya çox yüksək intensivliklə angiogenez müşahidə olunsa da, digər tərəfdən-mikrodamarların əksəriyyəti funksional-fəal deyildir.

Nəticə: 1. Multifokal mikrodüyünlər şəraitində qalxanabənzər vəzidə əməliyyat planlaşdırılarkən "orqansaxlayıcılıq" ilə "radikal- lıq" arasında optimal bir nöqtə tapılmalı və bu məqsədlə, digər göstəricilər ilə bərabər, preoperasion müəyyən edilmiş damarlanma, angiogenez parametləri nəzərə alınmalıdır. 2. Preoperasion ultrasonoqrafik təyin edilmiş

"düyünün qarışıq tip (peri-, intranodulyar xaotik) yüksək intensivlikdə damarlanması" ilə "latent tireoid karsinoma" arasında orta dərəcəli statistik etibarlı düz-mütənasib əlaqə vardır və bu xüsusiyyətlər "latent tireoid mikrokarsinoma"nın preoperasion diaqnostikasında yönəldici əhəmiyyətli ola bilər. 3.Qalxanabənzər vəzi mikrodüyünündə "mikrodamarlar şəbəkəsinin ümumi yüksək sıxlığı+ funksional-fəal mikrodamarların aşağı xüsusi payı" və "yüksəkintensivlikli xaotik angiogenez" ilə "latent (gizli klinik gedişli) tireoid mikrokarsinoma" arasında statistik etibarlı, düz-mütənasib korrelyasion əlaqə mövcuddur və bu morfoloji parametrlər yönəldici-diaqnostik kriterilər kimi istifadə oluna bilər.

ƏDƏBİYYAT

1. Hay I.D., Hutchinson M.E., Gonzalez-Losada T. et al. Papillary thyroid microcarcinoma: a study of 900 cases observed in a 60-year period // Surgery, 2008, v.144, No6, p. 980-987
2. Воробьев И.Н. Хирургические аспекты диагностики и лечения непальпируемых узловых образований щитовидной железы: Дис. ... канд. мед. наук. Екатеринбург, 2009, 110 с.
3. Ланцов Д.С. Морфология и пролиферативная активность микрокарциномы щитовидной железы: Автореф. дис. … канд. мед. наук. Обнинск, 2007, 18 с.
4. Zamanov R. Anamnestic, laboratory, instrumental and morphologic properties of asymptomatic thyroid carcinomas: retrospective multifactor analysis // Abstracts of XII Intern. Euroasian Kongress of Surgery and Gastroenterology, 13-16 October, 2011. Baku, 2011, p. 302-303.
5. Сенча А. Н. Методы лучевой визуализации в диагностике и лечении заболеваний щитовидной железы: Дис. … докт. мед. наук, М., 2008, 226 с.
6. Рачинский С.В., Цветкова Е.В. Клинико-морфологическое значение малого рака щитовидной железы // Онкохирургия (Москва), 2008, №1, с. 143.
7. Tae H., Lim D., Baek K. et al. / Diagnostic Value of Ultrasonography to Distinguish Between Benign and Malignant Lesions in the Management of Thyroid Nodules // Thyroid, 2007, v.17, №5, p. 461-466.
8. Owen M., Alarcon T., Maini, P., Byrne H. Angiogenesis and vascular remodelling in normal and cancerous tissues // Journal of Mathematical Biology, 2009, v.58, N4-5, pp. 689-721.
9. Ito Y., Amino N., Yokozawa T. et al. Ultrasonographic evaluation of thyroid nodules in 900 patients: comparison among ultrasonographic, cytological, and histological findings // Thyroid, 2007, v.17, №12, p. 1269-1276.
10. Dural A., Gonenc M., Buyukasik S. et al. The Correlation Between Sonographic and Histopathological Findings in Thyroid Nodules // Eur. Thyroid J. 2012, 1 (Suppl 1):75–208. 36th Annual Meeting of the ETA. p.105
11. Berker D., Aydin Y., Ustun I. et al. The Value of Fine-Needle Aspiration Biopsy in Subcentimeter Thyroid Nodules // Thyroid, 2008, v. 18, N6, p. 603-608.
12. Лушников Е.Ф., Втюрин Б.М., Цыб А.Ф. Микрокарцинома щитовидной железы. М.: Медицина, 2003, 262 с.
13. www.immunohistochemistryprotocols.com.
14. Mikel U. (Editor). Advanced Laboratory Methods in Histology and Pathology. AFIP, Washington, DC, 1994, 254 p.
15. Руководство по иммуногистохимической диагностике опухолей человека / Под ред. С.В. Петрова, Н.Т. Райхлина. Казань, «Титул», 2004, 456 с.
16. Юнкеров В.И., Григорьев С.Г. Математико-статистическая обработка данных медицинских исследований. СПб: ВмедА, 2002, 266 с.
17. Yeung M., Serpell J. Management of the solitary thyroid nodule // Oncologist, 2008, v.13, №2, p. 105-112.
18. Lanshchakov K., Belousov P., Vanushko V. et al. Preoperative Malignancy Risk Prediction in Thyroid Nodules with "Follicular Neoplasm" Cytology // Eur. Thyroid. J., 2012; 1 (suppl. 1):75–208, 36th Annual Meeting of the ETA. p.175, P.249

Резюме

Значение ангиогенеза в дифференциальной диагностике мелких узлов щитовидной железы: клинические, ультразвуковые, морфологические параллели

Б.А. Агаев, И.А. Гасанов, Р.З. Махмудов.

У 66-ти больных с мелкими (до 1,0 см) узлами в щитовидной железе проведен комплексный ретроспективный анализ клинических, ультразвуковых, морфологических

данных и особенностей хирургического лечения. Выполнены орган-сохраняющие операции различных объемов, в основном – струмэктомия, парциальные резекции органа. Операциям предшествовал достаточно длительный период малоэффективной консервативной терапии или же – множественность узлов в органе. Выявлена корреляция некоторых допплерографических параметров со злокачественностью тиреоидных узлов до 1,0 см, хотя надежных преоперационных ультразвуковых признаков малигнизации последних не установлено. При послеоперационном иммуногистохимическом и морфометрическом анализе образцов мелких узлов обнаружено что, «общая высокая плотность микрососудов + низкий удельный вес функционально-активных капилляров в сочетании с хаотичным ангиогенезом высокой интенсивности» статистически достоверно коррелирует с озлокачествлением отмеченных узлов. Исходя из чего рекомендовано использование отмеченных морфологических параметров как дополнительных критериев в верификации латентной тиреоидной карциномы.

Summary

The meaning of angiogenesis in the differential diagnostic of small thyroid nodules: clinical, ultrasound, morphological parallels

B.A. Agayev, I.A. Hasanov, R.Z. Makhmudov.

In the 66 patients with small (till 1,0 sm) of the nodes in the thyroid gland conducted a comprehensive retrospective analysis of clinical, ultrasound, morphological data and characteristics of surgical treatment. Performed organ-preserving surgery of different sizes, mostly - strumectomy, partial resection of the body. Operations was preceded by a sufficiently long period of conservative therapy ineffective or - multiple nodes in the body. The correlation of certain parameters dopplerographic malignancy of thyroid knots to 1.0 cm, although reliable ultrasonic preoperative ultrasound signs of malignancy of last sites is not established. When postoperative immunohistochemical and morphometric analysis of samples of small nodes found that "the overall high density of microvessels + low proportion of functionally active capillaries combined with chaotic angiogenesis high intensity" statistically significantly correlated with malignancy selected nodes. On the basis of what is recommended to use the marked morphological parameters as additional criteria to verify the latent thyroid carcinoma.

Daxil olub: 12.08.2014

ANADANGƏLMƏ DODAQ-DAMAQ YARIQLARI OLAN ŞƏXSLƏRDƏ ÇƏNƏLƏRİN RENTGENOLOJİ GÖRÜNTÜLƏRİNİN XARAKTERİSTİKASI

N.A.Pənahov, E.Y. Həsənli

Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: dodaq-damaq yarıqları, diş-çənə anomaliyaları, ortopantomoqram, telerentgenoqram

Ключевые слова: расщелины губы и неба, зубочелюстные аномалии, ортопантомограмм, телерентгенограмм

Keywords: cleft lip and palate, dental and facial anomalies, ortopantomogrammu, telerentgenogramm

Müasir təbabətin aktual problemləri arasında yuxarı dodağın, alveol çıxıntısının, sərt və yumşaq damağın anadangəlmə yarıqları olan uşaqların tibbi reabilitasiyası böyük əhəmiyyət kəsb edən məsələlərdən sayılır.

Anadangəlmə inkişaf qüsurları çox müxtəlif şəkilli olub, nozoloji formalarının sayı minlərlə hesablanır [1,7]. Bu sırada, anadangəlmə üz-çənə patologiyaları 4-7-ci yerlərdə dayanaraq, bütün anadangəlmə anomaliyaların 13-30%-ni təşkil edir və orqanizmin anatomik və funksional dəyişiklikləri ilə müşayət olunur [4,5]. Bu dəyişikliklərin ifadə dərəcəsi dodaq- damaq yarıqları olan uşaqlarda yarığın forması, ölçüsü, uşağın yaşı, yanaşı gedən patologiyadan, aparılan müalicədən asılıdır. Bu zaman tənəffüs, əmmə, udma və səs əmələgətirmə funksiyaları müxtəlif dərəcədə pozulmaqla yanaşı, öz növbəsində, uşaq orqanizminin bir çox sistemlərinin normal funksiya göstərməsini çətinləşdirməklə, ümumi

inkişafı zəiflədir [3,6]. Bu faktorların qarşılıqlı təsiri həyat keyfiyyətini aşağı salaraq, çox vaxt ömürlük əlilliklə nəticələ bilər.

Anadangəlmə inkişaf qüsurları olan xəstələrin diş sıralarının formalaşmasının pozulması iki əsas anadangəlmə faktorla şərtlənir: ayrı-ayrı dişlərin və diş qruplarının düzgün olmayan yerləşməsi nəticəsində baş vermiş, diş sırasının yaranmasının pozulması və diş sıraları formasının anomaliyası [2]. Diş sıralarının morfoloji quruluşunun pozulmasının əsas növlərindən biri ayrı-ayrı dişlər arasında məsafələrin artması və ya sıx yerləşməsidir ki, bu da dişlərin sayının artması yaxud azalması ilə, ölçülərinin dəyişilməsi və vəziyyət anomaliyası ilə şərtlənir [8].

Tədqiqatın **məqsədi** anadangəlmə dodaq-damaq yarığı olan şəxslərdə çənələrin rentgenoloji görüntülərinin xarakteristikasının öyrənilməsi olmuşdur.

Tədqiqatın material və metodları. Anadangəlmə dodaq-damaq yarığı diaqnozu təsdiqlənmiş 23 nəfərdə diş cərgələrinin vəziyyəti öyrənilmişdir.

Diaqnozun dəqiqləşdirilməsi, müalicənin plan və proqnozunu müəyyən etmək, müalicə prosesində gedən dəyişiklikləri öyrənmək üçün nişangahlı rentgenoqrafiya, vizioqrafiya, rəqəmsal ortopantomoqrafiya və telerentgenoqrafiya aparılmışdır.

Nişangahlı rentgenoqramlarda dişlərin sərt toxumasının və parodontunun vəziyyəti, destruktiv dəyişikliklərin, kistaların, qranulomaların olması müəyyənləşdirilmişdir.

Çənələrin ortopantomoqramında dişin say anomaliyaları, o cümlədən adentiya, komplektdən kənar dişlərin vəziyyəti və miqdarı, retensiyaya uğramış dişlərin vəziyyəti və miqdarı, daimi dişlərin çıxma istiqaməti və yerləşdiyi səviyyə, yuxarı və aşağı mərkəzi kəsici dişlər arasında orta xəttin üst-üstə düşməsi, diş cərgələrinin sağda və solda, şaquli və meziodistal istiqamətlərdə münasibəti, ayrı-ayrı dişlərin korpuslu yerdəyişməsi və əyilməsi, vertikal yerdəyişmə təyin edilmişdir. Həmçinin daimi dişlərin sıx yerləşməsi, yuxarı və aşağı çənələrdə mərkəzi kəsici dişlərin boylama oxlarının yelpiyəbənzər vəziyyəti, daimi dişlərin tac və köklərinin formalaşma səviyyəsi, yuxarı və aşağı çənələrdə üçüncü molyarların retromolyar sahədə tutduqları yer, müalicə mərhələsində və nəticələr yoxlanılan zaman daimi dişlərin oxlarının əyilmə bucaqları, aveol çıxıntısının sümük toxumasının parçalanmasının lokalizasiyası və ölçüləri dəqiqləşdirilmişdir. Ortopantomoqramda yuxarı çənənin inkişaf asimmetriyası, dişlərin boylama oxlarının normal vəziyyətdən kənara çıxması, diş saylarının anomaliyaları (komplektdənkənar dişlərin olması, adentiyalar), Enql təsnifatına görə köpək dişlərin və birinci daimi molyarların meziodistal münasibəti, Endryüsə görə okklüziyanın 6 açarı aydınlaşdırılmışdır.

Çənə sümüklərinin sagital və şaquli parametrləri, üzün yumşaq toxumalarının konturları, üz-çənə nahiyəsinin deformasiya və anomaliyalarının skelet formalarını diaqnozlaşdırmaq üçün telerentgenoqrafik tədqiqat metodu tədbiq edilmişdir.

Başın telerentgenoqramının analizləri zamanı bucaqlı və xətti parametrlər təyin edilmişdir. Şvarts metoduna, MDTSU-nun ortodontiya kafedrasında qəbul edilmiş üsula görə və Di-Paolo metoduna əsasən telerentgenoqramların analizi aparılmışdır. Başın yan proyeksiyada telerentgenoqramında kəsici dişlərin və molyarların mailliyi və vəziyyəti, çənə sümüklərinin sagital və vertikal ölçüləri, kəllədə çənə sümüklərinin, onların hissələrinin vəziyyəti və qarşılıqlı münasibəti, üz skeletinin profilinin tipi, burun-göz kompleksinin ölçüləri, üz şöbəsinin böyümə tendensiyası öyrənilmişdir. Başın düz proyeksiyada telerentgenoqramında kəllənin üz şöbəsinin və burunun köndələn ölçüləri, alın sümükləri səviyyəsində kəllənin eni, orbitin, alın sümüklərinin, yuxarı çənənin, burunun, birinci daimi molyarların, aşağı çənə bucaqlarının ölçüləri öyrənilmişdir.

Tədqiqat nəticəsində alınan nəticələrin orta qiyməti və onların statistik baxışdan dürüstlüyü variasion statistika metodu ilə, parametrik və qeyri-parametrik metodların köməyi ilə: t (Stüdent), U (Vilkinson-Manna-Uitni), χ^2 (müvafiqlik əmsalı) kriterisindən istifadə etməklə müəyyən edilmişdir.


Tədqiqatın nəticələri və müzakirəsi. Dodaq-damaq yarıqları zamanı diş-çənə anomaliyasının diş-alveol və yaxud sklet formasının olması ortopantomoqram ilə, həmçinin ön və yan proyeksiyalarda çəkilmiş telerentgenoqramlara əsasən təyin edilmişdir. Xəstələrin ortopantomoqramının öyrənilməsi nəticəsində aşağıdakı dəyişikliklərin olması müəyyən edilmişdir.

Yarıq olan tərəfdə alveol çıxıntısının kənarı, anomal formalı, retensiya olunmuş 11, 12, 21, 22-ci dişlərdən biri və ya bir neçəsi ilə əhatəlidir. Bəzi hallarda burada 13 yaxud 23-cü dişlər də yerləşmiş, 12 və ya 22-ci dişlərin adentiyası olmuşdur.




Şək1. Soltərəfli dodaq-damaq yarığı olan xəstə A.-nın ortopantomoqramı.

Şəkil 1-də təqdim edilmiş ortopantomoqramda sol tərəfli tam dodaq-damaq yarığının burun boşluğu ilə əlaqəli olması, armudabənzər dəliyin dibinin sümük toxumasındakı qüsur, burun arakəsməsinin vəziyyəti və istiqaməti, armudabənzər dəliyin yan divarlarının və burun balıqqulaqlarının vəziyəti aydın görünür. Şəkildə 22-ci dişin birincili adentiyası, 13 və 21-ci dişlərin tortoanomaliyası, 23-cü dişin retensiyası, 35-ci dişin yarımretensiyası ayırd edilir. 11, 12, 13 və 14-cü dişlərin, eləcə də 24,25 və 26-cı dişlər olan nahiyədə diş sıralarının sıxlığı anomaliyası qeydə alınmışdır. Bu xəstədə yarıq olan nahiyədə həmçinin 62 və 63-cü dişlərin yerləşmə anomaliyası da mövcuddur. Aşağı çənədə 33 və 34-cü dişlər, eləcə də 43 və 44-cü dişlər də sıx yerləşmişlər. Xəstənin 38 və 48-ci dişlərinin mayalarının da anomal yerləşməsi diqqəti cəlb edir. Sifətin estetik mərkəzinin yerdəyişmiş olması, aşağı və yuxarı çənələrdə bu xətlərin üst-üstə düşməməsi də aydın görünür.



Şək. 2. Sağtərəfli dodaq-damaq yarığı olan xəstə B.-nin ortopantomoqramı



Şək. 3. Xəstə C.-nin başının yan proyeksiyada çəkilmiş telerentgenoqramı

Şəkil 2-də sağtərəfli dodaq-damaq yarığı olan xəstənin çənələrinin ortopantomoqramı verilmişdir. Xəstə B.-nin yarıq olan nahiyədə 11-ci dişinin retensiyası, 12 və 13-cü dişlər, həmçinin 21, 22 və 23-cü dişlər arasında trema, 13, 14, 15-ci dişlərin, eləcə də 23, 24, 25 və 26-cı dişlər arasında diş cərgəsinin sıxlığı, 38 və 48-ci dişlərin mayalarının yerləşmə anomaliyası aydın görünür.

Şəkil 3-də xəstə C.-nin başının yan proyeksiyalarda çəkilmiş telerentgenoqramının analizi nəticəsində aşağı çənənin ölçülərində böyümə aşkar edilmişdir. Bu, burun tənəffüsünün pozulması, aşağı burun balıqqulaqlarının hipertrofiyalaşması, dilin ağızda qeyri-düzgün vəziyyətdə yerləşməsi ilə əlaqədar ola bilər. Nəticədə aşağı çənə sümüyünün arxa rotasiyası və çənə bucağının böyüməsi ilə nəticələnir. Sifətin ön hüssəsinin hündürlüyü normal olmuş, bəzən isə aşağı çənənin ön hissəsinin böyüməsi hesabına artmış olmuşdur. Çənənin ön hissəsi isə yuxarı çənənin ön hissəsinin inkişafdan qalmasına cavab olaraq, eləcə də aşağş çənə bucağının artması hesabına böyümüş olur.

Ümumiyyətlə, dodaq-damaq yarıqları zamanı NAPg bucağının artması nəticəsində kəllə skletinin sifət hissəsinin basılmış və ya düz profili aşkar edilmişdir.

Xəstələrdə yuxarı dodağın distal vəziyyəti, PNS-ANS xətləri uzunluqlarının kiçilməsi, SNA və SNB bucaqlarının azalması nəticəsində yuxarı çənənin apikal bazisinin və aşağı çənə bazisinin arxa vəziyyəti müşahidə olunmuşdur. Ba-A və Ba-PNS xətlərinin qısalması nəticəsində molyararxası nahiyədə sifətin dərinliyinin azalması müşahidə edilimişdir.

Dodaq-damaq yarıqları olan xəstələrin hamısında kəllənin üz hissəsinin nəinki qnatik nahiyəsi, eləcə də burun boşluğu-gözyuvası nahiyəsinin quruluşunda norma ilə müqayisədə dəyişikliklər aşkar edilmişdir. Xəstələrdə həmçinin S-PNS xəttinin hünüdürlüyü və PNS-ANS xətinin uzunluğu azalması nəticəsində burun boşluğu-gözyuvası nahiyəsinin hündürlüyü və uzunluğu da qısalmışdır (P<0,05).

Aşağı çənənin enində, Go-Go xətlərində norma ilə müqayisədə dürüst dəyişiklik aşkar edilməmişdir (P>0,05). NGoGn bucağının artması hesabına aşağı çənənin aşağı hissəsinin, eləcə də Go bucağının artması hesabına aşağı çənə bucağının böyüməsi sifətin aşağı üçdə bir hissəsinin hündürlüyünün artmasına gətirib çıxarır.

Beləliklə, yaş normaları ilə müqayisə etdikdə dodaq-damaq yarıqları zamanı yuxarı çənənin telerentgenoloji parametrlərinin bir çoxunda dəyişikiklərin olması müəyyən edilmişdir. Düz proyeksiyada çəkilmiş telerentgenoqramda yarıq olan tərəfdəki kiçik fraqmentin diş-alveol ölçülərinin kiçilməsi, yuxarı çənənin mərkəzi kəsici diş nöqtəsinin yarıq olan tərəfə sürüşməsi, yuxarı çənənin diş sırasının formasının dəyişilməsi, müvafiq olaraq aşağı çənənin də diş sıralarının formasında dəyişiklik aşkar edilmişdir. Aşağı çənənin çənəaltı nöqtəsinin yarıq olan tərəfə sürüşməsi, çox hallarda da aşağı çənə şaxəsinin yarıq olan tərəfdə hünüdürlüyünün kiçik olması aşkarlanmışdır (P<0,01)

Yan proyeksiyada çəkilmiş telerentgenoqramda kəllə əsasına nəzərən kəsici dişlərin yerləşməsi və əyilmə bucaqları dəyişilmişdir. Yuxarı kəsici dişlərin retrovəziyyəti və retruziyası daha çox ifadə olunmuş, nəticədə kəsici dişlər arasındakı bucağın qiyməti artıq oluşdur.

Kəllə əsasına nəzərən yuxarı çənənin vəziyyəti yuxarı mikro-ortoqnatik yaxud yuxarı mikro-retroqnatik olmuşdur.

Beləliklə, başın ön və yan proyeksiyalarda çəkilmiş telerentgenoqramlarında dodaq-damaq yarıqları üçün ümumi olaraq aşağıdakı xarakterik əlamətlər kompleksinin olması müəyyənləşdirilmişdir. Yuxarı çənədə Z-Z xətti boyunca almacıq sümüyü nahiyəsinin daralması, N-S xətti boyunca kəllə əsasının ön hissəsinin qısalması, NSL-PNS boyunca sifətin arxa yuxarı hündürlüyünün azalması, J-J boyunca kəllə əsasının daralması, Js-ms boyunca yuxarı diş sırasının qısalması, Ba-ANS boyunca üzün dərinliyinin azalması xarakterik olmuşdur. Həmçinin yuxarı çənənin əsasının cJ-ANS boyunca ön nahiyədə qısalması, yuxarı çənənin apikal bazisinin ZSNA boyunca arxa vəziyyəti, Bbicl-NL boyunca ön yuxarı diş-alveol hündürlüyünyn azalması, ZNSL/NL boyunca yuxarı çənənin anteinklinasiyasının artması və ZNSL/OcP boyunca okklüziya müstəvisinin kəllə əsası müstəvisinə olan mailliyinin artması aşkar edilmişdir (P<0,01).

Dodaq-damaq yarıqları zamanı başın ön və yan proyeksiyalarda çəkilmiş telerentgenoqramlarında aşağı çənədə ümumi olaraq aşağıdakı xarakterik əlamətlər kompleksinin olması müəyyənləşdirilmişdir. Çənəaltı nöqtənin yarıq olan tərəfə sürüşməsi, Go-Go boyunca aşağı çənə bucaqları nahiyəsində enin dəyişilməməsi, ZSNB boyunca aşağı çənənin apikal bazisinin arxa vəziyyəti, ZSNPg boyunca çənəaltı nahiyənin arxa vəziyyəti xarakterik olmuşdur. Həmçinin aşağı çənə bucağının ZarGoGn boyunca artması, aşağı çənə şaxəsinin Ar-Go boyunca uzanması, aşağı ön diş-alveol hündürlüyünün artması, sifətin aşağı ön hündürlüyünün ANS-Gn boyunca artması və aşağı çənənin ZNSL/ML boyunca retroinklinasiyasının artması müşahidə olunmuşdur. 31 və 41-ci dişlərin yerdəyişmələri, 16 və 26-cı dişlər nahiyəsində diş sırasının daralması, yuxarı və aşağı dişlərin retropozisiyası, yuxarı dodağın çapıq deformasiyası, yuxarı dodağın retropozisiyası və hündürlüyünün azalması aşkar edilmişdir.

Nəticə. Beləliklə, rentgenoloji müayinələrinin nəticəsində anadangəlmə dodaq-damaq yarıqları olan xəstələrin əksəriyyətində dişlərin, xüsusilə də yuxarı çənənin ön hissəsində diş cərgəsində sıx yerləşməsi müəyyənləşdirilmişdir. Yuxarı və aşağı çənədəki mərkəzi kəsici, yan kəsici, köpək dişlər və premolyarlar arasında fissur-qabar münasıbətinin olmaması, yuxar və aşağı frontal dişlər arasında müxtəlif dərinlikdə şaquli əks qapanmanın olması, okklüziya müstəvilərinin deformasiyası, molyar dişlərin fissur-qabar

münasibəti deyil, əsasən qabar-qabar münasibə- tində görüşməsi aşkar edilmişdir.

ƏDƏBİYYAT

1. Qarayev Z.İ. Üz-çənə anomaliyalarının genetik aspektləri və inbridinq. Bakı: Təbib, 1997, 112 s.
2. Pənahov N.A. Azərbaycan Respublikasında yeniyetmələr arasında diş-çənə anomaliyalarının və deformasiyalarının epidemiologiyası, ortodontik və ortopedik müalicəyə ehtiyac, kompleks müalicə və profilaktika tədbirlərinin əsaslandırılması. T.ü.e.d. ... dis. avtoreferatı. Bakı, 2013, 44 s.
3. Yusubov Y.Ə., İmanquliyeva Q.L. Anadangəlmə dodaq və damaq yarıqları olan uşaqların tibbi və sosial problemləri. Qafqazın stomatoloji yenilikləri. Bakı, 2008, s. 64-68.
4. Пустовалова Н.А., Ефимова Т.В. Организация диспансерного наблюдения и комплексного лечения детей с врожденными расщелинами верхней губы и неба. Функционально-эстетическая реабилитация больных с врожденными расщелинами лица / Материалы Всеросс. конф. М., 2002, с. 22-23.
5. Рогинский В.В., Стукалов М.В., Арсенина О.И., Мамедов А.А. Ортодонтическая и хирургическая реабилитация детей с недоразвитием верхней челюсти после хейлоуранопластики. Развитие региональной детской стоматологии на рубеже столетий/ Материалы конф. Краснодар, 2001, с. 110-113.
6. Симановская Е.Ю., Захарова Н.И., Еловикова А.Н., Щеглова А.П. Результаты комплексного лечения детей с врожденной расщелиной верхней губы и неба // Ортодонтия. 2003, №2, с. 14-17.
7. Carvajal R., Miralles R., Ravera M. Follow-up of electromyographic and cephalometric finding in patients with unilateral cleft lip and palate after months of continuous wearing of a special removable appliance // Cleft-Palate-Craniofac-J. 1995, p. 323-327.
8. Prescott N. J., Malcolm S. Folate and Face: Evaluating the Evidence for the Influence of Folate Genes on Craniofacial Development. Cleft Palate Craniofac. J. 2002, v. 39, №3, p. 327-331.

Резюме

Характеристика рентгенологических проявлений челюстей у лиц с врожденными расщелинами губы и неба

Н.А.Панахов, Э.Я. Гасанли

Целью исследования явилось изучение характеристики рентгенологических проявлений челюстей у лиц с врожденными расщелинами губы и неба. Были обследованы 23 больные с врожденными расщелинами губы и неба. В результате обследования у большинства обследованных пациентов были выявлены скученности зубов в зубных рядах, особенно в переднем отрезке верхней челюсти. Были выявлены также отсутствие фиссурно-бугоркового контакта между верхними и нижними центральными, боковыми резцами, клыками и премолярами, наличие вертикального обратного перекрытия между верхними и нижними фронтальными зубами, деформация окклюзионной плоскости.

Summary

Condition of the occlusion in patients with cleft lip and palate

N.A.Panahov, E.Y.Hasanli

Purpose of this study was to investigate the characteristic of radiological manifestations of the jaws in patients with cleft lip and palate. Were examined 23 patients with cleft lip and palate. Surveys of the majority of patients studied were found crowding of teeth in the dental arches especially in the anterior segment of the upper jaw. In patients have been identified as the lack of fissure-tubercular contact between the upper central and lateral incisors, canines, premolars, the presence of vertical reverse overlap between the upper front teeth, deformation of the occlusal surface.

Daxil olub: 20.11.2014

ŞƏKƏRLİ DİABET VƏ EREKTİL DİSFUNKSİYA QEYD EDİLƏN XƏSTƏLƏRDƏ KAVERNOZ ARTERİYALARIN ENDOTELİAL FUNKSİYASI

R.M. Məmmədhəsənov, T.V.Mehdiyev
Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: şəkərli diabet, erektil disfunksiya, endotelial disfunksiya, kavernoz arteriyaların diametrinin faizlə böyüməsi, zirvə sistolik sürəti, son diastolik sürət
Ключевые слова: сахарный диабет, эректильная дисфункция, эндотелиальная дисфункция, увеличение диаметра кавернозных артерий в процентах, пиковая систолческая скорость, конечная дистолическая скорость
Keywords: diabetes, erectile dysfunction, endothelial dysfunction, increasing the diameter of the cavernous arteries in percentage sistolcheskaya peak speed, the final diastolic velocity

Şəkərli diabet (ŞD) nəinki inkişaf etmiş ölkələrdə, eyni zamanda inkişaf etməkdə olan ölkələrdə XXI əsrin əsas epidemiyalarından biridir. Beynəlxalq Diabet Federasiyasının (BDF) məlumatlarına görə (2013) dünyada 382 mln insan ŞD ilə xəstədir. Bütün ŞD xəstələrin təxminən 10 faizində I tip ŞD olduğu qeyd olunur [1,2]. ŞD-nin ən çox rast gəlinən fəsadlarından biri erektil disfunksiyadır (ED). ŞD-nin mövcudluğu eyni yaşda olan sağlam kişilərlə müqayisədə ED-nin inkişaf riskini 2-d dəfə artırır. ŞD ilə xəstələnmə 75% kişilərdə gec və ya tez ED-nin yaranması ilə müşahidə olunur. Həm də, sağlam kişilərlə müqayisədə ED daha erkən başlayır və onların həyatının keyfiyyətinə əhəmiyyətli dərəcədə mənfi təsir göstərir [3].

ŞD xəstələrin ED-nin patogenezində endotelial zədələnməsi praktiki nöqteyi nəzərdən xüsusi maraq yaradır. Vazokonstriktorlarla vazodilatatorlar arasında tarazlığın pozulması endotelial disfunksiyanın inkişafına səbəb olur. Nəticədə patoloji vazokonstriksiya, leykositlərin və trombositlərin endotelial hüceyrələrə adgeziyası, saya əzələ hüceyrələrinin proliferasiyası və hiperkoaqulyasiyası əmələ gəlir, bu da endotelin aterosklerotik zədələnməsinə gətirib çıxarır [4]. Kavernoz arteriyaların endotelial disfunksiyası kavernoz cisimlərə qan axınını azaldır və adekvat ereksiyaya çatmağa maneçilik törədir. ŞD xəstələrdə endotelial disfunksiyanın yaranmasında bir çox faktorlar, xüsusilə, oksigenin sərbəst radikallarının çoxalması, endotelial NO-sintazanın fəallığının azalması ilə müşahidə olunur, eləcə də hiperqlikemiya və hiperxolesterinemiya endotelə mənfi təsir göstərir [5]. Hazırki tədqiqatın məqsədi ŞD fonunda inkişaf ED zamanı kavernoz arteriyaların endotelial funksiyanı öyrənməkdir.

Tədqiqatın materiallar və metodları. Tədqiqata Azərbaycan Respublikası Şəki-Zaqatala,Balakən-Qəbələ regionunda yaşayan 293 ŞD olan kişi daxil edilmişdir. Xəstələrin yaş həddi 17 yaşdan 60 yaşa qədər (51.7±8.5 il) olmuşdur. ŞD-nin anamnezdə davametmə müddəti 6 aydan 30 ilədək (17.4±7.5 il) olmuşdur. Xəstələr 4 qrupa bölünmüşlər: I qrupa 18-29 yaşlarda 32 xəstə; II qrupa 30-39 yaşlarda 45 xəstə; III qrupa 40-49 yaşlarda 107 xəstə; IV qrupa 50-59 yaşlarda 109 xəstə daxil edilmişdir. Tədqiqatda Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) kiliniki tədqiqatda tətbiq edilən fərdi tibbi kartlardan istifadə edilmişdir. Xəstələrdə ereksiya funksiyasını qiymətləndirmək üçün ereksiya funksiyasının beynəlxalq indeksi (EFBİ) şkalası tətbiq edilmişdir. EFBİ üzrə 26 bal normal ereksiya funksiyası, 18-25 bal yüngül forma ED, 11-17 bal mülayim və ya orta ağır ED, 0-10 bal ağır forma ED kimi qəbul edilmişdir [6]. Xəstələrdə həyəcanlılıq və depressiya vəziyyətlərini qiymətləndirmək üçün həyəcanlılığın və depressiyanın hospital şkalasından istifadə edilmişdir [7]. Ereksiya vəziyyətləri Juneman K. Və həmmüəlliflərin təklif etdiyi cədvəl üzrə qiymətləndirilmişdir [8]. ED-nin diaqnostikası üçün xəstələr rutin müayinələr (anamnez, ümumi baxış, kliniki və biokimyəvi analizlər), xüsusi müayinələr (farmakodopleroqrafiya, zirvə sistolik sürəti (ZSS) və son diastolik sürət (SDS) tədqiq olunmuş, uroloqun, oftalmoloqun və psixatrın məsləhətləri aparılmışdır. ŞD xəstələrdə diabetin dekompensasiya vəziyyətini müəyyən etmək üçün qlikohemoqlobinin səviyyəsi, diabet neyropatiyasını təyin etmək üçün vibrasion, tempratur və taktil hissiyat yoxlanılmışdır.

Bütün xəstələrdə tədqiqatdan əvvəl və sonra kavernoz arteriyaların endotelial funksiyasını öyrənmək üçün Маэо Е.Б. və həmmüəlliflərin modifikasiya olunmuş müayinə üsullarından istifadə edilmişdir. Bu üsulun mahiyyəti ondan ibarətdir ki, kavernoz arteriyaların diametri USM-lə əvvəlcə yoxlanılır, sonra bazu arteriyasında arterial təzyiq ölçülür. Bundan sonra cinsiyyət orqanının əsasına manjet qoyulur və oraya xəstənin sistolik arterial təzyiqindən 10


mm c.st. çox olmaqla hava vurulur və 5 dəqiqə ərzində kompressiya saxlanılır. Kompressiyadan distal hissəyə kavernoz arteriyalarla qan axınının olmaması USM dopleroqrafiyası ilə müəyyən edilir. 5 dəqiqədən sonra manjet çıxarılır (şək.1). Manjet qoyulan yerdən distal hissədə kavernoz arteriyaların diametri USM-lə ölçülür.

Kavernoz arteriyaların endotelial funksiyasını qiymətləndirmək üçün kavernoz arteriyaların diametrinin böyümə faizinin (KADBF) qiymətindən istifadə olunmuşdur:

$$KADBF=100\%x(D_{ks}-D_{kə})/D_{kə}$$

Burada, $D_{kə}$ - hər iki kavernoz arteriyaların kompressiyadan əvvəl diametrinin orta qiyməti; D_{ks} – hər iki kavernoz artriyaların kompressordan sonrakı diametrinin orta qiyməti. KADBF göstəricisi 50 %-dən az olarsa, bu kavernoz arteriyalarda endotelial disfunksiyanı göstərir.

Endotelial funksiyanı bazu arteriyalarında yoxlamaq üçün əvvəlcə arterial təzyiq ölçülür, sonra manjetə sistolik arterial təzyiqdən 50 mm c.st. çox olmaqla hava vurulur və 5 dəqiqə ərzində kompressiyada saxlanılır (şək.2).




Şək.1 Kavernoz arteriyaların diametrinin postkompression dəyişilmələrinin tədqiqat sxemi



Şək. 2 Sağ bazu arteriyasının diametrinin USM ilə ölçülməsi

Bazu arteriyasının diametrinin kompressiyadan sonrakı və əvvəlki ölçülərinin faizlə böyüməsinin qiyməti hesablanır. Əgər bazu arteriyasının diametrinin böyüməsi 15 %-dən az olarsa, bu endotelial disfunksiya kimi qiymətləndirilir. Kavernoz və bazu arteriyalarının USM dopleroqrafiyası "Medison X-8" cihazı və LA 523 10-5 xətti vericisinin köməyi ilə yerinə yetirilmişdir. Alınan riyazi məluamatlar Styüdentin kriteriyaları üzrə variasion statistik üsulla işlənilmişdir.

Tədqiqatın nəticələri və müzakirəsi. ŞD xəstələrdə ED-nin üzvi, psixogen vəqarışıq formaları EFBİüzrə sorğu kartları ilə xəstələrin obyektiv və instrumental müayinələri əsasında ayırd edilmişdir. Tədqiqat nəticəsində məlum olmuşdur ki, 293 ED qeyd edilən ŞD xəstənin 89-da (39,4±2,7%) üzvi ED, 94-də (32,1±2,7%) psixogen ED, 110-da (37,5±2,8%)



qarışıq ED olduğu qeyd olunmuşdur (şək.3).

Şək.3. Tədqiqatın kontingenti

89 xəstədə EFBİ 0-10 bal, 110 xəstədə EFBİ 11-17 bal, 94 xəstədə EFBİ 18-25 bal olduğu aşkar olunmuşdur. Kavernoz arteriyaların diametrinin faizlə böyüməsi müxtəlif qruplarda öyrənilmişdir (Cədvəl 1). 94 xəstədə psixogen ED və ya yüngül ED olması EFBİ-nin (18-25) bal səviyyəsinə, həm də HADS üzrə həyacanlılıq vəziyyətinin üstünlüyünə əsasən müəyyən olunmuşdur. Psixogen mənşəli yüngül ED qeyd edilən xəstələrdə KADBF göstəricisi 50% və ya ondan artıq olmuşdur. Eyni zamanda həmin xəstələrdə ZSS 35 mm/san-dən çox, SDS 5 mm/san az olmuşdur (şək. 4,5). 94 xəstədə depressiya halları HADS kartı və kliniki anamnestik məlumatlara əsasən müəyyən olunmuşdur. 110 xəstədə həyəcanlılıq və depressiya halları həm HADS kartı üzrə, həm də kliniki-anamnestik məlumatlar əsasında müəyyən edilmişdir.

Qarışıq ED xəstələrin sayı ayrılıqda götürülmüş üzvi və psixogen ED xəstələrdən çoxdur. Məhz bu fakt onu təsdiq edir ki, ED-nin etiopatogenezi multifaktorludur, həm də, üzvi ED xəstələrin sayı üstünlük təşkil edir. Psixogen amillər üzvi amillərin, üzvi amillər isə psixogen amillərin təsirini qarşılıqlı surətdə gücləndirir. Orta ağır və ağır forma ED qeyd edilən xəstələrdə fiziki fəallıq çox zəif, seksual fəallığın isə heç olmadığı qeyd edilmişdir. Apardığımız tədqiqatda həm yaşın və həm ŞD-nin ED-nin inkişafı üçün risk faktorları olduğu və yaşla ED-nin inkişafında xətti asılılığın mövcudluğu təsdiq olunur. Həm bazu, həm də kavernoz arteriyalarda KADBF göstəriciləri əsasında endotelial disfunksiyanın mövcudluğunu, eləcə də arteriogen ED-nin diaqnozunu qoymaq mümkündür (cədvəl 2.).

Cədvəl 1

SD xəstələrdə kavernoz arteriyaların diametrinin böyüməsinin faiz (KADBF) qiyməti

Qruplar	KADBF-in qiyməti
Bütün xəstələr (n=293)	57.5 ±28,4
Nəzarət	84,9 ± 11,7
Psixogen ED	81,4± 17,5
Arteriogen ED	28,9 ± 10,7
Venookkluzion ED	82,1± 26,8
Neyrogen ED	81,4 ± 12,8

Cədvəl 2

Müxtəlif quruplarda bazu arteriayasının diametrinin böyüməsinin postkompession göstəriciləri

Quruplar	KADBF –in qiyməti
Bütün xəstələr(n=293)	12,5±7,4
Nəzarət	16,9±4,9
Psixogen ED	19,2±2,8
Arteriogen ED	6,1± 3,4
Venookkluzion ED	18,1±6,5
Neyrogen ED	16,3±5,9

89 üzvi ED təyin edilən xəstələrin 72-də (81%) arteriogen, 9-da (%) venookkluzion, 8-də (%) qarışıq vaskulogen ED qeyd edilmişdir; 110 qarışıq ED-nin 80-da (72,73%) arteriogen ED, 17-də (15,46%) venookkluzion, 13-də (11,81%) qarışıq vaskulogen ED aşkar edilmişdir (cədvəl 2). 72 arteriogen ED qeyd edilən xəstələrdə KADBF göstəricisi 50%-dən az, ZSS 35 mm/san-dən az, SDS 5 mm/san-ə bərabər və ya ondan aşağı olmuşdur. Venookkluzion ED qeyd edilən xəstələrdə SDS 5 mm/san-dən çox olması ilə müşahidə olunmuşdur.

I və II tip ŞD xəstələr arasında üzvi ED aşkar edilənlərin sayı 199 (67,92%) nəfərdir. ED-nin etiopatogenezini aydınlaşdırdıqda I tip ŞD xəstələrin 32-dən 26-da (81,25%) psixogen ED, II tip ŞD xəstələrin 261-dən 68-də (26,05%) psixogen ED olduğu aşkar olundu. Deməli, I tip ŞD xəstələr arasında psixogen ED üstünlük təşkil edir ($p<0,001$).

Müayinə olunan 293 xəstənin 152-də (51,88%) arteriogen ED, 26-da (8,87%) venookkluzion ED, 21-də (7,18%) qarışıq vaskulogen ED qeyd edildi. Arteriogen ED xəstələrin sayı (venookkluzion və qarışıq vaskulogen ED) qeyd edilən xəstələrdən çox olduğu müşahidə edildi (Cədvəl 3). Bununla belə, 293 xəstədən 180-da (61,4%) diabet neyropatiyaları, o cümlədən avtonom diabet neyropatiyası qeyd edilmişdir.

Cədvəl 3
ED-nin etiopatogenezinə görə müayinə olunan ŞD xəstələrin kliniki xüsusiyyətləri

Göstəricilər		Psixogen ED (n=94) (%)	Arteriogen ED (n=152) (%)	Venookkluzion ED(n=26) (%)	Neyrogen ED (n=21) (%)
ŞD xəstələr	I tip ŞD(n=32)	26(81,3±6,9)	4(12,5±5,8)	1(3,1±3,1)	1(3,1±3,1)
	II tip ŞD(n=261)	68(26,12,7)	148(56,7±3,1)	25(9,6±1,8)	20(7,7±1,6)
p		$\chi2=18,1$; $p< 0,001$			
ED-nin ağırlıq dərəcəsi	yüngül ED (n=94)	87(92,6±2,7)	5(5,3±12,3)	2(2,1±1,5)	–
	orta ağır ED (n=110)	7(6,4±2,3)	75(68,2±4,4)	16(14,5±3,4)	12(10,9±3,0)
	ağır ED(n=89)	–	72(80,9±4,2)	8(9,0±3,0)	9(10,1±3,2)
p		$\chi2=230,0$; $p<0,001$			
ŞD-nin gedişi	Kompensasiya (n=75)	32(42,7±5,7)	29(38,7±5,6)	9(12,0±3,8)	5(6,7±2,9)
	dekompensasiya (n=218)	62(28,4±3,1)	123(56,4±3,4)	17(7,8±1,8)	16(7,3±1,8)
p		$\chi2=8,06$; $p< 0,05$			

Şəkərli diabetli kişi xəstələrdə ED-nin əmələ gəlməsinin multifikatorlu olduğunu nəzərə alıb müşahidə aparılan 293 ŞD xəstədə ED-nin etiopatogenezini tədqiq etdikdə məlum olur ki, ŞD ilə xəstələnmə müddəti artdıqca üzvi mənşəli ED-nin rast gəlmə tezliyi də artır. ($\chi^2=31,02$; $p<0,001$). Həmin qrupa daxil olan xəstələrdə KADBF göstəricisi 50 %-dən aşağı, ZSS 35 mm/san dən aşağı olmuşdur. Göstərilən xəstələrin əksəriyyətində diabetin dekompensasiya vəziyyətləri (HbA_{Ic} ≥6,5%) qeyd edilmişdir. Tədqiqatın nəticələri digər tədqiqatçıların aldıqları nəticəyə uyğundur [9,10]. ŞD ilə xəstələnmə müddəti 5 ilə qədər olan 142 xəstədən 27-də (9,2±1,7%) üzvi ED, 51-də (17,4±2,2%) qarışıq həm üzvi, həm də psixogen ED, 64-də (21,8±2,4%) psixogen ED olduğu qeyd edilmişdir. Bu rəqəmlər bir daha təsdiq edir ki, diabetlə xəstələnmə müddəti az olan xəstələrdə psixogen ED daha çox (2 dəfə) üstünlük təşkil edir (cədvəl 4).

ŞD ilə xəstələnmə müddəti 6-10 ilə qədər olan 77 xəstədən 27-də (9,2±3,7%), üzvi ED, 29-da (9,9±1,7) qarışıq ED, 21-də (7,2±1,5%) psixogen ED müşahidə olunmuşdur. Cədvəldən göründüyü kimi xəstələnmə müddəti 6-10 ilə qədər olan ŞD xəstələrdə qarışıq ED xəstələr üstünlük təşkil edir.

ŞD ilə xəstələnmə müddəti 10 ildən yuxarı olan 74 xəstədən 35-də (11,9±1,9%) üzviED, 30-da (10,2±1,8%) qarışıq ED, 9-da (3,1±1,0) psixogen ED olduğu qeyd edilmişdir. Cədvəldən göründüyü kimi ŞD ilə xəstələnmə müddəti 10 ildən yuxarı olan xəstələrdə üzvi və qarışıq ED

xəstələrin sayı psixogen ED xəstələrdən bir neçə dəfə çox rast gəlinir (χ^2= 31,02; p< 0,001).

ŞD xəstələrdə retroqrad eyakulyasiya avtanom diabet neyropatiyasının fəsadlarından biri olub, çox vaxt geri dönməz hesab edilir və əksər hallarda dölsüzlüklə nəticələnir. Müşahidədə olan 293 ŞD xəstənin 40-da (13,7±2,0%) retroqrad eyakulyasiyanın (RE) mövcudluğu anket sorğusunda qeyd edilmişdir. ŞD ilə xəstələnmə müddətinin artması da eyni zamanda RE rast gəlmə tezliyini çoxaldır.

Cədvəl 4

Şəkərli diabetlə xəstələnmə müddətinə görə erektil disfunksiyanın rast gəlmə tezliyi

ED-nin etiopatogezi	ŞD ilə xəstələnmə müddəti (il)					
	5 ilə qədər		6-10 ilə qədər		10 ildən yuxarı	
Üzvi ED	27	19%	27	35%	35	47%
Qarışıq ED	51	36%	29	38%	30	41%
Psixogen ED	64	45%	21	27%	9	12%
	n=142		n=77		n=74	
	χ^2=31,02; p<0,001					

Dispanser müşahidədə olan ŞD fonunda ED inkişaf edən xəstələrdə ürək damar sisteminin əsas risk faktorları (arterial hipertenziya, dislipidemiya, siqaretçəkmək, qeyri-fəal həyat tərzi) qeyd edilmişdir. Bu risk faktorları qeyd edilən xəstələrdə arteriogen ED üstünlük təşkil etmişdir.

Beləliklə, aparılan tədqiqat işi göstərir ki, şəkərli diabetlə xəstələnmə müddətinin artması və diabetin dekompensasiya vəziyyətləri (HbA_{Ic}≥6,5%) kavernoz arteriyaların endotelial funksiyasına neqativ təsir etməklə ED-nin inkişafına gətirib çıxarır. Eyni zamanda ŞD xəstələrdə fiziki fəallığın azalması, seksuallığın fəallığın dezaktualizasiyası kavernoz arteriyalarla endotelioz prosesini sürətləndirir.

Nəticələr:1.Endotelial funksiya pozulmaları ED qeyd edilən II tip ŞD xəstələrdə I tip ŞD xəstələrdən daha çox rast gəlinir. 2.ŞD ilə xəstələnmə müddətinin çoxalması arteriogen mənşəli ED-nin artması ilə, I tip ŞD xəstələrdə isə avtonom diabet neyropatiyalarının, xüsusilə, retroqrad eyakulyasiyanın və neyrogen ED-nin artması ilə müşahidə olunur. 3.ŞD-nin dekompensə vəziyyətləri, arterial hipertenziya, dislipidemiaya, siqaret çəkmə, fiziki və seksual fəallığın az və ya heç olmaması kavernoz cisimlərdə endotelial funksiyanın pozulmasına və ED-nin inkişafına səbəb olur.

ƏDƏBİYYAT

1. Аметов А.С. Сахарный диабет 2 типа. Проблемы и решения. М.: ГЭОТАР-Медиа, 2012, с. 183-208.
2. İDFDiabetesatlas 6thedition. Theglobalburden, 2013, 10p.
3. Мазо Е.Б., Гамидов С.И., Иремашвили В.В. Эректильная дисфункция. 2-е изд., перераб. и доп. М.: ООО «Медицинское информационное агенство», 2008, 240с.
4. Дамулин И.В., Есилевский Ю. М.Эректильнаядисфункция:Современное состояние проблемы //Урология, 2014, №3, с. 95-101.
5. Mehman N.Mamedov., Mens health problems in cardiology//Moscow, 2013, p.29-44.
6. Rosen R., Riley A., Wagner G. et al. The International Index of erectile Function (IIEF): a multidimensional scale for assessment of erectile dysfunction // Urology, 1997, v. 49, p. 822-830.
7. Zigmond A., Snaith R. The Hospital Anxiety and Depression Scale // ActaPsychiatricaScandinavica, 1990, v. 67, p. 361-370.
8. Junemann K., Siegsmund M., Rassweiler J. et al. Calculation of the resistancy index for differential diaqnosis of vascular and non-vascular impotence Research. 1990, 207s.
9. Мазо Е.Б., Гамидов С.И., Овчинников Р.И. и др. Посткомпрессионный тест в диагностике васкулогеннойэректильной дисфункции // Урология, 2005, №4, с. 64-69
10. Rosano GM, Aversa A, Vitale C, et al. Chronic treatment with tadalafil improves endothelial function in men with increased cardiovascular risk // Eur Urol., 2005, v.47, p.214-20.

Резюме

Эндотелиальная дисфункция кавернозных артерий у больных с сахарным диабетом и эректильной дисфункцией

Р.М.Мамедгасанов, Н.В.Мехтиев

Целью данного исследования явилось изучение эндотелиальной дисфункции кавернозных артерий у больных с эректильной дисфункции на фоне сахарного диабета. В исследование вошли 293больных с СД из регионов Шеки-Загатала, Балакен-Гебеле Азербайджанской Республики. Нарушение эректильной функции больше встречается среди больных с СД-2, чем у больных СД-1. Длительное течение СД влияет на развитие эректильной дисфункции артериогенного генеза. У больных с СД-1 наблюдается автономные диабетические нейропатии, ретроградная эякуляция и увеличение нефрогенной эректильной дисфункции. Декомпенсированные состояния при СД, артериальная гипертензия, дислипидемия, курение, низкое физическое и сексуальная активность приводит к нарушению функции кавернозных тел и развитию эректильной дисфункции.

Summary

Endothelial dysfunction of the cavernous arteries in patients with diabetes and erectile dysfunction

R.M.Mamedhasanov, N.V.Mehtiyev

The purpose of this study was to investigate the cavernous artery endothelial dysfunction in patients with erectile dysfunction and diabetes mellitus. The study included 293bolnyh with diabetes from the regions of Sheki-Zagatala, Balaken Gabala, Azerbaijan. Erectile dysfunction more common among patients with type 2 diabetes than in patients with type-1. Long duration of diabetes affects the development of erectile dysfunction arteriogenic genesis. In patients with type-1 diabetic autonomic neuropathy occurs, retrograde ejaculation and increase nephrogenic erectile dysfunction. Decompensated state in diabetes, hypertension, dyslipidemia, smoking, low physical and sexual activity leads to dysfunction of the corpora cavernosa and the development of erectile dysfunction.

Daxil olub: 10.11.2014

OBTURASION SARILIQDA ENDOGEN İNTOKSİKASIYANIN VƏZİYYƏTİ

E.Q.Tağıyev

Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: obturasion sarılıq, endogen intoksikasiya, qaraciyər disfunksiyası

Ключевые слова: обтурационная желтуха, эндогенная интоксикация, печеночная дисфункция

Keywords: obstructive jaundice, endogenous intoxication, hepatic dysfunction

Öddaşı xəstəliyinin təhlükəli ağırlaşmalarından olan xoledoxolitiaz fonunda baş verən obturasion sarılıq (OS) hazırda öz həllini gözləyən sərbəst bir problemə çevrilmişdir [1,2]. Belə ki, artmaqda davam edən öd hipertenziyası və qaraciyər toxumasının işemiyası, portal hemodinamikanın və mikrosirkulyasiyanın pozulması qaraciyərdə dərin morfo-funksional dəyişikliklərə, qaraciyərin disfunksiyasına, kəskin xolangitə və digər bir sıra ağırlaşmaların meydana çıxmasına gətirib çıxarır [3,4]. Meydana çıxan xolestaz qısa bir müddətdə xolestatik intoksikasiyaya, əsas səbəbi qaraciyərin detoksikasiya və sintetik funksiyalarının enməsi olan qaraciyər çatmazlığına səbəb olur [5]. Məhz homeostazın kompensator mexanizmlərinin pozulması, endogen intoksikasiyanın proqressivləşməsi və nəticə etibarı ilə inkişaf edən qaraciyər çatmazlığı öd yollarında aparılan əməliyyatlar zamanı ölümün əsas səbəbi sayılır [6, 7].

İşin **məqsədi** Xoledoxolitiaz mənşəli OS zamanı endogen intoksikasiyanın dərinliyinin qaraciyərin disfunksiyasının dərəcəsindən asılı olaraq müqayisəli öyrənilməsindən ibarətdir.

Tədqiqatın material və metodları. Bu məqsədlə müşahidəmiz altında olan xoledoxolitiaz mənşəli OS diaqnozu ilə cərrahi müdaxilə keçirmiş və standart bazis konservativ müalicə almış 16-84 yaşlı 67 xəstədə endogen intoksikasiya göstəriciləri öyrənilmişdir. Qaraciyərin disfunksiya (QD) dərəcələri xolestaz markerləri (ümumi bilirubin, qələvi fosfataza) və hepatositlərin sitoliz göstəricilərinə (AST, ALT)

əsasən təyin edilmişdir. I dərəcəli QD (qanda ümumi bilirubinin miqdarı 50 mkmol/l-ə qədər) 21, II dərəcəli QD (ümumi bilirubinin 50-100 mkmol/l) 14, III dərəcəli QD (ümumi bilirubinin 100-200 mkmol/l) 10 və IV dərəcəli QD (ümumi bilirubinin miqdarı 200 mkmol/l-dən çox) 9 xəstədə olmuşdur. 13 xəstədə isə MS İX ilə ağırlaşmışdır.

Endogen intoksikasiya markerlərindən olan orta molekulu peptidlər (OMP) qanda və öddə В.В. Николайчук с соавт. [8] üsulu ilə təyin edilmişdir. Həmçinin, dinamikada əməliyyataqədər və əməliyyatdansonrakı dövrün 1,3,7, 14-cü sutkalarında qanda qalıq azot, sidik cövhəri, kreatinin, ümumi zülal, albuminin ümumi (AÜK) və effektiv konsentrasiyası (AEK) da öyrənilmişdir. 15 praktik sağlam insanın analoji göstəricilərini norma kimi nəzərə almışıq.

Alınan nəticələr variasion statistika və Uilkokson-Manna-Uitni meyarı nəzərə alınmaqla qeyri-parametrik üsulla işlənilmişdir.


Nəticələr və onların müzakirəsi. Əməliyyatönü dövrdə OS fonunda xəstələrdə ümumilikdə plazmada OMP miqdarı orta hesabla normaya nisbətən 89,4% ($p<0,001$) artaraq 0,97±0,40 q/l-ə yüksəlmişdir. Cərrahi müdaxilə zamanı xoledoxdan götürülmüş öddə isə OMP miqdarı 1,71±0,06 q/l olmuşdur.

Həmçinin, xəstələrdə əməliyyatönü dövrdə qanda kreatinin miqdarı normadan 70,9% ($p<0,01$), sidik cövhərinin 3,0 dəfə ($p<0,001$), qalıq azotun 2,4 dəfə ($p<0,001$) yüksəlməsi fonunda AÜK-un 31,0% ($p<0,001$) və AEK-un 41,3% ($p<0,001$) azalması qeyd edilmişdir.


Əməliyyatdansonrakı dövrdə standart konservativ terapiya tədbirləri hesabına plazmada OMP miqdarı dinamikada azalmağa istiqamətlənsə də müşahidənin sonunda normadan 54,0% ($p<0,001$) yüksək olaraq qalmışdır. Həmçinin, xaricə drenajlanmış xoledoxdan gələn öddə də OMP miqdarı dinamikada azalaraq 7-ci sutkada 1,35±0,06 q/l olmuşdur ki, bu da ilkin göstəricidən 21,0% azdır ($p_0<0,001$).

Plazmada və öddə OMP miqdarının azalması qanda endogen intoksikasiya markerlərindən olan qalıq azot, sidik cövhəri və kreatinin səviyyəsinin enməsi, əksinə AÜK və AEK-in artması ilə müşayiət edilmişdir. Lakin müşahidənin sonuna heç bir göstərici tam normallaşmır.

Müqayisəli analiz xəstələr daxil olarkən endogen intoksikasiya göstəricilərinin səviyyəsinin QD-nin dərəcəsindən birbaşa asılı olmasını göstərmişdir (şək. 1).




Şək. 1. QD-nin dərəcələri ilə endogen intoksikasiya göstəriciləri arasında birbaşa asılılıq



Şək. 2. Xəstələrdə AEK-in müqayisəli dəyişmə dinamikası

Analoji qanunauyğunluq OMP-nin öddəki miqdarında da müşahidə edilir. Belə ki, cərrahi müdaxilə zamanı xoledoxdakı öddə OMP-nin miqdarı I dərəcəli QD-də 1,25±0,13 q/l, II dərəcəli QD-də 1,51±0,13 q/l, III dərəcəli QD-də 1,87±0,08 q/l, IV dərəcəli QD-də 1,90±0,08 q/l və OS+İX olan xəstələrdə isə 1,93±0,11 q/l olmuşdur.

Biliar dekompressiyadan sonra aparılan ümumən qəbuledilmiş konservativ terapiya öyrənilən göstəriciləri dinamikada normaya doğru dəyişməyə istiqamətləndirsə də normallaşma baş vermir. Lakin müşahidənin sonunda bütün öyrənilən göstəricilərin normaya daha çox yaxınlaşması I dərəcəli QD-sı olan xəstələrdə qeyd edilmişdir (şək. 2).



Şək. 3. QD-nin dərəcəsindən asılı olaraq öddə OMP miqdarının dinamikası

Analoji qanunauyğunluq OMP-nin öddə dinamikada azalmasında da qeyd edilmişdir (şək.3). Qeyd etmək lazımdır ki, əməliyyatdansonrakı dövrün 7-ci sutkasında QD-nin bütün dərəcələrində xaricə drenajlanmış xoledoxdan götürülmüş öddə OMP miqdarı analoji dövrdə onun plazmadakı səviyyəsindən xeyli yüksək olaraq qalır.

Nəticələr:

1. Xoledoxolitiaz mənşəli obturasion sarılıq zamanı meydana çıxan endogen intoksikasiyanın dərinliyi qaraciyər disfunksiyasının dərəcələrindən birbaşa asılıdır.

2. Qaraciyər disfunksiyasının bütün dərəcələrində öddə orta molekullu peptidlərin miqdarı onun plazmadakı səviyyəsindən xeyli yüksək olur.

3. Orta molekullu peptidlərin miqdarının dinamikada eyni vaxtda paralel olaraq öddə və qanda təyini endogen intoksikasiyanın dərinliyinin və müalicənin səmərəliliyinin qiymətləndirilməsində laborator monitorinqin ən informativ üsullarından biridir.

ƏDƏBİYYAT

1. Дябкин Е.В. Механическая желтуха неопухолевого генеза: состояние иммунитета и методы коррекции. Автореф. дисс… на соиск. уч. ст. к.м.н. Красноярск, 2011, с. 28 с.
2. Болевич С.Б., Ступин В.А., Гахраманов Т.В. Особенности течения свободнорадикальных процессов у больных с обтурационной желтухой и методы их коррекции // Хирургия, 2010. № 7, с. 65-70.
3. Kloek J., Gaag N., Aziz Y. et al. Endoscopic and percutaneous preoperative biliary drainage in patients with suspected hilar cholangiocarcinoma // J. Gastrointest. Surg., 2010, v.14, № 1, p. 119-125.
4. Кузьменко А.Е., Дудин А.М., Греджев Ф.А. и др. Кровообращение в портальной системе печени у больных с обтурационной желтухой // Харк. хірург. школа, 2009, № 4.1(36), с.233-235.
5. Мумладзе Р.Б., Чеченин Г.М., Эминов М.З. и др. Возможности чрескожных эндобилиарных вмешательств у больных с механической желтухой // Хирургия, 2005, № 5, с. 23-27
6. Хоконов М.А., Силина Е.В., Ступин В.А. и др. Свободнорадикальные процесса у больных с острым калькулезным холециститом // Хирургия, 2011, № 1, с. 58-64
7. Fagan S.P., Awad S.S., Rahwan K. et al. Prognostic factors for the development of gangrenous cholecystitis // American Journal of Surgery, 2003, v. 186, p. 481 – 485
8. Николайчук В.В., Моин В.М., Кирковский В.В. и др. Способ определения «средних молекул» // Лабораторное дело, 1991, № 10, с. 13-18.

Резюме

Состояние эндогенной интоксикации при обтурационной желтухе

Э.Г. Тагиев

Представлены результаты изучение состояние эндогенной интоксикации (ЭИ) у 67 больных в динамике хирургического лечения с холедохолитиазом, осложненной обтурационной желтухе (ОЖ) в зависимости от тяжести печенной дисфункция (ПД). Степень ПД оценена выраженностью синдромов холестаза и цитолиза гепатоцитов. У 21больного была I степень, у 14- II, у 10- III и у 9- IV степень ПД, а у 13 больных ОЖ осложнялась гнойным холангитом (ГХ). При поступлении у больных содержание среднемолекулярных пептидов (СМП) в крови было на 89,4% ($p<0,001$), креатинина – на 70,9% ($p<0,001$), остаточного азота – в 2,4 раза ($p<0,001$) больше, наоборот общей и эффективной концентрации альбумина соответственно на 31,0% ($p<0,001$) и 41,3% ($p<0,001$) меньше нормы. А в желчи взятой во время операции уровень СМП было больше, чем в плазме крови. На фоне проведенных операции в послеоперационном периоде общепринятая комплексная терапия в динамике снижала уровень ЭИ, однако нормализация изученных показателей не происходила. В ходе проведенных исследований было установлено, что глубина ЭИ зависела от степени ПД и ГХ: чем больше степени ПД, тем глубже ЭИ.

Summary

The state of endogenous intoxication in obstructive jaundice

E.G.Tagiyev

In 67 patients with choledocholithiasis complicated by obstructive jaundice (OJ), was studied the state of endogenous intoxication (EI) in surgical treatment in dynamics, depending on the severity of liver dysfunction (LD). The degree of LD was evaluated based on biochemical markers of cholestasis syndromes and cytolysis markers of hepatocytes: in 21 patients was I degree, at 14 - II degree, at 10 - III degree and 9 patients - IV degree of LD. In 13 patients was observed complications with purulent cholangitis (PCh). On admission, the content of middle molecular peptides (MMP) in blood was 89,4% ($p<0,001$), creatinine- 70,9% ($p<0,001$), residual nitrogen - 2.4 times ($p<0,001$) more than norm. Effective concentration of albumin was respectively 31,0% ($p<0,001$) and 41,3% ($p<0,001$) less than normal. In bile taken during surgery MMP level was higher than in plasma. On the background of operation, in postoperative period the complex therapy reduced the level of EI, but the normalization of the parameters studied did not occur. On studies, it was found that the depth EI depend on the degree of PCh and LD: The greater LD the deeper EI.

Daxil olub: 17.12.2014

DİŞ-ÇƏNƏ ANOMALİYALARININ MÜALİCƏSİ ZAMANI PARODONTUN VƏZİYYƏTİ

R.Q. Əliyeva, N.S. Həsənli, F.M.Quliyeva
Azərbaycan Tibb Universiteti, uşaq stomatologiyası kafedrası, Bakı

Açar sözlər: diş-çənə anomaliyaları, breket sistemi, parodont xəstəlikləri.
Ключевые слова: зубо-челюстные аномалии, брекет-системы, заболевания пародонта
Key words: dento - maxillary anomaly, bracket sistems, disease of parodont

Diş-çənə anomaliyaları stomatoloji patologiyalar arasında ön sıralarda dayanaraq, əhalinin həyat səviyyəsinin yüksəlməsi, ortodontik yardım üçün müraciətlərin sayının artmasının vacibliyi baxımından, son dövrlərdə bu problemə olan maraq xüsusilə artmışdır [1,2,3].

Dünyanın bir sıra ölkələrində aparılmış stomatoloji tədqiqatların nəticələri göstərmişdir ki, əhali arasında diş-çənə sisteminin anomaliyaları geniş yayılmışdır. Diş-çənə anomaliyalarının bəzi formalarının yayılma göstəricilərinin hətta 90%-ə qədər artması faktı bu barədə ciddi düşünməyin gərəkli olmasına əsas verir. Son tədqiqatlara görə, Azərbaycan Respublikasında 12-17 yaşlı yeniyetmələr arasında diş-çənə anomaliyalarının müxtəlif formalarınını yayılma göstəriciləri 63,09±0,7% olmuş, bu zaman onların 71,4%-də çıxan və çıxmayan ortodontik aparatlardan istifadə etməklə aktiv ortodontik müalicəyə ehtiyacın olması müəyyən edilmişdir [5].

Lakin bir faktı da danmaq olmaz ki, ağız boşluğunda dişlər üzərində ortodontik aparatların olması ağız boşluğuna oaln gigiyenik qulluğu xeyli çətinləşdirir, aparat elementlərinin üzərinə ərpin yığılmasına, nəticədə patogen və şərti-patogen mikroorqanizmlərin miqdarının artmasına və disbakterioz əlamətlərinin yaranmasına səbəb olur [6]. Bu faktorlar isə, öz növbəsində, parodont xəstəliklərinini yaranması ilə nəticələnir [4,7,8].

Tədqiqatın **məqsədi** diş-çənə anomaliyalarının müalicəsi parodont toxumalarının vəziyyətinin öyrənilməsi olmuşdur.

Tədqiqatın material və metodları. Qarşıya qoyulan məsələləri həll etmək üçün Azərbaycan Tibb Universitetinin Stomatoloji klinikasına müraciət edən, Bakı şəhərində, həmçinin Azərbaycan Respiblikasının digər şəhər və rayonlarında daimi yaşayan, diş-çənə anomaliyalarının müxtəlif formalarının- dişlər, diş sıraları və dişləm anomaliyalarının çıxmayan ortodontik aparatlarla müalicəsi aparılan 20 xəstədə müalicədən əvvəl, müalicə müddətində və sonda kliniki (PMA, Pİ, Gİ indekslərdən istifadə etməklə) müayinələr aparılmışdır.

Əldə olunmuş məlumatların statistik işlənməsi Ms Excel proqramında həyata keçirilmişdir. Tədqiqat nəticəsində alınan nəticələrin orta qiyməti və onların statistik baxışdan dürüstlüyü variasion statistika metodu ilə, parametrik və qeyri-parametrik metodların köməyi ilə: t (Stüdent), U (Vilkinson-Manna-Uitni), χ^2 (müvafiqlik əmsalı) kriterisindən istifadə etməklə müəyyən edilmişdir.

Tədqiqatın nəticələri və müzakirəsi. Alınacaq nəticələrin düzgün şərh edilməsi üçün tədqiq edilən qrupa müalicənin əvvəlindən gingivit və parodontiti olan xəstələr daxil edilməmişdir. Bunu bir sıra səbəblərlə əlaqələndirmişik. Belə ki, parodont xəstəliklərinin orta və ağır dərəcələri çıxmayan ortodontik texnika ilə müalicə üçün öz-özlüyündə əks göstəriş sayılır. Bu səbəbdən də ortodontik xəstələr arasında patoloji diş əti ciblərinə malik olan xəstələr yox idi. Eləcə də tədqiq edilən qrup arasında ümumi somatik xəstəlikləri olanları da istisna etmişik, çünki bəzi hallarda, ədəbiyyat məlumatlarında bildirildiyi kimi, həmin ümumi somatik xəstəliklər özləri parodont xəstəliklərinin yaranmasına gətirib çıxarır. Bu səbəbdən də müalicə prosesində parodontun vəziyyəti barədə əldə etdiyimiz məlumatlar çıxmayan ortodontik texnikanın istifadəsi zamanı yaranan xəstəlikləri ifadə edir.

Breket sisteminin elementlərini fiksə edəndən az sonra xəstələrin böyük əksəriyyətində, yəni 82,6%-də kataral gingivit əlamətləri aşkar

edilmişdir (P<0,05), ağız boşluğunun gigiyenik indeksinin qiyməti yüksəlmiş (P<0,01), diş ərpinin yaranması artmış (P<0,01), diş ətlərindən qanama müşahidə edilmişdir (P<0,05). Bütün bunlar diş ətlərinin selikli qişalarında iltihab prosesinin yaranmasını və güclənməsini göstərmişdir.

Əldə edilmiş məlumatlar sübut edir ki, xəstələrin, demək olar ki, hamısında (94,6%) çıxmayan ortodontik aparatların fiksasiyası zamanı birinci həftədə ağız boşluğunun gigiyenik vəziyyəti pisləşir (P<0,05). Xəstələrdə ortodontik müalicənin ilk günlərində ortodontik qüvvələrin təsirindən dişlərində ağrı və diskomfort hissi yaranmışdır. Bəzi xəstələr hətta bu diskomfortu aradan qaldırmaq üçün iltihab əleyhinə qeyri-steroid ağrıkəsici preparatlar da qəbul etmişlər.

Qida rejiminin və qəbul edilən qidanın sərtliyinin azaldılması, xəstələrdə breketlərini qoparmaqdan qorumaq kimi hislərin yaranması, dişləri təmizlərkən fırça ilə əvvəlki kimi lazım olan qüvvə ilə deyil, daha əsirgəyici tərzdə təmizləmə apardıqları səbəbindən dişlərin və breketlərin üzəri çoxlu miqdarda ərplə örtülü olmuşdur. Lakin 1 ay keçdikdən, yəni adaptasiya müddəti başa çatdıqdan sonra xəstələrdə gigyenik indekslərin aşağı düşməsi müşahidə olunmuşdur (P<0,05). Bu müddət, ağız boşluğuna normal qulluğun bərpası üçün ədəbiyyatda olan məlumatlarla üst-üstə düşmüşdür. Belə ki, bu müddət ərzində xəstələr ağız boşluğu üçün yeni şəraitə öyrənmiş, gigiyenik qulluq barədə həkim tövsiyələrinə riayət etməyə başlamışlar.

Müalicənin ikinci ayında 28,4% xəstədə aşağı çənənin diş sırasında mərkəzi və yan kəsici dişlər nahiyəsində diş ətlərinin retraksiyası, dişin kök hissəsinin çılpaqlaşması, 3,5 mm-ə qədər dərinlikdə parodontal cişlərin yaranması aşkar olunmuşdur.

56,2% xəstədə diş ətinin hiperemiyası, marginal hissədə sianoz, diş əti məməciklərinin ödemi müəyyən edilmişdir. Lakin həmin xəstələrdə diş ətinin həlqəvi bağının tamlığı pozulmamış, diş əti cibləri aşkar olunmamışdır. Dişlərin üzərində müxtəlif miqdarda yumşaq ərp aşkar edilmişdir.

Nəticə. Beləliklə, hesab edirik ki, diş-çənə anomaliyalarının müalicəsi zamanı çıxmayan ortodontik texnikadan istifadə etdikdə parodont toxumalarında yaranan dəyişikliklər dişlərin normal okklüziya yüklənməsi dəyişilməsi səbəbindən parodontun qan təchizatının pozulması və gigiyenik qulluğun çətinləşməsi sayıla bilər. Anomal yerləşmiş dişlər arasında normal münasibətlər yarananadək gigiyenik qulluq çətinləşdikdə orada yığılıb qalan qida kütlələri diş çöküntülərinə çevrilir. Nəticədə, diş çöküntüləri həm mexaniki təsir göstərərək parodont toxumasını qıcıqlandırır, həm də diş daşları olan mühitdə mikroorqanizmlərin inkişafı üçün əlverişli şarait yaranır. Ortodontik müalicə zamanı aşağı çənənin müxtəlif artikulyasıya hərəkərləri zamanı dişlərin parodontuna düşən çeynəmə təzyiqinin dişin boylama oxundan kənara çıxması səbəbindən parodont toxumalarının əlavə yüklənməsi baş verir və bu zaman parodontun strukturunda mikrodəyişiklərlə nəticələnir.

Çıxmayan ortodontik texnikanın elementlərindən sayılan ortodontik qövslərin arasına daxil olan qida kütlələri diş ətlərinin selikli qişasını və ətraf toxumaları mexaniki zədələyərək iltihaba səbəb olur. Bütün bunlar parodonta mexaniki təsir göstərməklə yanaşı, orada mikrofloranın inkişafı üçün də əlverişli mühit yaradır.

ƏDƏBİYYAT

1. Алиева Р.К. Отработка оптимальной модели развития стоматологической службы детскому населению Азербайджанской Республики. Автореф. дис. … д-ра мед. наук. М., 2000, 42 с.
2. Алимский А.В. Механизм прорезывания постоянных зубов и причины формирования аномалий зубочелюстной системы // Стоматология, 2000, № 3, с.51-53
3. Гараев З.И. Генетические аспекты зубочелюстных аномалий и роль инбридинга в их структуре и частоте распространения. Автореф. ... дис. д-ра мед. наук. М., 2000, с. 39.
4. Михайлова Е.С. Состояние гемодинамики тканей пародонта в процессе комплексного лечения аномалий положения зубов. Автореф. дисс. ... канд. мед. наук. СПб, 2000, 24 с.
5. Панахов Н.А. Распространение и интенсивность зубочелюстных аномалий у подросткового населения Азербайджана // Вісник стоматології. Украина, Одесса, 2012, №3(80), с.112-113.
6. Sukontapatipark W., Agroudi M.A., Selliseth N.J. Bacterial colonization associated with fixed orthodontic appliances: a scanning electron microscopy study // Eur. J. Orthod., 2001,v.23, №5, p. 475-484.
7. Sallum E.J., Nouer D.F., Klein M.I. et al. Clinical and microbiologic changes after removal of orthodontic appliances // Am. J. Orthod. Dentofacial Orthop., 2004, v.126, № 3, p. 363-366.

8. Speer C., Pelz K., Hopfenmuller W., Holtgräve E.A. Investigations on the influencing of the subgingival microflora in chronic periodontitis. A study in adult patients during fixed appliance therapy // J. Orofac. Orthop., 2004, v.65, № l, p.34-47.

Резюме

Состояние пародонта при лечении зубочелюстных аномалий

Р. К. Алиева, Н.С.Гасанли, Ф.М.Гулиева

Целью исследования явилось изучение состояния пародонта при лечении зубочелюстных аномалий. Были обследованы 20 больных с аномалиями зубов, зубных рядов и прикуса, которым проводилось лечение с применением несъемных ортодонтических аппаратов. В итоге, пришли к выводу, что применение несъемной ортодонтической техники при лечении зубочелюстных аномалий может быть фактором риска для возникновения заболеваний пародонта.

Summary

Condition of the periodont in treatment of dento - maxillary anomalies

R.G. Aliyeva, N.S. Hasanli, F.M. Guliyeva

The aim of this study was to examine the periodontal status in the treatment of dento - maxillary anomalies. It was examined 20 patients with abnormalities of the teeth, dentition and occlusion who underwent treatment with fixed orthodontic devices. As a result, to the conclusion that the use of fixed orthodontic technology in the treatment of dento - maxillary anomalies may be a risk factor for the occurrence of periodontal disease.

Daxil olub: 24.09.2014

ОСОБЕННОСТИ ЦИТОКИНОВ IL18 В ПАТОГЕНЕЗЕ БОЛЬНЫХ ДЕТЕЙ С БРОНХИАЛЬНОЙ АСТМОЙ

Т.Т.Панахова

Азербайджанский медицинский университет, кафедра детский болезни II, г.Баку

Açar sözlər: bronxial astma, uşaqlar, İL-18
Ключевые слова: бронхиальная астма, дети, IL-18
Keywords: bronchial asthma, children, IL-18

Интерлейкин 18(IL18(IFNγ)- inducing factor, IGIF) впервые был описан в 1989 году как новый неизвестный фактор, индуцирующий продукцию интерферон у(İFRγ). На иммунокомпетентные клетки IL-18 оказывает различные эффекты. Основной эффект- это индукция продукции IFNγ Т- и НК- клетками, в связи с чем первоначально интерлейкин 18 был назван IFNγ-индуцирующий фактор [1].

IL-18 является провоспалительным цитокином стимулирует продукцию IFNy, IL-1, GM-CSF[2,3,4],TNFa [4,5], IL-2, [2], IL-5,IL-6[6],IL-8, простагландин Е2 [7] и противовоспалительных IL-4,IL-13 [8], а также молекул адгезии и факторов апоптоза, увеличивает пролиферативную активность Т-лимфоцитов, повышает литическую активность НК-клеток.

Вышеперечисленные эффекты этого цитокина позволяют рассматривать его как один из ключевых факторов противоинфекционной и противоопухолевой защиты организма.

IL-18 играет важную роль в функционировании Тх1 типа, являясь ростовым и дифференцировочным фактором для них. Есть данные о том, что IL-18 в комбинации с IL-12 особенно при высоких концентрациях ингибируют продукцию IgE, IgG1 и IgM, и повышают продукцию IgG2a при этом не влияя на пролиферацию В-клеток. Этот эффект IL-18 и IL-12 опосредован через продукцию IFNγ, т.к. добавление в эту систему анти-IFNγ антител приводит к повышению продукции IgE и снижению IgG2a, что свидетельствует о том, что эндогенный IFNγ регулирует продукцию антител дозозависимым образом.

IL-18/IL12 при низкой концентрации или отсутствии IFHγ стимулирует продукцию IgE, высокие концентрации этих факторов подавляют продукцию этого важного фактора аллергических реакций [9,10]. Введение IL18

и IL12 приводит к снижению продукции IL-4, IL13, IgE базофилами и тучными клетками, однако введение одного IL-18 вызывает стимуляцию секреции IgE, IL-4, IL-13 этими клетками и CD4+ Т-лимфоцитами [11]. Учитывая вышеприведенные данные, можно предположить,что IL-18 является одним из патогенетических звеньев аллергического воспаления при астме. Таким образом ,можно сделать заключение о том, что IL-18 в комбинации с IL-12 обладает антиаллергическим действием, а использование одного IL-18 может приводить к стимуляции продукции факторов аллергического воспаления (IL4, IL 13, IgE, Гистамина). Резюмируя вышесказанное IL18- провоспалительный цитокин, для которого показана конститутивная экспрессия многими типами клеток и который обладает достаточно широким спектром биологических эффектов. Интерлейкин 18 стимулирует продукцию молекул адгезии, которые участвуют в механизмах клеточной миграции, что имеет значение как при формировании иммунного ответа, так и в патогенезе некоторых заболеваний.

Бронхиальная астма относится к числу широко распространенных заболеваний детского возраста и характеризуется тяжелым прогрессирующим течением, существенно снижающим качество жизни больных детей. Бронхиальная астма представляет собой хронический воспалительный процесс, обусловленный взаимодействием различных иммунокомпетентных клеток. БА относится к многофакторным заболеваниям, в развитии которых принимает участие множество цитокинов ИЛ-4, ИЛ-10, ИЛ-17, ИЛ-2, ИЛ-12, ИФНγ [12,13,14,15]. Интерлейкины определяют различный тип Th-1 и Th-2 иммунного реагирования и формируют различные клинические варианты БА. Цитокины играют существенную роль в контроле всех стадий развития и поддержания аллергических реакций и воспаления, поэтому анализ регуляции их активности имеет очень большое значение для понимания молекулярных основ патогенеза БА [14 ,16,17,18,19]. Имеется большое количество клинических исследований, посвященных изучению цитокинов в патогенезе БА у детей [16,20,21,22,23], тогда как имеется очень мало информации по роли IL-18 в патогенезе данной патологии. В связи с этим исследование цитокина ИЛ-18 при данной патологии является актуальной современной проблемой.

Цель исследования: определить взаимосвязь тяжести течения бронхиальной астмы и уровня IL-18 в сыворотке крови у детей, больных бронхиальной астмой.

Материалы и методы исследования. В исследование включены 66 детей в возрасте от 3 лет до 17 лет, (средний возраст 6,47±4,15года) больных бронхиальной астмой атопической формы, мальчиков было 57, девочек 9. Средняя длительность заболевания составила 4,3±0,31 лет. Диагноз БА устанавливался по клинико-функциональным данным, в соответствии с Международным консесусом по диагностике и терапии БА[24]. У всех пациентов развитие и обострение астмы сопровождались ОРЗ/ОРВИ. Отягощенная наследственность по БА и другим аллергическим заболеваниям отмечена у 43,0% пациентов.

Для изучения клинико-анамнестических данных использовали сведения из историй болезней ,клиническое наблюдение больных проводилось на базе аллергологического отделения детской клинической больницы №6 Азербайджанского Медицинского Университета.

Больным было проведено комплексое обследование с использованием общеклинических, функциональных рентгенологических и лабораторных методов исследования.

Определяли уровень IL-18 методом твёрдофазного иммуноферментного анализа, с использованием тест-систем фирмы Bender Medsustens.

Аллергологическое обследование путем определения уровня общего IgE и специфических IgE- антител к бытовым, пищевым, пыльцевым, эпидермальным аллергенам.Статистическая обработка полученных результатов проведена с помощью статистических формул программы Microsoft Excell 2007.

При сравнении двух выборочных средних в пределах одной выборки использовали критерий Вилкоксона, при сравнении групп между собой –критерий Манна-Уитни.

Результаты и обсуждение. При анализе анамнестических данных отмечено что искусственное вскармливание получали 45,% детей, у 24% детей перевод на искусственное вскармливание совпал с первымиэпизодами обструкции. Отягощенная наследственность выявлена- у 73% детей, в первом поколении- у 52%, причем по линии матери- у 43%

пациентов, у 35% пациентов отмечались аллергические заболевания у близких родственников. У 48% детей отмечается отягощенная наследственность по респираторным проявлениям аллергии и у 29%- по кожным. В анамнезе у обследованных детей отмечались частые ОРЗ до 5–8раз в год. Непосредственной причиной первого бронхообструктивного синдрома явились ОРЗ в 51% случаях. У большинства больных отмечалась поливалентная сенсибилизация.

Таким образом, подтверждается роль наследственности и раннего искусственного вскармливания в предрасположенности к развитию БА. Среди многочисленных факторов, провоцирующих формирование БА, неоспорима роль вирусной инфекции. Все дети находились в стадии обострения бронхиальной астмы.

Как видно из таблицы 1 больные были разделены на 3 группы в зависимости от тяжести заболевания: легкая, среднетяжелая и тяжелая форма бронхиальной астмы.

Группу больных с лёгкой формой составили десять детей. Эпизоды бронхоспазма в данной группе больных отмечались 2-4 раз в год. Обследуемые в этой группе не получали базисной терапии.

Группа больных со среднетяжелой формой была наиболее многочисленной, в составе 41 ребенка. Приступы были ежемесячными, больные в качестве базисной терапии получали комбинированные ингаляторы и антилейкотриеновые препараты. Группа больных с тяжелой формой составила 15 детей. У этих больных приступы были ежедневные, больные получали ингаляционные комбинированные ингаляторы.

Средний уровень IL18 у детей составил 494,53±42,98пг/мл. Как отражено в таблице2 уровень интерлейкина18 у детей с лёгким течением был в пределах нормы. У детей со среднетяжёлым течением уровень интерлейкина 18 составил 313,6±24.8, p□0,05.

Установлено, что более высокий уровень IL-18 отмечался у больных с тяжёлым течением, что составило 798,5±80,4, при норме126-250 пг/мл, p□0,001.

Таким образом, согласно результатам нашего исследования, повышение IL18 в сыворотке крови свидетельствует о тяжести заболевания, так как наиболее высокие показатели его уровня были у детей с крайне тяжёлой бронхиальной астмой.

Таблица1

Распределение детей страдающих БА по степени тяжести заболевания

Группа больных	лёгкая БА	среднетяжёлая БА	тяжёлая БА	Всего
Дети	10	41	15	66

Таблица 2

Уровень цитокина İL-18 в сыворотке крови детей в период обострения в зависимости от степени тяжести БА

Показатель	Норма	Степень тяжести БА		
	пг/мл	лёгкая	среднетяжёлая	тяжёлая
İL-18 пг/мл	126-250	143,8±41,0	313,6±24,8	798,5±80,4




Рис. 1. Показатели цитокина İL-18 у детей БА с различной степенью тяжести

Заключение. Таким образом у детей со среднетяжелым и тяжелым течением бронхиальной астмы отмечается высокий уровень IL18 в период обострений. У детей с легким течением не отмечалось изменений уровня цитокина IL18. В зависимости от тяжести течения показатель растет. Выявленные нами изменения могут стать патогенетическим обоснованием для оценки степени тяжести бронхиальной астмы.

ЛИТЕРАТУРА

1.Okamura H., Kashiwamura S., Tsutsui H. et al Regulation of interferon gamma production by IL-12 and IL-18 // Curr Opin İmmunol., 1998, v.10, p.259-64.

2.Micallef M.J., Ohtsuki T., Kohno K. et al. Interferon-gamma-inducing factor enhances T helper 1cytokine production bystimulated human T cells:synergigism with interleukin- 12 forinterferon-gamma production // Eur.J.Immunol., 1996, v.26, p.1647-51.

3.Udagawa N.,Horwood N.J., Elliott J. et.al Interleukin-18 (interferongamma-inducing factor) is produced by osteoblasts and acts via granulocyte/macrophage colony-stimulating factor and not via interferon-gamma to inhibit osteoclast formation // Exp. Med., 1997, v.185, p.1005-12.

4.Yakushenko E.V., Lopatnikova J.A., Khrapov E.A. et.al Biological and specific activity of recombinant human Interleukin-18 / Cytokine network, and Regulatory Cells.-Medimond, International proceedings, 2004, p.423-428

5.Fehniger T.A., Shan M.H., Turner M.J. et. al Differential cytokine and chemokine gene expression by human NK cells following activation with IL-18 or IL-15 in combination with IL-12: implications for the innate immune response // J.Immunol.,1999, v.162, p.4511-20

6.Ogura T., Ueda H., Hosohara K. et. al Interleukin-18 stimulates hematopoietic cytokine and growth factor formation and augments circulating granulocytes in mice // Blood, 2001, v.98,p.2101-7.

7.Kashiwamura S., Ueda H., Okamura H. Roles of Interleukin-18 in tissue destriction and compensatory reactions// J.Immunother., 2002, v.25, Suppl. 1, p.4-11.

8.Nakanishi K., Yoshimoto T., Tsutsui H., Okamura H. Interleukin-18 is a unique cytokine that stim ulates both Thl and Thl2 responses depending on its cytokine milieu // Cytokine Growth Factor Rev., 2001, v.12, p.53-72

9.Yoshimoto T., Okamura H., Tagawa Y.I. et.al Interleukin 18 together with interleukin 12 inhibits IgE production by induction of interferon-gamma production from activated B cells // Proc. Natl. Acad. Sci. USA.-1997. –Vol. 94. –P.3948-53

10.Yoshimoto T., Takeda K., Tanaka T., Okamura H. et.al IL-12 up-regulates IL-18 receptor expression on T cells, Thi cells, and B cells: synergism with IL-18 for IFN-gamma production // Immunol., 1998, v.161, p.3400-7

11.Yoshimoto T., Tsutsui H., Tominaga K., Okamura H, et.all IL-18, although antiallergic when administered with IL-12, stimulates Il-4 and histamine relase by basophils // Proc. Natl. Acad Sci. USA, 1999, v.96, p.13962-6

12.Будчанов Ю.И. Генетика бронхиальной астмы //Практическая медицина,2010,№6,с.19-21,

13.Огородова Л.М., Петрова И.В., Рукин К.Ю. Роль полиморфизма гена индуцибильной NO-синтетазы в формировании бронхиальной астмы // Бюллетень СО РАМН, 2011, №4, с.60-63

14.Фрейдин М.Б., Браугина Е.Ю., Огородова Л.М., Пузырёв В.П. Генетика атопии : современное состояние // Вестник ВОГиС, 2006, 10(№3), с.492-502

15. Szalai C., Ungvari I., Pelhe., Tolgyesi G., Falus A. Asthma from a pharmacogenomic point of view // Eur. J Immunol., 2010, v.40, p.3312-3316

16.Гречанина Е.Я., Безродная А.И., Ходош Э.М. Иммуногенетические характеристики бронхиальной астмы // Астма и аллергия, 2011, №3, с.23-26

17.Локшин Э.Э., Зайцева О.В. Роль генетических маркеров в ранней диагностике атопических заболеваний // Педиатрия, 2006, №3, с.97-91

18.Ярилин А.А. Иммунология: учебник. М.: Геотар-медиа, 2010, 752с.

19.Freidin M.B., Kobyakova O.S.,Oqorodova L.M., Pusyirev V.P. Association of polimorphisms in the human IL4 and IL5 genes with atopic bronchial asthma and severity of the disease // Comparative and Functional Genomics, 2003, v.4(3), p.346-350

20.Андрейчикова Е.А., Пискунов А.А., Сенников С.В., Козлов В.А. Сравнительные аспекта аллельного полиморфизма гена ИЛ-4 у коренных и пришлых жителей Хакасии, больных бронхиальной астмой // Бюллетень СО РАМН, 2011, 31(№6), с.69-73

21.Annunziato F., Romagnani S. The transient nature of the Thi7 phenotype // Eur. J Immunol., 2010, 40(12), p.3312-3316

22.Gervaziyev Y.V., Kaznacheev V.A., Gervaziyeva V.B. Allelic polymorphisms in the interleukin-4 promoter regions and their association with bronchial asthma among the Russian Population // Int.Arch. Allergy Immunol., 2006, v.141, p.257-266

23.Noguchi E., Shibasaki M., Arinami T. et. al Association of asthma and the interleukin-4 promoter gene in Japanese // Clin. Exp. Allergy, 2008, v.28(4), p.449-453

24.Global Strategy for Astma Management and Prevention,Global initiative for Asthma (GİNA)/National Institutes of Health:National Heart, Lung and Blood Institute 92p.-http: //www.ginastma.org 2007.

Xülasə

Bronxial astma xəstəliyi olan uşaqlarda xəstəliyin patogenezində İL-18 sitokininin xüsusiyyətləri

T.T.Pənahova

Sitokinlər allergik reaksiya və iltihabın inkişafı və gedişatına nəzarətdə nəzərəçarpacaq rol oynayır, ona görə də bronxial astmanın molekulyar əsasının dərk edilməsi üçün onun aktivliyinin tənzimlənməsinin müayinəsi böyük əhəmiyyət kəsb edir. Hazırki tədqiqatın məqsədi bronxial astmalı uşaqlarda bronxial astmanın geişatının ağırlıq dərəcəsi ilə onların qan zərdabında İL-18-in səviyəsi arasında qarşılıqlı əlaqənin müəyyən edilməsindən ibarətdir. Tədqiqata 3-17 yaşlar arasında bronxial astmanın ağırlaşma mərhələsində olan 66 uşaq daxil edilmişdir (orta yaş həddi 6,47±4,15). İL-18-in səviyyəsi sərtfazalı immunferment müayinə metodu ilə təyin edilmiş, Bender Medsustens şirkətinin test-sistemindən istifadə edilmişdir. Müəyyən edilmişdir ki, İL-18-in daha yüksək səviyyəsi ağır gedişatlı bronxial astmalı uşaqlarda olmuş, 798,5±80,4 təşkil etmişdir (norma 126-25 pq/ml). Beləliklə, bronxial astmanın ağırlaşdığı müddətdə xəstənini yaşından asılı olmayaraq allergik iltihabın kəskinliyini əks etdirən İL-18 bronxial astmanın ağırlıq dərəcəsini qiymətləndirməyə imkan verir.

Summary

Special features of the cytokine IL18 in the pathogenesis of asthmatic children

T.T.Panahova

Cytokines play an important role in the control of all stages of the development and control of allergic reactions and inflammation, so the analysis of the regulation of their activity is of great importance for understanding of the molecular basis of the pathogenesis of BA. Research objective: to determine the relationship of severity of asthma and the level of IL- 18 in the blood serum of children with bronchial asthma. The study included 66 children aged from 3 to 17 years (mean age 6,47±4,15 years) with asthma in the acute stage. The level of IL- 18 has been determined by the method the Elisa test, using the test systems provided by the firm Bender Medsustens.There was established that higher level of IL- 18 was observed in patients with severe disease, which was 798,5±80,4, at the rate of 126 - 250 pg / ml. Thus, regardless of the age of the patients, during acute condition created by BA, the level of IL-18, reflecting the severity of allergic inflammation enables to evaluate the severity of bronchial asthma.

Daxil olub: 13.11.2014

ƏHALİNİN DƏRMAN TƏCHİZATINDA ƏSAS DƏRMAN VASİTƏLƏRİ SİYAHISININ ROLU

R.M.Abdullayeva, G.A.Hüseynova

Azərbaycan Tibb Universiteti, Farmakologiya kafedrası, Bakı

Açar sözlər: dərman təchizatı, dərman vasitələrinin siyahısı

Ключевые слова: лекарственное обеспечение, перечень лекарственных средств

Keywords: drug coverage, the list of medicines

Səhiyyə sahəsində beynəlxalq əməkdaşlığın qlobal istiqamətlərindən olan Əsas Dərman Vasitələri (ƏDV) konsepsiyası bütün dünyada milli dərman siyasətinin ən vacib struktur elementlərindən biri hesab olunur. Dərmanların istifadəsinin səmərələşdirilməsi məqsədi ilə effektiv yolların axtarışında 1985-2000-ci illər ərzində bir sıra ölkələrin təcrübəsinin təhlilinə əsaslanaraq Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ekspertləri aşağıdakı 4 strategiyanı əsas olaraq seçmişdir:

- ƏDV konsepsiyası
- Klinik protokolların hazırlanması
- Dərman terapevtik komitələrin yaradılması
- Dərmanların rasional istifadəsi üzrə kadrların hazırlanması

ƏDV konsepsiyası ilk dəfə 1975-ci ildə ÜST tərəfindən formalaşdırılmışdır. İlk dəfə 1977-ci ildə dünyanın vacib səhiyyə problemlərinin həlli üçün daha əhəmiyyətli sayılan 208 dərman preparatının adı daxil edilmiş ƏDV siyahısı yaradılmışdır. O zamandan etibarən ƏDV siyahısı ÜST ekspertləri tərəfindən iki ildə bir dəfə olmaqla yenilənir. ÜST-ün müəyyənləşdirməsinə görə "ƏDV əhalinin əksər hissəsinin sağlamlığını mühafizə edən dərman vasitələridir, odur ki, onlar istənilən vaxt, kifayət qədər, müvafiq buraxılış formasında, uyğun qiymətə olmaqla ictimayyət və hər bir fərd üçün əlçatan olmalıdır" [4]. ƏDV seçilməsi hər bir ölkədə əczaçılıq sisteminin bütün aspektləri üzrə prioritetləri müəyyənləşdirmək imkanı verir. Sınaqdan çıxmış ÜST-ün ƏDV siyahısı tövsiyə xarakteri daşımaqla onun üzvləri olan dövlətlərin öz milli siyahısını tərtib etmək üçün əsas sayılır. Milli siyahıların tərtib edilməsi hər bir ölkənin səhiyyə sisteminin ehtiyaclarından, göstərilən tibbi yardımın keyfiyyəti və strukturundan asılıdır. ÜST göstərir ki, dərman maddələrinin milli siyahısını tərtib etmək üçün seçilməsi bir çox amillərdən - həmin ərazidə xəstəliklərin yayılma dərəcəsindən, mövcud müalicə ocaqlarının sayı və təchizatından, səhiyyə işçilərinin hazırlıq dərəcəsi və praktiki təcrübəsindən, maliyyə ehtiyatlarından, demoqrafik və ekoloji amillərdən, dərman maddəsinin bazarda mövcudluğundan və s. asılıdır. Elə buna görədir ki, ÜST-ün tərtib etdiyi ƏDV siyahısı təxmini olub, istiqamətverici xarakter daşımaqla səhiyyənin milli orqanlarına kömək üçün hazırlanır. ƏDV siyahısı göstərilən tibbi yardımın keyfiyyətinin yaxşılaşdırılmasında vacib rol oynayır və dərman xərclərinin ümumi səhiyyə xərcləri arasında miqdarını tənzimləmək imkanı verir.

Tədqiqatın material və metodları. Əhalinin dərman təchizatında Əsas Dərman Vasitələri siyahısının rolunun araşdırılması məqsədi ilə Azərbaycan Respublikasının və ÜST-ün son buraxılış ƏDV siyahısı götürülmüş və hər iki siyahının müqayisəli analizi aparılmış, bu siyahıya dərman vasitələrinin seçilməsi kriteriyaları təhlil edilmişdir. Bununla yanaşı Səhiyyə Nazirliyinin 130 saylı əmri ilə təsdiq edilmiş "Stasionar şəraitdə istifadə olunan ən vacib dərman preparatları və tibbi ləvazimatların siyahısı" və həmçinin Dövlət Proqramları çərçivəsində alınan dərman vasitələri siyahısının da çarpaz analizi aparılmışdır.

Тядгигатын нятижяляри вя онларын мцзакиряси. ƏDV siyahısına dərmanların seçilməsinin əsas meyarı onların klinik effektivliyi, təhlükəsizliyi və keyfiyyətinin sübut olunmuş olmasıdır[5]. Dərman vasitələrinin ƏDV siyahısına daxil edilməsi zamanı aşağıdakı prinsiplərə əməl olunmalıdır:

-dərman Azərbaycan respublikasında dövlət qeydiyyatından keçməlidir

-dərman yalnız beynəlxalq patentləşdirilməmiş və ya generik adı ilə daxil edilə bilər.

-seçim zamanı üstünlük generik dərman vasitələrinə verilməlidir.

-dərmanın buraxılış forması, dozası, farmakoloji aktivliyi göstərilməlidir. Hər bir ƏDV üçün təyin edilmə yolunu, eləcə də tətbiqi və ehtimal olunan şəraitdə saxlanılması zamanı stabilliyini nəzərə almaqla optimal dərman formasını seçmək məsləhətdir.

-dərman vasitəsinin tərkibində yalnız bir aktiv maddə olmalıdır. Kombinə olunmuş dərman vasitələri yalnız malyariya, vərəm, QİÇS kimi bəşəriyyət qarşısında ciddi səhiyyə problemi yaradan xəstəliklərin müalicə rejiminə tam əməl edilməsinin vacib olduğu hallarda və farmakorezistentliyin qarşısının alınmasında nəzərəçarpacaq üstünlüyün sübut edildiyi hallarda siyahıya daxil edilə bilər. Kombinə olunmuş dərman vasitələrinin bütün aktiv substansiyaları da beynəlxalq patentləşdirilməmiş ad altında göstərilməlidir.

-Qiymət/effektivlik analizinin müsbət nəticələrinə əsaslanmalıdır, dərmanın vahid dozasının dəyəri deyil, müalicə kursunun dəyəri nəzərə alınmalıdır.

-Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş klinik protokollarda mövcud olmalı və sübutlu təbabətə söykənməlidir.
- ÜST tövsiyələri nəzərə alınmalıdır.

ƏDV siyahısı dövrü olaraq yenilənməlidir. Yenilənmə prosedurundan əvvəl aidiyyəti orqanlar daha qabaqcıl müalicə müəssisələri arasında sorğu aparmaqla çox istifadə olunan dərmanlar haqqında məlumat toplaması yaxşı təcrübə hesab olunur. Əgər dərman vasitəsi yeni istifadəsinə göstərişlə siyahıya daxil olunması təklif edilərsə, mütləq sübutluq dərəcəsi göstərilməlidir. Dərmanın ƏDV siyahısından xaric edilməsi aşağıdakı hallarda ola bilər:
-effektivliyi və rentabelliyinə görə daha üstün hesab edilən dərman maddəsi ilə əvəz oluna bilər
- terapevtik əvəzolunma
-qeydiyyat orqanları tərəfindən dərmanın təhlükəsizliyi barədə mənfi rəy verildiyi və ya respublikada dövlət qeydiyyatı ləğv olunduğu halda
-dərman vasitəsinin ÜST və Azərbaycan Respublikasının yeni klinik protokollarından çıxarılması zamanı
-dərman vasitəsi nadir hallarda istifadə olunursa
-dərman vasitəsi yerli bazarda yoxdursa

Azərbaycan Respublikasında dərman bazarının gün-gündən genişlənməsi, terapevtik və generik alternativlərin sayının artması, eləcə də, müalicə və diaqnostika metodikalarının dəyişməsi dərmanların rasional istifadəsi məsələsini aktuallaşdırmışdır. Bu sahədə qarşıya çıxan problemlərin həlli istiqamətində həyata keçirilən tədbirlərdən biri də, Azərbaycan Respublikasının ƏDV siyahısının hazırlanması idi. Bu siyahı 20.05.2011-ci ildə Səhiyyə Nazirliyinin Farmakoloji və Farmakopeya Ekspert Şurasının qərarı ilə təsdiq edilmişdir. Strukturuna görə ÜST-ün təxmini ƏDV siyahısı əsasında tərtib edilmişdir [3]. 23 bölmədən və 203 adda dərman vasitəsindən ibarətdir ki, bunların da 18-i ÜST-ün son buraxılış ƏDV siyahısından çıxarılmış və ya eyni terapevtik qrupdan olan yeniləri ilə əvəz olunmuşdur. Qeyd etmək yerinə düşərdi ki, siyahıda olan dərman vasitələrinin hamısı Azərbaycan respublikasında dövlət qeydiyyatından keçmişdir ki, bu da bir daha onların keyfiyyətinə, təhlükəsizliyinə və effektivliyinə zəmanət verir.

ƏDV siyahısına daxil olan 203 adda dərman vasitələrindən 29-u yəni, 13%-i dövlət tərəfindən alınmır və gələcəkdə alınması məqsədə uyğun hesab edilə bilər. Siyahıda olan dərman vasitələrinin təxminən 54%-nin satınalınması əhaliyə zəmanətli tibbi yardımın təmin edilməsi istiqamətində böyük rol oynayan "Stasionar şəraitdə istifadə olunan ən vacib dərman preparatları və tibbi ləvazimatların siyahısı"na əsasən aparılır[2]. Qeyd olunan satınalınma siyahısı mümkün qədər ƏDV siyahısına uyğunlaşdırılmalıdır. Yerdə qalan 34%-i isə aşağıda qeyd olunan müvafiq Dövlət Proqramları çərçivəsində alınırlar [1]:

1.Vərəmeleyhinə I sıra monotərkibli dərman vasitələrindən- streptomisin, izoniazid, pirazinamid, rifampisin, etambutol və II sıra dərman vasitələrindən isə amikasin, para-aminosalisil turşusu, protionamid Milli Vərəm Proqramı çərçivəsində Səhiyyə Nazirliyinin İnnovasiya və Təchizat Mərkəzi tərəfindən alınır və respublikanın bütün rayonlarında və Bakı şəhərində olan ixtisaslaşmış vərəm müəssisələri təchiz edilir. Bu proqram daxilində eləcə də, ƏDV siyahısında immunobioloji preparatların müayinə amilləri bölməsindən olan tuberkulin allergeni alınır.

2.Virusəleyhinə antiretrovirus dərman vasitələrindən dönən transkriptaza fermentinin nukleozid törəmələrindən emtisitabin və stavudin xaric olmaqla abakavir, didanozin, lamivudin, tenofovir və zidovudin, qeyrinukleozid tərkibli inhibitorlarından efaviren və nevirapin, proteaza inhibitorlarından isə yalnız kombinəolunmuş dərman vasitəsi olan lopinavir/ritonavir HİV/AİDS -in qarşısının alınması və onunla mübarizə üzrə Tədbirlər Proqramı çərçivəsində Səhiyyə Nazirliyi tərəfindən alınır və Respublika QİÇS-lə mübarizə Mərkəzini təchiz edir. Proteaza inhibitorlarından olan indinavir, nelfinavir və sakvinavir ƏDV siyahısında olsa da belə hələ ki, bu proqram çərçivəsində alınmır. QİÇS-lə mübarizə Mərkəzi respublikanın bütün regionları üzrə QİÇS xəstələrinin bu dərman vasitələri ilə pulsuz təmin olunmasını həyata keçirir.

3.ƏDV siyahısında olan qısa və orta təsirli insulinlər və diabet əleyhinə digər dərman vasitələri - metformin, qliklazid və qlimeprid dövlət tərəfindən Şəkərli Diabet üzrə Tədbirlər Proqramı daxilində alınır. ƏDV siyahısı dərman çeşidini qətiyyən məhdudlaşdırmır, sadəcə olaraq əhalinin dərman təchizatının minimal hədlərinin müəyyənləşdirilməsinə xidmət edir. Belə ki, ƏDV siyahısında cəmi 5 adda diabetəleyhinə dərman vasitələri olduğu halda Şəkərli Diabet üzrə Tədbirlər Proqramı daxilində 14 adda dərman vasitəsi Səhiyyə Nazirliyi tərəfindən alınır.

4.İmmunobioloji preparatlardan milli peyvənd təqviminə daxil olan vaksinlər Yoluxucu

Xəstəliklərin İmmunoprofilaktikasına dair Tədbirlər Proqramı, zərdab və immunoqlobulinlər isə – "Stasionar şəraitdə istifadə olunan ən vacib dərman preparatları və tibbi ləvazimatların siyahısı"na istinadən alınır.

5.Antineoplastik sitotoksik dərman vasitələri "Onkoloji xəstələrin şiş əleyhinə əsas preparatlarla təminatı üzrə Tədbirlər Proqramı", immunosupressiv dərman vasitələri isə «xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramına uyğun olaraq alınır.

6.Qan preparatlarından qan faktorları və dəmir xelatorlarından deferoksamin Hemofiliya və talassemiya irsi qan xəstəlikləri üzrə Tədbirlər Proqramı daxilində alınaraq Talassemiya Mərkəzi və digər ixtisaslaşmış müalicə profilaktika müəssisələri təchiz edilirlər.

Səhiyyə sahəsində qəbul edilmiş Dövlət Proqramları çərçivəsində alınan və ƏDV siyahısından kənarda olan dərmanlar da rasional istifadə prinsiplərinə əsaslanaraq seçilmiş, klinik protokollardan qaynaqlanmış, effektivliyi və təhlükəsizliyi sübuta yetirilmiş dərmanlardır.

ƏDV siyahısı bütün inkişaf etməkdə olan ölkələrdə olduğu kimi Azərbaycanda da əhalinin dərman təchizatının yeni keyfiyyət səviyyəsinə keçilməsində və eləcə də, dərmanların rasional istifadə olunmasında əvəzsiz rol oynayır. Odur ki, bu baxımdan ƏDV siyahısının tərtib edilməsi və dövrü olaraq yenidən baxılması üçün xüsusi koordinasiyaedici orqanın təyin edilməsi və bütün maraqlı tərəflərin bu prosesdə iştirakı zəruridir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 05.04.2011-ci il tarixli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2011-2015-ci illər üzrə Strateji Plani"
2. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 22.12.2011-ci il tarixli 130 saylı əmri ilə təsdiq edilmiş "Stasionar şəraitdə istifadə olunan ən vacib dərman preparatları və tibbi ləvazimatların siyahısı"
3. "Azərbaycan Respublikası Əsas Dərman Vasitələri siyahısı" www.health.gov.az
4. Использование основных лекарственных средств / Седьмой доклад Комитета экспертов ВОЗ. Женева,1998, с.12-37.
5. Зурдинов А.З., Власов В.В. и др. Доказательная медицинская практика. Учебное пособие. Бишкек, 2008, 194 с.

Резюме

Роль перечня основных лекарственных средств в лекарственном обеспечении населения

Р.М. Абдуллаева, Г.А. Гусейнова

В представленной статье приведена информация о перечне Основных Лекарственных Средств ВОЗ, доведены до сведения требования о включении или исключении из перечня лекарств основанные на международной практике. В дополнение к этому поясняется роль списка Основных Лекарственных Средств Азербайджанской Республики в лекарственном обеспечении населения, а также приводится сравнительный анализ с другими мероприятиями, осуществляемыми Министерством Здравоохранения в этом же направлении.

Summary

The role of Essential Drug List on public health

R.M.Abdullayeva, G.A.Huseynova

The article present Essential Drug conception of WHO, inclusion and exclusion criteria of medicines to Essential Drug List based on international practice. In addition, discusses the role of Essential Drug List on public health and give comparative analysis of EDL with other activities of Ministry of Health in this field.

Daxil olub: 25.11.2014

ОСОБЕННОСТИ КЛИНИЧЕСКОГО ТЕЧЕНИЯ И ПРОГНОЗ ОСТРОГО ГЕПАТИТА В У БОЛЬНЫХ С ФОНОВОЙ БАКТЕРИАЛЬНОЙ И КАНДИДА ИНФЕКЦИЙ

Г.З. Алиева, З.О. Караев

Азербайджанский медицинский университет, кафедра микробиологии и иммунологии, г. Баку

Açar sözlər: Hepatit B virusu, qram-müsbət, qram-mənfi və Candida mənşəli mono-mikst infeksiyalar, kəskin B virus hepatitinin proqnozu.
Ключевые слова: вирусный гепатит В, грамм- положительный, грамотрицательный и Candida моно и микстинфекции, прогноз острого вирусного гепатита В
Key words: Hepatitis B virus, mono and mixed-type infections of gram-positive, gram-negative and Candida origins, the prognosis of acute Hepatitis B virus

Xəstələrin ilkin immun statusu imunitetin hüceyrə halqasının zədələnməsi ilə səciyyələnmişdir. Belə ki, yeganə törədici qismində dermatomisetlərlə (Trichophyton spp.) törədilən pəncə mikozu zamanı həm əsas qrupun, həm də müqayisə qrupunun xəstələrində leykositar-T-limfositar əmsalın orta qiymətinin artması müşahidə edilmişdir: müvafiq olaraq 7,3±1,9 (p=0,003) və 7,5±1,4 (p=0,004), həmçinin T-helperlərin (CD3/4+) mütləq sayının 0,5±0,2* 109/l-ə qədər azalması (p=0,008) müşahidə olunmuşdur. Lakin göbələk assosiasiyaları ilə törədilən (Trichophyton spp. Candida albicans ilə birgə assosiasiyada) pəncələrin mikozunda zədələnmələr daha kəskin olmuş və göstərilən dəyişikliklərlə yanaşı, T-limfositlərin (CD3+) mütləq sayının 0,8±0,2*109/l-ə qədər statistik dürüst azalması (p=0,004) ilə müşayiət olunmuşdur. Beləliklə, pəncələrin mikozu ilə xəstələrdə immun status göbələk assosiasiyalarından asılı olaraq dəyişmişdir. Göstərilən dəyişiklikləri korreksiya etmək məqsədilə pəncələrin ağırlaşmış mikozu olan pasiyentlərə hər iki qrupda «İmmunal» preparatı 80 mq olmaqla gündə 3 dəfə 14 gün ərzində per os təyin olunmuşdur. Aparılmış müalicədən sonra leykositar-T-limfositar əmsalın orta qiyməti, T-limfositlərin (CD3+) və T-helperlərin (CD3/4+) mütləq sayı pəncələrin ağırlaşmış mikozu ilə xəstələrdə normallaşmışdır (cədvəl 3). Deməli, immunitetin hüceyrə halqasının dəyişikliklərinin korreksiyasının təklif olunmuş sxemi öz effektivliyini göstərmişdir.

Bizim təklif etdiyimiz sxemin əsas üstünlüyü «Zalain» kreminin «Abisil» preparatı ilə birgə tətbiq olunmasıdır- bu zaman aydın iltihab əleyhinə və antibakterial effekt nəzərə çarpır ki, bu da ayrılıqda «Zalain» kremində bakteriostatik maddələrin məhlulları ilə birgə tətbiqi nəticəsində alınan həmin effektdən xeyli üstündür. Bu təsiri sayəsində «Abisil» preparatının antimikotiklə birgə tətbiqi zamanı yerli kəskin iltihab əlamətlərinin daha sürətlə geriyə inkişafı mümkün olmuşdur. Müalicə prosesində əlavə təsirlər baş verməmişdir. Xəstələr üzərində 6 ay ərzində aparılan dispanser nəzarəti zamanı pəncələrin mikozunun residivləri müşahidə edilməmişdir.

Beləliklə, ikincili infeksiya ilə ağırlaşmış pəncələrin mikozu ilə xəstələrdə immunitetin hüceyrə halqasının T-limfositlərin (CD3+) və T-helperlərin (CD3/4+) mütləq sayının azalmasının, leykositar-T-limfositar əmsalının dürüst artması şəklində (p<0,01) dəyişiklikləri nəzərə çarpmışdır. Pəncələrin mikozunun xaricdən müalicəsi ilə birgə «İmmunal» preparatı ilə aparılan kompleks korreksiyası öz effektivliyini göstərmişdir.

Cədvəl 3
Pəncələrin ağırlaşmış mikozu olan xəstələrdə müalicə prosesində hüceyrə və humoral immunitetin bəzi göstəricilərinin dinamikası

Göstərici	Qruplar				Saglam (n=5)
	Əsas (n=17)		Müqayisə (n=7)		
	Trichophyton spp. (n=10)	Trichophyton spp. Candida albicans ilə birgə assosiasiyada (n=7)	Trichophyton spp. (n=4)	Trichophyton spp. Candida albicans ilə birgə assosiasiyada	

							(n=3)		
	əvvəl	sonra	əvvəl	sonra	əvvəl	sonra	əvvəl	sonra	
Leykositlər 10^9/l	4,4±1,5	6,3±1,4	5,3±1,5	5,9±1,8	5,0±1,9	6,9±1,7	4,9±1,7	6,0±1,5	6,8±3,1
Limfositlər (müt.), 10^9/l	1,4±0,4	1,5±0,3	1,3±0,4	1,8±0,7	1,1±0,2	1,3±0,2	1,7±0,5	2,0±1,1	1,9±0,6
T--limfo-sitlər (CD3+) (müt), 10^9/l	1,0±0,3	1,5±0,2	0,8±0,2*	1,5±0,4	1,6±0,2	1,8±0,3	0,8±0,2*	1,4±0,3	1,4±0,5
Leykositar-T-limfositar əmsal	7,3±1,9*	5,2±1,7	7,1±1,6*	5,7±1,5	7,5±1,4*	5,8±1,3	7,2±1,7*	4,9±1,2	4,7±1,1
T-helperlər (CD3/4+) (müt.), 10^9/l	0,5±0,2*	0,8±0,2	0,5±0,2*	0,8±0,2	0,5±0,2*	0,8±0,1	0,5±0,1*	0,8±0,2	0,9±0,2
İmmuntənzimləyici əmsal (CD4/CD8)	1,5±0,4	1,8±0,9	1,7±0,9	2,0±0,8	1,9±0,5	2,1±0,5	1,6±0,3	1,8±0,6	1,6±0,4
Ig G, q/l	13,4±2,0	12,5±3,4	11,9±1,4	13,9±2,3	10,3±0,7	11,4±0,9	14,5±0,6	12,8±0,7	11,5±3,6
Ig A, q/l	2,5±0,9	2,3±0,5	2,2±0,4	2,6±0,6	2,1±0,9	1,6±0,3	3,2±0,8	2,8±0,1	2,1±1,0
Ig M, q/l	2,1±0,7	1,9±0,3	1,4±0,3	2,3±1,3	1,8±0,4	1,7±0,9	1,6±0,4	2,2±0,5	2,3±0,9
DİK Vah/l	9,6±2,5	10,6±3,1	16,8±4,1	16,2±5,1	9,9±4,7	11,4±4,2	17,4±4,2	15,7±2,4	12,0±1,7

Qeyd* $p<0,01$

ƏDƏBİYYAT

1. Даватдарова М.М., Ибрагимов А.З., Сафарова А.Н. Пульс-терапия итраконазолом (орунгалом) онихомикоза стоп у больных сахарным диабетом // Вестн. дерматологии и венерологии. 2001, № 1, с. 61-62

2.Климко Н.Н. Микозы // Избранные вопросы терапии инфекционных заболеваний / Под ред. Ю.В.Лобзина. СПб., 2005, с. 787-831

3.Разнатовский К.И., Родионов А.Н., Котрехова Л.П. Дерматоматомикозы // К.И.Разнатовский, СПб.: МАПО, 2003, 158 с.

4.Щетинин А.Н., Зайко СВ., Салашин Г.Ф., Фомичева М.Л. Первичная профилактика в укреплении здоровья машинистов локомотивов // Метро и тоннели, 2007, №3, с.47

5.Bending A. Fungal nail infection: far more than an aesthetic problem // Br. J. Community Nurs., 2002, v.7, № 5, p.254-259

6.Bergstron A.C., Faergemann J. The Interection between stratum corneum and Dermatophytes in Patients with Chronic Tinea Pedis // Acta dermatovenerologica, 2007, v.77, № 3, p. 239.

7.Dunbabin D.W., Sandercock P.A.G. Preventing stroke by the modification of risk factors // Stroke, 2009, V.21, (Suppl. IV):IY-36-IY-39.

8.Harmsen P., Rosengren A., Tsipodianni A., Wilhelmsen L. Risk factors for stroke in middle-aged men in Goteborg Sweden // Stroke, 2008, v.21, N1, p.223-229

Резюме

Динамика изменений показателей гуморального и клеточного иммунитета у пациентов с микозами стоп при комплексной терапии

К.А.Мамедов

У пациентов с микозами стоп на исходном уровне иммунный статус был охарактеризован поражением иммунитета на клеточном уровне. У пациентов с микозами стоп, с единственными возбудителями *Trichophyton spp*. паблюдалось повышение среднего значения индекса Т-лимфоцитарного и лейкоцитарного и уменьшение абсолютных значений Т-хелпера. При микозах стоп, вызванными *Trichophyton spp. u Candida albicans* сочетанными грибковыми

ассоциациями, отмечались более выраженные нарушения и составляли помимо указанных выше изменений, уменьшение абсолютных значений Т-лимфоцитов. При осложненных формах микозов стоп у больных в результате проведенного курса лечения средние значения индекса Т-лимфоцитарного и лейкоцитарного, абсолютных количественных значений Т-хелперов и Т-лимфоцитов пришли в норму. Следовательно, предложенная нами схема коррекции выявленных изменений иммунитета на клеточном уровне продемонстрировала высокую эффективность.

Summary

Dynamics of indicators cellular and humoral immunity at sick mycoses of feet in the course of complex therapy

K.A.Mamedov

The initial immune status of patients was characterised by defeat of a cellular link of immunity. So, at mycoses of the feet caused *Trichophyton spp*. as unique activators, at patients both the basic group, and comparison group the increase in average value leukocyte -T-limfotsit an index, and also decrease in absolute quantity T-helper was marked. However, at mycoses of the feet caused by fungoid associations *Trichophyton spp.* in a combination with *Candida albicans*, infringements were more expressed and included, besides the specified changes, statistically authentic decrease in absolute quantity T-limfotsit. After the spent treatment average values leukocyte -T-limfotsit an index, absolute quantity T-limfotsit and T-helper at mycoses of feet sick of complicated forms were normalized. Hence, the offered scheme of correction of changes of a cellular link of immunity has shown the efficiency.

Daxil olub: 24.10.2014

TİBBİ SIĞORTA RESEPTURASININ ƏHƏMİYYƏTİ

N.Q. Xəlilov, M.N.Vəliyeva

Azərbaycan Tibb Universiteti, Əczaçılıq texnologiyası və idarəciliyi kafedrası, Bakı

Açar sözlər: İcbari tibbi sığorta, sığorta resepturası qanunlar, səhiyyə

Ключевые слова: обязательная медицинская страховка, страховая рецептура, законы, здравоохранение.

Keywords: compulsory medical insurance, insurance formulation, laws, health

"Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunu əhalinin tibbi sığortasının təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edir, tibbi sığortanın subyektləri arasındakı münasibətləri tənzimləyir. Tibbi sığorta haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, digər normativ-hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən ibarətdir. Vətəndaşların tibbi sığortası (icbari və könüllü) Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada həyata keçirilir. İcbari tibbi sığorta dövlət sosial sığortasının tərkib hissəsi olub, əhalinin uyğun həcmdə tibbi və dərman yardımı almasına təminat verir [1,2].

Azərbaycan Respublikasında "Tibb sığorta haqqında" qanun 28 oktaybr 1999-cu ildə qəbul olunmuşdur. Bu məqsədlə 2007-ci ildə adı çəkilən qanuna bir sıra əlavələr və dəyişikliklər edilərək, onun işləmə mexanizmi dəqiqləşdirilmiş Azərbaycan Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta Agentliyi yaradılmış və Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etməkdən ötrü İcbari Tibbi Sığorta haqqında Tədbirlər planı təsdiq etmişdir [3,4]. Bununla yanaşı bu yaxınlarda Azərbaycanda Maliyyə Nazirliyinin "2015-2017-ci illərdə sığorta bazarının inkişafı üzrə Tədbirlər Planı" na uyğun olaraq onlayn sığorta sisteminin tətbiqinə başlanılmışdır. Bütün sığorta növlərinin təkmilləşdirilməsi ilə bağlı yaradılan sistem icbari tibbi sığortanın inkişafı üçün geniş imkanlar açır. İcbari tibbi sığortanın tətbiq olunması və bu

sahədə yeni idarəetmə üsullarının yaradılması Azərbaycan Respublikasında səhiyyənin maliyyələşdirilməsi sistemində hazırkı problemlərin aradan qaldırılmasının ən real yollarından biridir [5].

Tibbi sığortanın ən vacib elementini sığorta resepturası təşkil edir. Sığorta resepturası vacib sosial-iqtisadi və tibbi kateqoriya olub, özündə bir neçə obyekti (dövlət büdcəsi, MPM-i, apteklər, icbari və əlavə sığorta kompaniyaları) və subyektləri (müxtəlif sosial-iqtisadi statusa malik vətəndaşlar) birləşdirir. Göstərilən obyekt və subyektlərin səmərəli fəaliyyəti və bütün sistemin birlikdə əhaliyə dərman xidməti göstərməsi üçün vacib olan amillərdən biri də "dərman preparatlarının siyahısı"nın tərtib edilməsidir. Dünya təcrübəsində belə siyahılara sığorta resepturası və yaxud effektiv əczaçılıq yardımı göstərən standartlar deyilir [6].

Aptekdə dərman üzrə sığorta reseptlərinin buraxılma qaydalarında müəyyən istisnalar vardır. Dərman preparatları müxtəlif sığorta təşkilatlarının qeydiyyatında olan resept blanklarında yazılmış formada aptekə daxil olur. Hər bir aptek müxtəlif sığorta təşkilatları ilə ayrı-ayrılıqda müqavilələr bağlayır. Müqavilələr bir il müddətində etibarlı sayılır, əgər hər hansı bir tərəf müqaviləni pozmaq istərsə ən azı 1 ay evvəl qarşı tərəfə xəbərdarlıq etməlidir.

Müqavilə forması aşağıdakı hissələrdən ibarətdir:

1.Sığorta təşkilatı ilə aptekin müqaviləsi

2. Siğorta təşkilatının ünvanı, aptekin adı və ünvanı

3.Sığorta təşkilatının göstərişlər

4.Aptekin öhdəlikləri

5.Müqavilənin sonunda hər iki tərəfin möhürü və imzası olmalıdır.

Resept 3 nüsxədən ibarət olub, 1-ci əsas nüsxə aptekdə qalır, 2-ci nüsxəni həkim götürür, 3-cü nüsxə isə sığorta təşkilatı tərəfindən pasientə verilmiş dəftərini icəsində qalır (aptek müdirinin qeydiyyatı, möhürü və imzası ilə təsdiq olunmuş formada).

Pasientə sığorta təşkilatı tərəfindən verilmiş dəftər aşağıdakı hissələrdən ibarətdir:

1) Şəxsiyyət səhifəsi-burada pasientin adı, soyadı, atasının adı, anadan olduğu tarıx, sığortanın etibarlılıq tarixi, sığorta nömrəsi və fotoşəkli olur.

2) Reseptlər səhifəsi- burada hərəsi 3 nüsxədən ibarət olmaqla sığortanın növündən asılı olaraq müxtəlif sayda resept blankları olur.

3) Son səhifə-burada dolmuş dəftərin yenilənməsi haqqında müraciət forması olur.

Avropa regionunda Azərbaycan səhiyyə sahəsində özəl xərclər, yəni əhalinin xərcləri ən yüksək səviyyədə olan ölkələrdən biridir və səhiyyə sahəsində ümumi xərclərin 79%-ni təşkil edir. Təqribən 10 xəstədən 7 nəfəri səhiyyə xidmətlərinin təchizatçısına qeyri-rəsmi vəsait ödəməsini bildirib, bu da regionda ən yüksək göstəricidir. İcbari tibbi sığortanın tətbiqi nəticəsində müalicə müəssisələri yenidən qurulacaq, maliyyələşmə sistemi sığorta haqlarının toplanması nəticəsində formalaşacaq [7].

İcbari tibbi sığortanın təşkilinin ən mühüm hissəsi sığorta haqlarının ödənilməsi qaydalarının düzgün və dəqiq təşkil edilməsidir. Hər bir vətəndaşın imkanı cərçivəsində və seçdiyi müalicə paketi əsasında yüksək keyfiyyətli tibbi yardım alacaq. Burada əlillər, azyaşlı uşaqlar, pensiyaçılar sığorta haqlarından azad olunacaqlar. Digər kateqoriyadan olan şəxslər üçün həm işəgötürən, həm özü və həm də hökümət tərəfindən vəsait ayrılacaqdır.

Tibbi sığortalanma şəraitində işləmək üçün işin təşkilinin əsas elementlərinə müqavilənin bağlanması, tibbi xidmətlərin qiymətlərinin təyini, bu xidmətlərin keyfiyyətinə nəzarətin təşkili, qarşılıqlı heasablaşmalar və tibbi sığortalanma subyektlərinin hüquqlarının qorunması məsələləri aiddir. Qeyd olunmalı məqam ondan ibarətdir ki, burada hər bir şəxs istədiyi müalicə müəssisəsini özü seçə bilir və istədiyi həkimdən tibbi yardım almaq hüquqi vardır [8].

Respublikamızda iqtisadi qüdrədin artdığını nəzərə alaraq, səhiyyə sahəsinə ayrılan vəsaitin çoxalması bu sahəyə göstərilən diqqəti nəticəsində mümkündür. İcbari Tibbi Sığortanın tətbiqi nəticəsində səhiyyənin maliyyələşməsinin yenidən qurulması kimi də başa düşmək mümkündür. Burada əsas məqsəd əhaliyə göstərilən tibbi yardımın keyfiyyətinin artırılması, tibbi xidmətlərin ödənilməsi üzrə maliyyə yükünün paylaşdıdırlmasında ədalətliliyin təmin edilməsi və əhaliyə əsas tibbi xidmətlərlə universal şəkildə əhatə olunması durur.

"Dərman vasitələri haqqında" qanunda olunan dəyişiklidə dərman vasitələrinin qiymətlərinin dövlət tənzimlənməsi icbari tibbi sığortanın tətbiqi üçün geniş imkanlar açır. Beləliklə hər bir vətəndaş aptekdən dərman alarkən büdcəsinə çox qənaət etmiş olur [9].

Respublikamızda qismən də olsa könüllü tibbi sığorta dövlət və özəl təşkilatlarda həyata keçirilir. Nəticə etibarilə apardığımız müşahidələr

zamanı ildən-ilə sığorta təşkilatlarına müraciət edənlərin sayı çoxalır. Əhali arasında aparılan sorğu nəticəsində məlum olur ki, icbari tibbi sığortanın tətbiqinə hamı müsbət yanaşır. Hesab edir ki, sığorta təşkilatları cəmiyyətdə öz fəaliyyətlərini ədalətli və şəffaf apardıqları zaman insanlar keyfiyyətli tibbi yardım ala biləcəklər. Əlbəttə ki, həkimlərimizin peşəkarlığı, düzgün diaqnostika-müalicə və dərmanı təyinatı xüsusi əhəmiyyətə malikdir.

ƏDƏBİYYAT

1.”Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu, Qanunvericilik toplusu-1999, 28 oktyabr 1999-cu il №725-IQ

2.“Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu, Qanunvericilik toplusu-1997, 26 iyun 1997-ci il №360-IQ

3.Azərbaycan Respublikasında səhiyyənin maliyyələşdirilməsi sisteminin islahatı və icbari tibbi sığortanın tətbiqi Konsepsiyası, Bakı şəhəri, 10 yanvar 2008-ci il. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qanunvericilik toplusu-2008

4.“2008-2012-ci illərdə Azərbaycan Respublikasında səhiyyənin maliyyələşdirilməsi sisteminin islahatı və icbari tibbi sığortanın tətbiqi Konsepsiyasının həyata keçirilməsi üzrə Tədbirlər Planı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər kabinetinin qərarı, Qanunvericilik toplusu-2008, №179 Bakı şəhəri, 11 avqust 2008-ci il

5.Hadi Rəcəbli “ Azərbaycan Respublikasının Sosial Müdafiə Sistemi” Bakı: 2012, 361-364 səh

6.Vəliyeva N. Məhbubə., Cabbarova A. Şəfiqə. “Əczaçılığın idarə olunması və iqtisadiyyatı” Bakı: 2013, 197-204 səh. seminarı, Bakı, 23 oktyabr 2014-cü il,

7.“Regionda səhiyyənin maliyyələşdirilməsi sisteminin islahatı və Azərbaycan üçün seçimlər” Yüksək səviyyəli siyasət

8. Kiçibəyov B.S. və H. İ. İbrahimli “ Sosial gigiyena və səhiyyənin təşkili/ Bakı: 2008, s/335-345

9.“Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının Qanunu, Qanunvericilik toplusu-2006, 22 dekabr 2006-cı il №208-IIIQ

Резюме

Значимость рецептуры медицинской страховки

Н.Г. Халилов, М.Н. Велиева

Целю является применение обязательной медицинской страховки в нашей стране наряду с изучением практики других государств. Обязательная медицинская страховка является компонентом государственной социальной страховки, также обеспечивает население в соответствующем объеме медицинской и лекарственной помощами. Закон «О медицинской страховке» в Азербайджанской Республике был принят 28 октября 1999 года и 2008 году Президентом был подписан указ о создании Агентства Обязательной Медицинской Страховки при Кабинете Министров. А Кабинет Министров утвердил план Действий об Обязательной Медицинской Страховки. Правильное составление страховой рецептуры и обеспечение пациентов качественными лекарственными препаратами в соответствии с контрактом составляет основанную часть обязательной медицинской страховки. Таким образом, целю проведенных исследований – добиться получения граждан качественной медицинской помощи с применением Обязательной Медицинской Страховки в Республике.

Summary

Importance of medical insurance formulation

N.G.Khalilov, M.N.Valiyeva

The aim is to apply the compulsory medical insurance in our country along with studying of the practice of other countries. The compulsory medical insurance is both the integral part of state social insurance and provides the people with medical and medicinal aids in proper amount. The Law “On medical insurance” was adopted in Azerbaijan Republic on 28 October 1999 and the President signed an order on establishing of Compulsory Medical Insurance Agency by the Cabinet of Ministers in 2008. And The Cabinet of Ministers approved the Actions Plan on Compulsory Medical Insurance. The correct execution of an insurance formulation and the medicinal provision of the patients with the qualitative medicinal preparations make up an integral part of the compulsory medical insurance.

Thus, the aim of the investigations conducted is to help the citizens receive qualitative medical aid by applying of Compulsory Medical Insurance in our Republic.

Daxil olub: 30.09.2014

PREEKLAMPSİYADA GÖBƏK CİYƏSİ VƏ CİFT STRUKTURLARINDA AKVAPORİNLƏRİN EKSPRESSİYASI

R.A. Aslanova
Trakya Universiteti Tibb Fakültəsi, Edirne, Türkiyə

Açar sözlər: preeklampsiya, cift, göbək ciyəsi, akvoparinlər
Ключевые слова: преэклампсия, плацента, пуповина, аквапорины
Key words: preeclampsia, placenta, aquaporin, umbilical cord.

Preeklampsiya hamiləliyin çox ağır fəsadlarından biri olub, yüksək dərəcədə ana və perinatal ölümə səbəb olur [1]. Bu patologiyanın diaqnostika və müalicəsində çoxsaylı tədqiqatların aparılmasına və müasir nailiyyətlərin əldə olunmasına baxmayaraq, preeklampsiya tibdə aktual problem olaraq qalır [2,3]. Belə vəziyyət hestozun dərin klinik və laborator tədqiqatların aparılmasını tələb edir. Son zamanlar preeklampsiyanın atipik gedişatı müəyyən olunur və bu da xəstəliyin diaqnostikasını çətinləşdirir.

Preeklampsiyanın patogenezində vacib rol plasentaya aiddir, ona görə ki, bu hal yalnız orqanizmdə plasentar toxumanın mövcudluğu ilə əmələ gəlir və demək olar ki, həmişə ciftin çıxarıldığından sonra müşahidə olunmur. Son zamanlar xarici ədəbiyyatlarda preeklampsiya zamanı ciftdə akvaporinlərin rolu haqqında bir neçə tədqiqat işi nəşr olunmuşdur [4,5,6].

Akvaporinlər (AQP) inteqral membran zülalları ailəsinə aid olan su kanal zülallarıdır, məməli hüceyrə membranlarında dəliklər şəklində yerləşirlər [7]. AQP'lərlə əlaqədar təqiqatlar davam etməkdədir. İnsanın cifti və fetal membranlarında bu günə qədər 5 AQP (AQP 1, 3, 4, 8 və 9) təsbit edilmişdir [4,5,6,8]. Hamiləliyin ilk trimesterində plasentar villusların xarici və daxili təbəqə sinsityotrofoblastlarında yüksək səviyyədə AQP4 izlənilmişdir [8]. Aquaporin 3 və 8, trofoektodermin bazolateral membranında, akvaporin 9 isə apikal membranında sıx yerləşməsi aşkar olunmuşdur. İnsanlarda aqvaporin 1, 3, 8 və 9 cift və xorionda aşkar edilmişdir. Aquaporin 1 ayrıca xorioallontoik membranda da mövcuddur.

Beləliklə, bu ağır hamiləlik fəsadın daha yeni informativ və proqnostik dürüst diaqnostik meyarlarının axtarışı davam etməkdədir

İşin **məqsədi** normal və preeklampsiyalı hamilələrin cift membranlarında və göbək ciyəsində akvaporinlərin (AQP 3,8,9) lokalızasiya və ekspressiyasını araşdırılmasıdır.

Tədqiqatın material və metodları. Türkiyə Cumhuriyyəti Trakya Universiteti Tibb Fakültəsi Qadın Xəstəlikləri və Doğum şöbəsində 01.11.2012- 01.05.2014 tarixləri arasında 105 sağlam və 105 preeklampsiyalı hamilələrin ciftində və göbək ciyəsi araşdırıldı. Hamilə qadınların yaşı 17-dən 43 yaşa qədər idi (orta yaş 29±6,4). Şəkərli diabet, xroniki hipertenziya, qaraciyər və ya böyrək xəstəliyi olanlar, əvvəllər anamnezində tromboemboliya və trombofiliya xəstəliyi olan hamilələr, fetal anomaliyası olan və çoxdöllü hamiləliklər tədqiqata daxil edilməmişdir. Hamilə qadınlardan dəqiq və ətraflı anamnez toplanılmışdır. Laborator müayinələrdən sidik cövhəri, kreatinin, ALT, AST, trombositlərin sayı, LDH, sidiyin ümumi analizində zülal və 24 saatlıq sidikdə zülalın miqdarı təyin edilmişdir. Sağlam (n=105) və preeklampsiyalı (n=105) hamilələrdən normal doğuş və keysəriyyə əməliyyatından sonra cift və göbək ciyəsi dərhal toplanmışdır. Tədqiq olunan material hematoksilin-eozin ilə boyanmış, daha sonra bütün nümunələrdə immunohistokimyəvi müayinə ilə AQP 3, 8 və 9 araşdırılmış və immunreaktvlik qiymətləndirilmişdir.

İmmunreaktivlik qiymətləndirildikdə İmmunreaktivit hesablamadan (İRS) istifadə edilmişdir. Bu hesab, "immunreaktivit kəmiyyət göstəricisi=boyanmanın intensivliyi x müxtəlif intensivlikli boyanmış hüceyrələrin faizi" düsturu

istifadə edilərək, akvaporinlərin boyanma intensivliyi və boyanmış hüceyrələrin hesabının vurulması ilə əldə edilmişdir. İmmunreaktivitlik göstəricisi 0-12 arasında olmuşdur [12].

Alınmış nəticələrin statistik işlənilməsi üçün tədqiqatın gedişində alınmış bütün rəqəm göstəriciləri müasir tövsiyələr nəzərə alınmaqla, statistik təhlil olunmuşdur. Statistik təhlililər üçün Trakya Üniveristesi Tibb Fakültəsi Biostatistika və Tibbi İnformasiya Kafedrasındakı SPSS 20.0 (Lisenziya No: 10240642) paket proqramı istifadə edildi.

Tədqiqatın nəticələri və onların müzakirəsi. İmmunohistokimyəvi müayinə ilə AQP 3, 8 və 9 lokalizasiyası cift və göbək ciyəsinin apikal, bazal və sitoplazmatik sahələrində araşdırılmışdır (Cədvəl 1). Preeklampsiyalı ciftlərin 102-də (97,1%), nəzarət ciftlərin 80-də (76,2%) AQP 3 apikal yerləşmədə müəyyən olunmuşdur. AQP 3 bazal lokalizasiyası preeklampsiyalı hamilələrin 50 ciftində izlənərkən (47,6%), nəzarət qrupu ciftində tapılmamışdır. Preeklampsiyalı ciftlərin 86 (67,2%), nəzarət qrupun isə 42(40%) ciftində AQP 3 sitoplazmada təsbit edilmişdir. Preeklampsiya qrupun göbək ciyəsində 103(98,1%) və nəzarət qrupun 67(63,9%) göbək ciyəsində AQP 3 apikal yerləşmədə müəyyən olunmuşdur. AQP 3 bazal lokalizasiyası preeklampsiyalı nümunələrdə 40-da (38,1%), nəzarət qrupun isə 1(1%) nəfərin materialında izlənmişdir. Preeklampsiya qrupunda 79(75,2%), nəzarət qrupunda isə 41(39%) halda AQP 3 sitoplazmada təsbit edilmişdir. Preeklampsiyalı xəstələrdə apikal, bazal və sitoplazmatik yerləşmədə olan AQP 3 həm ciftdə, həm də göbək ciyəsində nəzarət qrupuna nisbətən birmənalı olaraq ($p<0,001$) daha çox izlənmişdir.

Preeklampsiyalı ciftlərin 97-də (92,4%), nəzarət ciftlərin 51-də (48,6%) AQP 8 apikal yerləşmədə müəyyən olunmuşdur. AQP 8 bazal lokalizasiyası 70(66,7%) preeklampsiyalı ciftdə, 42 (40%) nəzarət ciftdə aşkar edilmişdir. 98(93,3%) preeklampsiyalı ciftdə, 105 (100%) nəzarət ciftdə AQP 8 sitoplazmada təsbit edildi. Preeklampsiyalı göbək ciyələrin 90(85,7%), sağlam göbək ciyələrin 80(76,2%) nümunəsində AQP 8 apikal yerləşmədə müəyyən olunmuşdur. Akvaporin 8 bazal lokalizasiyası preeklampsiya qrupun 87(83%), nəzarət qrupun isə 94(89,5%) göbək ciyəsində izlənmişdir. Preeklampsiya qrupun 104(99%), nəzarət qrupun isə 92(87,6%) göbək ciyəsindən alınmış nümunələrində AQP 8 sitoplazmada təsbit edildi. Preeklampsiyalı faktların plasentalarında bazal və apikal yerləşmədə olan AQP 8 və göbək ciyəsində sitoplazmada yerləşmiş AQP 8, nəzarət qrupun plasentalarına müqayisədə bir mənalı ($p<0,001$) daha çox izlənildi.

Preeklampsiyalı ciftlərin 96-da (91,4%), nəzarət plasentaların 62-də (59%) AQP 9 apikal yerləşmədə müəyyən olunmuışdur. Akvaporin 9 bazal lokalizasiyası preeklampsiyalı xəstələrin 57(54,3%), sağlam hamilələrin isə 26(24,8%) ciftində izlənmişdir. Preeklampsiya qrupun 95(90,5%), nəzarət qrupun isə 78 (74,3%) cift nümunəsində AQP 9 sitoplazmada təsbit edildi. Preeklampsiya qrupun göbək ciyələrin 88 (84%), nəzarət qrupun göbək ciyələrinin 55(52,4%) materialında AQP 9 apikal yerləşmədə müəyyən olunmuışdur. Akvaporin 9 bazal lokalizasiyası preeklampsiyalı göbək ciyələrin 54-də (51,4%), nəzarət nümunələrin isə 26-da (24,8%) müşahidə olunmuışdur. Preeklampsiya qrupun materialların 95-də (90,5%), nəzarət qrupun isə 85-də (81%) AQP 9 sitoplazmada təsbit edildi. Preeklampsiyalı xəstələrdə apikal, bazal və sitoplazmatik yerləşmiş AQP 9 həm plasentada, həmdə göbək ciyəsində nəzarət qrupuna nisbətən bir mənalı ($p<0,001$) çox olduğu təsbit edildi.

Cədvəl 1

Normal ve preeklampsiyalı qadənlarda cift və göbək ciyəsində akvaporin 3, 8, 9 lokalizasiyasının müqayisəsi (n, %)

	Lokalizasiya	Kontrol (n=105)	Preeklampsiya (n=105)	
Döl cifti				
AQP 3	Bazal	0 (0)	50 (47,6)	p<0,001*
	Sitoplazmatik	42 (40)	86 (67,2)	p<0,001*
	Apikal	80 (76,2)	102 (97,1)	p<0,001*
AQP 8	Bazal	42 (40)	70 (66,7)	p<0,001*
	Sitoplazmatik	105 (100)	98 (93)	p=0,014**
	Apikal	51 (48,6)	97 (92,4)	p<0,001*
AQP 9	Bazal	26 (24,8)	57 (54,3)	p<0,001*
	Sitoplazmatik	78 (74,3)	95 (90,5)	p=0,02*
	Apikal	62 (59)	96 (91,4)	p<0,001*

Göbək ciyəsi				
AQP 3	Bazal	1 (1)	40 (38,1)	p<0,001*
	Sitoplazmatik	41 (39)	69 (65,7)	p<0,001*
	Apikal	67 (63,8)	103 (98,1)	p<0,001*
AQP 8	Bazal	94 (89,5)	87 (82,9)	p=0,161*
	Sitoplazmatik	92 (87,6)	104 (99)	p=0,001*
	Apikal	78 (74,3)	90 (85,7)	p=0,09*
AQP 9	Bazal	26 (24,8)	54 (51,4)	p<0,001*
	Sitoplazmatik	85 (81)	95 (90,5)	p=0,049*
	Apikal	55 (52,4)	88 (83,8)	p<0,001*

Qeyd: AQP: Akvaporin; *-statistik təhlil Ki-Kare testi ilə aparılmışdır; **-statistik təhlil Fisher´s exact testi ilə aparılmışdır


Cədvəl 2

Normal ve preeklampsiyalı cift və göbək ciyəsində (orta± SS) akvaporin 3, 8, 9 immunreaktivlik göstəricisi (İRS) baxımından müqayisəsi

	Kontrol qrup (n=105)	Preeklampsiya qrupu (n=105)	p
Cift			
AQP 3	5,3±3,3	9,6±2,9	p<0,001
AQP 8	7,5±2,3	8,6±2,9	p=0,04
AQP 9	7,2±3,2	9,5±3,0	p<0,001
Göbək ciyəsi			
AQP 3	6,6±3,6	9,4±2,7	p<0,001
AQP 8	8,5±2,6	8,5±2,9	p=0,721
AQP 9	7,0±2,5	6,6±2,8	p=0,319

Qeyd: AQP: Akvaporin, İRS: İmmünreaktivite Skoru. Mann-Whitney U Testi ilə hesablanmışdır

Akvaporinlərin imunreaktivliyi cift və göbək ciyəsində qiymətləndirildikdə (İRS), preeklamptik ciftdə AQP 3 İRS dəyərinin orta göstəricisi 9,6±2,9 olduğu halda, nəzarət ciftdə 5,3±3,3, AQP 8 İRS-in orta göstəricisi 8,6±2,9, nəzarət ciftdə 7,5±2,3 AQP 9 İRS-in orta göstəcisi 9,5±3,0, nəzarət ciftdə 7,2±3,2 olaraq hesablanmışdır. Göbək ciyəsinə baxdıqda, preeklamptik nümunələrdə AQP 3 İRS-in orta göstəricisi 9,4±2,7 olduğu halda, nəzarət qrupunda 6,6±3,6, AQP 8 İRS-in orta göstəricisi 8,5±2,9, nəzarət nümunələrdə 8,5±2,6, AQP 9 İRS-in orta göstəricisi 6,6±2,8, nəzarət qrupda 7,0±2,8 olaraq hesablanmışdır. Plasentar yerləşməli olan AQP 3, 8 və 9 İRS-in göstəricisi preeklamptik ciftdə dürüst olaraq (p<0,001) daha çox müşahidə olunmuşdur. Nəzarət və preeklamptik qrupların arasında göbək ciyəsində AQP 8 və 9 yerləşməsində İRS göstəricisi baxımından fərq aşkar edilməmişdir (p>0,05). Preeklamptik nümunələrin göbək ciyəsində AQP 3 İRS-in göstəricisi nəzarət qrupuna nisbətən dürüst fərqli (p<0,001) olmuşdur (Cədvəl 2 və Şəkil 1).



Şək.1.Normal ve preeklampsiyalı ciftlərdə akvaporin 3, 8, 9 ekspressiyası

Yalnız fizioloji deyil, çoxsaylı patoloji prosseslərdə də iştirak edən akvaporinlərin preeklampsiyanın inkişafı ilə əlaqəsi son zamanlar tədqiqatçıları çox maraqlandırır [9]. Aparılan tədqiqatlar, bu zülalın preeklampsiyalı ciftlərdə fərqli ekspressiyaya və funksiyaya sahib olduğunu göstərir. AQP-lərin funksiyaları maye nəqli olmaqla birlikdə, AQP 8 sidik cövhərin nəqlində, AQP 3 və 9 isə həm sidik cövhəri həm də qliserin nəqlində rol oynadığı məlumdur [10].

Bu üç akvaporindən yalnız AQP 9 preeklampsiyada olan rolu araşdırılmışdır, enerji tarazlığına daxil olduğu fərz edilmişdir. Normal və preeklampsiyalı ciftdə AQP 9-un lokalizasiyası araşdırılan bır tədqiqat işində, immunohistokimyəvi üsul ilə AQP 9 normal ciftdə apikal; preeklampsiyalı ciftlərdə isə yalnız apikal deyil, bazal sahədə və sitoplazmada da yerləşdiyi göstərilmişdir [11]. Ədəbiyyat mənbələrdə AQP 3 və 8 preeklampsiyalı ciftdə sinsityotrofoblastlarda olan lokalizasiyasına aid olan tədqiqat işlərinə rast gələ bilmədik.

Beləliklə, cift və göbək ciyəsində akvaporinlərin ekspressiya və lokalizasiyasının öyrənilməsi orada olan struktur-funksional pozuntuları, bu pozuntuların daha da dərinləşməsinin, preeklampsiyanın ağırlıq dərəcəsinin daha da artmasının aşkar edilməsi çox əhəmiyyətli bir məsələdir.

ƏDƏBİYYAT

1. Салов И.А., Чеснокова Н.П., Глухова Т.Н. Закономерности развития обменных нарушений при гестозе // Российский вестник акушера-гинеколога, 2002, № 6, с. 4-6.
2. Венцковский Б.М., Запорожан В.Н., Сенчук А.Я., Скачко Б.Г. Гестозы: руководство для врачей. М.: Мед. информ. агентство, 2005, 312 с.
3. Грищенко В.И., Ліпко О.П., Рубинська Т.В. Нові аспекти превентивного лікування пізніх гестозів // Педіатрія, акушерство та гінекологія, 2005, № 2, с. 65-68.
4. Mann S.E., Ricke E.A., Yang B.A., Verkman A.S., Taylor R.N. Expression and localization of aquaporin 1 and 3 in human fetal membranes // Am J Obstet Gynecol., 2002, v.187(4), p.902-907.
5. Wang S., Kallichanda N., Song W. et al Expression of aquaporin-8 in human placenta and chorioamniotic membranes: evidence of molecular mechanism for intramembranous amniotic fluid resorption // Am J Obstet Gynecol., 2001,v.185(5),p.1226-31.
6. Wang S., Chen J., Beall M. et al Expression of aquaporin 9 in human chorioamniotic membranes and placenta // Am J Obstet Gynecol., 2004, v.191(6), p.2160-7
7. Badaut J., Ashwal S., Obenaus A. Aquaporins in cerebrovascular disease: a target for treatment of brain edema? // Cerebrovasc Dis. 2011, v.31(6), p.521-531
8. De Falco M., Cobellis L., Torella M. et al. Down-regulation of aquaporin 4 in human placenta throughout pregnancy // In Vivo, 2007, v.21(5), p.813-817.
9. Carbrey J.M., Agre P. Discovery of the aquaporins and development of the field // Handb Exp Pharmacol., 2009, v.(190), p.3-28.
10. Liu H, Wintour E.M. Aquaporins in development - a review // Reprod Biol Endocrinol., 2005, v.3, p.18-23.
11. Damiano A.E., Zotta E., Ibarra C. Functional and molecular expression of AQP9 channel and UT-A transporter in normal and preeclamptic human placentas // Placenta, 2006, v.27,p.1073-81.
12. Metindir J., Dilek G.B., Pak I. Staining characterization by immunohistochemistry of tumor cancer antigen in patients with endometrial cancer // Eur J Gynaecol Oncol., 2008, v.29(5). p.489-92.

Резюме

Экспрессия аквапоринов в структурах плаценты и пуповины при преэклампсии

Р.А.Асланова

В статье представлены результаты иммуногистохимического исследования плацентарной и пуповинной ткани, полученных сразу после родоразрешения или кесарева сечения от здоровых беременных и от женщин с преэклампсией. В ходе проведенной нами научно-исследовательской работы была выявлена более повышенная экспрессия аквапоринов 3, 8, 9 в апикальной, базальной и цитоплазматических частях плацентарной и пуповинной ткани беременных с преэклампсией по отношению к здоровым женщинам.

Summary

Expression of aquaporins in the structures of the placenta and umbilical cord in preeclampsia

R.A.Aslanova

The article presents the results of immunohistochemical study of placental and umbilical cord tissue obtained immediately after delivery or cesarean section from healthy pregnant women and from women with preeclampsia. In the course of our research work was revealed increased expression of aquaporins 3, 8, 9 in the apical, basal and cytoplasmic parts of the placenta and umbilical cord tissue of pregnant women with preeclampsia in relation to healthy pregnants.

Daxil olub: 80.10.2014

КЛИНИЧЕСКИЕ АСПЕКТЫ ВЛИЯНИЕ ХИРУРГИЧЕСКОГО ВМЕШАТЕЛЬСТВА НА ТЕЧЕНИЕ РАНЕВОГО ПРОЦЕССА ПРИ РЕЦИДИВНЫХ ОПУХОЛЯХ НОСА

[1] Р.А. Ахвердиев, [1] Дж.Г. Мамедов, [2] Л.А. Зульфугарова, [3] К.Г.Джафаров
[1]Лор-Клиника, Министерства Здравоохранения, Азербайджан, Баку.
[2]Оптимед Клиника, Министерства Здравоохранения, Азербайджан, Баку.
[3]Кафедра оториноларингологии ГБОУ ВПО ЯГМА Россия, Ярославль.

Açar sözlər: burun şişləri residivləri, cərrahi müdaxilə, yaralanma prosesi
Ключевые слова: рецидивы опухолей носа, хирургические вмещательства, раневой процесс
Keywords: recurrent tumors of the nose, surgery, wound process

В последнее время во всем мире отмечается стремительный рост заболеваемост злокачественными новообразованиями кожи [1,3,8,9]. В 80-89% случаев опухоль локализуется на коже лица, а из них 30% приходится на кожу наружного носа. Базалиома чаще локализуется в области эмбриональных линий соединения лицевых складок – на крыльях носа, по ходу носогубной складки, плоскоклеточный рак кожи чаще встречается на коже спинки и крыла носа [4,7]. Операции на ЛОР-органах зачастую принимают характер комбинированных вмешательств, затрагивая структуры, являющиеся прерогативой офтальмологов, стоматологов, оториноларингологов, нейрохирургов. Они включают аспекты сосудистой, реконструктивно-восстановительной и пластической хирургии. При этом вполне естественным выглядит соблюдение общехирургических канонов, которые лежат в основе самого оперативного вмешательства и послеоперационного ведения больного, замыкаясь на заживлении хирургической раны с получением ожидаемого максимально нужного результата [5]. В случае рецидива опухоли носа после лучевой терапии или хирургического лечения повторная операция является методом выбора, причем в этом случае, как правило, требуется расширенная операция с реконструкцией дефекта, образовавшегося после удаления опухоли [4,6]. Риск развития рецидива опухоли во-многом зависит от типа гистологического строения опухоли, так, при базалиоме кожи морфеаподобный, микронодулярный, инфильтрирующий и поверхностно-распространяющийся типы гистологического строения относятся к факторам высокого риска рецидива опухоли [8,10].

Лечение данного контингента больных имеет ряд особенностей. Во-первых, удаление опухолей носа небольших размеров часто производится в хирургических кабинетах поликлиник. При этом, как правило, выполняется необоснованно экономное иссечение, что приводит к рецидиву опухоли. Во-вторых, онкологи поликлиник, как правило, не занимаются восстановлением утраченных при удалении опухоли анатомически сложных структур носа, таких как кончик и крыло носа. Повреждение этих участков наружного носа в результате операции приводит к выраженным эстетическим и функциональным нарушениям, поэтому при локализации рака в области кончика или крыла носа предпочтение часто отдается близкофокусной рентгенотерапии, в результате чего растет частота постлучевых рецидивов. В третьих, ЛОР-врачи занимаются этой проблемой очень редко. Таким образом, актуальным остается поиск наиболее эффективных способов хирургического лечения рецидивных злокачественных опухолей носа. Неудовлетворительные результаты лечения опухолей кожи носа являются важной социальной проблемой. Даже незначительные дефекты наружного носа болезненно воспринимаются пациентами, поскольку нос является центральной и наиболее заметной составной частью лица [2,7,10,11].

Особенности характера заживления раны при операциях по поводу рецидивных опухолей носа после хирургического лечения и лучевой терапии требуют дальнейшего изучения.

Цель исследования: Улучшение результатов хирургического лечения опухолей носа.

Задачи исследования:

1) Изучить особенности раневого процесса при выполнении операции по поводу рецидивных опухолей носа после предшествующего хирургического или лучевого лечения с применением комбинированной пластики (реконструкции сквозного дефекта крыла носа с помощью комбинированного кожно-жирового носогубного лоскута с использованием хрящевого трансплантата из ушной раковины) на основе цитологического, микробиологического критериев, ближайших и отдаленных результатов.

2)Изучить характер заживления ран при хирургическом лечении опухолей носа в зависимости от гистологической структуры.

Материалы и методы исследования. По описанной методике оперировано 13 пациентов, 4(30,8%) пациента- из основной группы и 9(69,2%)- из контрольной группы. Результаты заживления ран, микробиологических, цитологических методов исследования этих групп больных в послеоперационном периоде представлены ниже.

С целью изучение заживления раны в зависимости от гистологической структуры опухоли пациенты были распределены на 2 группы.

В первую группу вошли больные с базальноклеточным раком, количества которых составило- 47 (100%) пациентов; из них- 22 (46,8±7,3%) пациента после ранее проведенного хирургического лечения и 25(53,2±7,3%) пациентов после ранее проведенной лучевой терапии. Во вторую группу включены- 23 (100%) пациента с плоскоклеточным раком; из них- 11 (47,8± 10,4%) пациентов после ранее проведенного хирургического лечения и- 12 (52,2±10,4%) больных после ранее проведенной лучевой терапии.

Результаты исследования. Характеризуя качественный состав микрофлоры кожи, пораженной опухолью, у исследованных пациентов, можно констатировать, что из монофлоры наиболее часто высевался золотистый стафилококк. Процент выделения ассоциаций микробов в группе контроля оказался выше, чем в основной. В контрольной группе в 2 случаях выделена ассоциация грибов рода Candida с золотистым стафилококком, в 1 случае- с эпидермальным стафилококком. В 2 наблюдениях не было получено роста микробов.

Характеризуя количественный состав микрофлоры кожи, до оперативного вмешательства, равное 10^5/см^2 и выше, в основной группе отмечено у 1 больного из 4, в группе контроля- у 5 пациентов из 9 (соответственно 25% и 55,6%).

При исследовании материала, полученного на 3-5 сутки после операции, количество микроорганизмов, не превышающее 10^5/мл, отмечено у 2 больных в каждой группе (50% и 22,2%), более 10^5/мл- в основной группе у 1 пациента, в группе контроля- у 7 (25% и 77,8%).

На 7-9 сутки послеоперационного периода наблюдалась следующая картина: количество микробов, не превышающее 10^5/мл, в основной группе отмечено у 4 пациента, в группе контроля- у 5 (50% и 55,6%), более 10^5/мл- у 1 больного в основной и у 2- в контрольной группе (25% и 22,2%).

Результаты цитологического исследования в первые трое суток у пациентов, оперированных с применением комбинированной пластики, соответствовал воспалительному типу цитограмм. Об этом свидетельствовало преобладание в пунктатах дегенеративных форм лейкоцитов. При этом в основной группе большую часть обнаруженных нейтрофилов составили сохранные сегментоядерные формы (13,10 в поле зрения в основной и 11,63- в контрольной группе), а в контрольной – дегенеративные лейкоциты (соответственно 7,11 и 32,02 в поле зрения.

За счет преобладания дегенеративных нейтрофилов у больных контрольной группы значение регенеративно-дегенеративного индекса на 1-3 сутки оказалось значительно меньшим, чем в основной группе (0,38 в контрольной и 1,88 в основной группе).

Количество моноцитов и лимфоцитов, обнаруженных в цитологических мазках в этот период, у пациентов, оперированных с применением комбинированной пластики, составило: моноциты 0,32 и 0,14 в поле зрения, лимфоциты 0,70 и 0,52 соответственно в основной и контрольной группе.

Кроме того, уже на данном этапе исследования в цитограммах пациентов

основной группы, по сравнению с контрольной, оказалось более высоким число фибробластов (2,34 и 1,29) и гистиоцитов (0,82 и 0,46).

На 5-7 сутки послеоперационного периода характер цитологической картины в обеих группах пациентов стал приближаться к воспалительно-регенераторному типу. Общее количество нейтрофильных лейкоцитов в послеоперационной ране несколько уменьшилось. При этом количество дегенеративных форм лейкоцитов в основной группе в данные сроки оказалось существенно ниже, чем в группе контроля (соответственно 4,90 и 23,48). В соответствии с этим регенеративно-дегенеративный индекс в основной группе увеличился более значительно и достиг значения 2,88, а в контрольной группе не достиг единицы и составил 0,82.

Другим примечательным фактом является то, что на 5-7 сутки после операции в цитограммах пациентов основной группы, по сравнению с контрольной, отмечалось преобладание количества фибробластов (соответственно 2,78 и 1,92 в поле зрения) и гистиоцитов (4,65 и 3,06 в поле зрения).

К 9-му дню послеоперационного периода у больных основной и контрольной групп общее количество нейтрофилов еще больше снизилось.У больных контрольной группы вторая неделя послеоперационного периода характеризовалась относительно высоким количеством в цитологических мазках дегенеративных форм нейтрофилов (2,45 в основной группе и 18,25 в поле зрения в группе контроля), что указывало на слабую тенденцию к ликвидации воспаления в тканях паравульнарной зоны. Это подтверждает и состояние регенеративно-дегенеративного индекса, который в основной группе в данный период был равен 1,68, а в группе контроля составил 0,96. В то же время, у пациентов основной группы на данном этапе возросла выраженность регенеративных клеточных реакций, о чем свидетельствует более высокое, по сравнению с контрольной группой, число зрелых соединительнотканных элементов: фибробластов (соответственно 5,82 и 3,21) и гистиоцитов (соответственно 6,45 и 3,26).

Если оценивать заживление ран у больных после реконструкции дефекта носа комбинированным кожно-жировым носогубным лоскутом с использованием хрящевого трансплантата из ушной раковины, можно отметить, что предложенный метод обеспечивает достаточно хорошие результаты. Заживление послеоперационной раны у 13 пациентов, оперированных с комбинированной пластикой, первичным натяжением наблюдалось у 10 (76,9%) пациентов, вторичным натяжением - у 3 (23,1%). Из них у одного пациента после предшествующего хирургического вмешательства и у двух больных после ранее проведенного лучевого лечения. При контрольном осмотре через месяц у больных имеется полное приживление лоскута, хороший косметический эффект. При эндоскопии преддверия, полости носа – просвет носа широкий, носовое дыхание свободное.

Отдаленные результаты прослежены у всех пациентов в течение 5 лет. У всех обследуемых не отмечено регионарных, отдаленных метастазов и ререцидивов. Таким образом, предложенный метод реконструкции крыла носа позволяет не только устранить косметический дефект, но и обеспечить жесткий каркас крыла носа, чем достигается функциональный результат операции.

На предложенную хирургическую методику получен патент РФ на изобретение: № 2371124 от 27.10.2009 г. «Способ пластики сквозного дефекта крыла носа». При исследовании отмечено, что при плоскоклеточном раке заживление раны вторичным натяжением составило 43,5±10,3%. При базальноклеточном раке заживление раны вторичным натяжением отмечено у 23,4± 6,2% больных ($p>0,05$).

Выводы: 1.Для закрытия раневого дефекта при наличии сквозной раны крыла носа целесообразно использование комбинированного носо-губного лоскута и хрящевого трансплантата из ушной раковины. Применение данного метода обеспечивает хороший ближайший, отдаленный функциональный и эстетический результат. 2.Заживление раны зависит от гистоло- гической структуры опухоли. При плоскоклеточном раке по сравнению с базально-клеточным раком заживление раны первичным натяжением уменьшается на 20,1%.

ЛИТЕРАТУРА

1. Аксель Е.М. Состояние онкологической помощи населению России и стран СНГ в 2005 г. / Е.М. Аксель // Вестник Российского онкологического научного центра имени Н.Н. Блохина

РАМН, 2007, № 2, с.9
2. Гюсан А.О. Восстановительная ринопластика. СПб., 2000, 114 с.
3. Давыдов М.И., Аксель Е.М. Заболеваемость злокачественными новообразованиями населения России и стран СНГ в 2005 г. // Вестник Российского онкологического научного центра имени Н.Н. Блохина РАМН, 2007, № 2, с.54.
4. Воробьев Ю.И., Лимарова И.В., Печурчик А.И. и др. Лучевая терапия рака кожи (варианты фракционирования и методика) // Вопросы онкологии, 1995, № 2, с.90-91
5. Пальчун В.Т., Магомедов М.М., Лучихин Л.А. Оториноларингология. М.: ГЭОТАР-Медиа, 2011, 656 с.
6. Пачес А.И. Опухоли головы и шеи. М.: Медицина, 2000, 479 с.
7. Рауэр А.Э., Михельсон Н.М. Пластические операции на лице. М., Медгиз, 1985, 251с.
8. Савельева А.Е., Ковалев Ю.Н., Важенин А.В. К вопросу о возникновении рецидивов базально-клеточного рака кожи лица / Современные технологии в онкологии: Материалы VI Всероссийского съезда онкологов. Ростов-на-Дону, 2005, с.75.
9. Parkin D.M., Whelan S., Ferlay J. et al Cancer incidence in Five Continents // IARC, sci. publ. Lyon, 2002, v.155, 771 p.
10.Petres J., Rompel R., Robins P. Dermatologic Surgery. Springer, 1996, 522 p.
11.Weerda H. Reconstructive Facial Plastic Surgery. A problem-Solving Manual. Stuttgart-New-York: Thieme, 2001, p.4-6.

Xülasə

Xarici burun dərisi bəd xassəli şişlərinin cərrahi müalicəsinin klinik aspektləri

R.H. Haqverdiyev, C.J. Məmmədov, L.A. Zülfüqarova, K.Q.Cəfərov

Tədqiqatın məqsədi burunun residiv şişlərində cərrahi müalicə nəticələrinin yaxşılaşdırılmasından ibarətdir. Burunun dəlinmiş yaralarında defekti bağlamaq üçün kombinə burun-dodaq loskutu və qulaqdan qığırdaq transplantatı məqsədəuyğundur. Bu metod istifadə edildikdə qənaətbəxş yaxın, uzaq, funksional və estetik nəticələr almaq mümkündür. Yara sağalma prosesi şişin qistoloji strukturundan aslıdır. Yastı hüceyrəli şişdə bazal hüceyrəli şişlə müqayisədə yaranın birincili sağalması 20,1% azalır.

Summary

Clinical aspects of surgical treatment of external nose skin canser

R.A. Ahverdiyev, J.G. Mamedov, L.A. Zulfugarova, K.G.Dzhafarov

The purpose is improving the results of surgical treatment of recurrent tumors of the nose.

The results of the study: 1. To close the wound defect in the presence of a wound through the wing of the nose it is advisable to use a combination of the nasolabial flap and graft cartilage from the ear. Application of this method provides a good approximated, remote functional and aesthetic result. 2. Wound healing depends on the histological structure of the tumors. In SCC compared with basal cell carcinoma wound healing by first intention is reduced by 20.1%.

Daxil olub: 08.12.2014

ХАРАКТЕРИСТИКА ЗАБОЛЕВАЕМОСТИ НАСЕЛЕНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ РАКОМ ПРЯМОЙ КИШКИ И РЕКТОСИГМОИДНОГО ОТДЕЛА ТОЛСТОЙ КИШКИ В 2012 ГОДУ

Н.Г. Кулиева, А.А.Абдуллаев

Национальный центр онкологии, г.Баку

Açar sözlər: düz bağırsaq xəsrçəngi, yoğun bağırsağın siqmaşəkilli nahiyəsi, Azərbaycan Respublikası, xəstəlik dərəcəsi, ölüm dərəcəsi, letallıq

Ключевые слова: рак прямой кишки, ректосигмоидный отдел толстой кишки, Азербайджанская

Республика, заболеваемость, смертность, летальность
Keywords: cancer of the rectum, rectosigmoid colon, the Republic of Azerbaijan, morbidity, mortality, mortality

Колоректальный рак- одно из наиболее частых онкологических заболеваний. В структуре заболеваемости злокачественными новообразованиями мужского населения рак прямой кишки (РПК) составляет 5,1% (6-е место), женского населения- 4,7% (8-е место). В структуре смертности мужчин РПК занимает 5-е место (5,3%); у женщин- 5-е место (6,4%) [1]. Индивидуальный риск его развития достигает в среднем- 5-6%. Ежегодно в мире диагностируется около 1 миллиона новых случаев. Смертность в течение года после постановки диагноза при данной патологии, по данным большинства авторов, составляет около 30%. Более трети больных РПК (2007г.- 34.4%) впервые регистрируются с наличием распространенного опухолевого процесса, 5 лет и более состоят на учете менее 50 ±4,5% пациентов. Как отмечалось выше, у значительной части больных РПК выявляется на этапе местнораспространенного или метастатического процесса [2,4]. При этом истинные показатели заболеваемости могут даже превышать указанные цифры, особенно в развивающихся странах, для которых информация была собрана с известными трудностями, из доступных источников [3].

В анализе состояния заболеваемости РПК и ректосигмоидного отдела толстой кишки в Азербайджане в 2012 году применена карта административно-территориального деления на регионы. Анализ параметров заболеваемости в двух регионах, Кельба-джаро-Лачинском и Верхне Карабахском, на настоящий момент не представлялся возможным из-за оккупации их армянскими реваншистами (рис.1).




Рис.1. Условно выделенные администт-ративно-территориальные регионы.

В Абшеронский регион были включены г.Сумгаит с населением на изучаемый период 314800 человек, Хызынский- 15100 человек, и Абшеронский- 192900 человек, районы. Население региона составило 522800 человек. Коэффициент смертности от РПК в г.Сумгаите составил 2,5, в Хызынском районе смертность отсутствовала, в Абшеронском-3,1. По региону в целом коэффициент смертности составил 2,7. Коэффициент летальности в г.Сумгаите составил 7,3%, в Хызынском районе показатель отсутствовал, в

Əhalinin dərman vasitələri və tibbi təyinatlı məmulatlarla təminatı sahəsində dövlət siyasətinin əsas prinsipləri dərman vasitələrinin istehlakçılarına tələb olunan çeşiddə, həcmdə, keyfiyyətdə və iqtisadi cəhətdən əlverişli qiymətdə çatdırılmasını nəzərdə tutur. Dövlətin dərman siyasətinin reallaşdırılması yəni həyata keçirilməsi əczaçılıq xidmətləri bazarının inkişafı yolu ilə yerinə yetirilməlidir. Əhalini yüksək keyfiyyətli dərman vasitələri ilə təmin etmək üçün onların keyfiyyətinə, istehsaldan istehlakçıya çatdırılma dövrünün bütün mərhələlərində (tədarükü, saxlanması, bölüş-dürülməsi, satışı) normativ- texniki standartlara müvafiq olaraq nəzarət sistemi təşkil olunmaqdadır.

Milli dövlət səhiyyə sisteminə aiddir: Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi, Bakı, Gəncə, Sumqayıt şəhərlərinin səhiyyə şöbəsi. Bu sistemə daxildir: dövlət mülkiyyət formasında və tabeçiliyində olan müalicə profilaktika idarələri, elmi tədqiqat institutları, əczaçılıq müəssisə və təşkilatları, aptek təşkilatları, dərman vasitələrinin istehsalı üzrə müəssisələr və s.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Sağlamlığın qorunması haqqında" qanununa müvafiq olaraq səhiyyənin əsas vəzifələri əks olunmuşdur:

-Dövlət sanitar-epidemioloji xidmətinin təşkili;

-Əczaçılıq və tibb sənayesi üzrə vahid texniki siyasətin təmini;

-Ərazilərin sanitar cəhətdən qorunması üzrə sistemin təşkili;

-Standartların, texniki şərtlərin işlənib hazır-lanması və təsdiqi;

-Dərman vasitələrinin, dezinfeksiyaedici vasitələrin, immunobioloji preparatların, tibbi təyinatlı məmulatların, narkotik vasitələrin, pisxotrop maddələrin və prekursorların sertifi-katlaşdırılması, onların istehsalına, daşınmasına və dövriyyəsinə ciddi nəzarətin təşkili, bütün əczaçılıq məhsulları və xidmətlərinin sertifi-katlaşdırılması;

-Tibbi və əczaçılıq yardımı üzrə standartların işlənib hazırlanması və təsdiqi;

-Dərman xidməti sahəsində tibbi-sosial yardımın göstərilməsi üzrə güzəştlərin müəyyən-ləşdirilməsi;

-Tibbi və əczaçılıq kadrlarının hazırlanması üzrə vahid qiymətləndirmə kriteriyaların və

proqramların tərtibi, vəzifə nomenklaturasının müəyyənləşdirilməs;
-Tibbi və əczaçılıq fəaliyyətinin lisenziyalaşdırılması qaydalarının müəyyənləşdirilməsi;
-Etika və deontologiya məsələləri üzrə xüsusi komitələrin təşkili haqqında qaydaların müəyyənləşdirilməsi;
-Elmi tətqiqatların koordinasiyası;
-Beynəlxalq əməkdaşlığın genişləndirilməsi;

Əczaçılıq fəaliyyətinə rəhbərlik edən idarələrin funksiyaları isə bunlardır:
-Əhalinin, müalicə profilaktika müəssisələrinin dərman vəsaitləri, tibbi təyinatlı məmulatlarla və tibbi texnika ilə təminatının təşkili;
-Aptek təşkilatlarının idarəçilik fəaliyyətinə nəzarətin təşkili;
-Topdan satış əczaçılıq təşkilatının fəaliyyətinə nəzarətin təşkili;
-Pərakəndə satış aptek təşkilatlarının və topdan satış ticarəti ilə məşqul olan müəssisələrin əczaçılıq fəaliyyətinə və dərman təminatının bəzi məsələlərinə aid normativ-hüquqi aktlara riayət olunmasına nəzarətin təşkili;
-Əczaçılıq fəaliyyətinə aid qaydaların və metodik göstərişlərin işlənib hazırlanması;
-Səmərəli informasiya xidmətinin təşkili üçün dövrü metodiki və məlumat ədəbiyyatının nəşri;
-Əczaçıların qurultaylarının, konfrans və müşavirələrinin keçirilməsinin təşkili.

Hal-hazırda ölkəmizdə əczaçılıq xidmətində idarəçilik sistemi yenilənib və onun əsas vəzifələri aşağıdakılardır:
-Əczaçılıq bazarının dərman vasitələri və tibbi təyinatlı məmulatlarla tam çeşidlə təmin etmək məqsədilə əczaçılıq fəaliyyəti ilə məşğul olan bütün müəssisələrin fəaliyyətinin koordinasiyası;
-Əczaçılıq işinin inkişafı sahəsində dövlət siyasətinin keçirilməsi;
-Ərazida əczaçılıq fəaliyyətinin inkişafına və təkmilləşdirilməsinə nəzarət;
-Əhalinin dərman vasitələri və tibbi təyinatlı məmulatlara olan tələbatının öyrənilməsi və təmini.
-Əczaçılıq fəaliyyətini tənzimləyən qanunvericiliyə riayətə nəzarət;
-Əczaçılıq fəaliyyəti ilə məşğul olan bütün iştirakçılara metodiki rəhbərlik;
-Əczaçılığa nəzarətinin həyata keçirilməsi;
-Ərazidə fəaliyyət göstərən bələdiyyə əczaçılıq idarələrinin işinə nəzarət etmək;
-Dərman bazarının geniş çeşidli əczaçılıq əmtəələri ilə təmin olunması;
-Pulsuz və güzəştli dərman yardımının təşkili;
-Müalicə profilaktika müəssisələri üzrə tələbatın təhlili və proqnozlaşdırılması.

Məqsədimiz ölkəmizdə əczaçılıq sektorunun innovasion inkişafına dövlət nəzarətinin və auditin təşkilinə aid məlumatları təhlil etməkdir.

Nəticələr və müzakirələr. Ümumdünya Səhiyyə Təşkilatı özünün WHO/EDM/OSM/99.1 saylı qətnaməsində ölkələrə Səhiyyə Nazirliyinin nəzdində və ya onun tabeliyində dərmanların keyfiyyətinə nəzarət üçün müvafiq struktura malik, hüquq və vəzifələri olan milli səlahiyyətli orqanlar yaratmalarını tövsiyyə edir. O cümlədən:

-ölkəyə idxal və istehsal olunan dərman vasitələri dövlət qeydiyyatına alınmalı, dərman vasitələrinin istehsalçılarının, idxalçılarının, distribyutorlarının və təchizatçılarının, həmçinin qablaşdırma istehsalçılarının inspeksiyası aparılmalı;

-lisenziya əməliyyatlarının aparılmasına nəzarət ücün səlahiyyətli orqanlar lazımi sayda inspektorlara malik olmalı;

-dərman vasitələrinin bütün lisenziyalaşdırılmış istehsalçılarına və təchizat sistemi kanallarının inspeksiyası üçün standart əməliyyat prosedurları (SƏP) və qaydaları hazırlanmalı,

-şübhə doğuran preparatların tərkibini və aktiv komponentlərin miqdarını təyin etmək üçün tez yoxlama üsulları işlənməli, saxtalaşdırılmış dərman vasitələri haqqında bütün məlumatlar öyrənilməlidir;

-aşkar edilən saxta dərman vasitələri barədə məlumatları səhiyyə mütəxəssisləri arasında operativ yaymalı və onların idxalı, ixracı, istehsalı, paylaşması və satışı ilə məşğul olan fiziki şəxslərə və ya təşkilatlara dövlət nəzarəti edilməlidir.

Bütün bu vacib məsələləri nəzərə alıb, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi nəzdində yeni struktur bölməsi kimi dərman vasitələrinin analitik ekspertiza mərkəzi yaradılmışdır. Həmin struktur ölkəmizdə dövriyyədə olan dərman vasitələrinin keyfiyyəti, səmərəliliyi və təhlükəsizliyi üzərində nəzarəti həyata keçirir. Mərkəzin dərmanların keyfiyyətinə nəzarət (inspeksiya) şöbəsi yaradılmışdır və onun mütəxəssisləri- əczaçılıq inspektorları bu günə qədər tələb olunan nəzarəti aparir.

Azərbaycan Respublikasının Qanununun tələblərinə cavab verməyən, həmçinin istifadəyə yararlı olmayan, yararlılıq sertifikatı olmayan, dövlət qeydiyyatından keçməmiş, saxta, keyfiyyətsiz və istifadə müddəti bitmiş dərman vasitələrinin Azərbaycan Respublikası ərazasinə idxalını, istehsalını, hazırlanmasını, saxlanmasını, realizə edilməsini və istifadəsini qadağan edən göstərişlər verir.

Mərkəzin fəaliyyəti nəticəsində əczaçılıq bazarında çox ciddi dəyişikliklər baş vermişdir. Xüsusi razılıq (lisenziya) olmadan əczaçılıq fəaliyyəti göstərən çoxsaylı apteklərin qanunsuz fəaliyyətinə son qoyulmuş, yeni tələblərə cavab verən aptek təşkilatları yaradılmış, minlərlə qutu yararlılıq sertifikatı, qeydiyyat vəsiqəsi olmayan Azərbaycan Respublikasına idxalına, saxlanmasına, reallaşdırılmasına və istifadəsinə icazə verilməyən, istifadə müddəti bitmiş, keyfiyyəti şübhə doğuran dərman vasitələri müsadirə edilərək məhv edilmişdir.

Yoxlamanın aparılma xüsusiyyətləri: obyektdəki dərman vasitələrinin yoxlanılması zamanı əczaçılıq inspektorları əsasən aşağıdakılara fikir verirlər:

-Əczaçılıq təşkilatının Səhiyyə Nazirliyinin 02.10.2006-cı il tarixli 153 saylı əmrinin tələblərinə uyğunluğ olması;

-Dərman vasitələrinin fiziki-kimyəvi və farmakoloji xüsusiyyətlərinə müvafiq saxlanması;

-Dərman vasitələrinin dövlət qeydiyyatına alınmasına və Azərbaycan Respublikasında istifadəsinə icazə verilməsi;

-Dərman vasitəsinin sertifikatlaşdırılması;

-Qablaşmasının və markalanmasının uyğunluğu;

-Keyfiyyəti şübhə doğuran dərman vasitələrinin olmaması;

-Saxta dərman vasitələrinin olmaması;

-Yararlılıq müddəti bitmiş dərman vasitələrinin olmamasına;

-İşçi personalın müvafiq ixtisasa malik olmasını təsdiqləyən sənədlərin qadasında olması;

-Obyektdəki avadanlıqların işlək vəziyyətdə olması.

Yoxlama zamanı obyektdə yararlılıq sertifikatı, qeydiyyat vəsiqəsi olmayan, Azərbaycan Respublikası ərazisinə idxalına, saxlanmasına, realizə edilməsinə və istifadəsinə icazə verilməyən, yararlılıq müddəti bitmiş, keyfiyyəti şübhə doğuran, saxta dərman vasitələri aşkarlanarsa müvafiq qaydada aktlaşdırılaraq müsadirə edilir.

Yoxlamanın nəticəsi olaraq tərtib olunmuş aktda aşağıdakı məlumatlar qeyd olunur:

-obyekt barədə ümümi məlumatlar(adı, ünvanı, əczaçılıq fəaliyyıti üçün verilmiş lisenziyanin nömrəsi, VÖEN nömrəsi, obyektin rəhbərinin adı, soyadı, atasının adı);

-dərman vasitələrinin təhlükəsizliyi, effektivliyi və keyfiyyətinin təmin edilməsi üçün şərait;

-əczaçılıq fəaliyyəti göstərən obyektin yerləşməsi, otaqların sayı və sahəsi;

-dərman vasitələrinin lazımi şəraitdə saxlanması tələblərinin yerinə yetirilməsi;

-texniki vasitələr, avadanlıq və mebellə təchiz oluması;

-dərman vasitələrinin keyfiyyətinə nəzarətin təşkili;

-personalın ixtisasının olub-olmaması;

-dərman vasıtələrinin alınması, saxlanması və buraxılması qaydalarına riayət olunması;

-dərman vasitələrinin keyfiyyətinin təmin edilməsi məqsədilə daxili yoxlamaların keçirilməsi

-aşkar edilən nöqsanların aradan qaldırılması məqsədilə verilmış tapşırıqların nəticələri.

Nöqsanlar müəyyən edildikdən sonra əczaçılıq inspektorları aşağıdakı tədbirləri gərmək hüququna malikdirlər:

-Inzibati xəta haqqında məcəlləyə uyğun olaraq aşkarlanan pozuntular barədə protokollar tərtib edərək qanunvericiliklə nəzərdə tutulan müddət ərzində qərar vermək hüququna malik dövlət orqanına göndərmək.

-Lisenziyalaşdırma haqqında qanunvericiliyin pozulması pozulması faktları barədə materialları səlahiyyətli orqanlara göndərmək.

-Lisenziya vermiş orqanın qarşısında lisenziyanın fəaliyyətinin dayandırılması və ya ləğv edilməsi haqqında məsələlər qaldırmaq.

Yoxlama nəticələrinə müvafiq olaraq aşkarlanan nöqsanların aradan qaldırılması məqsədilə əczaşılıq inspektorları tərəfindən iki nüsxədən ibarət göstərişlər hazırlanır. Bir nüsxə inspektorda saxlanılır, digəri isə obyektin rəhbərinə və ya onu əvəz edən səlahiyyətli şəxsə təqdim olunur.

Aşkar edilən nöqsanlar göstərişdə qeyd olunan vaxtda aradan qaldırılmalı və nəticələri barədə Mərkəzə yazılı məlumat verilməlidir.

Həmçinin ölkə ərazisində yerləşən aptek təşkilatlarının proqramlaşdırılmış bazası yaradılmışdır. Həmin bazada apteklərin ilk yoxlama zamanı çəkilən fotoşəkilləri, işçi prsonalın ixtisasları barədə və obyektə aid zəruri məlumatlar yerləşdirilmişdir.

Nətcələr: 1)Azərbaycan Respublikasında əczaçılıq sektoru inkişaf edir və onun tənzimlənməsi dəvlət tərəfindən həyata keçirilir. Müasir əczaçılığın inkişafında bəzi innovativ siyasətin aspektləri təhlil edilmişdir. Nəticələrdən məlum olmuşdur ki, ölkəmizdə əczaçılıq sektorunda beynəlxalq tələblərə müvafiq təkmilləşmə və yeniləşmə mövcuddur: normativ-hüquqi və qanunvericilik bazası kökündən

dəyişmişdir. 2) Beynəlxalq standartlara cavab verən milli nəzarətçi orqan- Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin nəzdində Dərman Vasitələrinin Analitik Ekspertiza Mərkəzi yaradılmişdir ki, o da tələb olunan səviyyədə öz işlərini yerinə yetirir. Hal- hazırda ölkəmizdə dərman vasitələrinin keyfiyyətinə nəzarət (inspeksiya-müfəttişlik) yaradılmiş, aptek müəssisələrində və təşkilatlarında ardıcıl olaraq yoxlamalar həyata keçirilmişdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı 12 noyabr 1995, s. 22
2. Vəliyeva M.N., Cabbarova Ş.A. Əczaçılığın idarəolunması və iqtisadiyyatı. Bakı, 2013, 736 s
3. Vəliyeva M.N., Atakişizadə S.A. Azərbaycanda əczaşılıq və tibb təchizatında innovasion yanaşmalar// Azərbaycan təbabətinin müasir nailiyyətləri, 2014, №4
4. Шафиева П.А. Изучение ассортимента зарегистрированных лекарственных средств в Азербайджанской республике // Азерб. фармац. и фармакотерапевт. журнал, 2010, №1, с.33-38
5. Vəliyeva M.N., Abdullazadə Ə.A., Əzizbəyov P.X. Ölkəmizdə Əczaçılıq fəaliyyətinə dövlət nəzarətinin təşkili // Azərbaycan əczaçılığı və farmakoterapiya jurnalı, 2012, No5, s.5-10
6. Vəliyeva M.N., Abdullazadə Ə.A., Əzizbəyov P.X. Saxta dərmanların qarşısının alınmasında hüquqi əsasların öyrənilməsi //Azərbaycan təbabətinin müasir nailiyyətləri, 2012, No 2, s.72-76

Резюме

Некоторые аспекты инновационной политики современной фармации

С.А.Атакишизаде, В.К.Абилова, А.Х.Алиева, М.Н.Велиева

В научной статье приводятся сведения касательно усовершенствования и развития инновационной лекарственной политики страны. Отдельно обсуждаются вопросы охраны здоровья населения а также контроль качества лекарств. Конкретизируются пути повышения контроля качества лекарств с учетом современных требований инновационной лекарственной политики страны, а именно, требований Центра Аналитической Экспертизы Лекарственных Средств Министерства Здравоохранения Азербайджанской Республики.

Summary

The some aspects of innovation politics of pharmacy

S.A.Atakichizade, A.K.Abilova, A.Ch. Aliyeva, M.N.Veliyeva

There is information about the ways of improvement and development of innovation drug politics of our country in the article. The same time are considered the issues of health satiety of population, and drug provision and quality control of drugs. There is identifies ways to improve the quality control taking into accout modern requirements of innovation politics of our country, namely the requirements of the Centre's of analytical expertise medicinal products of the Ministry of health of Azerbaijan republic.

Daxil olub: 02.10.2014

ПРИМЕНЕНИЕ КАЛЬКУЛЯТОРА РИСКА СЕРДЕЧНО-СОСУДИСТОЙ СМЕРТИ В КЛИНИЧЕСКОЙ ПРАКТИКЕ

Я.З.Курбанов, Н.В.Зейналова, В.А.Мирзазаде

Азербайджанский медицинский университет, кафедра терапевтической и педиатрической пропедевтики, г.Баку

Açar sözlər: ürək-damar ölümü riski, sayğac, metabolik sindrom

Ключевые слова: риск сердечно-сосудистой смерти, калькулятор, метаболический синдром

Keywords: risk of cardiovascular death, calculator, metabolic syndrome

Сахарный диабет характеризуется высокой частотой случаев дислипидемии и артериальной гипертензии [1]. Риск сердечно-сосудистых заболеваний при сахарном диабете повышен в 2-4 раза [2,3] и являются главной причиной смерти больных сахарным диабетом [4,5].

Сахарный диабет часто является компонентом метаболического синдрома [6,7], «вклад» которого, по данным Ford E.S. в смертность от всех причин составляет 6-7%, в смертность от сердечно-сосудистых заболеваний 12-17% и в смертность от диабета 30-52% [8].

В связи с выше зложенным становится ясно, что определение риска сердечно-сосудистой смерти больного, в том числе больного сахарным диабетом, становится для лечащего врача насущной необходимостью.

Целью данной работы было представить возможность применения интернета для определения риска сердечно-сосудистой смерти с помощью калькулятора, разработанного на основе Фремингемской шкалы риска (Framingem Risk Score) [9].

На рис. 1 представлен имеющийся на сайте http://integrate. ccretherapeutics.org.au /Calculator/ Fram91.aspx калькулятор риска.




Рис. 1. Калькулятор риска, основанный на Фремингемской шкале риска. [9]

Для того, чтобы оценить риск, имеющийся у больного необходимо, прежде всего, выбрать какой именно риск мы хотим оценить.

Как видно из рис. 2, калькулятор позволяет оценить следующие риски:

- Риск развития коронарной болезни сердца;
- Риск развития инфаркта миокарда;
- Риск развития коронарной смерти;
- Риск развития инсульта;
- Риск развития сердечно-сосудистых заболеваний;
- Риск смерти от сердечно-сосудистых заболеваний




Рис. 2. Выбор вида риска по калькулятору риска, основанный на Фремингемской шкале риска

Затем выбирается период времени, для которого оценивается риск. Выбираем для нашего больного период 10 лет (калькулятором преставлены варианты: 4, 5, 6, 7, 8, 9, 10, 11, 12 лет).

На следующем этапе вносятся данные о возрасте, росте, весе, половой принадлежности; уровнях холестерина липопро теидов высокой плотности (ЛПВП), общего холестерина; величины систолического артериального давления, данные о курении (да; нет), данные о наличии сахарного диабета (да; нет); информация о наличии (или отсутствии) гипертрофии левого желудочка; данные о регулярных физических упражнениях (один; два; три; четыре; пять и более раз в неделю).

На рис. 3 представлена занесенная в калькулятор информация о нашем больном: возраст 55 год; рост 175 см; вес 114 кг; мужчина; холестерин ЛПВП- 0,8ммоль/л; общий холестерин- 6,5 ммоль/л; систолическое артериальное давление 160 мм.рт.ст.; курит; страдает сахарным диабетом; по данным ЭКГ имеется гипертрофия левого желудочка; регулярная физическая активность практически отсутствует (один раз в неделю).

Из специфических особенностей внесенных данных следует отметить, что данные уровня холестерина ЛПВП и общего холестерина должны быть внесены с применением точки, а не запятой после целого числа, то есть «0.8», а не «0,8»; «6.5», а не «6,5». В противном случае на дисплее появится информация о том, что данные уровня холестерина ЛПВП и общего холестерина находятся за пределами анализируемых параметров.

После нажатия на кнопку «Подсчитать риск» (“Calculate Risk”) получаем следующую картину, представленную на рис.4.

Как видно из рис. 4, риск смерти у нашего больного чрезвычайно высок и составляет 27,67%.

При этом калькулятор представляет рекомендации по эффективной интервенции:

- назначить терапию для снижения артериального давления;
- прекратить курение;
- назначить липидоснижающую терапию;
- снизить на 5 кг массу тела;
- выполнять физические упражнения хотя бы 3 раза в неделю.

Если мы примем эти предложения и вновь подсчитаем риск (рис. 5), то увидим, что риск снизится до 8,03%.




Рис. 3. Вид на дисплее калькулятора риска, основанного на Фрименгемской шкале риска, после внесения информации о больном, для которого необходимо рассчитать 10-летний риск сердечно-сосудистой смерти




Рис.4. Результаты калькуляции риска сердечно-сосудистой смерти в течение10 лет у обследуемого больного




Рис. 5. Снижение риска при принятии предложенных компьютерной программой мер.

Таким образом, представленный калькулятор, который может использоваться каждым врачом совершенно бесплатно, предоставляет две основные и, на наш взгляд, чрезвычайно необходимые в клинической практике возможности: 1.Определить риск сердечно-сосудистой смерти у конкретного больного и таким образом понять насколько интенсивным должно быть наше вмешательство; 2.Демонстративно убедить больного, что усилия по улучшению здоровья способны принести значительный результат.

ЛИТЕРАТУРА

1. Mokdad A.H., Ford E.S., Bowman B.A. et al Prevalence of obesity, diabetes, and obesity-related health risk factors,2001 // JAMA,2003, v.289, p.76-79.
2. Hu F.B., Stampfer M.J., Solomon C.G. et al The impact of diabetes mellitus on mortality from all causes and coronary heart disease in women: 20 years of follow-up // Arch Intern Med., 2001, v.161, p.1717-1723.
3. Fox C.S., Coady S., Sorlie P.D. et al Trends in cardiovascular complications of diabetes / JAMA, 2004, v.292, p.2495-2499.
4. Engelgau M.M., Geiss L.S., Saaddine J.B. et al The evolving diabetes burden in the United States // Ann Intern Med., 2004, v.140, p.945-950.
5. Haffner S.M., Lehto S., Ronnemaa T. et al Mortality from coronary heart disease in subjects with type 2 diabetes and in nondiabetic subjects with and without prior myocardial infarction // N Engl J Med.,1998, v.339, p.229 -234.
6. Чазова И.Е., Мычка В.Б. Метаболический синдром // Кардиоваскулярная терапия и профилактика, 2003, № 3, с. 32-38.
7. Мамедов М.Н. Руководство по диагностике и лечению метаболического синдрома. М.: Мультипринт, 2005.
8. Ford E.S. Risksforall-cause mortality, cardiovascular disease, and diabetes associated with the metabolic syndrome: a summary of the evidence //Diabetes Care, 2005, v.28(7), p.1769-78.
9. CCRE Therapeutics. Framingham Risk Score. http://integrate. Ccretherapeutics. rg.au/ Calculator/Fram91.aspx

Xülasə

Klinik təcrübəyə ürək-damar ölümü riski sayğacının tətbiq edilməsi

Y.Z.Qurbanoz, N.V.Zeynalova, V.A.Mirzəzadə

Elmi tədqiqat işində, "risk kalkulyatoru"vasitəsi ilə ürək-damar ölüm riskinin təyin olunma metodikası təqdim olunmuşdur. Bu metodika Freminqems risk şkalası əsasında tərtib olunmuş və http://integrate.ccretherapeutics.org.au/Calculator/Fram91.aspx saytında göstərilmişdir. Göstərilən kalkulyatorun tətbiq olunması iki əsas məqamın aşkar edilməsini təmin edir: konkret xəstədə ürək-damar ölüm riskinin təyin edilməsi və bununla da müalicənin effektivliyinin intensivləşdirilməsini müəyyən etmək; xəstənin sağlamlığının yaxşılaşdırılmasına yönəldilmiş səylərin əhəmiyyətli dərəcədə nəticə verməsini əyani olaraq xəstəyə inandırmaq.

Summary

Applications calculators risk of cardiovascular death in clinical practice

Y.Z.Kurbanov, N.V.Zeynalova, V.A.Mirzazade

The paper presents a method of determining the risk of cardiovascular death by a risk calculator developed based on Framingham risk scale and available on the website: http://integrate. ccretherapeutics.org.au/Calculator/Fram91.aspx Application of this calculator offers two main options: to determine the risk of cardiovascular death in individual patients and thus to understand how intense should be our intervention; demonstratively convince the patient that efforts to improve health can bring significant results.

Daxil olub: 17.09.2014

İDMANÇI QADINLARDA DİŞLƏRİN SƏRT TOXUMALARININ VƏZİYYƏTİNİN VƏ AĞIZ SULARINDA MİKROELEMENTLƏRİN TƏRKİBİNİN ÖYRƏNİLMƏSİ

Ş.Ə. Məmmədova, C.Q.Hacıyev

Azərbaycan Tibb Universiteti, terapevtik və ortopedik stomatologiya kafedraları, Bakı

Açar sözlər: idmançı qadınlar, dişlərin sərt toxumaları, ağız suyu, mikroelementlər
Ключевые слова: женщины спортсмены, твердые ткани зубов, микроэлементы
Keywords: women athletes, hard tooth tissue, trace elements

İdmançı qadınlar fiziki və psixo-emosianal həyat tərzi keçirən sosial qrupa da aid olunurlar. Fiziki və psixo-emsional gərginlik zamanı orqanizmin yaşından, həyat tərzindən və genetik xüsusiyyətlərindən asılı olaraq müxtəlif xəstəliklər və çatışmazlıqlar inkişaf edə bilər. Onlar müxtəlif yarışlarda fiziki və psixo-emosial travmalara məruz qalırlar. İdmançıların bədənindəki fizioloji və biokimyəvi proseslər daha intensiv xarakter daşıyır və onların orqanizmi yaranmış qeyri-adekvat halları bərpa etməyə imkan tapmır. Bu hal uzun müddət davam edərsə proseslər fizioloji məcradan çıxaraq, patoloji xarakter daşımağa başlayır, qusurlu dövranlar baş verir [1,2,3]. Onların əzələ və digər yumşaq toxumalarında baş verən oksidləşmə prosesləri intensiv olduğundan süd turşusunun yaranması da intensiv yaranır. Qeyd olunan və digər mübadilə pozulmaları, psixo-emosianal gərginlik idmançılarda bütün orqanizmdəki problemlərlə bərabər ağız boşluğu selikli qişasında da dəyişikliklərə səbəb olur, ağız boşluu selikli qişası və parodont toxumalarındakı dəyişikliklər isə öz növbəsində dişin sərt toxumalarının xəstəliklərinə səbəb olur. Dişin sərt toxumalarının əsas patologiyası kariesdir.

Karies-dişin bərk toxumalarının proqressiv demineralizasiyası,yumşalması və destruksiyası nəticəsində boşluq şəklində defektin əmələ gəlməsi ilə xarakterizə olunan patoloji prosesə deyilir. Karies ən geniş yayılmış patologiyalardan hesab olunur. Dünya əhalisinin təxminən 80%-ində bu patologiya müşahidə olunur. Karies insanda ən çox birinci böyük azı dişlərində,sonra ikinci böyük azı dişlərində,daha sonra isə kiçik azı dişlərində və kəsici dişlərdə inkişaf edir. Köpək dişlərinin kariesinə az təsadüf olunur. Karies haqqında dünya alimləri son illərdə daha mükəmməl etioloji nəzəriyyələr təklif etmişlər.Ümumiyyətlə kariesin yaranması və

inkişaf etməsi üçün aşağıdakı şərtlər və onların təsiri üçün müəyyən zaman müddəti lazımdır.

1.Kariesə qarşı rezistentliyin aşağı olması.

2.Diş üzərində qida qalıqlarının(xüsusən də aşağımolekullu karbohidrat tərkibli) ilişib diş çöküntüləri şəklində fissurlarda,kor çuxurlarda və diş aralarında qalması.

3.Kariesogen mikrofloranın mövcudluğu.

Kariesə qarşı rezistentlik dişlərin sərt toxumalarındakı hidroksiapatitlərin molekulyar quruluşu,diş toxumalarının quruluşu,dişin özünün anatomik quruluşu,diş-çənə sisteminin funksional quruluşu,ümumi orqanizmin quruluşu,qrup və populyasiya mənsubiyyəti səviyyəsində olur. Bunların hər hansı birinin və yaxud bir neçəsinin aşağı olması karies üçün şərait hesab olunur.

Dişlərin sərt toxumalarındakı hidroksi apatitlərin quruluşu səviyyəsində kariesə qarşı rezistentliyin aşağı olması, əsasən minadakı hidroksiapatitlərin qeyri-düzgün tərkibdə olması, yəni tərkiblərindəki mikroelementlərin tam olmaması və dişlərin inkişafı prosesində onların tam minerallaşmaması ilə müəyyən olunur.

Ağız suyundakı Ca və P sərt toxumalardakı minerallaşmanın, ağız suyunun pH-ı isə onun mühitinin və sərt toxumaların minerallaşması və demineralləşməsi arasındakı balansın göstəricisidir [4,5].

Tədqiqatın məqsədi: İdmançı qadınlarda dişlərin sərt toxumalarının vəziyyətinin və ağız sularında mikroelementlərin tərkibinin müqayisəli öyrənilməsi.

Tədqiqatın material və metodları. Bu məqsədlə ilk olraraq, tərəfimizdən yaşı 15-21 arasında olan 150 nəfər idmançı gənc qadınlar, yaşı 22-28 arası olan 200 nəfər yetkin idmançı qadınlar və 200 nəfər könüllü olaraq, müayinələrə razılıq vermiş adi həyat tərzi keçirən qadınlar KPÇ indeksi (onun komponentləri də) və kariesin yayılmasına görə müayinə olunmuşlar. Kariesin yayılmasını müəyyənləşdirmək məqsədilə kariesli dişlərin sayından asılı olmayaraq karies boşluğu olan şəxslərin sayı, ümumi müayinə olunanların sayına bölünərək 100%-ə vurulur. Bu göstəriciyə həm müalicə olunmuş, həm olunmamış və səbəbindən asılı olmayaraq çəkilmiş dişlər daxildir. KPÇ indeksi isə, xatırladaq ki, hər bir şəxsdə (K) kariesli, (P) plomblu və (Ç) çıxarlmış dişlərin cəmidir. 200 nəfər idmançı qadın müayinələrə cəlb olunmuş və onlarda sağlam parodont toxumalarının olması, diş ətlərindən qanaxma, diş daşlarının mövcudluğu və parodontal ciblərin 4 - 5 mm (orta parodontit) və 6 mm-dən dərin (ağır parodontit) formaların rast gəlinməsi faiz və sekstantlar üzrə müəyyənləşdirilmiş və müayinə olunanlarda gigiyenik tədbirlərə, parodontal müalicə tədbirlərinə diş daşlarının təmizlənməsinə və kompleks müalicə tədbirlərinə ehtiyac dərəcəsi CPITN indeksinə əsasən müəyyənləşdirilmişdir.

Tədqiqatın II mərhələsində isə 20 nəfər yaşı 15-21 arası, eyni sayda yaşı 22-28 arası və eyni sayda adi həyat tərzi keçirən qadınlardan ağız suyu nümunələri götürülərək ATU-nun Biokimyəvi laboratoriyasına göndərilmiş və uyğun mütəxəsislərə kalsium (Ca) və fosfor (P) kimi mikroelementlərin miqdarını mol/l-lə hesablamaq tapşırılmışdır. Alınmış ədədi verilənlər müasir tələbləri nəzərə almaqla statistik metodlarla işlənmişdir. Qrup göstəriciləri üçün orta qiymətlər (M), onların standart xətası (m), sıraların minimal (min) və maksimal (max) qiymətləri, həmçinin qruplarda keyfiyyət göstəricilərinin rastgəlmə tezliyi müəyyən edilmişdir. Qeyd edək ki, tədqiqat işi zamanı alınan nəticələrin statistik işlənməsi Statistica 7.0 tətbiqi kompüter proqramı ilə aparılmışdır.

Tədqiqatın nəticələri və müzakirəsi: Tədqiqat nəticəsində ilk mərhələdə sərt toxumaların vəziyyətini əks etdirən, kariesin yayılması, intensivliyi və KPÇ indeksi üzrə hesablamalar zamanı yaşı 15-21 arasında tərəddüd edən 150 nəfər şərti gənc qadınlar qrupunda kariesin yayılması 83,3±3,04% təşkil etmişdir. Bu qrupda hər şəxs üçün orta karies intensivliyi (KPÇ) 4,59±0,14 olmuşdur. KPÇ nin komponentləri isə karies orta hesabla 3,46±0,16, plomblanmış diş 0,72±0,08 və çıxarılmış dişlər isə orta hesabla 0,41±0,08 olmuşdur (Cədvəl 1).

Yaşı 22-28 arasında tərəddüd edən 200 nəfərdən ibarət olan və tərəfimizdən tədqiqatda şərti olaraq, yetkin idmançı qadınlar qrupu kimi xarakterizə olunan qrupda isə dişin sərt toxumalarının vəziyyətini KPÇ indeksi ilə qiymətləndirərkə isə qrup üzrə kariesin yayılması 91,0±2,02% təşkil etmiş, kariesin intensivliyini xarakterizə edən indeksin göstəricisi isə 5,12±0,14 müəyyənləşmişdir. Bu qrupda KPÇ indeksinin elementlərinin göstəriciləri K-3,83± 0,12, P-0,71±0,07 və Ç-0,58±0,07 hesablanmışdır.

Cədvəl 1

İdmançı qadınların dişlərinin sərt toxumalarının vəziyyətinin KPÇ indeksinə əsasən müqayisəli öyrənilməsi və kariesin yayılmasının xüsusiyyətləri

Qruplar	Müayinə olunanların sayı	Kariesin yayılması	1 müayinədə kariesin intensivliyinin orta göstəricisi	KPÇ indeksinin elementlərinin göstəriciləri		
				K	P	Ç
Yaşı 15-21 arasında olan idmançı qadınlar	150	83,3±3,04	4,59±0,14 **	3,46±0,16 **	0,72±0,08	0,41±0,08 *
Yaşı 22-28 arası olan yetkin idmançı qadınlar	200	91,0±2,02	5,12±0,14 **	3,83±0,12 **	0,71±0,07	0,58±0,07 **
Adi həyat tərzi keçirən idmanla məşğul olmayan qadınlar	200	75,0±3,06	3,78±0,16	2,68±0,13	0,86±0,09	0,24±0,05

Qeyd: K- ağırlaşmamış karies, P –plomblanmış diş, Ç –çıxarılmış diş, * - p<0,05, ** - p<0,001 qruplaraarası dürüstlük

Müqayisə üçün müayinələrə könüllü olaraq razılıq vermiş 200 nəfərdən ibarət adi həyat tərzi keçirən, idmanla məşğul olmayan qadınlar qrupunda isə kariesin yayılması 75,0±3,06% təşkil etmişdir ki, bu da hər iki idmanla məşğul olan qadınlar qrupunun eyni göstəricisindən yüksəkdir. KPÇ indeksinin göstəricisi, kariesin intensvliyi isə K -2,68±0,13, P -0,86±0,09 və Ç -0,24±0,05 olmaqla ümumilikdə 3,78±0,16 müəyyənləşdirilmişdir. KPÇ indeksi üzrə hesablamalar daha uzun müddət idmanla məşğul olan qadınlar arasında kariesin daha çox yayılmasının və intensivliyinin yüksək olmasını göstərir. İdmançı qadınların bütün orqan və sistemlərində olduğu kimi ağız boşluğunda da yerli antioksidant və immun sistemi zəifləyə bilər ki, bu da kariesogen mikrofloranın baş qaldırmasına səbəb ola bilər. Diş ərpinin və diş daşlarının daxilində,üzərində,diş səthi ilə qonşu təbəqələində mikroorqanizmlər yapışmış vəziyyətdə olur. Bu mikroorqanizmlər diş çöküntülərinin tərkibindəki monosaxarid və disaxaridləri həyat fəaliyyətləriüçün istifadə edirlər və özlərində süd turşusu və digər üzvi turşular ifraz edirlər.

Cədvəl 2

İdmançı və adi həyat tərzi keçirən qadınların ağız suyu nümunələrində mikroelementllərin miqdarının müqayisəsi

Yaş qrupları	Müayinə olunanların sayı	Mikroelementlər	
		Ca (mkmol/l)	P (mkmol/l)
Yaşı 15-21 arası	20	0,91±0,012	2,90±0,011
Yaşı 22-28 arası	20	0,78±0,006	2,74±0,008
Adi həyat tərzi keçirən qadınlar	20	1,12±0,013	3,10±0,012

Diş ərpindəki monosaxarid və disaxaridlər əsasən ağız suyunun tərkibindəki amilaza fermentinin polisaxaridləri parçalaması nəticəsində yaranırlar.Bakteriyaların ifraz etdiyi süd turşusu və digər üzvi turşular diş minası səthini lokal olaraq demineralləşdirir yəni Ca2+ və digər ionları özündə həll edərək mina toxumasından çıxarır Ona görə də karbohidrat tərkibli qidaların az qəbulu kariesin yaranma ehtimalını azaldır. Çünki, bu zaman bakteriyalar özlərinin bölünərək çoxalması və həyat fəaliyyəti üçün monosaxarid və disaxaridlərin miqdarı da uyğun olaraq azalır. Ümumiyyətlə diş ərpinin altında diş səthində pH~5.5 dən aşağı olanda dişin sərt toxumalarının demineralləşməsi üçün yaxşı şərait yaranır. Ümumi orqanizmin quruluşu səviyyəsində kariesə qarşı rezistentliyin aşağı olması tüpürcək vəzilərinin funksional vəziyyətinin patologiyası nəticəsində tüpürcəyin qatılaşması,ağız boşluğunun yerli immunitetinin aşağı olması,psixoloji vəziyyətin pis olması və s. ilə müəyyən olunur. Tədqiqatın II mərhələsində isə yaşı 15-21 arasında olan 20 nəfər idmançı qadınlar qrupundan götürdüyümüz ağız suyu nümunələrində Ca^{2+} mikroelementinin miqdarı 0,91±0,012 mkmol/l, eyni sayda olan ancaq yaşı 22-28 arasında tərəddüd edən qrupda 0,78±0,006 mkmol/l olmuşdur (cədvəl 2). Ancaq müqayisə üçün müayinələrə könüllü olaraq razılıq vermiş adi həyat tərzi keçirən qadınlar qrupunda isə bu

mikroelementin ağız suyu nümunələrində orta miqdarı daha yüksək 1,12±0,013 mkmol/l olmuşdur. Alınan rəqəmlər idmançıların ağız suyunda vacib mikroelement olan Ca^{2+} ionunun nisbətən aşağı olmasını göstərir ki, bu da onlarda kariesin intensvliyi və yaılması göstəricilərinin yüksək səviyyədə olmasında nisbi rola malikdir.

Yaşı 15-21 arasında olan 20 nəfər idmançı qadınlar qrupundan götürdüyümüz ağız suyu nümunələrində fosfor mikroelementinin miqdarı 2,90±0,011 mkmol/l, eyni sayda olan ancaq yaşı 22-28 arasında tərəddüd edən qrupda 2,74±0,008 mkmol/l olmuşdur. Ancaq müqayisə üçün müayinələrə könüllü olaraq razılıq vermiş adi həyat tərzi keçirən qadınlar qrupunda isə bu mikroelementin ağız suyu nümunələrində orta miqdarı daha yüksək 3,10±0,012 mkmol/l olmuşdur.

Tərəfimizdən şərti olaraq orta yaşlı idmançı qadınlar kimi xarakterizə olunan və 22-25 yaş arası 75 nəfərdən ibarət qrupda isə gigiyenik proseduralara ehtiyac 12,00±3,75% olmasına baxmayaraq, diş daşlarının təmizlənməsinə ehtiyac 69,33±5,32% və kompleks müalicə tədbirlərinə ehtiyac 9,33±3,36% olmaqla ümumilikdə parodontal müalicə tədbirlərinə ehtiyac 78,67±4,73% müəyyənləşdirilmişdir (cədvəl 3). Yaşı 26-29 arasında tərəddüd edən və tərəfimizdən yetkin idmançı qadınlar qrupu kimi xarakterizə olunan 60 nəfərlik qrupda isə gigiyenik tədbirlərə ehtiyac cəmi 6,67±3,22 olsa da, əksər hallarda parodontda vəziyyət artıq gigiyenik tədbirlər mərhələlərini geridə qoyaraq, parodont patologiyalarının inkişafına qədər irəliləmişdir. Belə ki, bu qrupda diş daşlarının təmizlənməsinə ehtiyac 76,67±5,46% və kompleks müalicə tədbirlərinə ehtiyac 11,67±4,14% olmaqla ümumilikdə yaş qrupu üzrə parodontal yardıma ehtiyac 88,33±4,14% təşkil etmişdir.

Cədvəl 3

CPITN indeksinə əsasən müxtəlif yaş qrupuna mənsub idmançı qadınlarda müalicə tədbirlərinə ehtiyac dərəcəsi

Yaş qrupları	Müayinə olunanların sayı	Gigiyenik tədbirlərə ehtiyac	Parodontal yardıma ehtiyac	O cümlədən	
				Diş daşlarının təmizlənməsi	Kompleks müalicə tədbirləri
18 – 21	65	21,54±5,10	63,08±5,99	63,08±5,99	-
22 – 25	75	12,00±3,75	78,67±4,73	69,33±5,32	9,33±3,36
26 – 29	60	6,67±3,22	88,33±4,14	76,67±5,46	11,67±4,14
Ümumi	200	13,50±2,42	76,50±3,00	69,50±3,26	7,00±1,80

Ümumilikdə hər 3 yaş qrupuna mənsub olan bütün idmançı qadınların ümumi CPITN indekslərinə əsasən göstəricilərini hesablasaq, 200 idmançıda gigiyenik tədbirlərə ehtiyac dərəcəsi 13,50±2,42% aşkarlanmışdır. Diş daşlarının təmizlənməsinə ehtiyac 69,50±3,26% və kompleksşəkilli müalicə tədbirlərinə ehtiyac 7,00±1,80% olmaqla, ümumiləşmiş parodontal yardıma ehtiyac 76,50±3,00% təşkil etmişdir. Tədqiqatda əldə olunan ədədi göstəricilər idmançı qadınlar arasında parodontal yardıma ehtiyacın yüksək səviyyədə olduğunu göstərir. Yaş qrupları üzrə hesablamalrın nəticələri isə yuxarı yaş qrupuna daxil edilmiş qadın idmançılarda parodontal yardıma ehtiyacın daha yüksək olduğunu göstərir ki, bu da onların daha uzun müddətdir ki, intensiv məşq və yarışların fiziki və emosional gərginliyinə məruz qaldıqlarının nəticəsidir. Ümumiyyətlər hrə hansıbir qrup müayinə olunmuş şəxslərdə parodontal müalicə tədbirlərinə ehtiyac 80%-dən yüksəkdirsə həyəcan təbili çalınmalıdır və həmin qrupdakı şəxslərin ağız boşluqlarına operativ müdaxilə olunmalıdır.

ƏDƏBİYYAT

1. Меерсон Ф.З., Капелько В.И. Современные представления о механизмах сокращения и расслабления сердечной мышцы // Успехи физиологических наук, 2006, №2, с.21-41.

2. Соколова Н.И., Люгайло С.С. Миогимнастические упражнения в комплексной системе превентивной реабилитации спортсменов / Спортивная медицина, лечебная физкультура и валеология. Материалы 12 научно-практической конференции. Одесса, 2006, с.224-229.

3. Гребняк В.П. Проблемы функционального контроля при подготовке спортсменов // Теория и практика физического воспитания, 2005, №3, с.141-144.

4. Mochida N., Umeda T., Yamamoto Y. The main neutrophil and neutrophil-related functions may compensate for each other following exercisea finding from training in university judoists // Luminescence, 2007, v. 22, № 1, p. 20-28.

5. Muller-Bolla M., Lupi-Pegurier L., Bolla M., Pedeutour P. Orofacial trauma and rugby in France: epidemiological survey //Dent. Traumatol., 2003, v.19, №4, p.l83-92.

Резюме

Оценка микроэлементного состава ротовой жидкости и состояния твердых тканей зубов у спортсменок

Ш.А. Мамедова, Д.Н.Гаджиев

Результаты исследований показали высокую потребность спортсменок в пародонтологической помощи. Полученные данные выявили низкое содержание Са в слюне, что является очень часто причиной высокого уровня распространенности и интенсивности кариеса. Снижение резистентности к кариесу у профессиональных спортсменок вызвано функциональными нарушениями в слюнных железах, снижением иммунитета полости рта, психика - эмоциональными нарушениями.

Summary

Evaluation of microelement composition of oral fluid and the state of dental hard tissues in athletes

Sh.A. Mamedova, D.N.Hajiyev

The results showed a high demand of athletes in periodontal care. The data obtained revealed a low Ca content in the saliva, which is very often the cause of the high level of the intensity and prevalence of dental caries. Reduced resistance to decay at the professional athletes is caused by functional impairment in the salivary glands, decreased immunity of the oral cavity, the psyche - emotional disorders.

Daxil olub: 24.09.2014

КОМПЛЕКСНОЕ ЛЕЧЕНИЕ БОЛЬНЫХ С НЕВРИТОМ ЛИЦЕВОГО НЕРВА В АМБУЛАТОРНО-ПОЛИКЛИНИЧЕСКИХ УСЛОВИЯХ

Н.Д.Керимов

Азербайджанский медицинский университет, кафедра «Семейной медицины», г. Баку

Açar sözlər: iynəbatırma, dağlama
Ключевые слова: иглоукалывание, прижигание
Key words: acupuncture, moxibustion

Иглоукалывание- это общепризнанный метод лечения, применяющийся при лечении неврита лицевого нерва наряду с другими нелекарственными и лекарственными способами терапии [2,6,7].

Китайская медицина объясняет это состояние как действие Ветра и Холода. Последние являются внешними факторами, которые поражают каналы, препятствующие прохождению энергии и крови через сосуды и мышцы лица.

Следует отметить, что отличительной особенностью этого метода является то, что оно фактически способствует прохождению энергии и крови через каналы лица.

Официальная статистика свидетельствует, что заболеваемость невритом лицевого нерва (называемая ранее также параличом Белла) довольно высока. Последние данные таковы: 25 случаев на 100 тыс. населения в год [4]. Это довольно высокий показатель заболеваемости среди населения.

Симптоматика этой болезни такова: заболевание начинается с болей позади уха, затем появляется онемение в средней и нижней части лица, снижение слезоотделения, нарушение вкуса (передних 2/3 языка). Обычно, таким больным врачи-невропатологи назначают кортикостероиды, а именно: преднизолон по 60 мг/сутки внутрь в течение 5 суток с постепенной отменой в течение 7-10 суток. При этом следует отметить побочные действия этого препарата, т.е. различные осложнения преднизолона выражаются: в кровотечении, увеличении оволосении на лице, увеличении потливости, слабости и др.

К вышесказанному следует добавить и влияние климатических особенностей того или иного континента, региона и конкретной местности. Так, г. Баку отличается резко континентальным климатом. Здесь часто дуют сильные холодные ветры, которые способствуют повышению риска этого заболевания.

Безусловно также и то, что основным фактором, способствующим этому заболеванию, является снижение общего иммунитета человеческого организма.

При лечении важное значение имеет своевременность обращения пациента к врачу. Если больной вовремя обратился к врачу-*иглотерапевту*, то он может его вылечить в течение 10-30 дней. На практике же обычно больные этого профиля по незнанию обращаются к врачу-невропатологу. Лишь затем, по рекомендации невропатолога, когда болезнь переходит в запущенную форму, больной направляется к врачу-иглотерапевту. То есть упускается драгоценное время для активного лечения методом иглоукалывания. В итоге это приводит к искажению мимики лица, на пораженной стороне глаз не закрывается, больной не может открыть рот и показать зубы, у него *обездвиживается* бровь и т.д.

При возникновении таких осложнений, по нашему мнению нужно действовать не только методом иглоукалывания, но и проводить прижигание, а также медикаментозное лечение: прозерин 1 мл под кожу в течение 10 дней, а также витамин В 1, который вводится в определенные акупунктурные точки по 2-3 капли.

Целью настоящего исследования было изучение эффективности метода иглоукалывания у больных с невритом лицевого нерва.

Материалы и методы исследования. Клинический материал представлен 40 больными (25 женщин, 15 мужчин) с диагнозом неврит лицевого нерва, получившими лечение на кафедре «Семейной медицины» Азербайджанского Медицинского Университета на базе поликлиник №/№ 2, 5, 37 г. Баку с 1992 по 2014 гг. В число обследованных входили как больные с первичной, так и осложненной формой заболевания.

Для лечения неврита лицевого нерва мы проводили курсы иглоукалывания в специальные акупунктурные точки.

Были использованы следующие точки акупунктура: главные точки: GB. 20 (фенчи), GB-14 (янбай), S-4 (Дицан), S-2 (Сыбай) и Li-4 (Хегу); дополнительные точки: Gv-26 (женьчжун), M- HN-18 (Цзяченцзян), M-HN-(Тайян), S-7 (Сячуань), S-36 (Цзусан ли), S-44 (Нейтин), Li – 19 (Хеляо).

После иглоукалывания проводилось раздражение пучком игл (Мейхуаджен) в следующие акупунктурные точки: S-4 (Дицан), Li-19 (Хеляо), M-HN-18 (Цзяченцзян), S-6 (Цзяче), S-7 (Сячуань), GB-14 (Янбай), S-2 (Сыбай), TB-17 (Ифон), M-HN-9 (Тайян)

Если все это не помогало, мы использовали электрическую акупунктуру в следующие акупунктурные точки: TB-17 (Ифон), N-HN - 9 (Тинлин), S-4 (Дицан), S-6 (Цзяче).

Конечным и приятным итогом лечения было то, что больные полностью выздоравливали. Конкретно это выражалось в том, что полностью восстанавливалась мимика лица, движение брови и глаза, восстановление угла рта и т.д.

Иглы оставлялись на теле в основном в течение 30 минут методом возбуждения через каждые 5 минут.

Потом иглы снимались. Во время сеанса соблюдались все законы асептики и антисептики и использовались индивидуальные иглы.

Метод иглоукалывания состоит из лечения иглами, с помощью которых можно воздействовать на биологически активные точки, находящиеся на теле (корпоральные точки), а также на микросистемы организма (голова, ухо, ладонь, стопа и др.).

Одним из главных теорий объясняющих механизм действия иглоукалывания, является теория электромагнитного поля. Игла является проводником внешнего электромагнитного поля, согласно которой его энергия воздействует на ту или иную систему или орган. У организма в целом и у каждого органа есть свое электромагнитное поле. Действием иглы на биологически активные точки нормализуется электромагнитное поле.

Дополнительно следует отметить, что если болезнь затянулась больше недели, то наряду с иглоукалыванием применяли метод прижигания на точки Цзяче и дицан

В медицинской практике Китая прижигание, то есть моксотерапия, часто используется наравне с иглоукалыванием, а

иногда и отдельно. Для прижигания используют растение чернобыльник – особый сорт полыни [1,3,5].

Когда ученые сравнили инфракрасное излучение при горении чернобыльника и при горении других трав, то оказалось, что спектр излучения именно этого вида полыни совпадает с электромагнитным излучением человека. Вот почему это растение обладает таким мощным целебным действием.

Для этого полынь особым образом высушивают, скручивают из него тонкие сигарки и поджигают, чтобы воздействовать на активные точки тела. При одновременном воздействии иглы и тепла, идущего от полыни, обычно добиваются двойного эффекта.

При этом также следует подчеркнуть, что в составе полыни находится эфирное масло – хамазулен, который проникает через кожу и воздействует на весь организм вплоть до костей. Это в свою очередь дает дополнительный эффект при лечении. Суть методики- направленное воздействие на биологически активные основные точки тела с целью повлиять на распределение энергии в организме и привести его в состояние общей гармонии и равновесия.

В итоге выздоровление наступает не с помощью воздействия извне, а организм сам начинает исправлять возникший сбой [6,7].

Результаты исследования и их обсуждение. Общий курс лечения включал до 30 сеансов с перерывом в 1 неделю или 5 дней через каждые 10 сеансов с применением стальных игл.

Результат считался хорошим, если клинические проявления (искривление угла рта, отсутствие мимики на пораженной стороне и др. последствия) исчезали полностью; удовлетворительным, если клинические проявления значительно стихали, но не исчезали полностью. Результат считался неудовлетворительным, если эффекта от проведенного лечения не было.

Хороший результат был достигнут у 33 человек, которые явились в острый период заболевания, у остальных же шести человек, которые лечились в подострый период, результат был удовлетворительным. И только у одной больной результат был неудовлетворительным, что связано было с поздним обращением к иглотерапевту (таблица).

Таблица

Результаты комплексного лечения неврита лицевого нерва

Всего обследуемых больных (чел)	40	100 %
Хороший результат (чел)	33	82,5 %
Удовлетворительный результат (чел)	6	15,0 %
Неудовлетворительный результат (чел)	1	2,5 %

Выводы: 1. При лечении больных с невритом лицевого нерва большую роль играет своевременность обращения к врачу-иглотерапевту. 2. Полученные результаты дают основание рекомендовать данный комплексный метод больным с невритом лицевого нерва в амбулаторно-поликлинических условиях.

ЛИТЕРАТУРА

1. Kərimov N.C. Ailə həkiminin təcrübəsində iynəbatırma metodu. Dərs vəsaiti. Bakı 2014, 155 s.
2. Təhməzov R.F. Müasir Şərq təbabəti. Bakı, 2002, 350 s.
3. Salihov M.S., Kərimov N.C. Ailə həkiminin təcrübəsində iynəbatırma metodu // Ailə həkimi jurnalı, 2012, №7, s. 24
4. Грабер М.А., Лантернер М.Л. Руководство по семейной медицине, М.: Бином, 2002, 752 с.
5. Практическое пособие по акупунктуре и прожиганию. Шанхай: Тзин-аya, 1972, 643 с.
6. Восточная медицина. Полный справочник. М.: Эксмо, 2007, 672 с.
7. Иванов В.И. Акупунктура. Новейший справочник. М.: Эксмо, 2006, 448 с.

Xülasə

Üz sinirlərinin nevriti olan xəstələrin ambulator- poliklinik şəraitdə kompleks müalicəsi

N.D. Kərimov

1992-2014-cü illərdə üz sinirinin nevriti xəstəliyi olan 40 xəstədə retrospektiv təhlili aparılmışdır. Üz sinirləri nevriti xəstəliyinin əsas müalicə metodu iynəbatırma metodudur. O, xəstənin iynəbatırma mütəxəssisi olan həkimə vaxtında müraciəti zamanı ən effektiv müallicə metodu hesab edilir. Bizim

tərəfimizdən məsləhət görülmüş üz sinirinin nevriti xəstəliyinin mürəkkəbləşmiş hallarında (xəstəliyin uzun müddət öncə başlayıb müalicə olunmadığı hallarda) kompleks müalicə tətbiq edilməlidir.

Summary

Complex treatment of patients who have facial nerve neuritis in ambulatory polyclinic condition

N.D. Kerimov

It was done retrospective analysis of recommendation on 40 patients who have facial nerve neuritis in 1992-2014. The main treating method of facial nerve neuritis is an acupuncture method. It is regared the most effective treating method when the patient appeal to the physician who is a specialist for acupuncture in time. The complex treatment that is advised by us should be applied in the complicated cases of the disease of facial nerve neuritis (started a long time ago when the disease is not treated).

Daxil olub: 23.10.2014

HAMİLƏLİK ZAMANI BÖYRƏK PATOLOGIYTALARININ KƏSKİNLƏŞMƏSİ

G.İ. Axundova, İ.A.Şamxalova

Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri təkmilləşdirmə İnsitutu, Bakı

Açar sözlər: hamiləlik, böyrək patologiyası, qırmızı qurd eşənəyi, sistem Lupus Eritematozus

Ключевые слова: беремнность, патологии почек, красная волчанка, системная Lupus Eritematozus

Keywords: pregnancy, renal disease, systemic lupus erythematosus, systemic Lupus Eritematozus

Sistem Lupus Eritematozus vaxtaşırı kəskinləşən xroniki xəstəlik olub orqanizm autoimmunlaşması fonunda birləşdirici toxumanın quruluşunun pozulması, dərinin, damarların, böyrəyin və digər orqanların zədələnməsi ilə xarakterizə olunan heterogen autoimmun xəstəlikdir. Sistem Lupus Eritemotozus ikinci qrup autoimmun xəstəliyə aiddir. Xəstəliyin rastgəlmə tezliyi cavna qadınlar arasında yüksəkdir [1].

İrsi meyillik fonunda keçirilən RNT-li virus infeksiya və ya gen-qıcıqlandırıcı amillər, o cümlədən, hamiləlik, dərman vasitələrinin qəbulu, hormonal balansda olan dəyişiliklər xəstəliyin resedivdən dominant vəziyyətinə keçməsinə səbəb olur. Sadalanan amillərin təsiri nəticəsində immun sistem zəifləyir, "öz" zülallarını "yad" zülallardan ayırmaq qabiliyyətini qismən də olsa itirir. T-limfositlər zəiflədiyi üçün hüceyrə immuniteti kəskin şəkildə pozulur. Orqanizm tərkibində DNT olan zülallarına qarşı autoantitellər yaranır. Bunlara antinuklear antitellər deyilir. Qan plazmasında aşkar olunan bu immunoqlobulinlərə "Lupus faktor" deyilir. Autoantitellər bütün üzv toxumalara daxil olaraq onların hüceyrələrinin nüvələrindəki DNT-ni parçalayır. Tədricən DNT-ni itirən nüvələrə malik hüceyrələr məhv olur.

Nüvələr kiçik hissəciklərə parçalanır. Parçalanmış qırıntılara hemotoksilin cisimcikləri deyilir. Mikroskopik müayinədə bunların aşkar olunması diaqnostik meyar hesab olunur.

Üzv və toxumalardakı makrofaqlar DNT-ni itirmiş nüvələri, hüceyrələri və ya parçalanmış hissəcikləri faqositoza uğradır. Orqanizm zəiflədiyi üçün lizosom fermentlərinin aktivliyi aşağı düşür və faqositoz natamam olur [1].

Makrofaqların hüceyrə sitoplazmasında qalırlar. Bu makrofaqlara Lupus hüceyrələr (LEC) deyilir. LEC-in qanda aşkar edilməsi **Sistem Lupus Eritemotozus** üçün diaqnostik meyar hesab edilir [1].

Lupuslu xəstələrin 90%-ni qadınlar təşkil edir və reproduktiv yaşda olan qadınlar 500 nəfərdən buirində rast gəlinir [2]. 15 illik sağqalma imkanı 80% təşkil edir [3]. Ölümlərin çoxu kəskinləşmə, orqan çatışmazlığı, arterial hipertenziya, ürək-damar xəstəliklər nəticəsində baş verir.

Lupus nefriti, başqa adı qırmızı qurd eşənəyinin ən çox zədələdiyi orqanlardan biri də böyrəklərdir.

Otoantikorlar orqanizmdən xaric olmaq üçün böyrəyə ötürülür və yumaqcıq kapillyarlarının divarını keçməyə cəhd edirlər və filtrasiya baryerini dəf edərkən divarı zədələyir və ultrastruktur yarıqlar əmələ gəlir

(Qlomerulonefrit ə/d). Bu zədələnmiş nahiyədən küllü miqdarda plazma zülalları, hətta eritrositlər və leykositlər belə kapsula boşluğuna düşərək ilk sidiyə keçir. Bu zülalların bir qismi kanalcıqların epitellərinə daxil olur. Hiperfunksiya şəraitinə düşmüş epitellər ilk əvvəl zülalları qana reabsorbsiya edir, daha sonra sitoplazması zülallarla dolduğu üçün kollapsa düşür, funksiyaları pozulur. Kanalcıq epitellərində parenximatoz zülal distrofiyası inkişaf edir. İlk sidikdə olan zülal sovrula bilmədiyi üçün son mənşəli hipertoniya inkişaf edir [6].

sidiyə keçir və protenuriya inkişaf edir. Çoxlu miqdarda plazma zülallarının xaric olması ilə əlaqədar olaraq qanda zülalların miqdarı azalır, hipoproteinemiya baş verir. Albuminlər az olduğu üçün su molekulları sərbəstləşir və ödem inkişaf edir. Plazmadakı zülallar az olduğu üçün qanın təziqi aşağı düşür. Bu təziqi bərpa etmək üçün qana çoxlu miqdarda xolesterin buraxılır. Beləliklə, hiperxolesterenemiya baş verir. Xəstələrdə böyrək

Cədvəl 1

Sistem lupus eritemotozusun klinikası

Orqanlar sistemi	Klinikası	%
Sistemli pozuntular	Yorğunluq, halsızlıq, temperatur, bədn çəkisinin azalması	95
Sklet-əzələ	Artroloji, poliartrit, miyopatik	95
Hematoloji	Anemiya, hemoliz, leykopeniya, trombositopeniya, splenomeqaliya, lupus antikoaqulyant	85
Dəri	Sərgilər, işığa həssaslıq, ağızda yaralar, saç tökülməsi	80
Kardiopulmonar	Plevrit, perikardit, moakardit, pnevmoniya, Libmon-socks endokarditi, pulmonar hipertoniya	60
Böyrək	Protenuriya, nefrotik sindrom, böyrək çatışmazlığı,	60
Mədə-bağırsaq	İştahazlılıq, ürəkbulanması, qusma, ishal	40
Vaskulyar	Tromboz, venoz (10%), arterial (5%)	45
Oftalmoloji	Konyuktivit	15

Lupus və hamiləlik. Lupuslu xəstələrdə hamiləliyin nəticəsi hamiləliyin başlanğıcında xəstəliyin aktiv olub-olmaması, hamilə qadının yaşı və hamiləlik həftəsi, yanaşı gedən xəstəliklər və antifosfolipid anticisimlərin olub-olmamasından asılıdır. Hamiləlikdə Lupus 1/3 sağala, 1/3 ağırlaşa və 1/3 dəyişmədən davam edə bilər [8]. 7% halda hamiləlik xəstənin ölümü ilə nəticələn bilər [9].

Aşağıdakı hallarda hamiləliyin nəticələri müsbət olur.

- Hamiləlikdən 6 ay əvvəl Lupusun sakit vəziyyətdə olması.
- Protenuriya olmadıqda
- Preeklampsiya inkişaf etmədikdə
- Antifosfolipid sindromu olmadıqda.

Lupus nefritinin ağırlaşmasını təyin etmək üçün sidiyin müayinəsini aparmaq lazımdır (proteinuriya, eritrosituriya, leykosituriya).

Hamiləlik dövründə differensial diaqnostikanın əsas meyarı ümumi komponentin əsas dinamikası (CH_{50}), onun 3-4-cü fraksiyaları (C_3, C_4) və tökülmə məhsullarının (C_{3a}, C_{4a}) müəyyən edilməsindən ibarətdir. C_3, C_4, C_{50} səviyyəsinin düşməsi, tökülmə məhsullarının miqdarının artması SLE-ni hamiləlik ağırlaşmasından ayırır. Eyni zamanda transaminlərin və sidik turşusunun səviyyəsinin artması preeklampsiyanın olduğunu göstərir [13,14].

Hamiləliyin I və II trimestrində ayda bir dəfə trombositlərin səviyyəsinin müəyyən edilməsi zəruridir. Xəstəlik dəqiqləşdirildikdən sonra və xəstəliyin aktivlik fazası olmadığı halda hər trimestrdə 1 dəfə və doğuşdan sonra qanın ümumi müayinəsi aparılmalı, böyrək testləri ikiləşmiş DNT anticisimlərin səviyyəsi və komplement müayinə edilməlidir. Dölün inkişafdanqalma sindromu zamanı dopplerroqrafiya, umbikal arteriyanın müayinəsinə əsasən hamiləliyin gələcəyi haqqında qərar verilməlidir [16].

Bütün SLE xəstələri revmatoloq tərəfindən, lupus-nefriti varsa, nefroloq tərəfindən hər trimestrdə 1 dəfə müayinə olunmalıdır [15].

Belə xəstələr ilk müraciət etdikdə aşağıdakı müayinələr aparılmalıdır.

1) Qanın ümumi müayinəsi (leykoformula və trombosit)
2) Böyrək funksiyaları (sidiyin ümumi analizi, sutkalıq zülal və zülalın kreatinə nisbəti)
3) Komplementlər C_{50}, C_3, C_4
4) ACA İgM və G: LEC İgM və İgG
5) Sidik turşusunun müayinəsi

6) Neonatal lupusun əmələ gəlməsini proqnozlaşdırması məqsədilə R0/SSA və LA/SSB antitelləri [15, 16, 17].

tədqiqatlardan birində Lupus nefriti olan 81 qadında 113 hamiləlik qeydə alınmışdır. Hamilələrin 1/3 böyrək zədələnməsi, 9 hamilədə düşük olmuşdur. Qalan 104 hamilənin 1/3 vaxtından əvvəl doğuş, 1/3 azçəkili uşaq <2500 qr və 6% dölün ölü doğuşu olmuşdur [10].

SLE-li qadınların 30%-i xroniki hipertenziya və preeklampsiyadan əziyyət çəkir. Nefropatiya və antifosfolipid sindromları olan qadınlarda preeklampsiyaya daha çox rast gəlinir [11]. Beləliklə, lupuslu qadınların hamiləliyində preeklampsiya, vaxtından əvvəl doğuş, ölü doğuş, düşük, inkişafdan qalmış hamiləlik, azçəkili döl kimi ağırlaşmaların tezliyi yüksək olur.

Lockshin və Druzine (1995) görə hamiləliyin erkən vaxtlarında trombositopeniyanın aşkar edilməsi antifosfolipid sindromla əlaqədar ola bilər [2]. Sidikdə zülalın artması, serumda kreatinin artması bu xəstəliyin ağır gedişatına işarədir.

Preeklampsiya zamanı aşkar edilən trombositopeniya, proteinuriya və digər göstəricilər Lupusda da müəyyən edilə bilər, bu zaman əsas diaqnozu təyin etmək üçün qanda LAC İgM və İgG müayinə edilməlidir.

Lupuslu xəstələrdə ikincili antifosfolipid sindrom da ola bilər. Bu zaman qanda həm LAC (İgM və İgG) və ACA (antifosfolipid sindromu) İgM və G aşkar olunur [13]. Bu müayinə 6 həftə interval ilə 2 dəfə aparılmalıdır. Hər iki nəticə müsbət çıxarsa, diaqnoz təsdiqlənir. Belə xəstələr hamiləliyin sonuna qədər həkim nəzarətində olmalıdırlar.

Dölün inkişafı da nəzarətdə olmalıdır. Ona görə xəstə hər ay USM-dən keçməli, NST, -BFP testləri aparılmalıdır. Arterial təzyiq daim nəzarətdə saxlanılmalıdır.

Lupusun kəskinləşməsinin simptomatik müalicəsi aparılır. Aparılan müalicə tədbirlərinin kəskinləşmə simptomlarının azaldılması və remisiya dövrünün uzadılmasına xidmət edir. Simptomatik müalicəsi aparılır və tam remisiya nadir hallarda baş verir. Ağrı və yorğunluq xəstələri hərəkətsiz edə bilər. Artroloji və serozit aspirin də daxil olmaqla nonsteroid anti-inflomotor dərmanlarla müalicə olunur. Fetal ductus arterozusun bağlanması üçün 24 həftədən sonra müalicə dozasında istifadə olunmamalıdır. Yalnız aşağı dozada aspirin istifadə oluna bilər. Xəstəlik şiddətləndikdə prednizolonla müalicə olunur. Bu müalicə hestozuj n baş verməsinə, I tipli şəkərli diabetə səbəb ola bilər. Otoantikorları yox etmək üçün uzun müddət tərkbində antikor olan immunoadsorbsiya istifadə olunur.

Azatioprin kimi immunosupressiv dərman hamiləlikdə istifadə oluna bilər. Xəstədə antifosfolipid sindromu aşkar edildikdə, LMWH (aşağı molekul ağırlıklı heparin) istifadə olunur.

Clexone (enoksiporin) uzunmüddətli təsirə malik daha yaxşı preparat olub, trombositopeniya və osteporozun tezliyinin aşağı olmasına səbəb olur.

Trombofili və hamiləlik ağırlaşmasının qarşısını almaq üçün doğuşdan sonra Warfarin (Kumadin) istifadə olunmalıdır. Terotogen olduğu üçün hamiləlikdə əyin edilmir.

Yuxarıda qeyd olunanlardan məlum olur ki, lupus (qızmızı qurd eşənəyə) son dərəcə ağır xəstəlik olduğu üçün hamiləlik zamanı da ağır fəsadlara səbəb olur. Bu baxından həmin xəstəlikdən əziyyət çəkən hamilə qadınlar xüsus ilə ciddi şəkildə nəzarətdə olmalı, zəruri müayinə və müalicə tədbirləri vaxtında və səmərəli şəkildə aparılmalıdır.

ƏDƏBIYYAT

1. Həsənov Ə.B. Patoloji anatomiya. Qırmızı qurd eşənəyi. Bakı, 200, s.352.

2.Lockshin M.D., Sammoritono L.R. Rheumotic disease in Borron /Eds.: Lindheimer W.M. Medical Disorders During prognoncy 3-rd ed st Lonis, Mosby, 2000, p.355

3. Rohmon A., Isenberg D.A. Systemic Lupus erythemotosus // N Engl J Med., 2008, v.358, p.929

4. Hohn B.H. Systomic Lupus erythemotosus: In Fonci As, Braunwold E., Kasper D.L. et al.(eds) Harrions principles of Internal Medicine, 17-th ed. New York: McGrouhill, 2008, p.2075

5. Arbuckle M.F., McClain M.T., Ruberttone M.V. et al. Development of autontibodies before the clinical onset of systonic lupus erytemotosus // N Engl. J Med., 2003, v.349, p.1526

6. Həsənov Ə.B. Patoloji anatomiya. Qlomerulonefrit. Bakı, 2003, s.481

7. Hochberg M.C. Updating the American College of Pheumatology rensed criteria for the classification of systemic lupus erythemotosus // Arthritis Pheum,1997, v.40, p.1725

8. Khomoshto M.A., Renz-Irostorza G., Hughes GRV. Systemic Lupus erythemotosus flores during pregnancy // Rheum Dis. Clin North Am.,1997, v. 23, p.15

9. Petri M. Pregnancy in SLE // Bailliers Clin Rheumotol., 1998, v.127, p.49

10. Imbascioti E., Finconi A., Gregorini G. et al. Pregnancy in women with preexisting lupus nephritis, predictory of fetal and maternal outocome // Nephrol Dial Transplant, 2009, v.24(2), p.519
11. Egerman R.S., Romsey R.D. et al. // Obstet Gynecol., 2005, v.193, p.1676
12. Hondra R., Kumor U., Woli I.P. Ishemic Lupus Erythemotosus and pregnancy // Suppliment to Sopi., 2006, v.54, p.19-21
13. Lewis E.I., Schwatz M.M., Korbert S.M. et al. Lupus nephritis, second edition. Oxford: University, press, 2011, 325p.
14. Schur P.H., Bermos B.L. Pregnancy in women with systemic lupus erythemotosus / UPTO Date, 2012
15. Ruiz Irastarzo G., Khomoshto M.A. Lupus and pregnancy: ten questions and some answer // Lupus, 2008. v.17, p.416-420.

Резюме

Обострение почечных патологий при беремнности

Г.И.Ахундова, И.А.Шамхалова

При обострение почечных патологии во время беременности перед акушером-гинеколгом стоит не легкие задачи. Одним из таких патологии является красная волчанка. Волчанкой болеют преимущественно молодые женщины, поэтому вопрос о беременности часто бывает очень актуальным. Раньше считалось, что больные волчанкой не могут иметь детей и при возникновении беременности должен быть сделан аборт. В настоящее время эти представления пересмотрены. Хотя у больных волчанкой удается разрешить не все проблемы, связанные с беременностью, она, тем не менее, возможна, и рождение нормального ребенка является правилом. В то же время вынашивание беременности может оказаться далеко не простым делом. Во многих случаях она протекает вполне благополучно, однако нередко возникают достаточно серьезные, хотя и разрешимые проблемы. В этой статье рассмотрены вопросы ведения беременных женщин с красной волчанкой.

Summary

Exacerbation of renal disease in pregnancy

G.İ.Akhundova, İ.A.Shamhalova

In acute renal pathology during pregnancy before obstetrician-ginekolgom costs not an easy task. One such disease is lupus erythematosus. Lupus suffer mostly young women, so the question of pregnancy is often very important. It used to be that people with lupus can not have children, and in the event of pregnancy should be made abortion. Currently, these preds¬tavleniya revised. Although patients with lupus is not possible to resolve all the problems associated with pregnancy, it is, nevertheless, possible, and the birth of a normal child is the rule. At the same time, child bearing can be far from easy. In many cases, it flows quite well, but there are often serious enough, though solvable problem. This article discusses the issues of conducting pregnant women with lupus erythematosus.

Daxil olub: 23.10.2014

КОРРЕКЦИЯ НАРУШЕНИЙ ГЕМОСТАЗА ПРИ ОСТРЫХ КИШЕЧНЫХ ИНФЕКЦИЯХ

С.М. Касумова, Г.М. Гасанкулиева, Р.И. Рзаева, У.И.Алиева, Г.А.Джафарова
Азербайджанский медицинский университет, кафедра детских болезней, г.Баку

Açar sözlər: kəskin bağırsaq infeksiyaları (KBİ), təzə dondurulmuş plazma (TDP), damar daxili laxtalanma pozulması sindromu (DDPS)
Ключевые слова: острые кишечные инфекции (ОКИ), свежезамороженная плазма (СЗП), синдром диссеминированного внутрисосудистого свертывания (ДВС)
Keywords: acute intestinal infections (Aİİ), fresh frozen plasma(FFP), disseminated intravascular coagulation (DIC)

Проблема острых кишечных инфекций (ОКИ) у детей раннего возраста занимает в структуре заболеваемости второе место после ОРВИ [1,2,5,4]. Часто ОКИ протекают тяжело в виде как инвазивных, так и секреторных диарей с вовлечением в патологический процесс всех отделов желудочно-кишечного тракта с развитием энтерального токсикоза, эксикоза [2,3,7]. Большинству детей с тяжелыми формами ОКИ с целью детоксикации, регидратации, компенсации патологических потерь жидкости вводят различные растворы, влияние которых на гемостаза при ОКИ у детей раннего возраста в значительной степени определяет течение и исход патологического процесса [1,5,6]. Определилось мнение считать эти нарушения проявлением синдрома диссеминированного внутрисосудистого свертывания крови (ДВС-синдром). При этом выявлена прямая зависимость между глубиной геморрагических проявлений и степенью кишечного токсикоза и эксикоза [8,9,10].

Цель настоящей работы - изучение эффективности свежезамороженной донорской плазмы (СЗП) в комплексном лечении различных стадий ДВС синдрома при ОКИ.

Материалы и методы исследования. Под наблюдением находилось 52 ребенка в возрасте от 3-х месяцев до 3-х лет с тяжелыми формами ОКИ, находившихся на лечении в реанимационном, а затем в инфекционном отделениях (НИИ Педиатрии имени К.Я.Фараджевой); 62,8% из них лечились раннее в разных стационарах без эффекта. В 1-ю основную группу вошли 23 больных, которым проводилась инфузия кристаллоидных растворы глюкозы, Рингера и коллоидных плазмозаменителей (реополиглюкин, альбумин) в сочетании с введением свежезамороженной плазмы (СЗП). 2-ю группу (сравнения) составили 29 детей, которым проводилась инфузия кристаллоидных и коллоидных растворов. Коллоиды составляли 1/3-1/4 суточного объема инфузии при розовой дозе каждого (кроме СЗП) препарата 10 мл на 1 кг массы тела. СЗП вводили в острый период заболевания, на высоте токсикоза (в зависимости от клинической картины болезни) от до 1,5 раз в дозе 10-20 мл/кг. Необходимый объем инфузии рассчитывали ежедневно по общепринятым методикам /1,3,7/. Инфузия проводилась на фоне обязательной базисной терапии-антибиотики, биопрепараты, ферменты, витамины, сердечные глюкозиды. Во время лечения оценивали состояние гемодинамики, водно-электролитного и белкового обмена, иммунологического статуса. Состояние гемостаза определяли с помощью унифицированных и стандартизованных микромегодов: время свертывания, протромбиновое время по L ее и протромбиновый индекс по В.Н.Туголукову, тромбоциты крови (счетчик «Пикоскель ПС 4»).

Исследования проводили при поступлении, во время инфузионной терапии в периоде реконвалесценции и перед выпиской из стационара. Для сравнения использовали показатели гемостаза полученные при обследовании здоровых детей аналогичного возраста. Определение той или иной стадии ДВС-синдрома проводили в соответствии с существующими представлениями об этих состояниях [1,5]: I-стадия гиперкоагуляции, II-стадия перехода гиперкоагуляции в гипокоагуляцию, коагулопатию потребления; III-стадия патологического фибринолиза или афибриногенемия; IV-стадия восстановительная. Полученные результаты обработаны методом вариоцонной статистики, различия считали достоверными при $p<0,05$.

Исследования функциональной активности фагоцитов периферической крови проводили в реакциях фагоцитоза (В.Ф.Алмазов, С.Н.Рябов,1963) и в НСТ –тесте (тест с нитросиним тетразолием Parк,1968) лейкоконцентрате венозной крови.

Определение клинического, гематологического и показателя тяжести, индекса сдвига проводили методом математического подсчета. Индекс сдвига (ИС)=М+ММ+П/С, где М–миелоциты, ММ-метамиелоциты, П-палочкоядерные нейтрофилы, С-сегментоядерные нейтрофилы. Клинический показатель (ПК)определяли по формуле Г.И.Марчука и Н.И.Нисевич в модификации. Пк=0,22(Т-0,5)+(Ц-0,5)+(Р-0,5)+(М-0,5)+(Э-0,51)+(Т-0,5), где Т-температура тела, Ц-цианоз, П-понос, Р-рвота,М-метеоризм, Э-эксикоз, Т-токсикоз. Гематологический показатель (Пг) вычисляли по формуле:

$$Пг=\frac{С-5}{20}+\frac{Л-500}{8000}+\frac{П-1}{20}+\frac{55-Л}{40}$$

где С-СОЭ, Л-лейкоциты (тыс.в мм^3), П-палочкоядерные нейтрофилы в %, Л-лимфоциты в %. Показатель тяжести (Пт) является производным первых двух показателей и определяется по формуле: $П_Т$=0,5(Пк+Пг).

Все цифровые данные обрабатывались на основе пакета прикладных программ Stadio 6,0 по обработке статистических данных на персональном компьютере.

Критериями включения детей в исследование были следующие:

1. Возраст до 3-х лет;
2. Доношенность (гестационный возраст более 38 недель);
3. Оценка по шкале Апгар при рождении не менее 6 баллов а также отсутствие выраженных проявлений перинатального поражения ЦНС;
4. Искусственное вскармливание вследствие отсутствия материнского молока.

Критериями эффективности лечения служили:

Изменения длительности клинических проявлений ОКИ.

Уменьшение срыгиваний, колик, метеоризма;

Характер стула (кратность, консистенция, перевариваемость, патологические включения, цвет, запах).

Клинические показатели крови, состояние кишечного микробиоценоза и функциональной активности фагоцитов.

Результаты и их обсуждение. У 12,6% больных был выявлен сальмонеллез, кишечная коллинфекция -9,7% у 9,7% шигеллез, ОКИ стафилококковой и протейной этиологии- 40,3%. У 20 больных этиология ОКИ не установлена. При поступлении существенных различий между группами больных по изучаемым показателям не выявлено. На этом этапе исследование у 30,3% больных I группы и 35,8% больных 2-группы определена I стадия ДВС-синдрома, соответственно у 45,5% и 33,3% больных- II стадия и у, 3 больных 2-й группы –III стадия с признаками истощения свертывающей и противосвертывающей системы организма.

Лишь у ¼ детей с тяжелым течением ОКИ на высоте интоксикации показатели гемостазиограммы существенно не отличаются от показателей у здоровых детей. Важно отметить, что из 15 больных 1-й и 2-й групп, которым раннее инфузионная терапия не проводилась у 13 (80%) определяются выраженные гиперкоагуляционные изменения. Однократная инфузия коллоидных плазмозаменителей привела к ликвидации этих изменений у 10 больных. Среди детей, получавших инфузии до поступления, гипрекокагуляция выявлена лишь у 16,7%.

При инфузионной терапии 3 больных 1-й группы (12,2%) и 8 больных 2-й группы (20,5%) зарегистрирована I стадия ДВС-синдрома, соответственно у 60,6 и 25,6% больных – II стадиях при этом тенденция к нормализации показателей гемостаза на данном этапе исследования отсутствует у больных обеих групп. Однако, если в 1-й группе у 72,7% больных нормализации показателей гемостазиограммы не происходит и в периоде реконвалесценции, то во 2-й группе напротив, у 56,4% детей в периоде реконвалесценции показатели гемостаза существенно не отличаются от показателей у здоровых детей. Следует подчеркнуть, что у больных 1-й группы отмечалось прогрессирование коагулопатии с развитием III стадии ДВС-синдрома, клинических и лабораторных признаков которых не наблюдались при поступлении этих больных в реанимационное отделение 2 больных умерли.

При использовании СЗП развития III стадии ДВС синдрома в входе лечения не

отмечалось. Более того, из 5 больных этой группы, поступивших с признаками III стадии в отделение реанимации, у 4 показатели гемостазиограммы к моменту выписки нормализовались. Умер 1 больной.

Достоверные различия между 1-й и 2-й группами выявлены и при анализе состояния гемостаза накануне выписки детей из стационара. В 1-й группе показатели гемостазиограммы к моменту выписки нормализовались у 60,6% больных, 11 (33,3%) детей этой группы выписаны с измененными показателями гемостазиограммы. Во 2-й группе полная регрессия нарушений гемостаза к моменту выписки произошла у 87,2% детей. При этом гипокоагуляционныесдвиги отмечены лишь у 2 (5,1%) больных, тогда как в 1-й группе гипокоагуляция на данном этапе исследования зарегистрирована у 24,2% детей. Гипрекоагуляционные изменения к моменту выписки сохранились у 9,1% больных 1-й группы и 5-1% больных 2-й группы. Приведенные результаты свидетельствуют о том, что при тяжелом течении инфекционного процесса у детей раннего возраста клиническое выздоровление далеко не всегда сопровождается стабилизацией гемостаза. Это делает очевидным необходимость динамического контроля состояния гемостаза, и после улучшения состояния.

Изучение кишечного микробиоценоза показало, что на период взятия под наблюдение практически у всех детей имелись нарушения его состава (Таблица 1).

Таблица 1

Мониторинг бактериограмма у детей до и после лечения

Состав микрофлоры фекалий	Уровень микроорганизмов IgKOE/г	
	До инфузионной терапии (n=20)	На фоне лечения (n=18)
Бифидобактерии	5,4±2,4	7,4±1,8*
Лактобактерии	7,01±0,4	6,9±0,4
Enterobacter. Spp.	8,4±0,5	8,3±0,8
E.coli(лактозонегативные)	8,8±0,4	0
E.coli(гемолизинпродуцирующие)	8,9±0,9	8,4±1,9
K.lebs.spp	8,0±1,2	6,2±1,6*
K.lebs.pneumoniae	7,42±2,1	5,02±1,2
Staph.spp	5,3±1,5	3,3±1,2*
St.aureus	5,18±1,2	3,4±0,2*
Candida	5,12±1,02	4,4±0,8

Примечание: *p<0,05

Таблица 2

Влияние СЗП на длительность клинических проявлений ОКИ

Клинические симптомы	Продолжительность дней	
	Основная группа (n=23)	Группа сравнения (n=29)
Интоксикация	2,90±0,39	1,38±0,19**
Лихорадка	2,70±0,44*	3,29±0,30
Рвота	3,90±0,19**	5,95±0,24
Патологические примеси кала (слизь, зелень, прожилки крови)	3,90±0,51**	5,95±0,24

Примечание: Достоверность различия показателей с данными групп сравнения *p□0,05; **p□0,01.

Инфузия СЗП способствует оптимизации кишечного микробиоценоза у детей: достоверно увеличивается содержание бифидобактерий на фоне достоверного снижения уровня лактозонегативных штаммов E.coli, K.lebs.sp, Staph.sppв том числе St.aureus.

Анализируя продолжительность основных клинических симптомов ОКИ в зависимости от вида патологической терапии, следует отметить, что в группе больных получавших СЗП к концу первых суток от начала лечения симптомы интоксикации исчезли у 36,6%, в то время как в группе сравнения лишь у 14,5%. Существенных различий в

продолжительности рвоты и лихородного периода обеих группах больных не было выявлено. Однако при включении СЗП в комплекс лечения быстрее наступала нормализация частоты и характера стула (Таблица №2). Так на 3-й день лечения стул нормализовался у 43,5% больных, то время как в группе сравнения -у 20% детей кроме того, по окончании 5 дневного курса лечения СЗП диарейный синдром сохранялся у 3,8 больных, а в группе сравнения -30% детей.

При экспертной оценке клинической эффективности лечения с индивидуальным анализом каждой истории болезни детей с ОКИ, как в отношении общетоксического (лихорадки, интоксикации и др.), так и местного (диарейного) синдромов было показано, что на 3-й день терапии СЗГ эффект лечения оценивали как положительный у 80% детей, тогда как при его отсутствии- у 52,4%. Существенных побочных реакций при лечении детей с ОКИ не отмечали. Таким образом, СЗП повышает лечебный эффект комплексной терапии, сокращает длительность местных воспалительных проявлений в кишечнике в среднем на 2-3 дня, уменьшает продолжительность пребы - вания больных в стационаре.

Таблица 3

Изменение функциональной активности фагоцитов периферической крови обследованных детей на фоне терапии СЗП

Группы больных	Фагоцитоз %	Фагоцитарный индекс	НСТ тест
Основная	100	13,8±2,6*	52,0±6,5
Сравнения	96,3±3,6	12,2±3,3	45,2±7,9*
Контрольные параметры	92,2±2,0	14,2±1,2	33,8±31

Примечание: *достоверность различия параметров по сравнению с контролем

Лечение СЗП сопровождалось повы - шением показателей функциональной активности нейтрофилов по данным НСТ-теста и индекса завершенности фагоцитоза (ИЗФ) (Таблица №3). Изменение показателей фагоцитоза (%Ф) и фагоцитарного индекса (ФИ), характеризующий переваривающую активность нейтрофилов, оставался сни - женным по сравнению с нормой. Полученные данные позволяют высказывать мнение о возможном иммуномодулирующем эффекте лечения СЗП. По видимому, данный эффект отражает восстановление функций фагоцитов вследствие освобождения фагоцитирующих клеток от возбудителей.

Определение клинических, гематологических и показателя тяжести индекса сдвига методом математического подсчета. Свидетельствует, что наиболее высокое значения выявлены в группе больных с доказанной бактериальной инфекцией, где Пк был равен 2,84, Пг-1,66, Пт-1,92, что однозначно коррелирует с тяжестью воспалительного процесса.

Таким образом, определив клиническую значимость и место этих показателей, а также учитывая простату и доступность их определения, можно рекомендовать величины Пк, Пг как объективный опорный диагностический критерий эффективной коррекции гемостаза при кишечных инфекциях.

Выводы: 1.Среди детей раннего возраста с тяжелыми формами ОКИ нарушения гемостаза отмечаются более чем у 75% больных. 2.Применение СЗП в дозе 10-20 мл/кг в сочетании с кристаллоидными и коллоидными плазмозаменителями способствует нормализации гемостаза и повышает эффективность терапии в целом.

ЛИТЕРАТУРА

1. Аниховская И.А. Выявление групп риска, выбор тактики обследования и оценка эффективности лечения различных заболеваний по показателям антиэндотоксиного иммунитета: Автореф. дисс… канд.мед.наук. М., 2001, 18 с.

2. Анохина В.А., Хасанова Е.Е., Халиуллина С.В. Острые кишечные инфекции у детей, получавших грудное инфекции у детей , получавших грудное молоко, контаминированное грамотрицательной микрофлорой //Казанский медицинский журнал, 2006, Т.87, №4, с.269-273

3. Баранская Е.К. // Болезни органов пищеварения, 2000, №2, с.29-34

4. Бондаренко В.М. Роль условно-патогенных бактерий кишечника в полифганной патологии человека. М.Тверь, 2007, 64с.

5. Детская гастроэнтерология (избранные главы) / Под.ред.А.А.Баранова, Е.В.Климанской, Г.В.Риморчун. М., 2002, 59 с.

6. Кулвков В.И., Антонова А.Г.,Байбарина Е.Н. Проблемы и преспекты выхаживания детей с экстремально низкой массой тела на современном этапе // Рос.вестник перинатологии и педиатрии, 2006, №6, с.63
7. Корнишенко Е.А. Антонов П.В. / 7-й Конгресс педиатров России «Детская гастроэнтерология настоящее и будущее». М., 2002, с.140.
8. Мазурин А.В., Воронцов И.М. Пропедевтика детских болезней. СПБ., 2000.
9. Хавкин А.И., Бельмер С.В., Филин В.А. др Рекомендации по обследованию и лечения детей с синдромом диспепсии. М., 2003, 12с.
10.Цветкова Л.Н., Щераков П.А., Салманова В.С. и др. / 9-й симпозиум «Актуальные проблемы абдоминальной патологии у детей». М., 2002, с.130-131.

Xülasə

Kəskin bağırsaq infeksiyaları zamanı hemostaz pozuntularının korreksiyası

S.M.Qasımova, G.M.Həsənquliyeva, R.İ.Rzayeva, U.İ.Əliyeva, G.Ə.Cəfərova

Ağır kəskin bağırsaq infeksiyalı (KBİ) 3 aydan 3 yaşa qədər 52 uşaq tədqiqat obyekti olmuşdur. Işin məqsədi müxtəlif mərhələdə pozulma damar daxili laxtalanma pozulma sindromu (DDPS) zamanı kompleks müalicə tərkibində təzə dondurulmuş plazmanın (TDP) effektliyinin öyrənilməsi olmuşdur. Müəyyən edilmişdir ki, TDP-in istifadəsi bağırsaqda yerli iltihabi göstəricilərinin davamlığını qısaldır, stasionar müddətini azaldır.

Summary

Correction disorders of hemostasis in acute intestinal infections

S.M. Gasimova, GM Gasankuliyeva, R.I. Rzayev U.I.Aliyeva, G.A,Jafarova

Severe intestinal infection 3 months - 3 years old, was the object of 52 pediatric research. The aim of the study during the different phases of the complex treatment of intravascular coagulation syndrome within the fresh frozen plasma (TDP) has been studying the effectiveness. It has been established that the use of TDP of sustainability indicators in the intestine reduces local inflammation, reduces stationary process

Daxil olub: 12.11.2014

MORFOLOJİ MÜAYİNƏLƏRDƏ MÜXTƏLİF ETİOLOGİYALI DÜZ BAĞIRSAQ FİSTULU OLAN XƏSTƏLƏRDƏ YARA PROSESİNİN GEDİŞATINA AZİNVAZİV TEXNOLOGİYALARIN TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

S.Ş,Cəfərova, M.M.Məmmədov, N.İ.Məmmədov

M.A.Topçubaşov ad. Elmi Cərrahiyyə Mərkəzi

Açar sözlər: fistul, düz bağırsaq, lazer, morfoli müayinələr, histoloji müayiənlər

Ключевые слова: свищь, прямой кишечник, лазер, мофологические исследования, гистологические исследвания

Keywords: fistula, straight intestine, laser, morphological studies, histological studies

Lazer şüalanmasının unikal xassələri: yüksək enerjili sərtlik və kogerentlik, çox dar və yüksəkistiqamətli dəstələri yaratmaq imkanı, monoxromlik (dar spektral diapaonda şüalanma), şüalanma parametlərini tənzimləmək imkanı onun tibbin bütün sahələrində tətbiq edilməsinə zəmin yaratmışdır [1,2,3]. Cərrahiyyədə işıq skalpeli əvəzinə qırmızı və infraqırmızı diapazonlarda şüalanan yüksəkenerjili qazlı, yarımötürücülü lazer texnologiylaradan geniş istifadə edilir [4,5,6]. Yarımötürücü lazer öz üstünlükləri ilə qazlı lazerlərdən fərqlənir: 1.kiçik qabarit və çəki, 2.maddənin tərkibindən asılı olaraq dalğa uzunluğunun geniş spektrinin alınması imkanı; 3.yüksək KPD, böyük səthləri şülandırmağa imkan verən nəzəri cəhətdən müəyyən sərfiyyata malik dəstək (30-100%);

4.qazlı lazerlərə nisbətən daha aşağı qidalandırıcı gərginlik [7,8].


Cərrahi lazerlərin istifadə edilməsi aparılan müalicənin optimallaşdırılmasında yeni imkanlar açır. Iazer şüalanması orqanizmin rezistentiliyini artıraraq, böyük potensial imkanlara malik fiziki adaptogen kimi çıxış edir [9,10].

Mikrosirkulyator axında qan dövranın yaxşılaşması iltihabi-degenerativ vəziyyətlərin müalicəsində əsas məsələlərdən biridir. Aşağıintensivlikli lazer şüalanmasının təsiri altında təkcə damarların nüfuzluluğua artmır [11], həm də mikrodamar axının reaksiyası güclənir [22,24,27]. Həmçinin zədələnən orqan və toxumalarda təkcə damarlarda deyil, həm də limfada sirkulyasiya şəraitinin yazşılaşması müəyyən edilmişdir [12]. Qeyd etmək lazımdır ki, lazer şüalanması yara prosesinin, demək olar ki, bütün morfunksional mexanizmlərinin stimullaşdırılması hesabına iltihabın üç fazasının davametmə müddətinin qısalmasına müsbət təsir göstərir. İltihabi reaksiyanın davametmə müddəti ekssudasiyanın, interstisial ödemin azalması, yerli qan və limfa dövranın stimullaşdırılması, makrofaqal reaksiyanın aktivləşməsi hesabına azalır [13]. İlithabın ikinci fazasına müsbət təsiri hüceyrə elementlərinin differensiya prosesinin sürətlənməsində özünü göstərir ki, bu da sağalma zamanı və kelloid çapıqlar olmadıqda daha incə çapığın formalaşmasında özünü büruzə verir [14].


Tədqiqatın material və metodları. M.A.Topçubaşov ad. Elmi Cərrahiyyə Mərkəzində 8-83 yaşlarında müxtəlif etiologiyalı düz barsaq fistulu olan 35 xəstə stasionar müalicədə olmuşdur. Düz bağırsaqda müxtəlif etiologiyalı fistulu olan 35(41,7%) xəstədə pararektal toxumada yaranın sağalmasının morfoloji müayinəsi aparılmışdır. Xəstələr iki qrupa ayrılmışdır.

Nəzarət qrupuna 15(42,9%) xəstə daxil edilmişdir, onlara ənənəvi müalicə aparılmışdır (fistul yolu və irinli ödemlər kəsildikdən sonra müasir aseptik məhlullarından, proteolitik fermentlərdən, hidrofil mazlardam və başqa dərman vasitələrindən istifadə edilmişdir). Morfoloji müayinələrin aparılması üçün skalpel ilə toxuma hissələri kəsilmiş, sonra Lİll üzrə 10%-li neytral buferlənmış formalin məhlulunda fiksə edilmişdir, üzərinə parafin tökülümüşdür. Daha sonra dərinliyi 5-8 mkm olan kəsiklər hazırlanır, Van-Gizon üzrə hematoksilin və eozin ilə (kollagen liflərin aşkar edilməsi üçün), Stidmen üzrə alsian göy ilə rənglənir (turş qlikozaminqlikanların müəyyən edilməsi üçün). Yara prosesinin gedişatı və aparılan müalicənin effektivliyi klinik mənzərəsi baxımından nekroliz, qranulyasiyanın olması, epitelləşməmin başlaması, eləcə də yaranın səthindən götürülmüş izlərin sitoloji və sitokimyəvi müayinələri və mikrofloranın müayinəsi nəzərə alınmaqla qiymətlənidirimişdir.

Nəzarət qrupunda yaradan götürülmüş bioptatln histoloji müayinəsi zamanı mikrob koloniyası olan fibroz-leykositar və qabarıq nektortik təbəqələr aşkar edilmişdir, ətrafdakı piy toxuması neytrofillər ilə infiltrasiya olunmuşdur. Bununla yanaşı olaraq orada ödem, perivaskulyarlaşma və ocaqlı qansızma, hiperemiya və staz halları müəyyən edilmişdir (Şək.1)




Şək.1. Ənənəvi müalicə başlandıqdan sonra 3-cü sutkada yara toxumasından götürülmüş bioptatın histoloji mənəzərəsi. mikrob koloniyası olan fibroz-leykositar və qabarıq nektortik təbəqələr, ətrafdakı piy toxuması neytrofillər ilə infiltrasiya olunmuşdur, ödem, perivaskulyarlaşma və ocaqlı qansızma, hiperemiya və staz halları. H-Ex100.




Şək.2.Ənənəvi müalicə başlandıqdan sonra 7-ci sutka yara toxumasından götürülən bioptatın histoloji mənzərəsi. H-Ex100.

Müalicə başlandıqdan sonra 7-ci sutka yaranın fibrinoz və fibrinoz- leykositar kütlədən təmizlənməsi, ocaq xarakterli yaranın kənarının qranulyasiya toxumaları nahiyəsində formalaşması qeydə alınmışdır. Qranulyasiya toxuması, bir qayda olaraq hiperemiya, spazm və mikrotrombları aşkar edilən çoxsaylı damarların qaydasız olaraq yayılması ilə göstərilmişdir. Damarlar arasında çox zaman perivaskulyar infiltratlara formalaşan çoxsaylı neytrofillər aşkar edilmişdir. Ətraf fibroz toxumada kollagen liflərin pikrinofil ocaqları qismində fibrinoid nekroz sahəsi olmuşdur. Ənənvi müalicə başladıqdan sonra 7-ci sutkada xəstələrdə yaranın səthinin təmizlənməsi prosesi başlanmışdır, bunlar çoxsaylı neytrofi ilə fibrin qatının və cüzi mikrob koloniyasının olması ilə öz təsdiqini tapmışdır. Səciyyəvi histoloji quruluşlu qranulyasiyalı toxuma neytrofillər ilə infiltrasiya olunmuşdur. Şaquli forma alan kapillyarlar arasında biz makrofaqal və fibroblastik sıradan olan hüceyrə elemetlərini aşkar etdik (Şək.2).

Müalicənin 14-cü sutkasında yaralar histoloji olaraq qranulyasiya toxumasının olması, çoxlu neytrofillər ilə infiltrasiyaolunmuş toxumalar ilə xarakterizə olunur. Yaranın səthində fraqmentar xarakterli fibrinoz-leykositar təbəqə elementi qalmışdır. Yaranı əhatə edən dəridə 14-cü sutkada ödem və dermanın neytrofil infiltrasiyası azalmışdır, lakin damarlı hiperemiya əlaməti qalmaqda davam etmişdir. Artıq qeyd olunan hallara qranulyasiya toxumasına sürüşən qalınlaşmış epitelial plast şəklində olan epidermisin kənarının regenerasiyası əlavə edilmişdir (Şək.3).



Şək.3. Ənənəvi üsulla müalicədən başlandıqdan 14-cü sutaka yara toxumasından götürülən bioptatın histoloji mənzərəsi. H-Ex100



Şək.4. Maqnit-lazer terapiyası və aşağıintensivlikli şüalanmasından sonra 5-ci sutka yara toxumasından götürülmüş bioptatın histoloji mənzərəsi. H-Ex100


Əsas qrupda düz bağırsaqda müxtəlif etiologiyalı fistulu olan 20(57,1%) xəstə olmuşdur. Onlara müasir lazer texnologiyası tətbiq edilməklə cərrahi müdaxilə aparılmışdır. Ağrısızlaşdırmadan və əməliyyat sahəsi işləndikdən sonra fistulun daxili dəliyini aşkar etmək üçün fistul yoluna 2-3 ml metil göy məhlulu və perhidrol yeridilir. Fokuslaşdırılmış lazer dəstəyinin köməkliyi ilə ödem və irinli səthlər kəsilir. Yaranmış koaqulyasiya təbəqəsi novokain və metrogil-P hoppdurulmuş salfet vasitəsilə götürülür. Sfinkterin daxilində fistul yolu və bağırsaq divarı xüsusi dəstəyin köməkliyi ilə lazer skalpel ilə işlənilir.

Fistul yolu kəsildikdən sonra pararektal toxuma antiseptiklər ilə işlənir və 3-4 nöqtədə 1%-li diaoksidain məhlulu ilə 10,0 ml həcmində iynə vurulur, gündəlik olaraq dalğa uzunluğu 0,89 mkm və çıxışda gücü 20 Vt olan modifikasiya edilmiş“İqla” cihazının köməkliyi ilə 10-12 dəqiqə ekspozisiya ilə infraqırmızı lazer ilə şüalandırılır.


Lazer ilə şülanma qurtardıqdan sonra yaraya 10%-li natrium xlorid məhlulu və proteolitik fermentlər ilə ozonlaşdırılmış sarğı qoylur. Xəstələrin böyük əksəriyyətində artıq 1-ci sutkalarda yara nahiyəsində ağrılar yox olur. 2-ci sutka bədən hərarəti və periferik qan formulu normallaşmış, ümumi vəziyyətin yaxşlaşması qeydə alınmış, yerli iltihabi reaksiya, ödem, hiperemiya və hipertermiya azalmış, irinli-nekrotik kütlədən aktiv şəkildə təmizlənmış və infeksiyalaşmış qanlı laxtalardan və zülali-irinli örtüklərədən təmizlənmmiş yaranın vəziyyətinin müsbət dinamikası müşahidə edilmişdir. Əsas qrupda lazer şüalanmasına xas olan yüksək temperatur hesabına pararektal toxuma və nekrektomin nahiyədə ödem, irinli səthlər

kəsildikdə intensiv olaraq toxumalararası və hüceyrədaxili maye yox olur, koaqulyasiya nekrozuna qədər distrofik dəyişikliklərə uğramış yaranın kənarında toxuma və hüceyrə strukturlarının sitoplazmasının sərtlənməsi və koaqulyasiyası baş verir. Koaqulyasiya nekroz zonasında qan damarlarının mənfəzində qanın koaqulaysiyası baş verir və lazer koaqulyasiya trombları yaranır. Termik nekroza məruz qalan toxuma sahələrində hiperemiya, staz, diapedez qansızmanın perivakulyasrlaşması qismində qan dövranında pozuntular aradan qalxmışdır. 3-cü sutkada əməliyyatdan və yara kanalına birincili tikiş qoyulduqdan sonra qranulyasiya toxuması formalaşmış, çoxsaylı pərakəndə yerləşmiş damarlar və toxuma elementləri meydana gəlmişdir. Yaranın kənar nahiyəsində koaqulyasiya nekrozunun fraqmentar sahələri aşkar edilmişdir, termik nekroza məruz qalmış qranulyasiyadana aşağıda yerləşən toxumada neytrofillərlə iltihabi infiltrasiya olmamışdır. Qranulyasiya toxuması damarları qanla dolmuşdur, onların endotelləri aktiv şəkildə prolifersiya olunur. Damarların mənfəzində leykostaz qeydə alınmışdır, lakin leykodiapedez və polimorf-nüvəli leykositlər ilə qranulyasiya toxumasının infiltrasiyası baş verməmişdir. Damarların ətrafında makrofaqal və fibroblastik sıradan olan proliferasiyaedici hüceyrə elementləri olmamışdır, kapillyarlar arasında çoxsaylı plazmatik və limfoid hüceyrələr olmuşdur (Şək.23).

Əməliyyatdan sonta 7-10-cu sutkalardan sonra yetkin qranulyasiya toxuması yaranmış və fibroz formaya keçmişdir. Qranulyasiya toxuması çoxsaylı lifli funksional strukturlar ilə xarakterizə olunmuşdur, onlar ŞİK-müsbət kollagen liflərdən ibarət olmuşlar. Hüceyrə elementləri arasında fibroblastlar, plazmatik və limfoid hüceyrələr, bəzən formalaşan infiltratlar üstünlük təşkil etmişdir. Qranulyasiya toxumasının dərin qatlarında LİK-müsbət sitoplazmalı fibroblastlara rast gəlinmişdir (Şək.5).



Şək.5. Maqnit-lazer terapiyası və aşağıintensivlikli şüalanmasından sonra 12-ci sutka yara toxumasından götürülmüş bioptatın histoloji mənzərəsi. H-Ex100



Şək.6. Maqnit-lazer terapiyası və aşağıintensivlikli şüalanmasından sonra 12-ci sutka yara toxumasından götürülmüş bioptatın histoloji mənzərəsi. H-Ex100

Qranulyasiya toxumasının yetişməsi ilə yanaşı olaraq yaranın epitelləşməsi prosesi qeydə alınmış, birincili tikiş qoyulduqdan sonra 12-ci suta sona yetmişdir (Şək.6).

Beləliklə, tədqiqatın nəticələrindən məlum olmuşdur ki, anorarektal nahiyədə lazer şüalanmasının tətbiq edilməsi onların təmiz cərrahi yara tipi üzrə sağalmasına şərait yardır. Stromanın qranulyasiya toxumasının neytrofil infiltrasiyasının olmaması, leykostazın olma-ması, makrofaqal və fibroblastik sıradan olan hüceyrə elementlərinin erkən aktiv proliferasiyası reparativ proseslərin gedişatında iltihabi reaksiyanın produktiv aseptik xarakterli olduğunu göstərir. Lazer şüasının yaratdığı yüksək hərarət bakterisid təsir göstərək, həm yaranın səthində, həm də yaranın dərinliyində özünü göstərir. Səthdə baş verən sterilləşdirici effekt zülal təbiətli destruktiya məhsulları ilə əlaqədar olan mikroorqanizmlərin məhv olduğunu göstərir, toxumaların dərinliyində isə bu, yalnız yüksək temperatur nəticəsində deyil, həm də hələ tam öyrənilməmiş faktorlar nəticəsində baş verir. Belə sürətli reparativ proseslərin mexanizmi lazer şüalanmasının yaranın sterilləşməsinə, qurumasına və koaqulyasiya olunmuş toxumalasın sərtləşməsinə səbəb olan, damar nüfuzluluğunu azaldan xüsusiyyətləri ilə izah olunur. Mikrobla çirklənmənin səviyyəsinin kəskin aşağı düşməsi,

mikrodamarların cüzi reaksiyası leykositar infiltrasiyanın olmadığını və ekssudadit iltihablaşmanın bütün komponentlərini inkişafını, reparasya prosesində prolifertiv fazanın sürətlə daxil olduğunu göstərir. Nekrolizin orta müddəti, qranulyasiyanın meydana gəlməsi və epitelləşmənin başlaması uyğun olaraq 5,1±0,2; 6,3±1,3; 8,3±0,4 gün davam etmişdir. Sitoloji və sitokimyəvi müayinələr zamanı düşmüş və distrofik dəyişikliklərə uğramış hüceyrələrin sayı nəzarət qrupuna nisbətən 2 dəfə az olmuşdur. Yara işləndikdə lazer fokuslaşdırılmış şüasının sterilliyi yaranın səthində 100% olmuşdur. Yaranın dərinliyində mikroorqanizmlərin tərkibinin azalması baş vermişdir, onlar 1 q toxumada 10^5 mikrob cismindən az olmuşdur. Yara lazer ilə müalicə olunduqda 7-8 gündən sonra nekrolitik toxumalardan təmizlənmiş, açıq qırmızı qranulyasiya ilə örtülmüş, kənarların epitelləşməsi baş vermişdir. Anorektal nahiyədə fistul olan xəstələrdə yüksək və aşağıenergetik lazerin istifadə edilməsi irinli yaraların təmizlənməsinə imkan verir, oradakı regenerativ proseslərini stimullaşdırır, nekrolizin müddətini azaltmağa imkan verir, qranulyasiya və epitelləşmə dövrlərini sürətləndir və reabilitasiya müddətini azaldır.

ЛИТЕРАТУРА

1. Аминев А.М., Блинничев Н.М., Сагуев М.А. Классификация и лечения свищей прямой кишки Демидов В.А. Лечение повреждений толстой кишки в условиях специализированного отделения //Новый хир.арх., 2002, № 5,с.13 -17.
2. Дербенев В.А., Набиев А.Ф., Стешин А.В. Крайне высокочастотная и лазерная терапия в лечении больных с гнойными ранами мягких тканей // Лазерная медицина, 2010, Т.14(3),с.21-24
3. Айхлер Ю., Айхлер Г.-И. Лазеры. Исполнение, управление, применение /Пер. с нем. М.: Техносфера, 2008. 440 с.
4. Бецкий О.В., Лебедева Н.Н. Первичные механизмы воздействия низкоинтенсивных миллиметровых волн на биологические объекты / V Всеросс. съезд физиотерап. и курортол. и Росс. науч. форума «Физические факторы и здоровье человека». М., 2002, с.33-34
5. Богуславский Л.С., Дульцев Ю.В., Саламов К.Н., Дроздова В.Н. Выбор метода операции при экстрасфинктерных свищах прямой кишки //Хирургия, 1976, №2, с.60-66.
6. Гаджиев Э.А.,Елисеенко В.И. Морфологические особенности заживления гнойной раны при традиционном способе лечения и потенцировании ее сеансами местного воздействия импульсно-индукционным магнито- и низкоинтенсивным лазерным излучением //Лазерная медицина, 2009,Т.13, №3, с.35-39
7. Брехов Е.И., Буйлин В.А., Москвин С.В. Теория и практика КВЧ –лазерной терапии. Тверь: Триада, 2007, 160 с.
8. Буйлин В.А., Брехов Е.И., Брыков В.И. Методические аспекты лазеро-и светостимуляции иммунитета (Обзоры) // Лазерная медицина, 2004, Т.8, вып.1, с.68-75
9. Габибов С.Г., Косаченко А.Г., Горин С.Г., Шодиев Н.А. Преимущество видеоассистированного метода лечения свищей прямой кишки / Тезисы научных работ- Общая колопроктология. VIII международная конференция "Российская Школа Колоректальной Хирургии". М., 2014, с.59
10. Елисеенко В.И. Особенности заживление лазерных ран // Лазерная медицина, 2011, Т.15, вып.2, с.24.
11. Гейниц А.В., Москвин С.В. Новые технологии внутривенного лазерного облучения крови ВЛОК+УФОК и ВЛОК-405. Тверь, 2009, 40 с.
12. Генюк В.Я. Лазер и профилактика осложнений в хирургии / Материалы международной научно-практической. Конференции. М., 2004, с.14-15
13. Генинг Т.П., Арсланова Д.В., Абакумова Т.В. и др. Механизм первичного ответа клеток крови на фотосекундное лазерное излучение // Лазерная медицина, 2012,Т.16, Вып. 3. с.38-44
14. Дербенев В.А..Толстых П.И. Тридцатилетний опыт и перспективы использования лазерного излучения в лечении гнойных ран /Материалы научно-практической конференции. Лазерная медицина XXI века. 2009, с.34

Резюме

Оценка влияния малоинвазивных технологий на течение раневого процесса у больных со свищами прямой кишки различной этиологии при морфологическом исследовании

С.Ш. Джафарова, М.М. Мамедов, Н.И.Мамедов

Применение высоко и низкоэнергетических лазеров, способствует очищению гнойных ран, стимулирует регенеративные процессы в ней, позволяет уменьшить сроки некролиза, ускоряет периоды появления грануляций и эпителизаций у больных со свищами прямой кишки различной этиологии аноректальной области и сокращает сроки реабилитации больных.

Summary

Assessing the impact of minimally invasive technologies for a wound healing process in patients with rectal fistulas of different etiology by morphological study

S.S. Jafarova,. M.M. Mammadov, N.I.Mammadov

The use of high and low-energy lasers, helps cleanse septic wounds, stimulates regenerative processes in it, to reduce the time frame necrolysis, accelerates during the emergence of granulation and epithelialization in patients with rectal fistulas of different etiology anorectal area and shorten the rehabilitation of patients.

Daxil olub: 26.11.2014

SPONTAN DOĞUŞLARIN DİNAMİKASINDA OKSİGEN NƏQLİYYATININ QANIN TURŞU-QƏLƏVİVƏZIYYƏTİNİN VƏ BƏZİ ELEKTROLİTLƏRİN DƏYİŞMƏ XÜSUSİYYƏTLƏRİ

L.Q. Ağakişiyeva, E.M. Əliyeva, M.A. Qaraşova, N.V.Abbasova

Azərbaycan Tibb Universiteti, I mamalıq və ginekologiya kafedrası, Bakı

Açar sözlər: spontan doğuşlar, biokimyəvi müayinələr, qanın turşu-qələvi vəziyyəti, elektrolitlər

Ключевые слова: спонтанные роды, биохимические анализы, кислотно-щелочный состояние крови, электролиты

Keywords: spontaneous labor, biochemical analysis, acid-base balance of the blood electrolytes

Son illər doğuş prosesində uşaqlığın yığılma aktivliyini tənzimləyən amillərin öyrənilməsi aktual olaraq qalır. Ədəbiyyat məlumatlarına görə bu amillərə uşaqlığın yığılma aktivliyini təmin edən yığılma zülallari, o cümlədən aktin, miozin, uteromiositlərin hipertrofiyası, hiperplaziyası, bəzi orqanoidlərin və sarkoplazmatik retikulum membranlarının mitoxondrilərinin hipertrofiyası və hiperplaziyası, poliribosomların miqdarının artması, tənəffüs fermentlərinin aktivliyinin artması, Ca^{2+} ionlarının hüceyrə deposunda yığılması aiddir [2,3,5].

Müasir elmi tədqiqatların nəticələrinə əsasən müəyyən edilmişdir ki, uşaqlığın yığılma aktivliyinə qanın turşu qələvi vəziyyəti və oksigen nəqliyyatının xüsusiyyətlərinin təsiri mühüm əhəmiyyət kəsb edir. Müəyyən olunmuşdur ki, hamiləliyin son həftələrində pH-ın miqdarı 7,38±0,02, karbon qazının parsial təzyiqi (PCO_2) 34,29±2,10 mm.c.süt, plazmada bikarbonatların miqdarı (HCO_3)- 19,53±0,76 mmol/l, karbon qazının qanda ümumi miqdarı (TCO_2) -20,64±0,71 mm/mol olmuşdur [1].

Doğuşun I dövründə qanın öH-nın artması (7,44±0,01), PCO_2-nin (26,35±1,02 mm.c.süt), TCO_2-nın (16,73±0,76 mmol/l) azalması qeyd edilir. Müəyyən olunmuşdur ki, ilk doğan qadınlarda spontan doğuşlar oksigen nəqliyyatının göstəricilərinin: mioqlobinin səviyyəsinin- 13,0±16,91-dən 320±90,6 nq/ml qədər oksigen selinin - 1039,9±44,4-dən 1212,8±37,0 nq/ml qədər oksigen selininin indeksinin 539,12±22,3-dən 719,4±20,85 ml/dəq, qanın pH-nın 7,38±0,02-dən 7,44±0,01-ə qədər artması, doğuşun III dövründə isə qanda olan bikarbonatların- 18,4±0,32 mmol/l və əsasların defisitinin 10,3±0,4 mmol/l nəzərəçarpacaq dərəcədə azalması qeyd olunur [1].

Qeyd etmək lazımdır ki, antenatal və intranatal dövrlərdə dölün vəziyyəti qanda turşu-gələvi vəziyyətinin göstəricilərində əks edilir. Müəyyən olunmuşdur ki, dölün xroniki hipoksiyası olan qadınlarda qanda plazmada bikarbonatların miqdarının artması hiperkapniya, hipoksimiya, oksidinin qanla doyması dərəcəsinin azalması ilə özünü bürüzə verir.

Elmi tədqiqatların nəticələri əsasən PO_2-nın 91,63±4,0mm c süt-dan az olması, qanın oksigenlə doyması 95,76±1,23%-dən az olması, PCO_2-nın 34,6±1,95 mm.c.süt.-dan çox olması, CO_2 dayısıyıcın 18,67±1,2 mmol/l-dən çox artması, qanın əsaslarının SBE 5,4±0,9 mmol/L SBC 19,7±0,7 mmol/l-dən çox olması dölün antenatal dövrdə kritik vəziyyətini əks edir.

Müəyyən olunmuşdur ki, ilk doğan qadınların spontan doğuşlarında oksigen nəqliyyatının göstəricilərinin artması müşahidə olunur [1].

Qeyd etmək lazımdır ki, doğuş anomaliyaları olmayan spontan doğuşlarda oksigen nəqliyyatının qanın turşu-qələvi vəziyyəti v elektrolitlərin xüsusiyyətlərinə aid elmi tədqiqatlar aparılmamışdır.

Problemin aktuallığını nəzərə alaraq hazırki, tədqiqatın **məqsədi** doğuş patologiyası olmayan spontan doğuşların dinamikasında oksigen nəqliyyatının, turşu-qələvi vəziyyətinin və bəzi elektrolitlərin səviyəsinin öyrənilməsi olmuşdur.

Tədqiqatın material və metodları. Problemin aktuallığını nəzərə alaraq 70 qadının spontan doğuşlarının dinamikasında oksigen nəqliyyatının göstəriciləri: PCO_2, SO_2 (satuasiya), Hqb, qanın turşu-qələvi göstəriciləri: pH, PCO_2, HCO_3, ABE, SBE, TCO_2-nin, kapilyar qanda elektrolitlərin Na^+, K^+, Ca^{++} ionlarının miqdarı "Epx"blood gas analizer (firma "Alere") aparatında yüksək dəqiqliklə təyin edilmişdir.

Aparılan tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, 47(67,1%) hamilədə yetişkən, 23(32,9%) nəfərdə isə natamam yetişkən uşaqlıq boynu olmuşdur.

Müəyyən olunmuşdur ki, 67,1%-də uşaqlıq boynu yumşaq, boynun uzunluğu 1 sm, uşaqlıq boynu kanalının açıqlığı 2 sm olmuş, uşaqlıq boynunun mərkəzə doğru yerləşmişdirş, 32,9% hamilədə isə uşaqlıq boynu nisbətən yumşaq, uzunluğu 1,5-1,8 sm, servikal kanalın daxili dəliyi nahiyəsində bərkləşmə qeyd olunur.

Beləliklə, doğuş fəaliyyətinin anomaliyaları olmayan spontan doğuşları olan qadınlarda hamiləliyin son həftələrində yüksək tezliklə uşaqlıq boynunun yetişkənliyi qeyd olunur

Qeyd etmək lazımdır ki, bütün spontan doğuşlar vaxtında olmuşdur. 70 doğan qadından 46-sı (65,7%) ilk doğan, 24-də (34,3%) isə təkrar doğan olmuşdur. Doğan qadınların 12-də (17,1%) dölyanı mayenin vaxtından əvvəl axması qeyd edilmişdir.

Doğuş fəaliyyətinin anomaliyaları olmayan spontan doğuşların ümumi davametmə müddəti 11,29±0,21 saat olmuşdur: I dövrünün müddəti - 10,41±0,34 (1,4-13) saat, II dövr- 27,95±0,84 (10-50) dəq, III dövrün müddəti isə 6,0±0,29 (3-10) dəq olmuşdur. I dövrün latent fazasının müddəti 3,18±0,31 (3-7) saat, aktiv fazanın müddəti isə 7,23±0,36 (3-11) saat olmuşdur.

Oksigen nəqliyyatının göstəriciləri cədvəl 1-də təqdim olmuşdur.

Cədvəl 1

Oksigen nəqliyyatının göstəricilərinin nəticələri (M±Se)

Göstəricilər	Doğuşun dövrləri			p
	I dövr	II dövr	III dövr	
PO_2 (mm.c.süt)	85,53±4,44 (62,4-156,3)	89,79±3,6 (66,0-125,0)	78,78±2,8 (58,1-108,2)	$p_{1-2}>0,05$ $p_{2-3}>0,05$ $p_{1-3}>0,05$
SO_2 (saturasiya %-lə)	96,38±0,42 (92,2-99,5)	96,86±0,37 (92,5-99,1)	95,27±0,48 (91,1-98,5)	$p_{1-2}>0,05$ $p_{2-3}>0,05$ $p_{1-3}>0,05$
Hqb (q/l)	118,4±0,51 (100-137)	124,3±0,22 (108-143)	123,5±0,21 (102-148)	$p_{1-2}<0,05$ $p_{2-3}>0,05$ $p_{1-3}<0,05$

Cədvəl 1-dən göründüyü kimi spontan doğuşların II dövründə oksigenin parsial təzyiqinin artması, III dövrdə isə azalması qeyd edilir ($p>0,05$). Eyni zamanda qanın oksigenlə doyma (saturasiya) göstəricisi doğuş anomaliyaları olmayan spontan doğuşlarda praktiki olaraq dəyişməmişdir. Qeyd etmək lazımdır ki, oksigen daşıyıcısı olan hemoqlobinin doğuşun II dövründə nəzərəçarpacaq dərəcədə artması qeyd edilir ($p<0,05$). Tədqiqatda spontan doğuşların dinamikasında kapillyar qanda turşu-qələvi vəziyyəti müəyyən olunmuşdur. Alınan nəticələr cədvəl 2-də təqdim edilmişdir.

Cədvəl 2-dən göründüyü kimi PH-ın, PCO_2-nin, HCO_3-un, TCO_2-nin, qanın əsaslarının (ABE, SBE) göstəricilərində doğuşun dinamikasında statistik dürüst fərq təyin edilmişdir. Qeyd etmək lazımdır ki, tədqiqatda

spontan doğuşların dinamikasında kapillyar qanda elektrolitlərin miqdarı təyin edilmişdir.

Alınan nəticələr cədvəl 3-də təqdim olunmuşdur.

Cədvəl 2

Spontan doğuşların dinamikasında qanın qələvi turşa-qələvi vəziyyətinin göstəriciləri (M±Se)

Göstəricilər	Doğuşun dövrləri			p
	I dövr	II dövr	III dövr	
PH	7,44±0,008 (7,38-7,55)	6,98±0,25 (7,38-7,52)	7,4±0,009 (7,29-7,47)	p_{1-2}>0,05 p_{2-3}>0,05 p_{3-4}>0,05
PCO_2, mm.c.süt	28,75±0,96 (18,6-32,4)	29,9±1,15 (20,7-43,6)	29,1±0,78 (24,2-38,9)	p_{1-2}>0,05 p_{2-3}>0,05 p_{3-4}>0,05
HCO_3, mm/l	19,47±0,54 (13-22,6)	19,8±0,55 (15,6-26,7)	18,26±0,65 (13,7-25)	p_{1-2}>0,05 p_{2-3}>0,05 p_{1-3}>0,05
TCO_2, mmol/l	20,37±0,57 (13,6-23,6)	20,72±0,58 (16,3-28)	19,15±0,67 (14,4-26,2)	p_{1-2}>0,05 p_{2-3}>0,05 p_{1-3}>0,05
ABE	4,68±0,55 (1,3-10,9)	4,68±0,45 (1,8-8,4)	6,52±0,74 (0,4-12,9)	p_{1-2}>0,05 p_{2-3}>0,05 p_{1-3}>0,05
SBE	3,45±0,48 (0,4-8,5)	3,6±0,38 (1,3-7,4)	5,34±0,66 (0,4-11,6)	p_{1-2}>0,05 p_{2-3}>0,05 p_{1-3}>0,05

Cədvəl 3

Spontan doğuşların dinamikasında kapilyar qanda elektrolitlərin dəyişmə xüsusiyyətləri (M±Se)

Göstəricilər	Doğuşun dövrləri			p
	I dövr	II dövr	III dövr	
Natrium, mmol/l (N^+)	137,1±0,29 (134-139)	137,2±0,39 (133,0-140)	131,1±6,17 (128-139)	p_{1-2}>0,05 p_{2-3}>0,05 p_{1-3}>0,05
Kalium, mmol/l (K^+)	4,61±0,12 (3,9-6,3)	4,28±0,09 (3,5-5,1)	4,32±0,09 (3,7-5)	p_{1-2}>0,05 p_{2-3}>0,05 p_{3-4}>0,05
Kalsium,mmol/l ($Ca^{++)}$	1,62±0,35 (1,15-8,22)	1,95±0,48 (1,17-8,26)	1,22±0,04 (0,45-3,39)	p_{1-2}>0,05 p_{2-3}>0,05 p_{1-3}>0,05

Cədvəl 3-dən göründüyü kimi spontan doğuşlarda Na^+, K^+ ionların miqdarı praktiki olaraq dəyişmir. Ca^{++} ionların miqdarının doğuşun II dövründə artmasına baxmayaraq statistik dürüst fərq təyin edilməmişdir (p>0,05).

Beləliklə, doğuş anomaliyaları olmayan spontan doğuşların dinamikasında oksigen nəqliyyatını əks etdirən hemoqlobinin doğuşun II dövründə nəzərəçarpacaq dərəcədə artması qeyd olunur (p<0,05). Oksigen nəqliyyatının digər göstəriciləri, eyni zamanda qanın turşu-qələvi vəziyyətinin və mikroelementlərin göstəriciləri praktik olaraq dəyişmədir. Alınan nəticələr doğuş patologiyası olmayan spontan doğuşların biokimyəvi göstəricilərinin fizioloji meyarları kimi qəbul edilə bilər.

ƏDƏBİYYAT

1. Алиева Э.М. Патология родовой деятельности у первобеременных (патогенез, клиника, диагностика, терапия, профилактика): Автореф. дис. …д.м.н., М., 1997, 41с.
2. Aaronson P.I., Sarwar U., Gin S. et al A role for voltage-gated, but not Ca^{2+} - activated, K^+ channels in regulating spontaneous contractile activity in myometrium from virgin and pregnant rats // Br.J.Pharmacol, 2006, №147, p.715-724.

3. Brainad A.M., Miller A.J., Martens J.R., England S.K. Maxi-K channels localize to caveolae in human myometrium: a role for an actin-channel-caveolin complex in the regulation of myometrial smooth muscle K^+ current // Am.J.Physiol.Cell Physiol., 2005, v.289, p.49-57.
4. Bru-Mercier G., Gullam J.E., Thornton S. et al Characterization of the tissue-level Ca^{2+} signals in spontaneously contracting human myometrium // J.Cell.Mol.Med, 2012, v.16, p.12990-13000.
5. Chanrachakul B., Pipkin F.B., Warren A.Y. Progesterone enhances the tocolytic effect of ritodrine in isolated pregnant human myometrium // Am.J.Obstet.Gynecol., 2005, v.192, №2

Резюме

Особенности изменения транспорта кислорода, кислотно-основного состояния крови и некоторых электролитов в динамике спонтанных родов

Л.Г. Агакишиева, Э.М. Алиева, М.А. Гарашова, Н.В.Аббасова

Целью исследования явилось изучение показателей транспорта кислорода, кислотно-основного состояния крови и электролитов в динамике спонтанных родов без аномалий родовой деятельности (АРД). Исследовано 70 спонтанных родов без АРД. Длительность I периода родов составила 11,29±0,21 час, II периода родов 27,95±0,84 мин., III периода родов 6,0±0,29 минут. Латентная фаза I периода составила 3,18±0,51 часов, активная фаза – 7,23±0,36 часов. Установлено, что в динамике спонтанных родов отмечается достоверное увеличение гемоглобина во II периоде родов. Другие показатели транспорта кислорода: парциальное давление кислорода и сатурация, а также показатели кислотно-составного состояния крови ионов натрия, калия и кальция в динамике спонтанных родов практически не менялись.

Summary

Features of changes in oxygene transport, acid-base status of blood and some electrolytes in the dynamic of spontaneous labor

L.Q. Agakishiyeva, E.M. Aliyeva, M.A. Qarashova, N.V.Abbasova

The purpose of investigation: to study the indicators of oxygen transport, acid-base status of the blood and electrolyres in the dynamics of spontaneous labor without abnormalities in labor activity. İt was controlled saces of spontaneous labor without abnormalities of labor activity. The duration of 1 period was 11,29±0,21 was approximately 3,18±0,51 hour, active phase- 7,23±0,36 hour. Was found out that during 2 period of labor the level of haemoglobine dramatically increases. Other indicators of oxygen transport such as: partial pressure of oxygen, saturation, acid-base status of the blood, levels ov Potassium, Sodium and Calsium ions remain stable in the dynamics of spontaneous labor.

Daxil olub: 09.12.2014

İMPLANTÜSTÜ PROTEZLƏR TƏTBİQ OLUNMUŞ ŞƏXSLƏRDƏ STOMATOLOJİ STASUSUN XARAKTERİSTİKASI

H.H.Musayeva

Azərbaycan Tibb Universiteti, ortopedik stomatologiya kafedrası, Bakı

Açar sözlər: implantüstü protezlər, stomatoloji status, ağız boşluğunun gigiyenik vəziyyəti, somatik xəstəliklər
Ключевые слова: протезирование на имплантатах, стоматологический статус, гигиена ротовой полости, соматические болезни
Keywords: implant prosthetics, dental status, oral hygiene, somatic illness

Ağız boşluğundakı dişlərin itirilməsinin əsas səbəblərinə karies və onun ağırlaşmaları, paradont xəstəlikləri və s. aiddirlər. Müxtəlif dövrlərdə stomatologiyada itirilmiş diş sıralarını müxtəlif yollarla bərpa olunmuşdur. Bu üsullara çıxmayan körpüyəbənzər protezlər və çıxan lövhəli və bügel protezləri aiddir. Çıxmayan ortopedik körpüyəbənzər protezlərin tətbiqi fizioloji və anatomik funksiyaları bərpa etsə də, fiksə olunduğu dayaq dişlərinin təbii parodontlarının normadan artıq yüklənməsinə, protezin aralıq hissəsinin altında istər-istəməz

qida qalıqlarının toplanması ıla əlaqədar olaraq halitozun meydana gəlməsinə səbəb olur [1,3,4]. Bundan başqa, tədqiqatlar göstərmişdir ki, körpüyəbənzər protezin dayaq dişlərin parodontunun ətrafındakı sümük toxumasında "sıxlaşma" müşahidə olunur, sümük sahəsi qeyri-proporsional böyüyür. İmplantlar əsasən inert tərkibli nikel titan xəlitələrdən ibarət olur. Dental implantasiya dişlər qismən və ya tam itirildikdə tez-tez istifadə olunan bir müalicə üsuluna çevrilmişdir. İmplantatlarının uğurla yerləşdirilməsi və müalicəsinin nəticəsi müsbət olduqca onların tətbiqi genişlənmişdir. Osteointeqrasiya canlı sümük toxuması ilə içərisinə implantasiya olunmuş materialların birbaşa struktur və funksional olaraq birləşdiyi kliniki mərhələdir. Ədəbiyyatda zəif sıxlıqlı sümük toxumasına yerləşdirilmiş implantların daha çox uğursuzluq dərəcəsi nümayiş etdirdiyi göstərilmişdir [6]. Bu səbəbdən əməliyyatdan əvvəl sümük toxumasının keyfiyyətinin qiymətləndirilməsi müalicə planı baxımından çox vacib əhəmiyyət kəsb edir.

Tədqiqatın məqsədi İmplantüstü protezlər tətbiq olunmuş şəxslərdə stomatoloji stasusun qiymətləndirilməsindən ibarət olmuşdur.

Tədqiqatın material və metodları. Bu məqsədlə tərəfimizdən implantatüstü protezləmə icra edilmiş 200 nəfər müayinə və müalicələrə cəlb edilmişdir. Qeyd edək ki, tərəfimizdən xəstələrin implantatları diametr və uzunluqları 3,4x12, 3,8x 12 və 4,3x12 olmaqla (İmplantium; Dentium, Seoul, South Korea) yetkin sümük içərisinə yerləşdirilmişdir. Bütün cərrahi əməliyyatlar lokal anesteziya (artikain 1:200000 epinefrin) altında icra edilmişdir. Daha sonra onların implantatları üzərinə ortopedik konstruksiyalar tətbiq olunmuşdur. Müayinələr zamanı xəstələrdə ağız boşluğunun fərdi gigiyenik vəziyyəti, onlarda parodontitin müalicəsi və professional gigiyenik tədbirlərin icra edilməsinin müntəzəmliyi, implantüstü protezlərin istifadə müddəti, parodontitin olması, implantatların çənənin hansı hissəsində yerləşməsinə, ümumi somatik xəstəliklərin olması, siqaretçəkmənin olması, preriimplantitlərin olması, implantüstü protezlərin konstruksiyası və onların vəziyyətinə dair araşdırmalar aparılmışdır. Alınmış ədədi verilənlər müasir tələblər nəzərə alınmaqla statistik metodlarla işlənmişdir. Qrup göstəriciləri üçün orta qiymətlər (M), onların standart xətası (m), sıraların minimal (min) və maksimal (max) qiymətləri, həmçinin qruplarda keyfiyyət göstəricilərinin rastgəlmə tezliyi müəyyən edilmişdir. Qeyd edək ki, tədqiqat işi zamanı alınan nəticələrin statistik işlənməsi Statistica 7.0 tətbiqi kompüter proqramı ilə aparılmışdır. Müayinələr stomatoloji güzgü və parodontal düyməli zondla icra olunmuşdur.

Tədqiqatın nəticələri və onların müzakirəsi. Tədqiqat nəticəsində tərəfimizdən implantatlar tətbiq olunmuş və sonradan onların üzərinə ortopedik konstruksiyalar fiksə olunmuş 200 şəxsdən 82 nəfəri kişi və 118 nəfəri isə qadın olmuşdur ki, bu da ümumi müayinə olunanlar üzrə uyğun olaraq, 41,0% və 59,0% təşkil etmişdir. İmplantatların tətbiq olunmasının əsas səbəblərindən bir də dişlərin erkən yaş dövrlərində itirilməsidir ki, bizim tədqiqatda qadınların daha çox implantasiya əməliyyatına cəlb olunmalarının da əsas səbəbi qadınların hamiləlik dövründə kalsium mübadiləsinin pozulması ilə əlaqədar dişlərin 25-40 yaş arasında dövrlərində itirilməsidi. Bundan başqa, ağız boşluğunda orqan və toxumaların vəziyyətini müəyyən edən əsas meyarlardan biri də ağız boşluğunun fərdi gigiyenik vəziyyətidir. Bizim tədqiqatda müayinə etdiyimiz 200 xəstədən 107 nəfərində ağız boşluğunun gigiyenik vəziyyəti qənaətbəxş olsa da, 93 nəfərində vəziyyət qeyri-qənaətbəxş olmuşdur ki, bu göstəricilər müayinə etdiyimiz şəxslərin müvafiq olaraq, 53,5% və 46,5%-ni əhatə etmişdir. Ağız boşluğunun müntəzəm olaraq, həkim-stomatoloqun nəzarətində saxlanılması, dipanserləşmə, peşəkar gigiyena tədbirlərinin tətbiq olunması, periodontitlərin müalicəsinin icra edilməsi ağız boşluğunda patologiya və xəstəliklərin aradan qaldırılmasında mühüm əhəmiyyətə malikdir. Müayinə etdiyimiz implantatlar və onların üzərinə ortopedik konstruksiyalar tətbiq olunmuş şəxslərin 73 (36,5%) nəfəri müntəzəm olaraq, həkim nəzarətində qalmaqla, dispanserizasiya olunmuşlar, peşəkar gigiyenik və parodontal yardımla təmin olunduqları halda, 69 (34,5%) nəfərdə qeyri-müntəzəm olaraq, qeyd olunan tədbirlər və yardımlarla təchiz olunmuşlar. Müayinə etdiyimiz şəxslərin yalnız 58 (29,0%) nəfərində qeyd oluna yardımçı tədbirlər icra edilməmişdir. Qeyd olunan şəxslərin gigiyenik və parodontal yardımla təmin olunmamaqlarının əsas səbəbi onların öz səhlənkarlığı ilə bağlı olmuşdur. Peşəkar gigiyenik və parodontal yardım tədbirləri postimplantasion reabilitasiya və implnatatüstü ortopedik konstruksiyaların gigiyenik vəziyyətinin saxlanılmasında mühümdür.

İmplantatüstü protezləmənin müddəti də implantasiya əməliyyatlarının keyfiyyətinin əsas göstəricilərindən hesab olunur. Protezləmənin

keyfiyyəti onun uzun müddət istifadəsi zamanı özünü göstərir. Tərəfimizdən implantasiya əməliyyatı və sonradan onların üzərinə tətbiq olunmuş protezlərin müddətinə görə təsnif olunması zamanı 72 (36,0%) nəfərdə protez tətbiq etdiyimizdən 1 ildən artıq müddət, 67 (33,5 %) nəfərində 2 ildən artıq və 61 (30,5%) nəfərində isə protezin 3 ildən artıq olduğu müəyyən edilmişdir (cədvəl 1).

Parodontitlər parodont toxumalarının iltihabi destruktiv xəstəliyi olub dişlərin erkən itirilməsində əsas rola oynayır. Ağız boşluğunda parodontitlərin olması implantatlar üçün real təhlükə mənbəyidir, çünki parodontitlər zamanı periodont cibləri A.actinomycetemcomitans və P.gingivalis kimi yüksək parodontopatogenliyə malik mikroorqanizmlər üçün depo rolunu oynayır. Bu mikroblarla implantatətrafı toxumaları da ilitihabı-destruksiyaya proseslərinə cəlb edə, periimplantitlərə gətirib çıxa bilərlər.

Ağız boşluğunda implantatların lokalizasiyası da kliniki əhəmiyyətə malikdir. Adətən insanlar ilk olaraq, çənədə yan dişlərini itirirlər ki, bunun da əsas səbəbi yan dişlərin daha çox və ağır funksiya icra etmələri, daha dərin şırımlara və çuxurlara malik olduqlarından daha çox karioz prosesə və kariesin ağırlaşmalarına daha çox məruz qalmaları ilə əlaqədardır. Bundan başqa, arxa-yan dişlər itrilirdikdə onların fizioloji və anatomik funksiyalarını körpüyəbənzər protezlərlə bərpa etmə imkanları ön-frontal dişlər nahiyəsində olduğundan daha azdır. Tərəfimizdən implantasiya əməliyyatı icra edilmiş 200 nəfərdən 61 (30,5%) nəfərində implantatlar yalnız yuxari çənəyə, 78 (39%) nəfərində yalnız aşağı çənəyə, qalan hallarda isə hər iki çənəyə tətbiq olunmuşdur. Bundan başqa, onu da qeyd etmək lazımdır ki, bu şəxslərin 54 (19,5%) nəfərində implantatlar çənələrin yalnız ön-frontal hissələrinə, 84 (30,3%) nəfərində implantatlar çənələrin yalnız yan-çeynəmə hissələrinə və qalan hallarda isə həm yan, həm frontal hissələrinə birlikdə tətbiq olunmuşdur.

İmplantasiya əməliyyatları tətbiq olunmuş və implantüstü ortopedik konstruksiyalar fiksə olunmuş şəxslərin ağız boşluğunun vəziyyətinin qiymətləndirilməsi və planlama zamanı xəstələrin ümumi orqanizmlərinin vəziyyəti və somatik xəstəliklərin olub-olmaması xüsusi əhəmiyyət daşıyır. Ümumi somatik patologiyalar dedikdə, şəkərli diabet, anemiya, ürək-damar xəstəlikləri, böyrək və qaraciyər xəstəlikləri nəzərdə tutulmuşdur. Belə ki, müayinə etdiyimiz 200 şəxsdən 58 (29,0%) nəfərində qeyd etdiyimiz patologiyalardan hər hansı birinə rast gəlinsə də, 142 (71,0%) nəfərində heç bir patologiyaya rast gəlinməmişdir.

Siqaretçəkmə zərərli vərdişlərdən olub, ümumi orqanizm səviyyəsində baş verən patologiyalara səbəb olur. Siqaretçəkmə ağız boşluğunun yerli immuniteti, mikrobiosenoz və digər parametrlərə mənfi təsir göstərərək implantasiya əməliyyatının nəticələrinə də mənfi təsir göstərir. Müayinə etdiyimiz 200 xəstədən 64(32%) nəfəri siqaret çəkən olsa da qalanları bu zərərli vərdişdən uzaq şəxslər olmuşlar, siqaretçəkənlərin hamısı kişilər olmuşlar.

Periimplantitlər implantasiya əməliyyatlarının yaxın və uzaq nəticələrinin qiymətləndirilməsində əsas meyarlardan hesab olunur. Periimplantitlərin bir çox səbəbləri ola bilər ki, bunlara əsasən implantasiya texnikasının düzgün seçilməməsi, onların üzərinə düşən yükün düzgün qiymətləndirilməməsi, planlaşdırılmanın duzgün aparılmaması, çənə sümüklərinin sıxlığı və s. bizim implantatlar tətbiq etdiyimiz və sonradan üzərinə ortopedik konstruksiyalar fiksə etdiyimiz 200 şəxsdən 17(8,5%) nəfərində periimplantitə rast gəlinsə də 183 (91,5%) nəfərində müşahidə olunmamışdır. Periimplnatitlər əsasən yaşlı və ümumi orqanizmində problemlər olan şəxslərdə müşahidə olunmuşdur.

Tətbiq olunmuş implantatüstü protezlərin konstruksiyasının seçilməsi xəstənin itirdiyi dişlərinin sayından, damaqların atrofiya dərəcəsindən və xəstənin sosial vəziyyətindən asılıdır. Tərəfimizdən müayinə olunan implantatüstü protezlər olan xəstələrin 13 nəfərində yəni ümumi şəxslərin 6,5%-i çıxan protez, 187 (93.5%) nəfəri çıxmayan konstruksiyalar tətbiq olunmuşdur. İmplantatüstü ortopedik konstruksiyaları quraşdırılarkən mümkün qədər körpüyəbənzər protezlərə üstünlük vermək lazımdır.

Cədvəl

İmplantüstü protezlər tətbiq olunmuş şəxslərdə bəzi stomatoloji müayinələrin nəticələri

Fərdi gigiyenik status adi müayinə ilə					
Qənaətbəxş			Qeyri-qənaətbəxş		
107 (53,5%)			93 (46,5%)		
Peşəkar gigiyenik və parodontal yardım tədbirlərinin icra edilməsinin müntəzəmliyi					
Müntəzəm		Qeyri-müntəzəm		İcra edilməmişdir	
73 (36,5%)		69 (34,5%)		58 (29,0%)	
İmplantatüstü protezlərin istifadə müddəti					
1 ildən artıq		2 ildən artıq		3 ildən artıq	
72 (36,0%)		67 (33,5%)		61 (30,5%)	
Ağız boşluğunda parodontitin olması					
+			-		
68 (34,0%)			132 (66,0%)		
Müayinə olunanların cins tərkibi					
Kişi			Qadın		
82 (41,0%)			118 (59,0%)		
İmplantatların ağız boşluğunda yerləşməsinə görə					
Yuxarı çənə	Aşağı çənə	Hər iki çənə	Ön dişlər nahiyəsi	Yan dişlər nahiyəsi	Həm ön həm də yan nahiyə
61 (22,0%)	78 (28,2%)	61 (30,5%)	54 (27%)	84 (42%)	138 (69%)
Müayinə olunanlarda ümumi somatik patologiyaların olması					
+			-		
58 (29,0%)			142 (71,0%)		
Siqaretçəkmə					
+			-		
64 (32,0%)			136 (68,0%)		
Periimplantitlərin olması					
+			-		
17 (8,5%)			183 (91,5%)		
Tətbiq olunmuş implnatatüstü protezlərin konstruksiyası					
Çıxan			Çıxamayan		
13 (6,5%)			187 (93,5%)		

ƏDƏBİYYAT

1. Дудко А.С. Некоторые аспекты гигиенического ухода за зубными имплантатами // Новое в стоматологии, 2008(63), № 3, с.73-78.

2. Зорина О.А., Кулаков А.А., Грудянов А.И. Микробиоценоз полости рта в норме и при воспалительных заболеваниях пародонта // Стоматология, 2011, №1, с.73-77.

3. Матвеева, А.И., Гветадзе Р.Ш., Балуда И.В. Клинико-рентенологические аспекты протезирования с использованием внутрикостных имплантатов / Сб. тезисов научных трудов «Современные проблемы стоматологии». М., 2009, с.166-167.

4. Chongcharoen L.M., Lang N.P. Effectiveness of different interdental brushes on cleaning the interproximal surfaces of teeth and implants: a randomized controlled, double-blind cross-over study // Clin Oral Implants Res., 2012, №23 (5), p.635-640.

5. Deshmukh. J., Vandana K.L., Chandrashekar K.T. Clinical evaluation of an ionic toothbrush on oral hygiene status, gingival status and microbial parameter//Indian J. Dent.Res.,2006,v.17(2),p.74-79.

6. Frank M.H., Baas E.M., de Lange J. Peri-implantitis in the general oral and maxillofacial surgery practice. A pilot study // Ned Tijdschr Tandheelkd., 2012, № 119 (3), p.123-1

Резюме

Характеристика стоматологического статуса у лиц при протезировании на имплантатах

Г.Г.Мусаева

Для решения поставленных задач, нами было проведено обследование и ортопедическое лечение 200 человек, набранных из групп диспансерного наблюдения по заболеваниям пародонта и без видимых признаков заболеваний пародонта, обратившихся в стоматологическую поликлинику для протезирования. У части осложнений и недостатков была полная или частичная специфичность, характерная только для имплантационных протезов. Другие же были общими, универсальными и для имплантационных, и для банальных конструкций зубных протезов. Подавляющее большинство протезов удовлетворяло своих пользователей по своим функциональным и эстетическим параметрам. Жалобы в ряде случаев касались лишь задержки пищевых остатков и затруднений в очищении протезов от них. Степень удовлетворенности каждым протезом учитывалась при получении субъективной оценки больного во время опроса и анкетирования.

Summary

Characteristics of the dental status in patients with prosthetic implant

H.H.Musayeva

To solve the problems, we conducted a survey and orthopedic treatment of 200 people recruited from the outpatient groups observations on periodontal diseases and without visible signs DISEASES eases periodontal applied to the dental clinic for prosthetics. In some of the complications and drawbacks was complete or partial specificity, characteristic only for implant prostheses. Others were common, universal and for implantation, and the banal designs of dentures. The vast majority of prostheses satisfy its users in terms of functionality and aesthetic parameters. Complaints in a number of cases involved only delays food residues and difficulty in purifying prostheses from them. The degree of satisfaction with each prosthesis was taken into account in the preparation of the subjective assessment of the patient at the time of interview and questionnaire.

Daxil olub: 17.11.2014

XƏSTƏLƏRDƏ İSTİQAMƏTLƏNDİRİLMİŞ TOXUMA BƏRPASI CƏRRAHİ METODUNDAN ƏVVƏL VƏ SONRA RADİKAL TƏMİZLƏYİCİ FERMENTLƏRİN AKTİVLİYİNİN DƏYİŞMƏSİ VƏ REAKTİV OKSİGEN NÖVLƏRİNİN BİOMATERALLARA VƏ YARA YAXŞILAŞMASINA TƏSİRİ

*E.Aliyev, **U.Sakallıoğlu, ***Z.Eren

***Mərkəzi neftçilər xəstəxanası, GENLAB laboratoriyası, Bakı **Ondoqquz may universiteti, diş həkimliyi fakültəsi, Periodontologiya bölməsi, Samsun, Türkiyə**

*****Ondoqquz may universiteti, Fən Fakültəsi Molekulyar Biologiya (biokimya) elm sahəsi, Samsun, Türkiyə**

Açar sözlər: istiqamətləndirilmiş toxuma bərpası, radikal təmizləyici fermentləri, reaktiv oksigen növləri, yara yaxşlaşması

Ключевые слова: направленное восстановление ткани, радикальные очищающие ферменты, виды реактивного кислорода, улучшение раны

Keywords: directional tissue repair, radical cleansing enzymes, reactive oxygen species, improving wound

Sərbəst oksigen radikalları, oksigenin müəyyən şərtlərdə qismən reduksiyası nəticəsində meydana gələn, çox qısa ömürlü və güclü oksidləşdirmə keyfiyyətinə malik oksigen metabolitləri olub, oksidativ stressə səbəb olaraq, hüceyrə və ya toxumada molekulyar ölçüdə zərərli proseslərə gətirib çıxara bilər. Toxumaların bərpa olunmasının gedişatında hüceyrələrin çoxalma və ötürülməsinə maneçilik törədə bilər [1,2]. Daxili və xarici antioksidantlar, oksidativ stressi minimuma endirərək, reaktiv oksigen növlərinin toxuma üzərindəki zərərlərini azaldır.

Antioksidant sistemlər funksional və kimyəvi tərkibi baxımından; [1] fermentativ antioksidantlar, [2] əngəlləyici antioksidantlar və [3] zəncirvari reaksiyanı qıran və ya təmizləyici (süpürücü) antioksidantlar olaraq təsnifləşdirilə bilər. Fermentativ antioksiantlardan (ROMSE) Superoxid dismutaz (SOD), Katalaz (CAT) və Qlutatyon proxidaz (GPX) reaktiv oksigen molekulalarını daha az zərərli molekulalara çevirən ilkin müdafiə sistemini yaradır [4]. Bu antioksidantlar, reaktiv oksigen növləri (RON) meydana gəlincə onları daha az zərərli maddələrə çevirirlər. Bəhs edilən bu fermentlər hüceyrədaxili antioksidantlardı. Hüceyrəxarici antioksidantlar isə daha çox əngəlləyici və süpürücü növlərə aiddirlər [1,4].

Yaranın sağalması, zərərin dərəcəsindən asılı olaraq meydana gələn kompleks və hərəkətli toxuma reaksiyasıdır [5]. Bu proseslərdən inflamasiya sırasında netrofillərdən ifraz olunan sərbəst oksigen radikalları və lizozomal fermentlərlə yara yerinin təmasda olması, bakteriya və yad maddələrin aradan qaldırılmasını asanlaşdırır [4].

Peridontal xəstəliklər diş ətinin, dəstək sümüyünün (alveolyar sümük) periodontal liqament və sementin degenerasiyası və iltihabı ilə xarakterizə edilən patoloji terimindir [6]. Periodontal əməliyyatların məqsədi diş əti nahiyəsində yumşaq toxumalarda yaraların sağalması mexanizminin gücləndirilərək, sağalmaya nail olunmasından ibarətdir [7]. Əməliyyat proseslərində istifadə edilən suturlar (sapların) reaktiv oksigen yaratmaq qabiliyyətinə malikdir [8].

Son illərdə istiqamətləndirilmiş toxuma bərpası (İTB) istifadə etməklə periodont toxumalarının regenerasiyasına nail olunmasında əhəmiyyətli irəliləyişlər qeyd edilmşdir [9] Barier membrandan istifadə etməklə periodontal ligamentte olan progenitor hüceyrələrin periodontal toxumaların regenerasiyasını təmin etdiyi qəbul edilmişdir [10].

Absorbasiya edilən bariyer membranlarından olan Atrisorb, N-methyl-2-Pyrrolidine (NMP) tərkibi həll olan Poli (D, L-lactide) yəni laktik turşu polimerindən ibarətdir [11]. Materialın bioabsorbsiyası ətraf toxumada az dərəcədə iltihab reaksiyaya səbəb olduğu, lakin bu cavabın minimum və az əsirli olduğu, eləcə də regenerasiya prosesinə imkan verdiyi nəzərə alınaraq hazırki tədqiqatın mövzusu kimi müraciət edilmişdir [10].

İltihab ve işemiya RON meydana gəlməsinin əsas səbəblərindən olub, yara sağalması sırasında əsasən Xanhine oxidase fermentinin və iltihab prosessində NADP oxidase-in aktivləşməsindən sonra meydana gəlir [3].

Hazırkı tədqiqat işinin **məqsədi** İTB əməliyyatından əvvəl və sonra radikal oksigenin kəmiyyət göstəricisi olaraq, SOD və CAT ferment aktivliyi ölçülərək, reaktiv oksigen

növlərinin biomaterialların parçalanmasında iştirak edib-etmədiyini və bu reaktiv oksigen növlərinin yara sağalmasının yaxşılaşmasına təsir edib-etməcəyinin proqnozlaşdırılmasından ibarətdir.

Tədqiqatın material və metodları. Tədqiqatın materialı 19 May Universiteti diş həkimliyi fakultəsi Periodontologiya klinikasında İTB əməliyatı üçün nəzərdə tutulan xəstələrin dişəti nümunələrindən ibarət olnuşdur. Təcrübəyə orta yaş həddi 41 olan sistemli medikamentoz müalicə almayan, son 6 ay ərzində mütəmadi olaraq antibiotik, vitamin və s. kimi dərmanlar istifadə etməyən 10 xəstə daxil edilmişdir.

Əməliyyatların gedişatında dişətlərindən 0.5x0.5 mm ölçülərində götürülən bioloji materiallar 0,25 M saxaroza məhluluna qoyulmuş və sonra –70 ^{0}C Deep-Freeze'yə qoyularaq biokimyəvi müayinələrə qədər saxlanmışdır.

İnyeksiyada istifadə olunan ləvazimatlar 175^{0}C'də 60 dəq sterilizasiya edildikdən sonra istifadə edildmişdir.

Tədqiqat qruplarının yaradılması. Təcrübədə kontrol qrupu və test qrupu olmaqla 2 müxtəlif nümunədən istifadə edilmişdir. Qruplar, əməliyyatdan əvvəl və əməliyyatdan 1 ay sonra müayinə olunan qruplara ayrılmişdır. Xəstələrdən hər dəfə 2 test bölgəsindən diş ətləri nümunələri əldə edilmişdir. Hər müayinə 3 dəfə təkrar edilmiş və əldə olunan orta göstəricilər tədqiqatın nəticələrinin təhlil edilməsində istifadə edilmişdir.


Dişəti homogenizasiyası, sonifikasiyası və sentrifuqasiyası. Diş ətləri Turrax T 25 tipi homogenizatorun ən yüksək sürətində (Max rpm) 3 dəfə 20 san olmaqla 1 dəq müddətində homogenizasiya edilmişdir. Homogenizasiyadan sonra nümunələrə 1 ml 0,25 M saxaroza əlavə edilərək, Sanyo soniprep (150 MSE) cihazında 0^0 C'də 15-20 nöqtəsində 15 san aralıqlarla 3 dəfə sonifikasiya edilmişdir. Sonifikasiya prosesindən sonra diş ətləri sentrifuqa tüblərinə boşaldılmış, 15.000 rpm-də 15 dəq sentrifuqa edilmişdir. Sentrifuqa prosesindən sonra əldə edilən supernatantlarda ferment aktivlikləri və protein ölçmə təcrübələri aparılmışdır. Laboratoriya təcrübələri 0-4 ^{0}C'də həyata keçirilmişdir. Protein Lowry (1951) metoduna əsasən təyin edilmişdir. SOD aktivliyi Mc Cord və Fridovich (1969)'in spektrofotometrik metodu və Flohe və Otting'in (1984) metodu ilə müəyyən edilmişdir. Katalaz fermentinin aktivliyi Luck(1963) metodu ilə təyin edilmişdir.

Tədqiqatın nəticələri. *Əməliyyatdan əvvəl və sonra Total SOD aktivliyinin dəyişiməsi.* Əməliyyata başlamazdan əvvəl və bu əməliyyatdan 1 ay sonra xəstələrdən əldə edilən diş əti nümunələri yuxarıda qeyd olunan proseslərdən keçirildikdən sonra aktivlik təyin edilmişdir. Müayinə qrupundakı 10 xəstədən əldə edilən orta göstəricilərin əməliyyatdan əvvəlki Superoksid dismutaza aktivliyi göstəricilərinə nisbətən təqribən 62,92 % artdığı məlum olmuşdur.

Cədvəl 1

Müayinə qrupunda superoksid dismutaza aktivliyinin zamana görə dəyişməsi (IU/mg protein/ml)

N	Təcrübə	
	Əməliyyatdan əvvəl	Əməliyyatdan sonra
1	39,6	52
2	12,39	13,16
3	32,2	48,39
4	15,5	59,07
5	16,9	24,6
6	49,1	51
7	49,24	39,8
8	19,6	54,6
9	23,6	25,67
10	28,68	40,92



Şək. 1. Müayinə (test) və nəzarət (kontrol) qruplarında Superoksid dismutaza aktivliyinin zamana görə dəyişməsi (IU/mg protein/ml)

Cədvəl 2
Müayinə qrupunda Catalase aktivliyinin zamana görə dəyişməsi (IU/mg protein/ml)

N	Təcrübə	
	Əməliyyatdan əvvəl	Əməliyyatdan sonra
1	314,8	514
2	143	258,1
3	355	564
4	933	956
5	344	547
6	1272	1235
7	861	1432
8	336	677
9	228,9	529
10	393,6	514,84


Bu nəticələr statistik olaraq ön test/son test korrelyasiya analizi ilə qiymətləndirilmiş və nəticələrin statistik mənalı olduğu müəyyən edilmişdir ($p<0,05$) (Cədvəl 1 və Şək.1)

Test və Kontrol Qrupunda Total Katalaza Aktivliyinin dəyişməsi. Əməliyyata başlamazdan əvvəl və əməliyyatdan 1 ay sonra xəstələrdən alınan diş əti nümunələri yuxarıa qeyd idln metodlar üzrə proseduralardan keçirildikdən sonra aktivlik təyini edilmişdir. Müayinə qrupunda əməliyyatdan sonra CAT aktivliyi göstəricisi əməliyyatdan əvvəlki göstərciyə nisbətən 48,04% həddində olmuşdur. Bu nəticələr statistik olaraq ön test/son test korrelyasiya analizi ilə dəyərləndirilmiş və nəticələrin statistik mənalı olduğu müəyyən edilmişdir ($p<0,05$) (Şək.2 və Cədvəl 2).

Nəticələrin müzakirəsi. Periodontal cərrahiyyədən sonra yumşaq toxumalarda yara yerinin sağalması, digər yumşaq toxumaların sağalması prosesinə bənzərdir [7]. İTB prosedurası Polilaktat turşusu tərkibli Atrisorb barierinin cərrahiyyə əməliyyatı ilə diş ətinin defektli bölgəsinə yerləşdirilməsinə əsaslanır. Polilaktid membranlar insan orqanizmində yad maddə kimi tanınaraq, lokal reaksiyaya və iltihaba səbəb ola bilər [15]. Tədqiqatımızda, İTB barieri olan biomaterialların parçalanmasında RON-un iştirak edib- etmədiyi müəyyən edilmişdir.

Tədqiqatlar nəticəsində səbəbi bilinməyən bir çox xəstəliklərin dişəti zədələnmələri ilə əlaqəsinin olduğu ehtimal edilmişdir. Son illərdə diş əti xəstəliklərini araşdıran Periodondologiya

sahəsində istiqamətləndirilmiş toxuma bərpası (İTB) əməliyyatlarında, Atrisorb barier membranı geniş miqyasda tətbiq edilməkdədir [11,12]. Bir çox tədqiqatlarda polihidrokarbon quruluşlu polimer parçalandığı zamanı radikalların yarandığı və bu radikallara bağlı olaraq biokimyəvi sistemlərdə mühüm dəyişikliklərin olduğu fikri irəli sürülmüşdür [15,16].



Şək. 2. Müayinə qrupunda katalaz aktivliyinin zamana görə dəyişməsi (µmol/mg protein/ml)

Bir sıra tədqiqatçıların fikrincə İTB əməliyyatı prosesində bir çox daxili və xarici səbəblərlərdən ortaya çıxan reaktiv oksigen növləri sağalmaq üzrə olan toxumalar üçün zərərlidir, başqa tədqiqatçıların fikrincə isə faydalıdır. Tədqiqatçılar tərəfindən qeyd olunan yanaşmaların birmənalı olmadığı nəzərə alınaraq tərəfimizdən peridontal yaranın sağalmasında reaktiv oksigen növləri və antioksidantların mövqeyi qiymətləndirilmişdir.

Yara yerində fermentativ aktivlik nəticəsində, iltihabi proses, superoxid radikalı və H_2O_2 kimi reaktiv oksigen növləri meydana gətirir. İşemiya və reperfuziya nəticəsində iltihabi prosesdə netrofillərin fəaliyyətindən sonra yaranan radikalar, həmin mühitdə mövcud olan mikroblara qarşı reaktiv ola bilir. Bu oksigen radikalları iltihabi proseslər silsiləsinə başlayaraq, yara yerində həm faydalı, həm zərərli ola bilər [18].

Bu radikallar hidroksil radikalı kimi ikincili (sekonder) radikallar meydana gətirərək də zərərli ola bilər [17]. Hidroxil radikalları çox reaktiv metabolitlər olub, bütün bioloji substratlarla reaksiyaya girə bilərlər. Exrasellular (hüceyrə xarici) sahədə oksigen mənşəyli reaktiv molekullar hyaluronik turşunu, kollageni, yağ turşularını peroksidasiya edərək hüceyrə mebranlarını, lizozom və mitoxondriya kimi orqanelləri parçalayaraq, fermenləri deaktiv etməklə, yara sağalması sırasında keratonositlər kimi müxtəlif hüceyrə tiplərinin çoxalma və köçünə mane olaraq, zərərli təsir göstərirlər [18].

Periodontal xəstəliklərin geditşatında extrasellular matrixdə böyük zərər görülməkdədir [19]. Bənzər nəticələr başqa toxumalarda aparılan müxtəlif tədqiqalarda öz əksini taparaq, oksigen mənşəyli radikalların deqradativ effektlərindən bəhs etmişdir [20].

Təcrübələrimizdən əldə edilən nəticələrdə Atrisorb tətbiq olunduqdan sonra SOD və CAT ferment aktivliklərində mühüm artım qeydə alınmışdır. Bu artımlara atrisorb barierinin parçalanmasında iştirak edən reaktiv oksigen növləri səbəb olaraq göstərilə bilər. Absorbsiya edilən materiallarda Lee və başqaları (2000) tərəfindən aparılan tədqiqatda əldə edilən nəticələr bizim nəticələr ilə uzlaşır [15]. Ancaq, bu vəziyyət toksik bir təsirin meydana çıxacağı mənasına gəlməməlidir [20]. Çünki, detoksskasiya mexanizmində oksigen radikallarını təmizləyən fermentlər bir-birinin təsirini tamamlamaqdadırlar. Superoksid radikalları SOD fermenti tərəfindən hidrogen peroksidə çevrilməkdə, hidrogen peroksid isə CAT tərəfindən su və oksigenə ayrılmaqdadır. Qısaca desək, atrisob istifadəsinə bağlı olaraq artdığını düşündüyümüz radikallar SOD tərəfindən hidrogen peroksidə, hidrogen peroksid də CAT tərəfindən su və oksigenə parçalanacağı bilindiyinə görə, zərərli təsirin aradan qaldırılacağı da deyilə bilər. Əldə olunan nəticələr bizim nəticələrimiz ilə uzlaşır. Belə ki, tədqiqatımız nəticəsində Atrisorb memranı tətbiq ediilən bölgələrdə həm SOD, həm də CAT aktivlikləri əməliyatdan sonra

əməliyyatdan əvvələ görə statistik olaraq mənalı şəkildə artmışdır.

Nəticə və tövsiyələr. Orqanizmə yad maddələrin istifadəsi nəticəsində mühitdə oksidativ zərər meydana gələ bilər. Tədqiqatımız nəticəsində barier membranının istifadəsindən sonra radikal artımının göstəricisi olan Superoxide dismutase və Catalase aktivliyində əməliyyatdan əvvəl və sonra statistik olaraq mənalı şəkildə artmışdır. Radikalların artması isə yaranın yaxşılaşması və toxumalara mənfi təsir göstərir. Təcrübəmizdən və digər tədqiqatlardan alınan nəticələrə görə nahiyələrdə iltihabı azaltmaq, toxuma inkişafını sürətləndirmək və ehtimal olunan zədələnməni aradan qaldırmaq üçün, İTB cərrahiyəsi və atrisorb baryerindən istifadə edilən nahiyəyə antioksidant əlavə olunması faydalı ola bilər. Bu zaman radikallar və antioksidantlar arasındakı tarazlığı qorumaq son dərəcə böyük əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Cui K., Luo X., Xu K. et al 2004. Role of oxidative stress in neurodegeneration: recent developments in assay methods for oxidative stress and nutraceutical antioxidants // Progress in Neuro-Psychopharmacology & Biological Psychiatry, 2004, v.8, p.771-799
2. Wiseman, H., Halliwell, B. Damage to DNA by reactive oxygen and nitrogen species: role in inflammatory disease and progression to cancer // Biochem J., 1996, v. 313, p.17-29.
3. Babior B.M. Oxygen-dependent microbial killing by Phagocytes // The New England Journal of Medicine, 1876, v.298, No 12, p.659-667.
4. Gutteridge J.M.C., Lipid peroxidation and antioxidants as biomarkers of tissue damage. // Clin. Chem., 1995, v. 41, p.1819-1828.
5. Buerk A.A., Vitello W.A., Laughin R.T. Advances in wound heealing // Curr Opin Orthop., 2000, v.11, p.92-98.
6. Slots J. Subgingival microflora and periodontal disease // Journal of Clinical Periodontology, 1976, v.6, p.351-354.
7. Wikesjö U.M.E., Selvig K.A. Periodontal wound healing and regeneration // Periodontology, 2000, v.19, p.21-39.
8. Maltaga, V. F., Salthouse, T. H. Electron microscopic observations of polyglactin 910 suture sites: In: First world biomaterials congress. Badeh, Australid, 1980, p.8-12.
9. Quinones, C.R., Caffesse, R.G. Current status of guided periodontal tissue regeneration. Periodontology, 2000. p. 55-68.
10. Karring T., Warrer K. Development of the principle of guided tissue regeneration // Scientific, 1992, v.85, p.19-24
11. Polson, A.M., Southard, G.L., Dunn, R.L. et al. Periodontal healing after GTR with Atrisorb barriers in beagle dogs // J. Dent Res:, 1994, v. 73, p.380
12. Lowry O.H., Rosebrough N.J., Farr A.L., Randall R.J. Protein measurement with the Folin-Phenol reagents // J. Biol. Chem., 1951, v.193, p.265-275.
13. Flohe L., Otting F. Superoxide dismutase assay //Methods in Enzymology,1984,v.105,p.93-104.
14. Luck H. Catalase. Methods of Enzymatic Analysis, 2nd edn. (Bergmeyer, H. U., cd.) pp.885-888. Verlag Cheme, Weinheim and academic Press, New York, 1963,
15. Lee K.H., Chu C.C. The role of superoxide ions in the degradation of synthetic absorbable sutures // J Biomed Mater Res., 2000, v.49 (1), p.25-35.
16. Lundgren, D., Mathisen, T., Gottlow, J. The development of a bioresorbable barrier for guided tissue regeneration // Swed Dent J.. 1994, v. 86, p.741.
17. McCord J.M. The superoxide free radical: Its biochemistry and pathophysiology // Surgery, 1983, v.94, p.412-414.
18. White M.J., Heckler F.R. Oxygen free radicals and wound healing // Clinics in plastic surgery, 1990, v.17, No 3, p.473-84.
19. Page R.C. et. al. Advances in the pathogenesis of periodontitis: summary of developments, clinical implications and future directions // Periodontol., 2000, v.14, p.216-248.
20. Polson A.M., Garrett S., Stoller N.H. et al. Guided tissue regeneration in human furgation defects after using a biodegradable barrier.A multicenter feasibility study // J Periodontol. 1995, v.66, p.377-385

Summary

Radical scavinging enzyme activity changes, before and after Guided Tissue Regeneration periodontal surgery and effect of reactive oxygen species on biomaterials and wound healing in patients

E.Aliyev, U. Sakallıoğlu, Z.Eren

Reacive oxygen species (ROS) by causing oxidative stres, may harm tissues in extent of molecular dimensions and may inhibit cell migration and proliferation during wound healing (Cui və başq. 2004; Wiseman və Halliwell, 1996). ROS contributes to degradation of foreign biomaterials. İnner and outer antioxidants supress oxidative stress, decrease its harmfull effect. İn current study, before and after one month of Guided Tissue Regeneration (GTR), tissue biopsies were taken from 10 patients. ROS activity evaluated by means of biomaerials' effect on tissues and wound healing via Superoxide dismutase (SOD) and Catalase (CAT) activity assays which are radical scaving enzymes. After laboratory processing, Superoxide dismutase (SOD) and Catalase (CAT) activity measured in tissues supernatants by McCord and Fridovich, Flohe and Otting and Luck methods, respectively. Protein assays measured by Lowry method. Significantly, SOD and CAT activity changes was observed ($p<0.05$). SOD activity (62.92 %) and CAT activity (48.04 %) increased. Our results suggests that one month after GTR operation and during wound healing ROS activity very increases and this is contrubituon of ROS on biomaterials degradation that also may harm wound healing, tissues and cells.

Резюме

Влияние изменения активности радикально очищающих ферментов и реактивных кислородных биоматериалов на больных до и после проведения им хирургического метода, направленного на восстановление ткани

Э.Алиев, У.Сакаллыоглу, З.Эрен

Целью исследования явился анализ влияния изменений активности радикально очищающих ферментов и реактивных кислородных биоматериалов на больных до и после проведения им хирургического метода, направленного на восстановление ткани. В исследование вошли 10 больных, не получившие никакое медикаментозное лечение в течении 6 месяцев; их средний возраст не больше 41 лет. По данным наших исследований, хирургический метод лечения, направленный на восстановление ткани, является эффективным в уменьшении воспалительного действия для ускорении заживления тканей. В зонах, где были использованы атрисорбные барьеры, эффективно комбинированное использование антиоксидантов.

Summary

Effect of changes in the activity of radical cleansing enzymes and reactive oxygen biomaterials for patients before and after their surgical technique aimed at restoring tissue

E.Aliyev, U.Sakallyoglu, Z.Eren

The aim of the study was to analyze the impact of changes in the activity of radical cleansing enzymes and reactive oxygen biomaterials for patients before and after their surgical technique aimed at restoring tissue. The study included 10 patients who did not receive any medication for 6 months; their average age is not more than 41 years. According to our research, surgical treatment aimed at restoring tissue is effective in reducing the inflammatory actions to accelerate tissue healing. In areas where the barriers were used atrisorbnye effectively combined use of antioxidants.

Daxil olub: 23.10.2014

PARODONTUN İLTİHABİ XƏSTƏLİKLƏRİNİN MÜXTƏLİF MƏRHƏLƏLƏRİNİN KOMPLEKS MÜALİCƏSİNDƏ PROFESSİONAL GİGİYENANIN KLİNİK-İMMUNOLOJİ QİYMƏTLƏNDİRİLMƏSİ

E.Ə.Rüstəmov
Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: parodontun iltihabi xəstəlikləri, parodontit, professional gigiyena
Ключевые слова: воспалительные заболевания пародонта, пародонтит, профессиональной гигиены
Keywords: Inflommeri diseases of parodontis, parodontis, professional hygiene

Tibb elmində etiologiyası məlum olmayan xəstəliklər qarşısında problemlər vardır. Hər il milyonlarla insan, tutulduğu xəstəliyin etiologiyası məlum olmadığı üçün tam müalicə olunub sağala bilmirlər. Bu sahədə çalışan yüksək ixtisaslı mütəxəssislər polietioloji xəstəliklərin simptomatik və patogenetik müalicəsini aparmaq məcburiyyətində qalırlar [1,2]. Stomatoloji xəstəliklərdən parodontun iltihabi xəstəlikləri də polietiolojidir və patogenezi mürəkkəb mexanizmə malikdir. Bu gün stomatoloqlar PİX-nin klinikasının xeyli dəyişməsi səbəbindən bir sıra çətinliklərlə üzləşirlər ki, bu da diaqnostik səhvlərə yol verilməsinə gətirib çıxarır. Ona görə də, PİX-nin hazırkı klinik patogenetik xüsusiyyətlərinin təyin edilməsi son dərəcə böyük əhəmiyyət kısb edir, belə ki, PİX-nin diaqnostikası məqsədilə xəstələrin böyük qismini hərtərəfli klinik-laborator müayinə ilə əhatə etmək mümkün deyildir. Bu, xüsusilə diş ərpi, diş daşının orqanizmə güclü sistemli təsirinin olmasına aiddir. Xəstələrin müxtəlif qrupları üzərində apardığımız müşahidələr bu problemə bir sıra əlavələrin edilməsinə imkan verir. PİX-in erkən diaqnostikasının və müalicəsinin effektivliyinin yüksəldilməsi müasir stomatologiyanın ən aktual problemlərindən biridir. Bu, ilk növbədə onunla bağlıdır ki, bir tərəfdən stomatoloji xəstələnmənin strukturunda onların çəkisi artır, digər tərəfdən xəstəliyin etiologiyası çoxfaktorlu, patogenezi mürəkkəb və dəyişkən, yerli və somatik pozğuntular bir-birilə qarşılıqlı əlaqədədir [3,4]. PİX-nin kütləvi şəkildə yayılması və onun sosial-iqtisadi əhəmiyyəti onların profilaktikasına daha çox diqqət yetirmək zərurətini yaratmışdır. Yeniyetməlik zamanı stomatoloji xəstəliklərin strukturuna bilavasitə təsir edən faktorlara demoqrafik və klinik meyarlar, xüsusilə, yaş, təhsil, savad səviyyəsi, peşə mənsubiyyəti və yaşayış yeri, fərdi xüsusiyyətlər, psixoloji vəziyyət ümumi-somatik patologiya aiddir [5]. Beləliklə, yuxarıdakılar nəzərə alınmaqla parodontun iltihabi xəstəliklərinin diaqnostikası və müalicəsi zamanı ağız boşluğunun gigiyenik vəziyyəti böyük əhəmiyyət kəsb etdiyi məlum olur. Orqanizmin reaktivliyinin öyrənilməsi, parodontun iltihabi xəstəliklərinin yaranmasında müdafiə-kompensator amillərinin əhəmiyyətinin araş-dırılması patoloji prosesin yaranmasının qarşısını almağa imkanı verir. Parodontun iltihabi xəstəlikləri zamanı yerli immunitetin göstəricilərinin vəziyyətinə dair vətən və xarici ədəbiyyat mənbələrində çoxsaylı məlumatlar vardır. Bunların biri-birindən fərqli olmasının səbəbi immun göstəricilərinin fərdi dəyişikliklərə malik olmasıdır [7,8]. Həmçinin bu göstəricilərin parodontun iltihabi xəstəliklərinin müxtəlif formaları zamanı öyrənilməsinə aid məlumatlar azdır. Parodontun iltihabi xəstəlikləri olan şəxslərdə risk faktorlarının effektiv aşkar edilməsi və vaxtında aradan qaldırılması məsələsi də böyük əhəmiyyətə malikdir. Respublikamızda stomatoloji xəstəliklər sahəsində çalışan təd-qiqatçı alimlərin qarşısında duran başlıca məsələlərdən biri, yeniyetmələrdə parodontun iltihabi xəstəliklərinin kompleks müalicəsi zamanı immunitetin yüksəldilməsidir və bu məsələ hələ də aktual olaraq qalır. Məlumdur ki, parodontun iltihabi xəstəliklərinin kompleks müalicəsinin effektivliyi immun sistemin vəziyyətindən birbaşa asılıdır [10,11]. Bütün bunları nəzərə alaraq biz parodontun iltihabi xəstəliklərinin müxtəlif mərhələlərinin müalicə-sində ağız boşluğunun professional gigiyenasının tətbiqinin klinik-immunoloji qiymətləndi-rilməsinə çalışmışıq.


Tədqiqatın məqsədi parodontun iltihabi xəstəliklərinin müxtəlif mərhələlərində ağız boşluğunun professional gigiyenasının klinik-immunoloji qiymətləndirilməsi və fərdi müalicə-profilaktik tədbirlərin işlənib hazırlanmasıdır.

Tədqiqatın material və **metodları.** Klinik stomatoloji tədqiqatlara praktik sağlam hesab edilən 106 nəfər 12-15 yaşlı yeniyetmə cəlb

edilmişdir. Onlardan 86 nəfəri parodontun iltihabi xəstəlikləri ilə və 20 nəfər intakt parodontla müayinə olunmuşdur. Parodontun iltihabi xəstəlikləri zamanı «Ağız boşluğunda professional gigiyena» tədbirlərini tətbiq edib sağalma dinamikasındakı dəyişikliklər öyrənilmişdir. Klinikada parodontun iltihabi xəstəliklərinin «Ağız boşluğu professional gigiyenası» tətbiqi ilə yanaşı kompleks müalicəsinin səmərəliliyini qiymətləndirmək üçün klinik, immunoloji göstəricilərdən istifadə olunmuşdur. Müayinələrin əksəriyyəti müalicədən əvvəl və sonra aparılmışdır. Klinik müayinələr ümumi qəbul olunmuş qaydalara əsasən aparılmışdır. Parodontun iltihabi xəstəliklərinin diaqnozu xəstələrin şikayəti, anamnez, baxış və obyektiv tədqiqat metodlarına əsasən müəyyən edilmişdir. Xəstəlik anamnezini müəyyən edərkən, onun müddəti, patoloji proseslərin dişətrafı toxumalara yayılma dərəcəsi, klinik əlamətlərin dəyişmə meylliyinə diqqət yetirilmişdir. Həmçinin bu patologiyaya meyilli irsi xüsusiyyətlər nəzərə alınmışdır. Yerli zədələyici amillərin (travmatik oklüziya, ağız dəhlizinin dayazlığı, dil və dodaq yüyənlərinin anormal birləşməsi, diş daşları və diş ərpi) mövcudluğu müəyyən edilmişdir. Dişətinin qanaması, ödemliliyi, rəngi, konsistensiyası, hipertrofiyası təyin olunmuşdur. Parodontun iltihabi xəstəlikləri zamanı tətbiq edilən ağız boşluğunun professional gigiyenasının nəticələrini qiymətləndirmək üçün, ağız boşluğunun gigiyenik vəziyyətini Fyodorov-Volodkina gigiyenik indeksi (Gİ) ilə, parodontdakı dəyişiklikləri müqayisəli öyrənmək üçün papilyar-marginal-alveolyar (PMA-Parma modifikasiyasında) indeksindən və parodontal indeksdən (Pİ), istifadə edilmişdir. PİX-nin müxtəlif mərhələlərində ağız boşluğunun PG- nın tətbiqinin səmərəliliyini qiymətləndirmək üçün qarışıq ağız suyunda Lizosimin (%)- lə, immunoqlobulinlərin (İgA, İgG, sİgA) q/l-lə kəmiyyət göstəriciləri təyin edilmişdir. Qarışıq ağız suyunda lizosimin aktivliyi V.Q.Dorofeyçuk tərəfindən təklif olunan nefelometrik üsulla müəyyən olunmuşdur, immunoqlobulinlərin (IgA, IgG, SIgA) miqdarı Mançini et al tərəfindən təklif olunan aqarda radial immunodiffuziya üsulu ilə müəyyən edilmişdir. Bu göstəricilər hər üç qrup xəstələrdə ağız boşluğunun PG - dan öncə və sonrakı müddətlərdə müəyyən olunmuşdur. Aparılan klinik-laborator müayinələrin nəticələri orta ədədi kəmiyyət (x^-) və onun xətasının (Sx) təyini ilə variasion statistik metodla hesablanmış, fərqlərin dürüstlüyü parametrik və qeyri-parametrik üsullarla Styüdentin t meyarı, x^2- işlənilmişdir .Müalicəyə başlamazdan əvvəl əmək və məişət şəraiti, peşə, zərərli vərdişlər, qidalanmanın xarakteri, irsiyyət, keçirilmiş xəstəliklər, allergik status, ağız boşluğuna gigiyenik qulluq haqqında biliklər müəyyən edilmişdir.

Alınmış nəticələr və onların müzakirəsi. PİX ilə həqiqi xəstələnməni aşkara çıxarmaq üçün klinikaya müxtəlif səbəblərdən müraciət edən yeniyetmələrin ağız boşluğunun stomatoloji müayinəsi aparılmışdır və parodontun iltihabi xəstəliklərinin yayılma və intensivliyi öyrənilmişdir. Parodontun iltihabi xəstəliklərinin kompleks müalicəsi zamanı ağız boşluğunun professional gigiyenasının tətbiqinin səmərəliliyini qiymətləndirmək üçün qarışıq ağız suyunda immunoqlobulinlərin (İgA, İgG, sİgA), lizosimin kəmiyyət göstəricilərini təyin etmişik. Bu göstəricilər hər üç qrup xəstələrdə ağız boşluğunun professional gigiyenasından əvvəl, sonra və bir ay müddətdən sonra müəyyən olunmuşdur. Qarışıq ağız suyunda lizosimin aktivliyini müayinə olunan 12-13 yaşlı parodontun iltihabi xəstəliyi olan 33 nəfərdə, 14-15 yaşlı 53 nəfərdə və 20 nəfər intakt parodontla (nəzarət qrupu) müəyyən etmişik. Müayinə müalicədən əvvəl, 10 gün sonra və 1 ay sonra aparılmışdır. 12-13 yaş qrupunda olan 11 nəfər gingivitli xəstələrdə göstərici müalicədən əvvəl aşağı olmuşdur 29,3±0,82%. Nəzarət qrupu 47,0±0,79% olmuşdur. Müalicədən 10 gün sonra kəskin artaraq 40,5±1,30% səviyyəyə çatmışdır (p_1<0,001), bir aydan sonra bir az da artma qeydə alınmışdır- 41,5±1,18% (p_1<0,001), p_1- müalicədən əvvəl olan göstəriciyə nəzərən statistik dürüstdür. Bu parodontun iltihabi xəstəlikləri zamanı ağız boşluğunun gigiyena qaydalarına düzgün riayət olunduğunu göstərir. Yüngül dərəcəli parodontit olan 14nəfər 12-13 yaşlı xəstələrdə əvvəl 30,5±0,66% olmuş, müalicədən 10 gün sonra qalxaraq 41,3±1,07% olmuşdur (p_1<0,001). 1 ay sonra isə müvafiq olaraq cüzi dəyişərək 42,1±1,04% qeydə alınmışdır (p_1<0,001). Orta dərəcəli parodontit diaqnozlu 8 xəstədə heç bir gigiyenik prosedura yerinə yetirmədən yoxladıqda 31,0±0,93% olmuşdur. Ağız boşluğunun professional qaydada gigiyena tədbirləri yerinə yetirildikdən sonra yüksələrək 40,8±1,46% qeydə alınmışdır (p_1<0,001). Bir aydan sonra daha bir az çoxalaraq 41,7±1,24% olmuşdur (p_1<0,001), (Şəkil 1). Gingivit, yüngül dərəcəli parodontit,orta dərəcəli parodontit olan hər üç qrupda əvvəlki göstəricilər

aşağı olmuşdur.Mualicə-profilaktika tədbirlərini yerinə yetirdikdən 10 gün sonra həm gingivit, həm yüngül dərəcəli parodontit, həm də orta dərəcə parodontit xəstələrinin hamısının göstəriciləri yüksələrək xeyli normallaşmağa doğru dəyişmişdir. Müalicədən əvvəl olan göstəriciyə nəzərən statistik dürüstdür. 1 ay sonrakı göstəricilərdə həm gingivit, həm, yüngül dərəcə parodontit, həm də orta dərəcəli parodontit xəstələrində cüzi artım müşahidə olunmuşdur (Cədvəl 1).



Şək 1. Lizosimin dəyişmə dinamikası (gingivit)

Cədvəl 1

Qarışıq ağız suyunda Lizosimin aktivliyinin dəyişmə dinamikası, %-lə

Yaş qrupları	Parodont xəstəlikləri	Xəstələrin sayı	Nəzarət qrupu (n=20)	Müalicədən əvvəl	Müalicədən 10 gün sonra	$p_1<$	Müalicədən 30 gün sonra	$p_1<$
12-13	Gingivit	11	47,0 ± 0,79	29,3±0,82 *	40,5±1,30 *	0,001	41,5± 1,18 *	0,001
	Yüngül dərəcəli parodontit	14		30,5±0,66 *	41,3±1,07 *	0,001	42,1±1,04 *	0,001
	$P^1<$			-	-		-	
	Orta dərəcəli parodontit	8		31,0±0,93 *	40,8±1,46 *	0,001	41,7± 1,24 *	0,001
	$p_1<$			-	-		-	
	$p_2<$			-	-		-	
14-15	Gingivit	21	48,5 ± 0,36	28,3±0,57 *	39,5±1,08 *	0,001	40,4±1,07 *	0,001
	Yüngül dərəcəli parodontit	16		30,3±0,69 *	39,3±1,18 *	0,001	40,1±1,08 *	0,001
	$p_1<$			0,05	-		-	
	Orta dərəcəli parodontit	16		30,9±0,81 *	38,6±1,06 *	0,001	39,5±1,02 *	0,001
	$p_1<$			0,05	-		-	
	$p_2<$			-	-		-	

Qeyd: p_1 –müalicədən əvvəl olan göstəriciyə nəzərən statistik dürüstlük; p_1, p_2 – uyğun olaraq, gingivit və yüngül dərəcəli parodontit qrupu göstəricisinə nəzərən statistik dürüstlük; *- nəzarət qrupu göstəricisinə nəzərən fərq statistik dürüstdür, $p<0,05$

Beləliklə, parodontun iltihabi xəstəliklərinin komples müalicəsində professional gigiyena tədbirlərinin tətbiq edilməsi təkcə bir profilaktik tədbir kimi deyil, həm də müalicənin keyfiyyətinin yaxşılaşmasşna da müsbət təsir edir. Bu 12-13 yaşlı parodontun iltihabi xəstəlikləri olan yeniyetmələrdə lizosimin əvvəl və sonrakı göstəriciləri bunu əyani olaraq sübut edir. Nəzarət qrupunda olan 20 nəfər 12-13 yaşlı yeniyetmələrin göstəriciləri ilə (47,0±0,79%) əsas qrupda olan 33 nəfər parodontun iltihabi xəstəlikləri olan xəstələrin professional gigiyenadan 10 gün sonrakı göstəricilər (40,5±1,30%), (41,3±1,07%), (40,8±1,46%) arasında elə böyük fərq görünmür. Bu da professional gigiyenanın nə dərəcədə kecilməz olduğunu göstərir. Bir aydan sonra qeydə alınan irəliləyiş isə professional gigiyenanın tətbiqindən sonra xüsusi müalicə-profilaktik qaydalara riayət olunduğunu göstərir. Bütün polietioloji xəstəliklər kimi parodontun iltihabi xəstəliklərinin də müalicəsi tək etiologiyaya görə deyil, əsasən patogenezinə görə aparılır. Qarışıq ağız suyunda lizosimin aktivliyinin professional gigiyena tədbirlərindən asılı olaraq dəyişmə dinamikasına nəzər saldıqda belə qənaətə gəlmək olar ki, gigiyenik tədbirlər orqanizmin immun müdafiə sisteminin vəziyyətini yaxşılaşdırır,kompleks müalicənin effektivliyini artıra bilər. İgG- nin ağız boşluğunda professional gigiyena tədbirlərindən sonrakı göstəricilərinin dinamikasına diqqət yetirərkən aydın olur ki, 12-13 yaş qrupunda 33 xəstə iştirak etmişdir. Bunlardan 11 nəfəri gingivit, 14-ü yüngül dərəcəli parodontit, 8 nəfər orta dərəcəli parodontit diaqnozunda olmuşdur. Nəzarət qrupu 20 nəfərdən ibarət olmuşdur- 10 nəfər 12-13 yaş qrupunda,10 nəfər 14-15 yaş qrupunda iştirak etmişdir. 12-13 yaşlıların nəzarət qrupunda göstərici 6,3±0,21q/l olmuşdur. Gingivit xəstələrinin ağız boşluğunda professional gigiyena tədbirlərindən əvvəlki göstəricisi aşağı olmuşdur 3,21±0,14q/l qeydə alınmışdır. Professional gigiyena tədbirləri yerinə yetirilmişdir, profilaktik tövsiyələr verilmişdir. Müalicədən 10 gün sonra artaraq 4,20±0,27 q/l olmuş (p_1<0,01), 1 aydan sonra bu göstərici az dəyişib- 4,34±0,27 q/l olmuşdur (p_1<0,01). Yüngül dərəcəli parodontit xəstələrində professional gigiyena tədbirlərindən əvvəl 3,83±0,17q/l olmuşdur. Gigiyenik tədbirdən 10 gün sonra 4,90±0,22q/l (p_1<0,001) qeydə alınmışdır. Müalicədən 1ay sonra 5,02±0,22q/l (p_1<0,01) göstəriciyə malik olmuşdur (cədvəl 2). Orta dərəcəli xəstələrdə əvvəl aparılan müayinələrdə 3,91±,21q/l qeydə alınmış, ağız boşluğunda professional gigiyena tədbirlərindən 10 gün sonra 4,84±0,27q/l (p_1<0,05) olmuşdur. Bir ay sonra 5,02±0,30q/l (p_1<0,05) göstəricisinə malik olmuşdur. 14-15 yaş qrupuna gəldikdə 53 nəfər iştirak etmişdir. 21 gingivit, 16 yüngül dərəcəli parodontit, 16 nəfər orta dərəcəli parodontit diaqnozu ilə müayinə olunmuşdur. Gingivit xəstələrində əvvəlki göstərici 3,14±0,12q/l qeydə alınmışdır, professional gigiyena tədbirlərindən 10 gün sonrakı göstərici çoxalaraq 4,34±0,21q/l (p_1<0,001) olmuşdur. Bir aydan sonrakı göstərici 4,49±0,22q/l (p_1<0,001) olmuşdur Göründüyü kimi əvvəl nəzarət qrupuna nəzərən çox aşağı olmuş, professional gigiyena tədbirlərindən sonra çoxalmış, bir aydan sonra daha da artmışdır. Yüngül dərəcəli parodontitli xəstələrin ilkin göstəriciləri 3,54±0,14 q/l olmuş, professional gigiena tədbirlərindən 10gün sonra artaraq 4,67±0,20 q/l (p_1<0,001) olmuşdur. Bir aydan sonra bir az da çoxalaraq 4,82±0,21 q/l (p_1<0,001) olmuşdur. Orta dərəcəli parodontit xəstələrində əvvəlcə aparılan müayinənin göstəriciləri 3,60±0,20q/l olmuşdur. Professional gigiyena tədbirləri yerinə yetirilmiş, xəstələrə profilaktik tövsiyələr verilmişdir. Professional gigiyena tədbirlərindən sonra çoxalaraq 4,71±0,23q/l (p<0,001) olmuşdur. Nəzarət qrupu göstəricisinə nəzərən fərq statistik dürüstdür. Beləliklə 12-13 yaş qrupunda öncə aparılan müayinədə həm gingivit, həm yüngül dərəcəli parodontit, həm də orta dərəcəli parodontit xəstələri olan hər üç qrupda əvvəlcə göstəricilər az olmuş, müalicə-profilaktik tədbirlər həyata keçirildikdən 10 gün sonra çoxalmış, lakin nəzarət qrupundan xeyli az olmuş, bir aydan sonra bir az da artmışdır. 14-15 yaşlı-larda nəzarət qrupu 6,4±0,14q/l olmuşdur. Gingivit xəstələrində digər qruplara nisbətən göstəricilər daha aşağı olmuşdur. 12-13 yaş qrupu ilə müqayisə apardıqda 14-15 yaş qrupunda göstəricilər daha aşağı olmuşdur (Cədvəl 2). Belə bir qənaətə gəlmək olar ki, parodontun iltihabi xəstəlikləri zamanı ağız boşluğunun professional gigiyenasına, kompleks müalicəyə erkən yaşlarda başlamaq lazımdır. Bu müalicənin effektiv-liyini artiracaqdır. Zaman keçdikcə parodontun zədələnmiş nahiyyələrinin sağalması çətinləşir və zədələnmə sahələri artacaqdır. Zaman keçdikcə parodontun zədələnmiş nahiyələrinin sağalması çətinləşir və zədələnmə sahələri böyüyür, daha dərin qatlara keçir, distrofik, atrofik dəyişikliklərin getməsi üçün şərait yaranır.

Cədvəl 2

Müxtəlif dərəcəli parodontun iltihabi xəstəlikləri olan şəxslərdə İgG göstəricilərinin (q/l) dinamikası

Yaş qrupu	Parodont xəstəlikləri	Xəstələrin sayı	Nəzarət qrupu (n=20)	Müalicədən əvvəl	Müalicədən 10 gün sonra	$p_1<$	Müalicədən 30 gün sonra	$p_1<$
	Gingivit	11		3,21±0,14*	4,20±0,27*	0,01	4,34±0,27*	0,001
	Yüngül dərəcəli parodontit	14		3,83±0,17*	4,90±0,22*	0,001	5,02±0,22*	0,01
	$p_1<$		6,3±0,21	0,01	0,05		-	
	Orta dərəcəli parodontit	8		3,91±0,21*	4,84±0,27*	0,05	5,02±0,30 *	0,01
	$p_1<$			0,05	-		-	
12-13	$p_2<$			-	-		-	
	Gingivit	21		3,14±0,12*	4,34±0,21*	0,001	4,49±0,22*	0,001
	Yüngül dərəcəli parodontit	16		3,54±0,14*	4,67±0,20*	0,001	4,82±0,21 *	0,001
	$p_1<$		6,4±0,14	0,05	-		-	
	Orta dərəcəli parodontit	16		3,60±0,20*	4,71±0,23*	0,001	4,84±0,24*	0,001
	$p_1<$			-	-		-	
14-15	$p_2<$			-	-		-	


Qeyd: p_1- müalicədən əvvəl olan göstəriciyə nəzərən statistik dürüstdür; p_1, p_2- uyğun olaraq, gingivit və yüngül dərəcəli parodontit qrupu göstəricisinə nəzərən statistik dürüstdür; * - nəzarət qrupu göstəricisinə nəzərən fərq statistik dürüstdür, $p<0,05$

Cədvəl 3

Parodontun iltihabi xəstəlikləri zamanı İgA-nın q/l-lə dəyişmə dinamikası

Yaş qrupu	Parodont xəstəlikləri	Xəstələrin sayı	Nəzarət qrupu (n=20)	Müalicədən əvvəl	Müalicədən 10 gün sonra	$p_1<$	Müalicədən 30 gün sonra	$p_1<$
	Gingivit	11		0,23±0,007 *	0,33±0,017 *	0,001	0,35± 0,015*	0,001
	Yüngül dərəcəli parodontit	14		0,29±0,010 *	0,39±0,018 *	0,001	0,42 ± 0,020 *	0,001
	$P_1<$		0,53±0,032	0,001	0,05		0,05	
	Orta dərəcəli parodontit	8		0,34±0,024 *	0,40±0,032*	-	0,44 ± 0,034	0,05
	$p_1<$			0,05	-		-	
12-13	$p_2<$			-	-		-	
	Gingivit	21		0,24±0,008*	0,35±0,017*	0,001	0,38 ± 0,018 *	0,001
	Yüngül dərəcəli parodontit	16		0,29 ±0,008*	0,39±0,015*	0,001	0,41 ± 0,017 *	0,001
	$p_1<$		0,53±0,024	0,001	-		-	
	Orta dərəcəli parodontit	16		0,34±0,013*	0,43±0,021*	0,001	0,45 ± 0,024 *	0,001
	$p_1<$			0,001	0,01		0,05	
14-15	$p_2<$			0,01	-		-	

Qarışıq ağız suyunda IgA-nın müalicə-profilaktik tədbirlərdən əvvəl, 10 gün sonra və 1ay sonrakı göstəricilərinə nəzər saldıqda, aydın olur ki, I qrupda müayinə olunan 33 xəstədən 11-i gingivit, 14 nəfər yüngül dərəcəli parodontit, 8nəfər orta dərəcəli parodontit diaqnozu ilə iştirak etmişdir. Nəzarət qrupunda 0,53±0,032q/l olmuşdur (Cədvəl 3.12). Müalicə-profilaktik tədbirlərdən əvvəl gingivit xəstələrində 0,23±0,007q/l olmuş, 10 gün sonra artaraq 0,33±0,017q/l (p_1<0,001) göstəriciyə malik olmuş. Bir ay sonra daha bir az yaxşılaşma qeydə alınaraq- 0,35±0,015q/l (p_1<0,001) olmuşdur. Yüngül dərəcə parodontitli xəstələrdə əvvəl 0,29±0,010q/l olmuş, müalicə-profilaktik tədbirlərdən 10 gün sonra 0,39±0,018q/l (p_1<0,001) olmuş, bir ay sonra isə bir az da çoxalaraq 0,42±0,020q/l olmuşdur. Orta dərəcəli parodontitli xəstələrdə müalicədən əvvəl 0,34±0,024q/l olmuş,10 gün sonrakı nəticə 0,40±0,032q/l qeydə alınmış, bir ay sonra 0,44±0,034q/l göstəriciyə malik olmuşdur. II qrup xəstələrə nəzər saldıqda aydın olur ki, gingivit xəstələrində müalicədən əvvəl göstərici 0,24±0,008q/l olmuş, müalicədən 10 gün sonra 0,35±0,017q/l qeydə alınmış, 1 aydan sonra təkrar müayinə aparıldıqda göstərici bir az da yaxşılaşaraq 0,38±0,018q/l olmuşdur. Yüngül dərəcə parodontitli xəstələrdə ilkin müayinə zamanı göstərici 0,29±0,008q/l olmuş, müalicədən 10gün sonra 0,39±0,015q/l olmuş,1ay sonrakı müayinə nəticəsində göstərici 0,41±0,017q/l olmuşdur. Orta dərəcəli parodontitli xəstələrdə müalicədən əvvəlki göstərici 0,34±0,013q/l qeydə alınmış, sonrakı müayinənin nəticəsi 0,43±0,021q/l olmuşdur. 1ay sonra təkrar müayinə olunarkən bir az da yaxşılaşma əldə olunduğu- 0,45±0,024q/l aydın olmuşdur. II qrup xəstələrdə əvvəl qeyd edilən göstəricilər demək olar ki, I qrupda qeyd edilən göstəricilərlə eynilik təşkil edir. Anoloji olaraq 10 gün sonrakı və bir ay sonrakı göstəricilər hər iki qrup xəstələrdə yaxın göstəricilərə malik olmuşdur. Qruplar arasında müqayisədə göstəricilərin fərqi statistik dürüstdür. Beləliklə həm I qrup, həm də II qrup xəstələrdə ağız boşluğunun professional gigiyena tədbirlərinin tətbiqindən əvvəl İgA göstəriciləri aşağı olmuş, sonra çoxalmışdır. Bu, immunitetin yüksəlməsi, yəni müsbət nəticə əldə edilmişdir deməyə əsas verir. (Cədvəl 3.12).Qarışıq ağız suyunda ağız boşluğunun professional gigiyena tədbirlərinin tətbiqi nəticəsində sİgA göstəricilərində dəyişikliklərə gəldikdə I qrupda gingivitli 11 xəstədə əvvəlki göstərici 0,26±0,004q/l olmuşdur. Diş daşları, diş çöküntüləri skeylerlə, tozpüskürən cihazla yuyulub təmizlənmişdir, profilaktik tövsiyələr verilmişdir, ağız boşluğu antiseptik məhlulla yaxalanmışdır. Kompleks müalicə tədbirlərindən 10 gün sonra göstərici xeyli yüksəlmişdir- 0,45±0,033q/l. Əvvəlki və 10 gün sonrakı göstəricilər statistik dürüstdür. Bir ay sonrakı göstəriciyə nəzər saldıqda bir az da normallaşmağa doğru dəyişdiyi- 0,49±0,031q/l (p_1<0,001) məlum olmuşdur (Cədvəl 4).



Şək. 2. sİgA-nın dəyişmə dinamikası (Gingivit)

Yüngül dərəcəli parodontitli 14 xəstə müayinə olunmuşdur. Kompleks müalicəyə qədər göstərici aşağı səviyyədə olmuşdur- 0,34±0,009q/l. Müalicə-profilaktik tədbirlər tətbiq edildikdən sonra göstərici xeyli yüksələrək, yaxşılaşmışdır, müvafiq olaraq 0,52±0,020q/l olmuşdur. Bir ay ərzində bu qrup xəstələrdə sİgA göstəriciləri yüksələn xətt üzrə davam etmişdir- 0,56±0,022q/l (p_1<0,001). Orta dərəcəli parodontitli xəstələrdə (8 nəfər) müalicəyə qədər aşağı səviyyədə olmuş 0,44±0,022 q/l, professional gigiyena tədbirləri tətbiq edildikdən

sonra sİgA göstəriciləri xeyli normallaşmışdır, müvafiq olaraq 0,57±0,040 q/l (p_1<0,05) qeydə alınmışdır. Bir ay sonra sİgA göstəriciləri bir qədər də artmışdır- 0,61±0,038q/l (p_1<0,05). Nəzarət qrupu göstəricisinə nəzərən fərq statistik dürüstdür (p<0,05). II qrupda 21 nəfər gingivitli xəstə müayinə olunmuş, kompleks müalicəyə qədər sİgA göstəriciləri aşağı səviyyədə- 0,27±0,004 q/l olmuşdur, ağız boşluğunun professional gigiyena tədbirləri tətbiq edildikdən sonra yaxşılaşma müşhidə edilmiş, göstəricilər xeyli yüksəlmişdir-0,44±0,021q/l. Bir aydan sonra aparılan müayinələr nəticəsində aydın olmuşdur ki, göstəricilər stabil qalmışdır, bir az da yüksəlmə qeydə alınmışdır- 0,49±0,019q/l (p_1<0,001). 16 nəfər yüngül dərəcəli parodontit xəstələrində (nəzarət qrupu 10 nəfər, göstərici 0,61±0,039q/l) kompleks müalicə-profilaktik tədbirlərdən əvvəlki göstərici xeyli aşağı səviyyədə olmuş, 0,34±0,006q/l təşkil etmişdir, müalicə-profilaktik tədbirlər tətbiq edildikdən 10 gün sonra göstəricilər əhəmiyyətli dərəcədə yüksəlmişdir - 0,51±0,016 q/l (p_1<0,001).Bir aydan sonra aparılan təkrar müayinələr zamanı göstəricinin bir azda dəyişərək 0,55±0,019 q/l təşkil etdiyi məlum olmuşdur (p_1< 0,001). Orta dərəcəli parodontitli xəstələr 16 nəfər təşkil etmişdir. Professional gigiyena tədbirlərini tətbiq edənə qədər aşağı göstəricidə olmuş- 0,43±0,013q/l, müalicə-profilaktik tədbirlərdən sonra göstəricilər yüksəlmişdir- 0,53±0,019q/l, (p_1<0,001). Bir ay ərzində göstəricilərdə bir az da yüksəlmə olaraq normallaşmağa doğru daha da yaxınlaşmışdır- 0,56±0,023q/l. (p_1<0,01) (Şəkil 2). Buradan belə bir qənaətə gəlmək olar ki, ağız boşluğunda professional gigiyena tədbirləri sİgA göstəricilərinin xeyli normallaşmasına səbəb olur və parodontun iltihabi xəstəliklərinin kompleks müalicəsinin effektivliyini artırır. Beləliklə, parodontun iltihabi xəstəliklərinin müxtəlif mərhələlərində ağız boşluğunun professional gigiyenasının aparılması zəruridir.

Yekun. Paradontun iltihabi xəstəliklərinin kompleks müalicəsində professional gigiyenanın tətbiq olunması ağız boşluğunun gigiyenik vəziyyətini yaxşılaşdırır. Beləliklə, erkən yaşlarda PİX-nin xroniki hala keçməsinin qarşısını almaq məqsədilə klinik, göstəricilərin dinamikası, fərdi psixoloji motivasiya və PG tədbirlərinin rolunu qiymətləndirmək vacibdir.

Cədvəl4
Müxtəlif dərəcəli PİX zamanı sİgA göstəricilərinin (q/l) dəyişmə dinamikası

Yaş qrupu	Parodont xəstəlikləri	Xəstələrin sayı	Nəzarət qrupu (n=20)	Müalicədən əvvəl	Müalicədən 10 gün sonra	p_1<	Müalicədən 30 gün sonra	p_1<
12-13	Gingivit	11	0,59±0,028	0,26±0,004*	0,45±0,033*	0,001	0,49±0,031*	0,001
	Yüngül dərəcəli parodontit	14		0,34±0,009*	0,52±0,020	0,001	0,56±0,022	0,001
	P^1<			0,001	-		-	
	Orta dərəcəli parodontit	8		0,44±0,022*	0,57±0,040	0,05	0,61±0,038	0,01
	P^1<			0,001	0,05		0,05	
	P^2<			0,01	-		-	
14-15	Gingivit	21	0,61±0,039	0,27±0,004*	0,44±0,021*	0,001	0,49±0,019*	0,001
	Yüngül dərəcəli parodontit	16		0,34±0,006*	0,51±0,016*	0,001	0,55±0,019	0,001
	P^1<			0,001	0,01		0,05	
	Orta dərəcəli parodontit	16		0,43±0,013*	0,53±0,019	0,001	0,56±0,023	0,01
	P^1<			0,001	0,01		0,05	
	P^2<			0,001	-		-	

ƏDƏBİYYAT

1.Ревазова З.Э., Вагнер В.Д. Использование врачами-стоматологами различных методов лечения заболеваний пародонта // Институт Стоматологии, 2013, №61, с.14-19

2. Остафийчук М.А. Методика проведения профессиональной гигиены полости рта при заболеваниях тканей пародонта у пациентов разных возрастных групп // Молодой ученый, 2014, №3, с. 222-226

3.Госьков И.А., Кисельникова Л.П., Данилова И.Г. и др. Оценка клинической эффективности иммуномодулятора в комплексном лечении воспалительно-деструктивных заболеваний пародонта // Институт стоматологии, 2011, №53, с.52-53

4.Vandilson P.R., Silvana A.L., Lopes F.l. et al Periodontal status and serum biomarkers levels in haemodialysis patients // Journal of Clinical Periodontology, 2014, v.12, p. 862–868)

5.Carallo C., De Franceschi M. S., Tripolino C.et al Common carotid and brachial artery hemodynamic alterations in periodontal disease // J Clin Periodontol., 2013, vol. 40, p. 431-6.

6.Bland P.S., Goodson J.M., Gunsolley J.C. et al. Association of antimicrobial and clinical efficacy: periodontitis therapy with minocycline microspheres. // J. Int. Acad. Periodontal., 2010, v.l2(l), p.l 1-19

7.Boisnic S., Ben Slama L., Branchet-Gumila M.C. et al. Anti-inflammatory effect of enoxolone in an ex-vivo human gingival mucosa model: // Rev. Stomatol. Chir. Maxillofac., 2010, v.111, p.69-73

8.Botelho M.A., Martins J.G., Ruela R.S. et al. Nanotechnology in ligature-induced periodontitis: protective effect of a doxycycline gel with nanoparticules. // J. Appl. Oral Sei. 2010, v.18, p.335-342

9.Carallo C., De Franceschi M.S., Tripolino C. et al Common carotid and brachial artery hemodynamic alterations in periodontal disease // J Clin Periodontol., 2013, vol.40, p.431-6

10. Gunsolley J.C. Clinical efficacy of antimicrobial mouthrinses // J. Dent., 2010, v.38, p.I6-10

11.Gunsolley J.C. Clinical efficacy of antimicrobial mouthrinses. // J. Dent., 2010, v.38, p.I6-10

Резюме

Клинико-иммунологическое оценивание профессиональной гигиены на комплексное лечение во время различных стадиях восполительных заболеваний пародонта.

Е.А.Рустамов

Цель исследования состоит в клинико-иммунологической оценке и разработке индивидуальных лечебно-профилактических мер для профессиональной гигиены различных стадий воспалительных заболеваний пародонта. Для клинических стоматологических исследований практически были привлечены 106 подростков в возрасте 12-15 лет. Из них 86 имели воспалительные заболевания пародонта и 20 были с интактным пародонтом. Клинические исследования были проведены по общепринятым правилам. Для выявления изменений в пародонте были использованы индексы ГИ, ПИ, ПМА и Лизосим, İgG, İgA, sİgA.Таким образом, внедрение профессиональной гигиены при воспалительных болезнях пародонта дает хороший эффект. При использовании профессиональной гигиены на раннем возрасте можно предотвратить перехода пародонта на хроническую фазу.

Summary

Clinikal immunology evaluation of professional hygiene in the complex treatment of different phases of inflammatory diseases of parodont.

Rustamov E.A.

The aim of the research is clinical and immunological evaluation of the professional oral hygiene in the different stages of the parodontical inflammatory deceases. Practically healthy 106 teenagers at the age 12-15 are observed during the clinical dental researches. 86 of them were examined by the parodontical inflammatory deceases and 20 of them were examined by paradontical intact. The clinical analyses are done as the adopted rule.Gİ, Pİ, PMA indexes and lizosim, IgG, IgA, sIgA dynamics have been identified to study the changes occurrinq in parodont. Thus, the implementation of occupational health in inflammatory periodontal diseases gives a good effect. During use occupational health at an early age can prevent periodontal transition to the chronic phase.

Daxil olub: 10.11.2014

NƏHƏNGHÜCEYRƏLİ ŞİŞLƏRİNİN KOMPLEKS DİAQNOSTİKASI

M.R.Yusifov
Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu (ETTOİ), Bakı

Açar sözlər: uzun borulu sümüklər, nəhənghüceyrəli şişlərin diaqnostikası.
Key words: long bones, diagnostics of the giant cell tumors.
Ключевые слова: длинные трубчатые кости, диагностика гигантоклеточных опухолей.

Nəhənghüceyrəli şiş (NHŞ) çox rəngarəng klinik əlamətlərə malik, residivə meyilli və müalicəsində onkoloq və ortopedlər üçün bir sıra çətinliklər törədən xəstəliklərdən biridir. NHŞ ilk dəfə 1818-ci ildə Coopers və Travers tərəfindən pis differensasiyalı stromal və çoxnüvəli nəhəng hüceyrələrə malik şiş kimi təsvir etmişlər [sit. 2, 12, 15, 18]. Sümük şişləri arasında NHŞ-rə 12-25% hallarda, onların da 88,6%-i uzun borulu sümüklərdə lokalizasiya olur. Kiçik, o cümlədən kiçik borulu sümüklərdə proses nadir görüntüdür və ədəbiyyata görə 1,3% – 2% -dir [3, 10]. Ümumdünya Səhiyyə Təşkilatı NHŞ-i "aqressiv və potensial bədxassəli törəmə" kimi müəyyənləşdirərək, tipik NHŞ və maliqnizasiylı NHŞ olaraq ayırır [5,14]. NHŞ-in erkən diaqnostikası, gedişatındakı xüsusiyyətlər, həkimlərdə bu patologiya haqqında kifayət qədər məlumatların olmaması gecikmiş diaqnostika və ağırlaşmaların əmələ gəlməsinə səbəb olur. Ədəbiyyat icmalı və şəxsi müşahidələrimiz onu göstərir ki, hazırda NHŞ-in diaqnostika və differensial diaqnostikasındakı bəzi çətinliklər hələ də mövcuddur.

Hazırkı işin **məqsədi** NHŞ-in kompleks diaqnostikasının yaxşılaşdırılmasına yönəlmişdir.

Tədqiqatın material və metodları. İşin əsas materialını ETTOİ-nin sümük patologiyası şöbəsində 2000-2014-cü illərdə müalicədə olmuş NHŞ ilə 111 xəstədə şişin strukturu və rast gəlmə tezliyi, patologiyanın xüsusiyyətləri və diaqnostika üsulları öyrənilmişdir. Ətraflı klinik-ortopedik müayinələrlə yanaşı bütün xəstələrə zədələnmiş nahiyyənin düz və yan proeksiyalı rentgenoqrafiyaları icra olunmuş və ümumilikdə 780 rentgenoqramma təhlil edilimiş, şişin ətraf toxumalara münasibətini, onun daxili strukturunu, yumşaq toxuma komponentinin detallı təhlili və differensial diaqnostikası məqsədilə 21 xəstəyə patoloji sahənin kompüter tomoqrafiyası (KT) və 5 xəstəyə maqnit-rezonans tomoqrafiyaları (MRT) olunmuşdur.

Bizim klinikamızda rentgenoloji müayinələr Medien İnternational model-MC-D(M) (Çin, 2008) və E7240 FX-Ray Tube Unit General Elestronics (Yaponiya, 2005), KT müayinəsi Toshiba Scanner Asteion 4 Model TSX-021B/4,5, MRT görüntüləri Gyroscan INTERA PHILIPS 1,0 T və SIGNA General Electric MS 3,0 T cihazında icra edilmişdir. Şişin verifikasiya məqsədilə bütün xəstələrə biopsiya və əməliyyat materialları histomorfoloji müayinə edilmişdir. Trepanbiopsiya, açıq biopsiya və əməliyyat zamanı alınan materialların histoloji müayinəsi patomorfoloji laboratoriyalarda aparılmışdır.

Nəticələr. Xəstələrin 41(36,9%) nəfəri kişi, 70(63,1%) nəfəri qadın olmuş və kişi-qadın nisbəti 1:2 kimi təyin edilmişdir. Kişilərin orta yaş həddi 27, qadınların 25 təşkil etmişdir. Tədqiqat materialında NHŞ lokalizasiya üzrə göstəriciləri cədvəl 1-də öz əksini tapmışdır.

Cədvəl 1

Xəstələrdə şişin lokalizasiyasına görə bölünməsi (nəfər)

Lokalizasiya	Bud		Qamış		İncik		Bazu		Mil		Dirsək		daban	daraq	qalça	Cəmi
	P	D	P	D	P	D	P	D	P	D	P	D				
NHŞ	8	28	20	8	5	2	12	3	1	11	2	1	3	5	2	111

Qeyd: P –proksimal; D – distal

Cədvəldən göründüyü kimi NHŞ xəstələrin 48 (43,5%) nəfərdə diz oynağı nahiyyəsində lokalizasiyalıdır və bizim məlumatlar ədəbiyyatla uzlaşır. Onlardan 20 (18,01%) qamışın proksimal hissəsində və 28 (25,22%) nəfərdə budun distal hissəsində NHŞ aşkar edilmişdir. Bazunun proksimal lokalizasiyalı şişləri 12(10,9%), milin distal lokalizasiyalı şişləri isə 11(9,9%) nəfər təşkil etmişdir. Göründüyü kimi dirsək sümüyünün distal və mil sümüyünün proksimal hissəsində olan NHŞ-in tezliyi daha aşağı olmuşdur. Belə ki, 1(0,9%) xəstədə dirsəyin distal hissəsində, daha 1(0,9%) nəfərdə mil sümüyünün proksimal hissəsində NHŞ qeydə alınmışdır.


Kliniki müayinə zamanı 111 NHŞ xəstənin

45 nəfərində (40,5%) ağrı sindromu olmuşdur. Ağrılar lokal xarakter daşımış, göynədici-inildəyici-sızıldayıcı xarakterli olub, 36 xəstədə (32,4%) gecələr intensivliyin artması təyin edilmişdir. Heç bir halda ağrıların digər nahiyələrə irradiasiyası müşahidə olunmayıb, ətrafın heç bir vəziyyətində rahatlıq verməmiş, oynaqda hərəkət və yeriyərkən ağrının bir qədər artması müşahidə olunmuşdur. Ağrıların şişin ölçüsü ilə əlaqəsi müəyyən olunmamışdır. Uzun borulu sümük lokalizasiyalı NHŞ olan 27 (24,3%) nəfər xəstəmizdə prosesə yaxın və ya cəlb olunmuş oynaqlarda hərəkətlərin həcminin kəskin dərəcədə pozulması qeyd edilmişdir. Klinik əlamətlər olmadıqda şişi bəzən təsadüfən rentgenoloji təyin edilir. 33 (29,7%) nəfərdə şiş patoloji sınıqla fəsadlaşmışdır. Belə sınıqlar 16 (14,4%) nəfərdə NHŞ-in ilkin əlaməti və 17 (15,3%) nəfərdə sonradan baş vermişdir. Sınıqlar adi məişət hərəkətlərindən yaranmış və 9 (81%) nəfərdə əhəmiyyətli yerdəyişməli olmuşdur (Şək. 1). Böyük ölçülü şiş olan xəstələrdə anemiya və EÇS-in bir qədər artması müəyyən olunmuşdur. Digər ümumi göstəricilər norma daxilində təyin edilmişdir. Göstərilən bu və digər əlamətlər xarakter olmayıb və diaqnostik əhəmiyyət daşımamışlar.

Sümüklərin NHŞ-nin iki rentgenoloji – litik və hücrəli-trabekulyar forması ayırd edilir. Bizim tədqiqat işində litik forma 63 %, hücrəli-trabekulyar forma 48% təşkil etmişdir. Uzun borulu sümüklərin NHŞ-in tipik variantında rentgenoloji görüntülərdə "sümüyün köpməsi" (litik sahə) simptomu (47-60%) xarakter əlamət kimi müəyyən edilir (Şək. 2).



Şək 1. Rentgenoqrammalarda budun distal (A) və bazunun proksimal (B) hissəsinin patoloji sınıqla nəticələnmiş NHŞ



Şək. 2. Rentgenoqrammalarda qamış sümüyünün distal hissəsinin sentrik hücrəli-trabekulyar (A) və bud sümüyünün distal hissəsinin ekssentrik litik formalı (B) NHŞ

Belə ki, şiş sahəsi girdə formalı və asimmetrik lokalizasiyalı yerləşməklə, sklerotik haşiyəli dəqiq sərhədlərə malik olur. Rentgenoqrammalarda NHŞ-in ekssentrik yerləşməsi 45 (40,5%), sentrik lokalizasiya 66 (59,5%) hallarda təyin edilmişdir. Şiş toxuması böyüdükcə sümüyün mərkəzinə doğru inkişaf etməsi baş verir. Kortikal qat dağıldıqdan sonra şiş yumşaq toxumalara sirayət edir. Bununla belə radioloji görüntülərin əməliyyat nəticələri ilə


müqayisəsində biz əksərən şişin sümüküstlüyü ilə izolə edildiyini müşahidə etmişik. Şişin yumşaq toxumaya həqiqi dağılması patoloji sınıq və cərrahi əməliyyat zamanı yaranır. NHŞ-də periostun aqressiv reaksiyası müşahidə edilmir. Patoloji sahəyə perifokal hissədə çox zaman osteoporoz izlənir. İyşəkilli periostit və ya zəif ifadəli Kodmen qabarcığı, litik destruksiya NHŞ-in bədxassəli forması üçün xarakterdir.

Boşluğun semetlə plastikası əməliyyatı olunmuş pasientlərin (8 nəfər) rentgenoloji təhlillərində sement ətrafında (sementoma) incə rezorbtiv sahə və yaxşı görünən sklerotik haşiyə müşahidə edilmişdir. Sementoma ilə sklerotik zona arasında yaranan çox incə və əksərən 2-3mm enində lizis sahəsi sementin termal polimerizasiyası, metilmetakrilat monomerin sitotoksik effekti, sementə qarşı makrofaqal reaksiyanın nəticəsi kimi qranulomatoz reaksiya və sümük rezorbsiyası sayəsində yaranır. Müşahidələr göstərir ki, lizis zonasının qeyri bərabər və 5mm-dən enli olması residiv əlamətidir. Hidroksiapatit tədbiq olunmuş xəstələrdə (8 nəfər) material rentgenoloji olaraq dəqiq vizualizasiya olunur və yaxın dövrdəki rentgenoqrammalarda ciddi dəyişikliyə uğramadığı, uzaq dövrdə müayinələrdə isə tədricən assimilyasiya olunaraq, boşluğuna inkişaf edərək onu dolduran yeni sümük toxumasına qarışdığı müşahidə edilmişdir. Hidroksiapatit tədbiqindən sonra ilkin rentgenoloji təhlillər göstərmişdir ki, materialın inteqrasiyası prosesləri bir neçə amildən - postrezeksion defektin ölçüləri, resipiyent sahənin divarlarının vəziyyəti, Hidroksiapatit qranullarının ölçüləri və sıxlığından asılıdır. Kiçik həcmə malik patoloji boşluqların bərpası tam və qısamüddətli olur. Orta həcmli boşluqlarda materialın assimilyasiyası nisbətən ləng və natamam təyin edilmişdir. Böyük defektlərdə isə Hidroksiapatitin inteqrasiyası müddətli və natamam müşahidə edilir ki, bunu nəzərə alaraq bir neçə xəstəmizdə hidroksiapatit digər materiallarla kombinasiyada və ya KDO tədbiqi ilə əməliyyat olunmuşlar. Autosümüklə əvəzlənmiş sümük boşluqlarında 5-6 ay sonra transplantantın boşluq divarları ilə təmas edən periferik hissələrinin dəqiq konturlarının itməsi, osteoinduktiv osteogenez prosesləri müşahidə edilmişdir.


KT şiş nahiyyəsində sümük strukturunu dəqiqliklə müayinə etməyə imkan verir ki, bu da rezeksiya aparılacaq sərhədləri təyin etmək üçün vacibdir Epimetafizar hissənin saxlanması planlaşdırılan əməliyyatlarda KT metodu ilə vacib informasiyanı əldə edtmək olur. KT görüntülərdə bəzi hissələrdə kortikal qatın dağılaraq nazikləşməsi ("qələm ucu") müşahidə edilir ki, bu NHŞ-ə yalnış olaraq ("periostal günlük" simptomu imitasiyası) osteogen sarkomadakı görkəm verir (şəkil 3).

Hidroksiapatitlə plastika əməliyyatından sonra uzaq dövrdə aparılmış KT müayinələrdə plastik maddə ilə sümük toxuması arasındakı sərhəddin sklerotik sahə ilə haşiyələnən dəqiq sərhədlərini və boşluq daxilində bəzi yerlərdə maddənin ətrafında osteogenez proseslərini görmək olur . Yumşaq toxumaların əhatəsi qalın olduğu nahiyyələrdə (çanaq, fəqərələr), xüsusilə çanaq nahiyyəsində şişin lokalizasiyalarında bağırsaq qazlarının görüntüyə təsir etməsi nəticəsində şiş toxumasının rentgenoloji görüntüləri tam aydın olmur. Belə hallarda KT 3D görüntülərdən istifadə edilmişdir ki, metod daha informativ olub, patoloji proses hər tərəfdən tədqiq edilmişdir (şək. 4).

Residivlərin KT görüntülərində subperiostal yumşaq toxuma kütləsi hesabına periostun köpməsi və ossifikasiyası ilə bərabər, sement və ya hidrooksiapatitlə plastika edilmiş pasientlərdə maddə ilə sümük toxuması sərhəddində lizis sahələri aşkar olunmuşdur. NHŞ-in KT sıxlığı 20-70 v.HU olmaqla, kontrast maddə yeridildikdən sonra artaraq 40-60 v.HU çatır.




Şək. 3. Bud sümüyünün distal 1/3-nin litik forma NHŞ-nin sagital və aksial KT görüntüləri




A B

Şəki4. Budun distal (A) və qalça sümüyünün (B) böyük ölçülü NHŞ-i 3D rejimdə KT görüntülər



Şək. 5. Kontrastlı MRT: bud sümüyünün distal hissəsinin kənari rezeksiyası və sementlə plastikası əməliyyatından sonrakı residiv NHŞ: kortikal destruksiya, sümükdaxili və xaricində olan şiş toxumasında maye tərkibli sahələrlə popliteal sahəni tutan böyük ölçülü residiv. Sinir-damar dəsti prosesə təmas etsədə, ona cəlb olunmayıb.



A B

Şək. 6. NHŞ-in mikrofotoları: A - Histoloji müayinə №9260-65/2011, rəngləmə: hematoksilin-eozin, böyütmə 200. NHŞ-in klassik variantı. Zəif inkişaflı fibroz toxuma və çox sayda nəhəng hüceyrələr. Sümük toxuması izlənmir; B - Histoloji müayinə №1552/2011, rəngləmə: hematoksilin-eozin, böyütmə 200. Geniş sahələrdə köpüklü makrofaqların proliferasiyası.

MRT-də NHŞ-lər T1 və T2 rejimlərdə əksərən orta siqnal intensivlidir ki, bu əlamət differensial diaqnostikada çox əhəmiyyətlidir. Yumşaq toxuma komponenti ilə residiv NHŞ-in daha informativ olan MRT müayinələrində bütün seanslarda hipodens sahələr və kortikal qatın destruksiyası bütün hallarda olmuşdur. Boşluq daxilində plastik material arasında maye tərkibli sahələrlə yanaşı, boşluqlar və NHŞ-in quruluşu üçün xarakter maye möhtəviyyatlı kistoz ocaqlar görüntülər qeyd edilir. Diaqnostika və cərrahi taktika seçimi məsələlərində MRT şişin yumşaq toxuma komponentinin

yaxınlıqdakı sinir-damar dəstinin prosesə sintopiyasını dəqiqliklə müəyyən etməyə imkan verir (şək.5). NHŞ prosesləri ilə xəstələrə ümumilikdə 179 histoloji müayinə aparılmışdır. Makroskopik olaraq NHŞ kəsikdə sarımtıl (nekrotik sahələr), qırmızı və ya qonur rəngli (qan durğunluğu və hemosiderin sahələri) sahələrin əvəzlənməsi ilə ağımtıl və ya çəhrayı rəngli olur. Şiş toxumasının konsistensiyası sərt, yumşaq və bəzən də jeleşəkilli hissələrlə əvəzlənir. Bəzən seroz və ya hemorragik möhtəviyyatlı şişdaxili sistik sahələr də aşkar edilir. Müayinə materialını 68 trepan biopsiya, 19 açıq biopsiya və 111 halda əməliyyat preparatı təşkil etmişdir. 7 (6,3%) nəfərdə residivlə əlaqədar biopsiya və təkrar histoloji müayinə aparılmışdır. NHŞ-in tipik variantında mikroskopik olaraq 2 hüceyrə tipindən - uzunsovşəkilli oval və ya girdə nüvəli hüceyrələr arasında 50-100 nüvəyə malik nəhəng hüceyrələrdən ibarət quruluşa xarakterdir. Şiş toxumasında fibroblastlar, kollagen elementlər, ksantom hüceyrələr, hemosiderozlu qansızma və osteogenez sahələri, makrofaqal reaksiyalar da rast gəlinir (şəkil 6).

Preparatlarda makrofaqların proliferasiyasına rast gəlinmişdir. Bununla belə şiş toxumasın inkişaf etmiş vaskulyarizasiyaya malikdir. Şiş toxumasını təşkil edən hüceyrələr arasında sıx birləşmənin olmaması, onların geniş şəbəkəyə malik qan damarlarına asanlıqla keçərək residiv və ya metastaz verməsinə şərait yaradır.

Müzakirə. NHŞ-in erkən diaqnostikası, xəstəliyin gedişatı çoxsaylı çətinliklər törədir və həkimlərdə bu patologiyadan kifayət qədər məlumatın olmaması gecikmiş diaqnostika və ağırlaşmaların əmələ gəlməsinə səbəb olur. NHŞ-in diaqnostikasında ən azı üç ixtisasın həkimi – cərrah, rentgenoloq və histoloq iştirak edir. Szendori M. (2004) məlumatına əsasən xəstələrin 1/3-də NHŞ-in klinik əlamətləri sümüyün diametrinin 50%-i zədələndikdə biruzə verir ki, bu zaman prosesin inkişafı 2-6 ay arasında olur [14]. NHŞ orqanizmdə bəzən illərlə ləng inkişafı etməsi ilə məlumdur [4]. Xəstələrin 10-20%-i anamnezdə travmanı qeyd edir [1, 20]. Bəzi hallarda NHŞ-in ilkin klinik əlaməti kimi zədə nahiyyəsində səbəbsiz yaranan şişkinlik və ya patoloji sınıq olur. Müxtəlif mənbələrə gorə NHŞ-də patoloji sınıqlar 2%-22,4% hallarda [6, 11, 16] və sümüyün en kəsiyinin 50%-dən çox zədələnməsi zamanı baş verir [13]. Radioloji metodlar NHŞ-in diaqnostikasında əsas rol oynayır və geniş yayılmışdır. Bununla belə, rentgenoloji müayinə ilə əlaqədar diaqnostik səhvlər 18,8% çatır [17, 20]. KT və MRT müayinələri patoloji sahənin daha incə detallarla müayinə etməklə yanaşı xüsusilə yumşat toxuma komponentinin və sinir-damar dəstinin şiş prosesinə sintopiyasını dəqiqləşdirməyə imkan vermişdir. Prosesin verifikasiyasında pato-histo-morfoloji verifikasiya əlbətdə ki, digər müayinələrdən öndə durmaqdadır. Hazırda NHŞ-in diaqnostikada P53, P63,P73, KTN1, NEB, ROCK1 və ZAK kimi onkomarkerlər tədbiq edilsədə, praktikada geniş yayılmamışdır [7, 9]. Tc^{99}-la radioizotop müayinəsində preparatın zədələnmə sahəsində hiperfiksasiyası ilə bərabər, şişin mərkəzi hissələrinə nisbətən periferiyasında daha çox toplanması diqqəti çəkir. Diferensial diaqnostikada Tl^{199}- xlorid də istifadə edilir [8]. Hamiləliyin NHŞ proseslərini sürətləndirdiyi, şişin həmişə litik formada olduğu bildirilir və belə halda müalicə ilk növbədə hamiləliyin pozulması ilə başlanır [2, 20]. Uşaqlarda metaepifizar lokalizasiyalı NHŞ sümüyün inkişafını ləngidə bilər [17].

Yekun. NHŞ-in histogenezi, klinik-morfoloji xüsusiyyətləri və bundan irəli gələn diaqnostik-müalicə məsələlərində bu günə qədər də yekdil fikir yoxdur. NHŞ-in radioloji diaqnostikası mühüm əhəmiyyət daşıyır, xəstəliyin proqnozu və cərrahi əməliyyat seçimində həlledici rol oynayır. NHŞ-in bəzi xarakter radioloji əlamətləri kompleks şəkildə klinik və patohistoloji təhlillərlə əlaqəli şəkildə dəyərləndirilməlidir. Şişin lokalizasiyası, əməliyyatdan qabaqkı və sonrakı, habelə residivlərdə hər hansı ciddi patohistoloji xüsusiyyərlər aşkar edilməmişdir. Histoloji mənzərənin klinik-rentgenoloji, KT, MRT və digər müayinələrin parametrlərdən asılılığı müəyyən edilməyib. Residivlərin əsas səbəbi tam diaqnostika, həmçinin histoloji verifikasiyanın düzgün olmamasıdır.

ƏDƏBİYYAT

1. Əmiraslanov Ə.T., Qazıyev A.C. Sümük şişləri. Bakı, 1997, s.242-271.
2. Блудов А.Б., Неред А.С., Замогильная Я.А. Кочергина Н.В. Гигантоклеточная опухоль кости // Саркомы костей, мягких тканей и опухоли кожи, 2014, №1, с. 34.
3. Демичев Н.П., Ситкалиева Ф.С., Халагуммаев К.М. Хирургия и аутопластика сегментарного дефекта плюсневой кости по поводу гигантоклеточной опухоли // Ортоп. Трав. и протез., 2011, №1, с. 85-87
4. Егоренков В.В. Пограничные и доброкачественные опухоли костей // Практическая онкология, 2010, т.11, №1, с. 37-44.

5. Gao Z., Yin J., Xie X. et al Local control of giant cell tumor of the long bone after aggressive curettage with and without bone cement // Musculoskeletal Disorders, 2014, v.15, p. 330-345
6. Вердиев В.Г. Садыхов А.Г., Расулов М.М., Юсифов М.Р. Сохранные операции при первичных опухолях и опухолеподобных заболеваниях костей с применением чрезкостного остеосинтеза / IV съезд онкологов и радиологов СНГ, матер. Съезда. Баку, 2006, с. 186
7. Miller I., Blank A., Yin S. et al A case of recurrent giant cell tumor of bone with malignant transformation and benign pulmonary metastases // Diagnostic pathology, 2010, v.5, p.62-69.
8. Meyers S. MRİ of bone and soft tissue tumors and tumor-like lesions: differential diagnosis and atlas / Thieme med. Publishers, 2008, p.814.
9. Muheremu A., Niu X. Pulmonary metastasis of giant cell tumor of bones // World j. of surgical oncology, 2014, v.12, p.261-271.
10. Oommen A.T., Madhuri V., Walter N.M. Benign tumor and tumor-like lesions of the calcaneum: a study of 12 cases // İndian j. of Cancer, 2009, v. 46, is. 3, p. 234-236.
11.Verdiyev V.Q., Yusifov M.R. Nəhənghüceyrəli şişin müayinə və müalicəsi (ədəbiyyat icmalı) // Azərbaycan ortopediya və Travmatologiya jurnalı, 2011, №2, s. 73-79
12. Пашкевич Л.А., Воронович И.Р., Голутвина Н.О. Диагностика и тактика хирургического лечения остеобластокластом скелета / БелНИИТО, метод. реком., Минск, 2000, 20 с.
13. Пташников Д., Усиков В., Засульский Ф. Патологические переломы костей // Практическая онкология, 2006, №2, с. 117-125.
14. Szendori M. Giant cell tumor of bone. Review article // J. bone and joint surg., 2004, v.86B, p. 1800-1808.
15. Taylor K., Yingsakmongkol W., Conard K., Stanton R. Multicentric giant cell tumor of bone. A case report and review of the literature // Clin. Orthop. and Relat. Reser., 2003, No. 410, p. 267-273.
16. Trucotte R., Wunder J., Isler M. Giant cell tumour of bone: a Canadian Sarcoma Group study // Clin. Orthop. Relat. Res., 2002, v.397, p. 248-258.
17.Садыхов А.Г. Доброкачественные опухоли костей. Баку: Аз.гос.изд., 1970, 219 с.
18. Войнов С.А. Криохирургическое лечение гигантоклеточных опухолей костей: Автореф. Дисс. … к.м.н. Астрахань,2005, 21 с.
19. Зацепин С.Т. Костная патология взрослых. Руководство для врачей. М., Мед., 2001, 638 с.
20. Зацепин С.Т. Сохранные операции при опухолях костей. М., «Мед.», 1984, 287 с.

Резюме

Комплексная диагностика гигантоклеточных опухолей

М.Р.Юсифов

Целью данного исследования является изучение критериев диагностики гигантоклеточных опухолей костей. Обычно они развиваются в длинных костях, но могут локализоваться и в других костях. Типичный внешний вид литического поражения с четко определенным краем, который эксцентричен в месте, проходит вблизи поверхности суставного. Тем не менее, ГКО могут иметь агрессивные черты, в том числе могут обнаруживаться в коре головного мозга или могут поражать компоненты мягких тканей. Общими симптомами являются увеличение болей в месте опухоли. Для выявления рецидивов наиболее специфическим методом считается радиологическое исследование. Не всегда возможно обнаружение полного склерозирования вокруг цемента. МРТ считается эффективным в оценивании случаев рецидива. Частое наблюдение с простой рентгенографией следует продолжать в течение одного года после операции, не зависимо от клинических признаков рецидива. Когда внешний вид рентгенограм предполагает наличие рецидива, должно быть выполнено МРТ с последующим проведением биопсии.

Summary

Complex diagnosis of the giant cell tumor

M.R.Yusifov

The present research concerns the detection of criteria of diagnostics of giant-cell tumors (GCT) of bones. It usually develops in long bones but can occur in unusual locations. The typical appearance is a lytic lesion with a well-defined but nonsclerotic margin that is eccentric in location, extends near the articular surface, and occurs in patients with closed physes. However, GCT may have aggressive features, including cortical expansion or destruction with a soft-tissue component. The common presenting symptoms is increasing pain at the tumor site. GCT can mimic or be mimicked by other

benign or malignant lesions at both radiologic evaluation and histologic analysis. For recurrences the most specific radiological sign There was not always a complete sclerotic margin around the cement, but when it was present. MRI was helpful in assessing cases with evidence of recurrence. Frequent surveillance with plain radiography should continue for one year after operation irrespective of clinical signs of recurrence. When the appearance of the plain radiographs suggests recurrence, MRI should be performed and followed by image-guided needle biopsy.

Daxil olub: 08.10.2014

DÖLÜN BƏTNDAXİLİ ÖLÜMÜNƏ DAİR

G.B. Mirzəyeva, E.M. Əliyeva, Z.Ş. Təhməzoğlu
Azərbaycan Tibb Universiteti, I mamalıq və ginekologiya kafedrası, Bakı.

Açar sözlər: döl, ana, dölün bətndaxili ölümü
Ключевые слова: плод, матери, внутриутробной смерти плода
Key words: fetus, mother, fetal mortality

Hər 2000 nəfərdən bir dölün bətndaxili ölümü halı qeyd olunur. Hamiləliyin 14 həftəliyindən sonrakı ölüm dölün btndaxili ölümü hesab olunur. Uşaq həsrəti ilə gələcəkdə ana olmağa hazırlaşan qadın üçün onun hələ dünyaya gəlməmiş körpəsinin ölüm xəbərini eşitmək ən böyük psixoloji sarsıntıdır. Dünyaya gəlmədən ana bətnində uşaqlıq daxilində dölün ölümü dölün inkişafının müxtəlif mərhələlərində əmələ gələ bilər. Belə hadisə hər iki valideyinə və onların qohumlarına xəbərdarlıq olur və əhəmiyyət kəsb edir. Belə hallarda uşaq dünyaya gətirmək üçün hazırlaşan ana bütün günahları öz üzərinə götürür, daimi qəm-kədər içərisində olur və uzun müddət bu hadisəni unuda bilmir. Ona görə belə hadisə ilə rastlaşan hər iki valideyin özünə daimi olaraq sual verir: hadisə nə üçün baş verdi, bunun səbəbi nədir? Buna birmənalı cavab vermək çox çətindir [1,2,3,4]. Dölün bətndaxili ölüm səbəbləri çoxdur və bəzən onlara kompleks şəkildə rast gəlinir. Bəzən göbək ciyəsinin boyuna bir neçə dəfə dolanması, bəzən anadangəlmə qüsurlar dölün ölümünə səbəb olur [5,6,7,8]. Ölümə səbəb olan hallar genetik, hormonal, anatomik, immunoloji, iltihabi xarakterli proseslər və psixoloji faktorlar hesab olunur. Almaniya, İtaliya və ABŞ-dan olan genetiklər dölün ölüm səbəbini öyrənmişlər. Onlar 8% hallarda dölün ölüm səbəbinin irsi keçən ürək xəstəliklərinin olmasını qeyd etmişlər. Müəlliflərin fikrinə görə uşaqların qəfləti ölümünə səbəb 10-15% hallarda QT intervalının uzanması ilə olan genetik pozğunluqlar və Bruqada sindromu ilə əlaqədardır. QT intervalının davam müddəti ürəyin mədəciklərinin repolyarizasiya vaxtına uyğun gəlir. Normal QT intervalı ürək ritmlərinin tezliyindən asılıdır. Diaqnostik məqsədlə QT-nin mütləq göstəricisindən istifadə olunur. Hansı ki, Bazett formulu ilə hesablanır. Bruqada sindromu ürəyin ritminin genetik determinə olunmuş pozğunluğudur. Hiss dəstəsinin sağ ayaqcığının tam və natamam blokadası ilə həyat üçün təhlükəli olan taxiaritmiya halı xəstə yuxuda olarkən və ya tam rahat halda baş verir. Qidoni bətndaxili dölün ölüm səbəblərini irsi genetik faktorların (DNK) öyrənilməsini təklif edir. Müəllifin fikrincə bətndaxili dölün ölümü ~3% hallarda ürək xəstəliklərinə səbəb olan genetik pozğunluqlar, 5% hallarda isə mutasiyalar hansı ki bu xəstəliklərin törənməsinə təsir edir, əsas faktorlardır. Risk faktorları: Yaş risk faktorları arasında önemli yer tutur. 1 milyon hamilələrin analizinə əsaslanaraq öyrənilmişdir ki, düşüklər 20-30 yaşlı qadınlarda 9-17%, 35 yaşlılarda 20%, 40 yaşlılarda 40% və 45 yaş və yuxarı 80% təşkil edir; anamnezində 2 dəfə hamilə olan qadınlar, yeni hamilə olanlara nisbətən yaşından asılı olaraq daha çox risk təşkil edirlər; anamnezində 1 dəfə düşük olanlarda risk, 18-20%, 2 dəfə düşük olanlarda 30% və 3 dəfə düşük olanlarda 43% təşkil edir. Halbuki, əvvəllər normal doğuş keçirmiş qadınlarda düşük riski- 5% təşkil edir; siqaret çəkmə - nikotin – gün ərzində 10 siqaretdən artıq çəkən qadınlarda düşük riski (I trimestrdə) çox yüksəkdir; mayalanma və implantasiya mərhələsində qəbul edilən qeyri steroid iltihab əleyhinə preparatlar ~ 26%

hallarda düşüklərə səbəb olur, halbuki bu qrupdan olan və preparat qəbul etməyələrdə risk 15% ətrafında rast gəlinir [9,10,11,12,13,]. Ölümə səbəb olan faktorları dəqiqləşdirmək üçün dölün fraqmentlərinin patohistoloji analizi və genetik testlərin aparılması vacibdir [14,15,16,17].

Ölüm səbəbləri içərisində anaya aid olan faktorlar - cift və dölyanı maye. Hamiləliyin ilkin dövründə dölün ölümünə səbəb xromosom xəstəlikləri və infeksion xəstəliklər, ikinci mərhələdə isə ən başlıca səbəb oksigen çatmamazlığıdır. Risk faktorları: Yaş risk faktorları arasında önemli yer tutur. 1 milyon hamilələrin analizinə əsaslanaraq öyrənilmişdir ki, düşüklər 20-30 yaşlı qadınlarda 9-17%, 35 yaşlılarda 20%, 40 yaşlılarda 40% və 45 yaş və yuxarı 80% təşkil edir; anamnezində 2 dəfə hamilə olan qadınlar, yeni hamilə olanlara nisbətən yaşından asılı olaraq daha çox risk təşkil edirlər; anamnezində 1 dəfə düşük olanlarda risk, 18-20%, 2 dəfə düşük olanlarda 30% və 3 dəfə düşük olanlarda 43% təşkil edir. Halbuki, əvvəllər normal doğuş keçirmiş qadınlarda düşük riski – 5% təşkil edir; siqaret çəkmə - nikotin, gün ərzində 10 siqaretdən artıq çəkən qadınlarda düşük riski (I trimestrdə) çox yüksəkdir; mayalanma və implantasiya mərhələsində qəbul edilən qeyri steroid iltihab əleyhinə preparatlar ~ 26% hallarda düşüklərə səbəb olur, halbuki bu qrupdan olan və preparat qəbul etməyələrdə risk 15% ətrafında rast gəlinir [18,19,20,21].

Anaya dair faktorlara sistem xəstəlikləri, ürək-damar, qan, böyrək, qan azlığı, idarə olunmayan və diaqnozlaşdırılmayan şəkərli diabet və s. aiddir. Ən təhlükəli faktor hamiləliyin müxtəlif vaxtlarında inkişaf edən hestoz (Eodema, Proteinuria, Hipertenziya- EPH) adlanır, hansı ki, qan təzyiqinin qalxması, proteinuriya və ödemlə müşaiyət olunur [22]. Həmçinin dölün ölümünə səbəb olan çox təhlükəli xroniki infeksion xəstəliklər: vərəm, sifilis, hepatit, eritremiya və kəskin infeksion qızılca, çiçək, qrip, hepatit və digər yüksək temperatura ilə müşaiyət olunan xəstəliklər aiddir[29, 30,31].

Hamiləlik zamanı istifadə olunan narkotik maddələr, spirtli içkilər və nikotinin dölə çox böyük mənfi təsirləri vardır və ölümə səbəb olan faktorlardandır [23].

Dölün ölümünə səbəb olan faktorlardan biri hamilə qadınların nə vaxtsa həyatında ağır metallar və ya toksiki maddələrlə zəhərlənmə halları ola bilər. Səbəblər içərisində ananın qanında antifosfolipid antitelin (anticisimciklər) olmasıdır. Bu antitellərin konsentrasiyasının yüksək olması qanın hemolizinə səbəb olur ümumi bədənin ağır ödeminə gətirib çıxarır və sonda dölün ölümü ilə nəticələnir [24].

Göbək ciyəsinin yerləşməsinin döldən öndə və uşaqlığın önünə təsbit olunmuşdursa, köndələn gəlişdə, dölyanı maye çox olduqda və çox döllülükdə dölün ölümünə səbəb ola bilər [25].

Dölün özünün quruluşunda rast gəlinən müxtəlif qüsurlar ürək, böyrək, sinir sistemi və s. dölün ölümünə səbəb ola bilər [26].

Dölün bətndaxili ölümü haqda dölün inkişafının zəifləməsi və hərəkətdən qalması halları şübhələnməyə əsas olur. Birinci 3 aylıqda öyümə, qusma hallarının dayanması, sonrakı 3 ayda çəkinin artmaması, qarın dairəsi ölçüsünün artmaması və dölün hərəkətinin olmaması hamilələr üçün bir siqnaldır. Bütün bu hallar qeyd olunarkən hamilələr mütləq həkimə, qadın məsləhətxanasına müraciət etməlidirlər.

Ən etibarlı diaqnostik test USM- ultrasəs müayinəsidir. Bu zaman dölün ürək döyüntüsünün olmaması və hərəkətsizliyi- dölün ölümü haqqında əsas əlamətləridir. Hamiləliyin ilk 3 ayında qanda insanın xorion gonodotropinin (İXQ) səviyyəsinin enməsi, uşaqlığın ölçüsünün artmaması, dölün hərəkətinin olmaması və s. aiddir [27].

Dölün bətndaxili ölüm xəbəri ana üçün çox ağırdır. Analar düşünür ki, bu belə deyil, həkimlər səhv edir onun uşağı yaşıyır.

Bəzən bətndaxili ölmüş döl spontan olaraq uşaqlığın yığılması və dölün xaric olması ilə nəticələnir. Bu hadisə əsasən 2 həftə ərzində baş verir. Səbəbsiz - özbaşına abort, hestasion müddətə qədər hamiləliyin pozulması, Ümumdünya Səhiyyə Təşkilatının qərarına əsasən 500 qr çəkidə və 22 həftəlik hamiləliyə uyğun dölün ya embriomun xaric olması - ekstraksiyası düşük adlanır.

Xəstəliklərin beynəlxalq klasifikasiyası: (Kod № XBT-10)

003 – Özbaşına abort – düşük.

002 – Başaçatmamış düşük.

020 – Abort təhlükəsi.

Özbaşına düşüklərin əsas səbəbi – 82-88% hallarda xromosom xəstəliklərdir. Bunlarda 52% - aytosom trisomiya, 19%- xromosomiya, 22%- poliplodiya, 7% digər formalar təşkil edir. 80% hallarda dölün əvvəl ölümü sonra isə onun ekspulsiyası baş verir. Xroniki produktiv endometrit 25% hallarda rast gəlinir. Bu zaman anamnezində süni abort keçirənlər 63,3% qeyd

olunur. Digər faktorlara anatomik, endokrin, infeksion, immunoloji və digərləri aiddir. Qızdırma (hipertermiya)- bədən temperaturunun $37,7^0$ C yuxarı olması düşüklərə səbəb olur. Travmalar, hətta prenatal diaqnostika üçün aparılan invaziv- xoriosentez, amniosentez, kordosintez 3-5% risk faktorlarıdır. Kofeinin qəbulu, gün ərzində 100 mq - dan çox, yəni 4-5 fincan qəhvə içənlərdə düşük riski artır. Teratogenlərin təsiri, infeksion- allergik toksiki maddələr, dərman preparatları, fol turşusunun qanda konsentrasiyası 2,19 nq/ml. (4,9mmol/l)-dən aşağı olması 6-12 həftəlik hamiləliyin spontan abortla nəticələnməsinə səbəb olur. Hormonal pozğunluqlar- trombofilik vəziyyətlər lüteinləşmə fazasının pozulmasına və düşüklərə səbəb olur. Müxtəlif ədəbiyyat məlumatlarına görə 12-25% (EKO) ekstrokarporal mayalanmış – "tüb bəbəklər" düşüklə nəticələnir. Əgər ölmüş döl spontan düşüklə nəticələnmirsə hamilə qadın mütləq stasionara yerləşdirilir və dinamiki müşahidə altında saxlanılır. Nəbzi, arterial təzyiqi, qanın göstəriciləri ələlxüsus fibrinogen yoxlanılır. Əgər ölü döl 2 həftədən artıq uşaqlıq daxilində qalarsa onda ananın həyatı üçün təhlükəli vəziyyət yarana bilər. Ona örə də, ölmüş dölün xaric olunması öldükdən 2 həftə gec olmayaraq yerinə yetirilməlidir. Əgər xəstənin hərarəti, leykositozu yüksəkdirsə, infeksion vəziyyət varsa təcili olaraq dölün xaric olunmasına göstəriş var [28].

Ana üçün ən təhlükəli ağırlaşmalardan biri bətndaxili ölmüş dölün təsirindən ananın qanında fibrinogenin, trombositlərin və laxtalanma faktorlarının azalması və trombohemorragik sindromun inkişaf etməsidir. Belə hallarda doğuşdan sonra anada idarə oluna bilməyən kəskin uşaqlıq qanaxmalarının olması ananın ölümünə səbəb ola bilər. Bəzən çoxlu qan köçürməyə ehtiyac ola bilər [29].

Hamiləliyin pozulması, süni doğuş törədilməsi üçün dölün ölümü barədə 100% əminlik lazımdır. Belə halda ana üçün ən yaxşı variant ölü dölün uşaqlıq yolundan xaric edilməsidir. Bəzən bu zaman Keysəriyyə əməliyyatından istifadə olunur. Bu isə ananın həyatı üçün təhlükəlidir. Bu zaman həmçinin laxtalanma sistemi mütləq yoxlanmalıdır. Bəzən çox qanitirmə ana üçün təhlükəli ola bilər. Əgər dölün ölümünə infeksiya səbəb olmuşsa onda Keysəriyyə əməliyyatından sonra yaranın infeksiyalaşma və ikincili sağalma təhlükəsi var, ona görə əvvəldən antibiotikoprafilaktika aparılmalıdır [30].

Ölü dölün doğuşu prosesi çox çətindir. Çünkü orqanlar bu prosesə hazırlaşmayıb. Uşaqlıq boynu çox kiçik və yığılmış vəziyyətdə olub doğuş üçün yetişməmişdir[31,32].

Doğuş prosesini induksiya etmək üçün vena daxilinə oksitossin vurulur və uşaqlıq boynunun yetişməsi üçün prostoqlandinlərdən gel şəklində uşaqlıq boynu kanalına yeridilir[33,34,35].

Əgər ölü döl uzun müddət uşaqlıq daxilində qalırsa o çürümə prosesinə, yəni masserasiyaya məruz qalır. Masserasiyanın müddəti dölyanı mayenin miqdarından və tərkibindən asılı olur. Çoxdöllü hamilələrdə bir dölün ölümü hadisəsi daha çox rast gəlinir. Bu hadisə daha çox birinci trimestrdə rast gəlir. II- ci trimestrdə və prenatal dövrdə həmçinin dölün birinin ölməsi rast gəlinir. Dölün birinin ölümü digər yaşayan döllərin sağlamlığına çox ciddi təsir edir. Bəzən ürək-damar, nevroloji zədələnmə və DVS-trombohemorragik sindrom inkişaf edir. Bəzən salamat qalıb, doğulanlar serebral ifliclə doğulurlar [36,37,38].

Dölün itirilməsi qadınların psixikasına çox pis təsir edir. Belə depressiv vəziyyətdən çıxmağa qadına həm ailəsi, həm də, həkimlər kömək etməlidirlər. Bütün səbəblər aydınlaşdırılmalı və müəyyən profilaktik tədbirlərdən sonra qadın yenidən hamiləliyə hazırlanmalıdır [39].

ƏDƏBİYYAT

1. Кулаков В.И. Развитие перинатального акушерства (проблемы и решения) / Материалы IV Российского форума «Мать и дитя», М.: МИК, 2002, с.6-8.

2. Курцер М.А. Перинатальная смертность и пути её снижения: Автореф. дисс... док. мед. Наук. М., 2001

3. Рымашевский Н.В., Волков А.Е., Михельсон А.Ф., Бычкова Н.Е. Резервы по снижению перинатальнойсмертности / Материалы IV Российского форума «Мать и дитя». М.: МИК, 2002, с.94-96.

4. Рымашевский Р.В. и др. К вопросу о прогнозировании антенатальной гибели плода / Актуальные вопр. акушерства и гинекологии: сб. науч. материалов. М., 2002, Т.1, №1, с.80-81

5. Тянтерева, С.Г. Морфологическое строение венозного протока у плодов и новорожденных, погибших в разные сроки беременности / Актуальные вопросы клинической и экспериментальной медицины. Материалы научно-практической конференции молодых

ученых. СПб, 2002, с.196.

6. Салов И.А. Неразвивающаяся беременность (патогенез, клиника, диагностика и лечение):Автореф. дис. ... докт. мед. наук. Саратов, 1998, 21с.

7. ACOG Committee Opinion No. 543. Timing of umbilical cord clamping after birth // Obstet Gynecol., 2012, v.120(6), p.1522-1526.

8. Philips A.G.When should we clamp the umbilical cord?//Neoreviews, 2004,v.5,p.142-54

9. Болотских В. М.. Преждевременное излитие околоплодных вод при доношенной беременности: прогнозирование, патогенез, тактика ведения беременности и родов: Автореф. дис. ... докт. мед. Наук. СПб, 2013, 32с.

10. Бондаренко К.В. Программированные роды- резерв снижения материнской и перинатальнойзаболеваемостиисмертности: Автореф. дисс... канд. мед. наук. М., 2007, 23 с.

11. Володин Н.Н., Чернышов В.Н., Дегтярев Д.Н. Неонатология. М.: Академия, 2005, с.143

12. Гениевская М.Г., Макацария А.Д. Антитела к фосфолипидам и невынашивание // Вестн. Росс, ассоц. акушеров-гиенкологов, 2000, №1, с.44-49.

13. Neilson JP, Hickey M, Vazquez J. Medical treatment for early fetal death (less than 24 weeks) / Cochrane Database Syst Rev., 2006, №3

14. Noronha L.D., Kasting G., Martins V.D. et al. Intrauterineandperinatal mortality: comparative analysisof3904 necropsies // J. Pediatr., 2000, v.76, № 3, p.213-221.

15. Серова О.Ф.,Милованов А.П. Основные патоморфологические причины неразвивающейся беременности и обоснование прегравидарной терапии женщин // Акуш. и гин., 2001, №3, с.19-23.

16. Тянтерева С.Г. Морфологическое строение венозного протока у плодов и новорожденных, погибших в разные сроки беременности / Актуальные вопросы клинической и экспериментальной медицины. Матер. Науч.-практ конф. молодых ученых. СПб., 2002, с.196.

17. Тянтерева С.Г. Морфометрический анализ венозного протока / Математика. Компьютер. Образование: Материалы IX Международной конференции. Дубна, 2002, с.193.

18. Салов И.А. Неразвивающаяся беременность (патогенез, клиника, диагностика и лечение): Автореф. Дис. ... докт. мед. наук. Саратов, 1998, 20с.

19. Серов В.Н. Плацентарная недостаточность // Трудный пациент, 2005, Т. 3, № 2, с.18-19.

20. Сидельникова В.М. Привычная потеря беременности. М., 2005.

21. Охотникова И.М, Агейкин В.А., Лозовская Л.С. Значение внутриутробной вирусной инфекции в органной патологии детей грудного возраста // Мед. научный и учебно-методич. журнал., 2001, №8, с.81-87.

22. Радзинский В.Е., Смалько П.Я. Биохимия плацентарной недостаточности. М: Изд-во РУДН, 2001, 273 с.

23. Aladangady N., McHugh S., Aitchison T.C. et al Infants' blood volume in a controlled trial of placental transfusion at preterm delivery // Pediatrics, 2006, v.117, p.93-99.

24. Al Riyami N., Al-Ruheili I., Al-Shezaw F., Al-Khabori M. Extreme preterm premature rupture of membranes: risk factors and feto maternal outcomes // Oman Med J., 2013, v.28(2), p.108-111.

25. Савельева Г.М., Кулаков В.И. Современные подходы к диагностике, профилактике и лечению гестоза // Российский вестник акушера-гинеколога, 2001, №3(5), с.66-72.

26. Хахва Н.Т. Прогнозирование возникновения гестоза и задержки развития плода в ранние сроки беременности: Автореф. дисс. … кан. мед. наук. М., 2002, с.86

27. Сидорова И.С., Макаров И.О., Воеводин С.М. Диагностика и лечение внутриутробной инфекции в различные периоды беременности // Акуш. и гинекол, 2004, №2, с.40-45.

28. Гениевская М.Г., Макацария А.Д. Антитела к фосфолипидам и невынашивание // Вестн. Росс, ассоц. акушеров-гиенкологов, 2000, №1, с.44-49.

29. Тянтерева С.Г. Морфологическое строение венозного протока у плодов и новорожденных, погибших в разные сроки беременности /Актуал. Вопр. клинической и экспериментальной медицины. Матер. научно-практ. Конф. молодых ученых. СПб., 2002, с.196.

30. Фролова О.Г., Николаева Е.Н., Мурзабекова Г.С. Факторы риска перинатальной патологии. Перинатальная охрана плода. Алма-Ата, 1989, с.19-22.

31. Юлиш Е.И., Волосовец А.П. Врожденные и приобретенные TORCH-инфекции у детей. Донецк: Регина, 2005, 216с

32. Levine E.M., Ghai V., Barton J.J., Strom C.M. Mode of delivery andrisk of respiratory diseases

in newborns // ObstetGynecol., 2001, v.97, p.439-442
33. Neilson J.P., Hickey M., Vazquez J. Medical treatment for early fetal death (less than 24 weeks) // Cochrane Database Syst Rev., 2006, v.3
34. Tyson J.E., Parikh N.A., Langer J. et al National Institute of Child Health and Human Development Neonatal Research Network. Intensive care for extreme prematurity—moving beyond gestational age // N Engl J Med., 2008, v.358(16), p.1672-1681.
35. Perriera L, Reeves MF. Ultrasound criteria for diagnosis of early pregnancy failure and ectopic pregnancy // Semin Reprod Med., 2008, v.26(5), p.373-382.
36. Сидорова И.С. Физиология и патология родовой деятельности. М.:МЕДпресс, 2000, 320с.
37. Chen B.A., Creinin M.D. Medical management of early pregnancy failure: efficacy // Semin Reprod Med., 2008, v.26(5), p.411-422
38. Chittacharoen A., Herabutya Y., Punyavachira P.A. randomized trial of oral and vaginal misoprostol to manage delivery in cases of fetal death // Obstet Gynecol., 2003, v.101, p.70-73.
39. WHO. Recommendations for the Prevention of Postpartum Haemorrhage. WHO: Geneva, 2006.

Резюме

Про внутриутробной смерти плода.

Г.Б. Мирзаева, Э.М. Алиева, З.Ш. Тахмазоглы

В данной статье проанализировано литературные данные про внутриутробной смерти плода, причины смерти относяшийся к матери и плода.

Summary

Fetal mortality

G.B. Mirzayeva, E.M. Aliyeva, Z.S. Tehmezoglu

In this article bibliography on fetal mortality and the causes for fetal mortality stemming from mothers and fetus is analyzed.

Daxil olub: 10.11.2014

FUNKSIONAL MÜAYINƏ METODLARININ NƏTICƏLƏRINƏ ƏSASƏN ADENOTOMIYANIN NƏTICƏLƏRININ TƏHLILI

M.D.Quliyev

Ə.Əliyev ad. Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Bakı

Açar sözlər: adenoidit, adenotomiya, ön aktiv rinomanometriya, timpanometriya, audiometriya
Ключевые слова: аденоидит, передняя-активная риноманоиетрия, тимпанометрия
Keywords: adenoids, front-active Rhinomanometry, tympanometry

Adenoid burun-udlaq tavanı ilə udlağın arxa divarının birləşdiyi yerdən önə, burun çəpərinə doğru piramid şəklində bir qabarıqlıq əmələ gətirən və Waldeyer [1] limfaepitelial həlqəsinə daxil olan III badamcıqdır [2].

Uşaq yaşlarında udlaq limfoepitelial həlqəsinin badamcıqları arasında ən çox pataloji proseslərə mərzu qalanı udlaq badamcığıdır, B.S.Psaxis [3].

Xroniki adenoidit çox vaxt burun-udlaq badamcığının müxtəlif dərəcəli hipertrofiyası ilə yanaşı gedir. Xroniki adenoiditdə tənəffüs zamanı rezistentliyin çoxalması, yəni, burnun sağ və sol yarısı tərəfindən ümumilikdə hava axının sürətinin xeyli dərəcədə azalması xarakter haldır [4].

Xroniki adenoidit və adenoid hipertrofiyası zamanı nazal keçiriciliyin pozulma dərəcəsinin obyektiv qiymətləndirilməsi üçün ön aktiv rinomanometriya ən effektiv müayinə üsulu sayılır. Bu müayinədə burunla nəfəs alarkən burunda hava axının sürəti və rezistentliyi kimi parametrlər tədqiq edilir. Bu parametrlər burun boşluğunun hər yarısı üçün ayrıca ölçüləri, həm də yekun göstəriciləri təyin edir [5].

Adenoid hipertrofiyasına meyillilik yaradan amil kimi uşaq infeksion xəstəlikləri, uşağın hipotrofiya və ya hipertrofiyası, hipovitaminoz,

mənfi məişət və sosial şəraiti və s. göstərmək olar [5].

Həmçinin, kəskin respirator xəstəliklər, eləcə badamcıqlar və ağız boşluğunun latent infeksiyaları, udlaq badamcığının hipertrofiyasına şərait yaradır. Udlaq badamcığının limfadenoid toxumasının hipertrofiyasının səbəbləri uşağın konstitusiyası, allergizasiyası, burun boşluğu və burun-udlağın selikli qişası tərəfindən iltihabi reaksiya yaradan və udlaq badamcığının hipertrofiyasının inkişafına təkan verən, tez-tez təkrarlanan infeksion xəstəliklər ilə də əlaqədardır [5,6].

Burunla nəfəs almanın daimi və ya periodik (yalnız yuxu zamanı) çətinləşməsi, burundan ifrazatın gəlməsinə, baş ağrısı, bir və ya hər iki qulaqda eşitmənin periodik və ya daimi pozulması kimi şikayətlər uşaqda adenoid hipertrofiyası olması ehtimalına kifayət qədər əsas verir. Valideynlər çox vaxt uşağın burnundan selikli və ya selikli-irinli ifrazatın gəlməsi, fısıltı, yuxu zamanı xorultu, ağzıaçıq yatma, iştahın azalması, tez yorulma və zəiflik, gecə qorxusu ilə müşaiyət olunan narahat yuxu, burunda danışma, subfebrilitet, baş ağrısı, eşitmənin azalması kimi şikayətlərlə müraciət edirlər [6].

Udlaq badamcığının patoloji vəziyyətinin diaqnostikası məqsədilə burun boşluğu və burun-udlağın endoskopik müayinəsi tövsiyə edilir, çünki arxa rinoskopiya həmişə informativ olmur [5,7].

Adenoid vegetasiyalarının hipertrofiyasını immun sistemin orqanlarından birinin yuxarı tənəffüs yollarının patoloji mikroflorası hesabına formalaşan fizioloji müdafiə reaksiyası kimi qiymətləndirmək olar.

Xroniki adenoidit burun-udlaq badamcığının toxumasında immunodefisit fonunda uzunmüddətli iltihabi prosesin olması və kliniki olaraq simptomatikanın polimorfizmi ilə xarakterizə edilir. Xroniki adenoiditin diaqnostikası çətinliklər törətmir, lakin endoskopiya texnikasının istifadəsi dəqiq diaqnozun qoyulması imkanlarını xeyli genişləndirir.

Göründüyü kimi adenotomiyadan əvvəl və sonra tətbiq edilən funksional müayinə metodları alınan nəticələrin effektliliyini müqayisə etməyə imkan verir.

Yuxarıdakıları nəzərə alaraq biz adenoidektomiyadan sonra funksional müayinə metodu olan ön aktiv rinomanometriya vasitəsilə alınan göstəriciləri təhlil etməyi qarşımıza **məqsəd** qoyduq.

Tədqiqatın material və metodları. Kliniki təhlilin əsasını 2007-2013-cü illər ərzində akad. M.Mirqasımov adına RKX-nın LOR şöbəsində və Baku City Hospitalda udlaq badamcığının II-III dərəcəli hipertrofiyası olan 309 xəstənin cərrahi müalicəsinin yaxın və uzaq nəticələrinin müşahidəsi təşkil etmişdir. Xəstələrin yaşa və cinsə görə bölünməsi cədvəl 1-də göstərildiyi kimi aparılmışdır.

Cədvəl 1

Xəstələrin cinsə və yaşa görə bölünməsi

Yaş qrupları	Cins	Əsas qrup, n=211		Nəzarət qrupu, n=98		Cəmi, n=309	
		müt.	%	müt.	%	müt.	%
1-5 yaş	oğlan	48	22,7	21	21,4	69	22,3
	qız	38	18,0	19	19,4	57	18,4
6-8 yaş	oğlan	34	16,1	16	16,3	50	16,2
	qız	36	17,1	16	16,3	52	16,8
9-14 yaş	oğlan	32	15,2	15	15,3	47	15,2
	qız	23	10,9	11	11,2	34	11,0
Cəmi	oğlan	114	54,03	52	53,1	166	53,7
	qız	97	45,97	46	46,9	143	46,3

Cədvəldən göründüyü kimi, 166 (53,7%) oğlan və 143 (46,3%) qız tədqiqata cəlb olunmuşdur. 1-5 yaş qrupunda 126 (40,8%), 6-8 yaş qrupunda 102 (33,0%), 9-14 yaş qrupunda 81 (26,2%) xəstə müşahidə edilmişdir. 6-14 yaşda xəstələrin birgə sayının (183 – 59,2%) çox olması bu yaşda olan uşaqların daha çox müxtəlif uşaq kollektivlərinə getməsi, həmçinin, kəskin virus infeksiyası epizodlarının rastgəlmə tezliyinin bu yaşda olan uşaqlarda yüksək olması ilə əlaqədardır.

Plana uyğun olaraq, bütün xəstələrdə remissiya dövründə adenotomiya cərrahi əməliyyatı icra edilmişdir. Əsas qrupa aid edilən 211 nəfərdən ibarət xəstələrdə adenoidektomiya əməliyyatı ağız boşluğundan 70°-li endoskopun nəzarəti ilə, ümumi anesteziya altında aparılmışdır. Bu xəstələr 2 qrupa bölünmüşdür: "A" qrupu –

Bekman adenotomu ilə əməliyyat aparılan 118 (41,7%) xəstə, "B" qrupu – Bahadır (Türkiyə) firması tərəfindən hazırlanmış şəxsi konstruksiyalı adenotomla əməliyyat aparılan 93 (58,3%) xəstə. Nəzarət qrupuna aid edilən 98 xəstədə isə Bekman adenotomunun köməyi ilə yerli anesteziya altında, klassik "kor-koranə" adenotomiya icra olunmuşdur. Cərrahi əməliyyatlar LOR şöbəsinin stasionar şəraitində, uşaq otorinolarinqologiyası sahəsində 10 ildən çox təcrübəsi olan cərrahlar tərəfindən icra edilmişdir.

Xəstələrin cinsə və yaşa görə paylanmasında klinik qruplar arasında fərq olmamışdır.

Ön aktiv rinomanometriyanın (ÖARM) nəticələrinə görə də müalicənin nəticəsinin qiymətləndirilməsi aparılmışdır. 5 yaşa qədər xəstələr müayinəyə cəlb olunmamışdır. Digər tərəfdən, əməliyyatdan əvvəl adenoid vegetasiyalarının III dərəcəli hipertrofiyası nəticəsində burunla nəfəs almanın kəskin çətinləşməsi səbəbindən, həmin dövrdə ÖARM-ın dürüst nəticələrini əldə etmək mümkün olmamışdır. Proqram təminatı yalnız xəstənin burunla nəfəs almasının mümkünlüyü zamanı burun müqavimətini ölçmək imkan verir. ÖARM icrası zamanı III dərəcəli adenoid vegetasiyalı xəstə ağır burun tutulmasına görə ağızla nəfəs almağa məcbur olduqda, nəticələr qeyri-dürüst hesab olunur. Bunu nəzərə alaraq, burunla nəfəs almanın ümumi həcm axını (ÜHA) və ümumi müqaviməti (ÜM) yalnız əməliyyatdan sonraki uzaq dövrdə – burunla nəfəs alma mümkün olduqda tədqiq edilmişdir.

Tədqiqatın nəticələri və onların müzakirəsi. Endoskopik müayinənin nəticələrinə görə, burun-udlağın vizual nəzarətlə narkoz altında aparılmış əməliyyatın effektivliyi, klassik "kor-koranə" əməliyyatın nəticələrinə nisbətən daha yüksək olmuşdur (P<0,01). Yaş qruplarına görə bu fərq uşağın böyüməsi ilə bir az azalır, lakin bütün yaş dövrlərində fərq statistik dürüst olaraq qalır. Əsas qrupda Bekman adenotomu ilə və xüsusi konstruksiyalı alətlə əməliyyat olunmuş xəstələrin endoskopik müayinəsinin nəticələrinin təhlili göstərir ki, əyilmiş dəstəyi olan adenotomun istifadəsi əməliyyatın nəticələrini əhəmiyyətli dərəcədə yaxşılaşdırmağa imkan verir (P<0,05).

Damarbüzücülərin istifadəsindən sonra ümumi həcm axını (ÜHA) əsas və nəzarət qruplarının bütün yaş yarımqruplarında, xəstələrin yaşına müvafiq proqressiv yüksələrək, əhəmiyyətli dərəcədə artmışdır. Əsas qrupda ÜHA-nın orta göstəricisi 332,8±11,6, nəzarət qrupunda 277,6±8,4 (P<0,01) təşkil etmişdir ki, bu da vizual nəzarətlə aparılan cərrahi əməliyyatın daha yüksək effektivliyini nümayiş etdirir. Damarbüzücü preparatların yeridilməsi nəticəsində bütün yaş qruplarında ÜHA əhəmiyyətli dərəcədə artmışdır.

Damarbüzücülərin fonunda hər iki kliniki qrupun xəstələrində ümumi müqavimət (ÜM) əhəmiyyətli dərəcədə azalmışdır (p<0,01). Əsas qrupda ÜM-in orta göstəricisi (0,48±0,01) nəzarət qrupunun nəticələri ilə (0,72±0,01) müqayisədə narkoz altında əməliyyatların üstünlüyünü göstərir (p<0,001).

Burun klapanı sahəsində əhəmiyyətli dəyişikliklər qeyd edilməmişdir. Cərrahi əməliyyat hər iki kliniki qrupda ümumi həcm axınının göstəricisini yüksəltməyə və burun rezistentliyini azaltmağa imkan yaratmışdır. Bununla belə, ümumi anesteziya və vizual nəzarət ilə adenotomiya metodikası əsas qrupun bütün yarımqruplarında ÖARM nəticələri üzrə statistik cəhətdən dürüst üstünlüklər əldə etməyə imkan verir.

Aparılan müayinələrin nəticələrinin təhlili endoskopik adenoidektomiyanın, adenoidlərin standart metodika ilə əməliyyatına nisbətən üstünlüyünü göstərmişdir.

Ümumi həcm axını (ÜHA) əsas və nəzarət qrupunun bütün yaş qruplarında damarbüzücülərin istifadəsindən sonra dürüst yüksəlmişdir. Əsas qrupda ÜHA-nın orta göstəricisi 332,8±11,6 təşkil etmişdir ki,. bu da nəzarət qrupunun orta göstəricisi (277,6±8,4) ilə müqayisədə (p<0,01), vizual nəzarətlə aparılan əməliyyatın daha yüksək səmərəliliyini göstərir.

Hər iki kliniki qrupun xəstələrində ümumi müqavimət (ÜM) damarbüzücülərin fonunda əhəmiyyətli dərəcədə azalmışdır. Əsas qrupda ÜM orta göstəricisi 0,48±0,01 təşkil etmişdir ki, bu da nəzarət qrupunun orta göstəricisi ilə (0,72±0,02) müqayisədə (p<0,001), ümumi narkoz altında əməliyyat olunan xəstələrin nəticələrinin dürüst üstünlüyünü göstərirdi.

Aparılan müayinələr adenotomiya əməliyyatının burun boşluğunun həcminin dinamikasına müsbət təsirini təsdiq edir.

Cərrahi müdaxilə nəticəsində hər iki kliniki qrupun xəstələrində ümumi həcm axını çoxalmış və burun rezistentliyi azalmışdır. Eyni zamanda, ümumi anesteziya və vizual nəzarət altında aparılan adenoidektomiya üsulu, əsas qrupun bütün yaş qruplarında, ÖARM göstəricilərinə əsasən statistik cəhətdən əhəmiyyətli dərəcədə yüksək nəticələr əldə edildiyini göstərmişdir.

ƏDƏBIYYAT

1. Kizarlı T. Waldayer linfatik halkası. İstanbul, 2006
2. Kaya S. Tisil. Ankara: Bilimse tıp yayınevi, 2005
3. Гаршина Е.В., Мельников М.Н. Сравнительные результаты оценки эффективности эндоскопической аденоидэктомии по сравнению со стандартной аденотомией. // Рос.ринол., 2003, №2, с.66.
4. Гаджимирзаев Г.А. О показаниях к аденотомии у детей. // Российская ринология, 2005, №2,с. 177.
5. Борзов Е.В. Оперативное лечение аденоидов с использованием эндоскопических технологий. //Росс, ринол., 2002, №2, с. 189-190.
6. Кочетков П.А., Дергачев В.С., Штыренко И.В., Львов А.А. Консервативное лечение хронического аденоидита препаратами растительного происхождения // Матер. XYI съезда оториноларингологов РФ, СПб., 2001, с. 383-388.
7. Богомильский М.Р., Чистякова В.Р. Детская оториноларингология. М.: ГЭОТАР-МЕД, 2001, 432 с.

Резюме

Анализ резельтатов аденотомии по показателям функционалтных методов исследования

М.Д.Гулиев

Целью исследваония явилось изучение результатов аденотомии по показателям функциональных методов исследования. больным ыбли проведены переднее активная ринометрия и эндоскопия. Проведенные исследования подтверждает эффективности проеденных аденотомии и эти методы исследоания более информативны для выяления результатов после операций по поводу аденоидита.

Summary

Analysis of the results in terms of functional adenotomy research methods

M.D.Guliyev

The aim was to study issledvaoniya Results adenotomy funktsional in terms of research methods. patients ybli carried forward active rhinometry and endoscopy. Studies have confirmed the effectiveness of adenotomy and these methods are more informative for rüsaerch results after surgery for adenoiditis.

Daxil olub: 08.10.2014

ТЕЧЕНИЕ БЕРЕМЕННОСТИ И СТРУКТУРА АКУШЕРСКИХ ПАТОЛОГИЙ У БЕРЕМЕННЫХ ЖЕНЩИН С ПОЛИКИСТОЗОМ ЯИЧНИКОВ

Н.М. Сулейманова, И.А.Шамхалова

АГИУВ им. А.Алиева, кафедра акушерства и гинекологии.

Açar sözlər: hamiləlik, mamalıq partologiyaları, polikistoz yumrtalıq
Ключевые слова: беременность, акушесркие патологии, поликистозные яичники
Keywords: pregnancy, obstetric pathology, polycystic ovaries

До настоящего времени не завершен поиск единого механизма, позволяющего объяснить истинную природу развития и течения поликистоза яичников. Несмотря на значительное количество теорий развития синдрома поликистозных яичников (СПКЯ), причины и детали механизмов его возникновения до конца не раскрыты [1,2,3].

Определяется различная степень влияния на формирования СПКЯ надпочечников, жировой ткани метаболических нарушение [4]. Преспективным направлением являются исследования в области гинекологии и молекулярной биологии:семейная наследственность, агрессия заболевания и достижения молекулярной биологии сталиосновами для поиска генов кандидатов СПКЯ. В последние

годы СПКЯ благодаря научным разработкам стали рассматривать не только, и не столько как чисто гинекологическую проблему, но и как состояние, сопровождающееся эндокринно-метаболические нарушения: гиперинсулинемия, инсулинорезистентность, дислипидемия. Эти нарушения могут явиться основой для развития таких серьезных осложнений, как сахарный диабет 2-го типа, артериальная гипертензия и ишемическая болезнь сердца [6,7,8].

При наступлении беременности у пациенток с СПКЯ формирование и развитие эмбриона в 1-ом триместре беременности происходит в «сложных» условиях – гиперстимуляции яичников, гормональной поддержки стимулированного цикла, что изменяет гормональный баланс беременности, микроциркуляцию, маточно-плацентарный кровоток, предрасполагая к возможному развитию осложнений [3]. При проведения анализа течения беременности по триместрам у пациенток с СПКЯ во время беременности выявились ряд особенностей.

Целью исследования явилось изучение течения беременности и структура акушерских патологий у беременных женщин с поликистозом яичников.

Материалы и методы исследования. С целью проведения исследования обследованные женщины с СПКЯ нами были разделены на следующие группы: 69 женщин-группа сравнения, 70 женщин – основная группа, разница которых составила в стимуляции беременности. Группу контроля составили 50 практически здоровых женщин.

Одним из наиболее серьезных осложнений 1-го триместра являетя синдром гиперстимуляции яичников. Достоверно чаще этот синдром имеет место у пациенток, у которых проводилась индукция беременности, реже в группе контроля, индукция беременности которым не проводилась. Развитие синдрома гиперстимулции яичников приводит к изменению нормального созревания фолликул, в крови резко повышается концентрация эстрадиола, что создает неблагоприятные условия для процессов имплантации и развития эмбриона. Этот процесс характеризуется резким увеличением объема яичников, повышение сосудистой проницаемости, гиперволемией, высоким риском развития тромбэмболических осложнений.

Степень тяжести развития синдрома гиперстимулции яичников зависит не только от схем индукции, но и от наличия у пациенток факторов риска [2,8].

Нами при проведении обследовании были подтверждены данные ряда исследований, при которых в популяционном анализе потери беременности на ранних сроках при синдроме гиперстимуляции яичников наблюдается у 25% от всех беременностей.

Развитие синдрома гиперстимуляции яичников различной степени тяжести в нашем исследовании было характерно и для беременных как группы сравнения 2 (2,9%), так и беременных основной группы, что составило 12 (17,1%). У беременных группы сравнения синдром гиперстимуляции яичников был зарегистрирован только легкой степени, а в основной группе встречался во всех степенях тяжести.

При оценке гестационных осложнений 1-го триместра лидирующию позицию в обеих группах занимал угрожающий выкидыш и диагностировался он почти одинаково часто 63,4% против 71, 4% беременных ($p>0,05$), превышая показатель группы контроля 7 (14%). Диагноз угрожающего выкидыша подтверждался субективными признаками, клинической картиной – болевой синдром, наличие кровянистых выделений из половых путей; данными наружного и внутреннего акушерского исследования, результаты инструментальных и лабораторных показателей. Высокий уровень развитие угрозы прерывания при всех видах индуцированной беременности может быть обусловлено нарушением секреторной трансформации эндометрия на фоне гиперсекреции или гипосекреции половых гормонов [4,5,8].

Настоящая беременность у обследованных женщин осложнялась токсикозом различной степени тяжести у 28% беременных группы сравнения; у 35% беременных основной группы и 16% в группе контроля. Это состояние в большинстве случаев ассоциировалось с развитием синдрома гиперстимуляции яичников разной степени тяжести.

По данным исследования ИФА носительство хронической вирусной и бактериальной инфекции в 1-ом триместре беременности имело место практически у вех женщин. При этом наиболее часто встречались вирус цитомегаловируса – 55,1% и 42,9% соответственно в группе сравнения и основной группе; в контроле данный показатель составил 20,0% случаев

Определение вируса простого герпеса данные показатели выявились следующим образом: 29,0% и 31,4% (в группе сравнения и основной группе), в группе контроля данный результат определился как 12, 0% случаев.

При вирусном инфицировании на клетках цитотрофобласта индуцируется экспрессия антигенов 1-ого класса главного комплекса гистосовместимости. Это приводит к активации цитотоксических Т-клеток, макрофагов и иммунокомпетентных клеток. Активация вирусно- бактериальной инфекции у беременных группы сравнения была выявлена в 4, 8% случаях, в основной группе достоверно чаще и составило 11,0% случаев, а в группе контроля 2,0%. Возможно это обусловлено тем, что массивная гормональная схема терапии при индуцировании беременности и проводимая терапия в первые недели гестации, является пусковым моментом активации аутоиммунных процессов, вирусно-бактериальной инфекции, тем самым создается «порочный круг» предпосылок для гибели и отторжения плодного яйца.

Исследования показали, что при физиологически протекающей беременности изменения в системе гемостаза идут пропорционально сроку гестации и являются физиологической адаптацией и имеют две основные функции – поддержание нормального фукционирования плацентарного комплекса и остановка кровотечения из плацентарной площадки. Стимуляция фолликулогенеза, гиперсекреция половых гормонов, провоцируют развитие аутоиммунных состояний и усугубляют тромбоэмболию. При оценке показателей системы гемостаза частота выявления приобретенных тромбофи лических состояний составила в группе сравнения 7 (10,1%) и 19 (27,1%) в основной группе, а в группе контроля только у 1(2,0%) ($p<0,001$). Полученные данные свидетельствуют о том, что в 1-ом триместре признаки гиперкоагуляции более выражены в основной группе, вследствие влияния на организм индукции гиперовуляции и возможность развития тромботических осложнений. Уже в 1-ом триместре особенности системы гемостаза могут обуславливать формирование первичной фетоплацентарной недостаточности.

Согласно результатам многочисленных исследований для беременных с СПКЯ характерны ранние репродуктивные потери, что подтверждается и данными обследований. Ранние репродуктивные потери в обеих группах преобладали неразвивающиеся беременности, что может быть обусловлено «маточным фактором», который представлен гипоплазией и «незрелостью» эндометрия, нарушением гемодинамики в сосудистом русле матки и гиперандрогенией. Структура репродуктивных потерь не имела статистических различий между группами и была следующей: прерывание по поводу неразвивающей, самопроизвольных выкидышей.

Исходя из вышеизложенного, высокий процент ранних акушер-ских осложнений в 1-ом триместре, позволяет отнести беременности у женщин с синдромом поликистоза яичников после стимуляции к группе высокого риска, так как раннее развитие беременности у пациенток происходит на более неблагоприятном фоне.

Таким образом, комплексное изучение проблемы течения беременности при СПКЯ и выявление факторов патологического течения или осложнения беременности позволило сделать выводы о необходимости дифференциального подхода к определению тактики ведения беременности.

ЛИТЕРАТУРА

1. Назаренко Т.А. Синдром поликистозных яичников: современные подходы к диагностике и лечения бесплодия. М.: Медпресс-информ, 2013, с.32-41

2. Артымук Н.В., Кондратьева Т.А. Принципы терапии пациенток с бесплодием и поликистозом яичников // Реф. Жур., 2012, Т 8- №4, с.31-35

3. Fanser B.C., Devroy P. Multiple birth resulting from ovarian stimulation for subfertility by treatment //Lancet, 201, v.362, p.1807-1816

4. Блинова И.В. Функциональное состояние эндометрия и особенности эндокринно-метаболического профиля у больных с различными типами синдрома поликистозных яичников // Акушерство и гинекология, 2013, №5, с. 14-18

5. Глухова М.В. Синдром поликистозных яичников; современные возможности терапии // Аспирантский Вестник Повол жья, 2013, №3-4, с.18-24

6. Андреева Е.Н. Хирургические методы лечения синдрома поликистозных яичников // Проблема репродукции, 2011, №4, с.22-27

7. Калинина Е.А. Особенности развития синдрома гиперстимуляции яичников у пациенток с синдромом поликистозных яичников // Акушерство и гинекология, 2012, №3, с.28-32

8. Azziz R., Carmina E., Dewailly et al. The Androgen Excess and PCOS Society Creteria for the Polycystic Ovary Syndrom: the Complete task force report // Fertil. Steril., 2010, v.91, p.456-462

Xülasə

Polikiztoz yumurtalıqlar olan hamilə qadınlarda hamiləliyin gedişatı və mamalıq strukturu

N.M.Süleymanova, İ.A.Şamxalova

Tədqiqatın məqsədi polikiztoz yumurtalıqlar olan hamilə qadınlarda hamiləliyin gedişatı və mamalıq strukturunun öyrənilməsindən ibarət olmuşdur. Tədqiqatların aparılması üçün müayinə və müalicəyə daxil olan xəstələr aşağıdakı qruplara ayrılmışlar: 69 qadın-müqayisə qrupu, 70 qadın-əsas qrup, 50 praktik sağlam qadın- nəzarət qrupu. Polikistoz yumurtalıqlar olan hamilə qadınların kompleks müayinəsindən məlum olmuşdur ki, onlarda vaxtında patoloji gedişat və ya ağırlaşmış hamiləlik gedişatı aşkar edildikdə hamiləliyin gedişatı taktikasnın təyin edilməsi üçün differensial yanaşma aparmaq lazımdır.

Summary

Pregnancy and obstetric pathology structure in pregnant women with polycystic ovaries

N.M. Suleymanova, I.A.Shamhalova

The aim of the study was to investigate the course of pregnancy and the structure of obstetric pathology in pregnant women with polycystic ovaries. In order to study examined women with PCOS us were divided into the following groups: 69 women with a comparison group, 70 women - the main group, the difference was that in the stimulation of pregnancy. The control group consisted of 50 healthy women. A comprehensive study of the problems of pregnancy in PCOS and identifying pathological course of pregnancy complications or allowed to draw conclusions about the necessity of a differential approach to the definition of tactics of pregnancy.

Daxil olub: 24.10.2014

AZƏRBAYCANDA TİBB ELMİNİN İNKİŞAF TARİXİ

AZƏRBAYCAN RESPUBLİKA DÖVLƏT ELMİ TİBB KİTABXANASI II DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ (1940-1945)

K.R.Eyvazova, Y.U.Pirəliyeva
Azərbaycan Respublika Dövlət Elmi Tibb Kitabxanası

Respublikada tibb elminin və səhiyyənin ilkin sənədlərlə və ikincili səviyyəli informasiya ilə təmin edilməsi məqsədilə bitkin bir sistem formalaşdırılmışdır. Bura ilk növbədə tibb kitabxanaları və elmi tibbi informasiya bölmələri aiddir. Həmin təşkilatlar içərisində aparıcı mövqe Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Dövlət Elmi Tibb Kitabxanasına məxsusdur.

Kitabxana səhiyyə müəssisələri sisteminə daxildir və Səhiyyə Nazirliyinin tabeliyindədir. Səhiyyə orqanlarının, elmi-tədqiqat və müalicə-profilaktika müəssisələrini xalqın sağlamlığı problemlərini, sosial-gigiyena və səhiyyənin təşkili, klinik və profilaktik təbabət, sanitar-epidemioloji və səhiyyənin, tibb elminin digər problemləri ilə məşğul olan alim və mütəxəssisləri kitabxana-biblioqrafiya, və informasiya ilə vaxtında təmin edir. Azərbaycan Respublikasında tibb kitabxanaları şəbəkələrinə təşkilatı-metodik rəhbərliyi və onların əlaqəli fəaliyyətini həyata keçirmək, elmi-təqiqat institutlarının, ali və orta tibb təhsil müəssisələrinin elmi tibbi informasiya şöbələrinin fəaliyyətinə metodiki və koordinasiyası üzrə rəhbərliyi həyata keçirir. Sahəvi depozitar kitabxana və tibb elminin aktual problemləri üzrə vahid sorğu-məlumat fondlarını təşkil edir.

Bu kitabxana Azərbaycan SSR Xalq Komissarları Soveti tərəfindən 29 yanvar 1939-cu ildə tarixində qəbul etdiyi 5/386 saylı əmri əsasında yaradılmışdır. 9 mart 1940-cı ildə Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığının 156 saylı əmri ilə fəaliyyətə başlamışdır.

Kitabxananın ilk fondu dövrün görkəmli həkim- alimlərinin hədiyyə verdikləri mənbələr əsasında formalaşmışdır. Kitabxana təşkil edilərkən üç otaqda yerləşdirilir. Kitabxananın 4 şöbəsi: abonement, komplektləşdirmə, biblioqrafiya, xarici ölkələrin tibb ədəbiyyatı şöbəsi vardır. Kitabxanada 5 ali təhsilli işçi fəaliyyət göstərirdi.

1941- ci il iyun ayında Xalq Maarif Nazirliyi müharibə dövründə kitabxanaların, qiraət-xanaların, klubların və muzeylərin qorunub saxlanması, onların işinin yaxşılaşdırılması haqqında bir sıra göstərişlər vermişdir. Bu göstərişlər Azərbaycan Dövlət Respublika Elmi Tibb Kitabxanasına da şamil edilmişdir. Bu dövrlərdə kitabxana alimlərin müharibə haqqında fikiləri, müharibənin xarakteri, sovet xalqının bu müharibədə qarşısına qoyduğu vəzifələr və s. məsələlərdən bəhs edən ədəbiyyatla komplektləşdirərək əhali arasında geniş təbliğat işi aparırdı.

Kitabxana müharibə illərində öz fəaliyyətini hərbi xəstəxanalarda tibb işçilərinə, döyüşçülərin yaralarının sağaldılması işində onlara kömək edən ədəbiyyatla hər tərəfli xidmət etmişdi. Kitabxana kitab fondunun komplektləşdirməklə bərabər, hər il müntəzəm olaraq fond yoxlanılırdı.

1940-1945-ci illərdə kitabxananın komplektləşdirilməsi aşağıdakı cədvəl 1-dən gödtərilmişdir.

Cədvəl 1

1941-1945-ci illərdə kitabxananın komplekləşdirilməsinin kəmiyyıt göstəricilrəri

İllər	1940	1941	1942	1943	1944	1945
Yeni qəbul edilmiş kitabların sayı	6000	3341	4050	1295	1920	2312
Kitab fondunun artımı	165552	20453	24560	28665	30516	32427

Azərbaycan Dövlət Elmi Tibb kitabxanasının xarici ölkələrin tibb elminə dair ədəbiyyat şöbəsinin də bu illərdə böyük fəaliyyəti olmuşdur. Tibb elminə dair xarici ölkələr ədəbiyyatı şöbəsinin əsas vəzifəsi tibb elmi sahəsində çıxan xarici ədəbiyyatı və xarici nailiyyətləri oxuculara çatdırmaqdan ibarət olmuşdur. Kitabxana işinin müvəffəqiyyətli təşkilində kitabxana kataloqlarının çox böyük əhəmiyyəti vardır. Kitabxana aşağıdakı kataloqları təşkil etmişdir:

1. Sistemli kataloq

2. Əlifba kataloqu
3. Məlumat kataloqu

Kitabxananın olan kataloqları Azərbaycan, rus və xarici dillərdə tərtib edilmişdir 1940-1945-ci illərdə kitabxanada sistematik kataloq üçün 93178, əlifba kataloqu üçün 6185 kartoçka təsvir edilib düzülmüşdür. Sistematik kataloq oxuculara praktiki, elmi və nəzəri işdə köməklik göstərərək, tibb elminin bütün sahələri üzrə olan bütün materiallarla onları tanış edirdi.

1940-cı ildə kitabxanaya 257 oxucu yazılmışdır ki, bunlardan da 206 həkim idi. Bu ildə kitabxanaya gələnlərin sayı 1213 olmuşdu. Bu oxuculara 3374 nüsxə ədəbiyyat verilmişdir. 1941-ci ildə isə kitabxanaya yazılan oxucuların sayı artaraq 352 nəfərə çatır.

